AMEA akad.
Z.Bünyadov adına
Şərqşünaslıq İnstitutu

**Baş redaktor:**
Gövhər Baxşəliyeva

**Məsul katib:**
Vüqar Məmmədov

**Dizayner:**
Rəvanə İlmanqızı

**Ünvan:**
H.Cavid 115,
7-ci mərtəbə.
**Telefon:** (012) 538-87-55
**Faks:** (012) 510-97-21
**E-mail:**
azerb.sharq@gmail.com
www.orientalstudies.az

Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə uyğun gəlməyə bilər

**Sifariş:**
**Tiraj:**

# Azərbaycan şərqşünaslığı – №01 (23) 2023

## BU SAYIMIZDA

**Heydər Əliyev-100**
**Gövhər Baxşəliyeva.** Heydər Əliyev və İslam Əməkdaşlıq Təşkilatı ......................3
**Mutaz Muhyi Əbdülhəmid.** Heydər Əliyev: Azərbaycan Respublikasının ərəb və İslam dünyası ilə diplomatik münasibətləri ......................8
**Səməd Bayramzadə.** Heydər Əliyevin azərbaycançılıq ideyasında Cənubi Azərbaycan ......................12
**Elman Quliyev.** Heydər Əliyev və ədəbiyyat (Türk xalqları ədəbiyyatına dəyər kontekstində) ......................17
**Sübhan Talıblı.** Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycan Respublikasının xarici siyasətində Körfəz ölkələri (1993-2003-cü illər) ......................22
Şərqşünaslıq İnstitutunda "Heydər Əliyev və müasir Şərq" mövzusunda beynəlxalq elmi konfrans keçirilib ......................32
Şərqşünaslıq İnstitutunda "Heydər Əliyev və Azərbaycan gəncliyi" adlı tədbir keçirilib ......................34
Şərqşünaslıq İnstitutunda "Heydər Əliyev və Azərbaycan elmi" mövzusunda elmi seminar keçirilib ......................36

**Elm tarixi**
**Дуйсен Галымжан.** Мирза Мухаммед Али Казембек и Шокан Уалиханов: выдающиеся интеллектуалы тюркского мира ......................38

**Ədəbiyyat**
**Mahmizər Mehdibəyova.** "Molla Nəsrəddin" jurnalında "İbrahim bəyin səyahətnaməsi" ......................43
**Zəminə Zeynalova.** Hökumə Billurinin M.Şəhriyardan tərcümələri ......................46
**Elmira Bağırova.** Muradəli Qüreyşi Qaflantının yaradıcılığında vətənpərvərlik motivləri ......................50

**Din və ictimai fikir**
**Ceyhun Ağayev.** Şərq-Qərb münasibətləri prizmasından dinlərarası dialoq və Azərbaycan təcrübəsi ......................54

**Gündəm**
İranda türklərin ana dilində oxuyub-yazmalarına niyə imkan verilmir? ......................60
Açıq və gizli niyyətli İran ......................63
**Vidadi Mustafayev.** İranda Zəngəzur dəhlizinin qondarma təhdidləri ətrafında hay-küyün əsl mahiyyəti ......................65
İranın uğursuz diplomatik addımları regionda münasibətlərin gərginləşməsinə xidmət edir ......................79
Türklərin İranın ən qədim sakinləri olduğunu toponimlər də sübut edir ......................87

**Yubiley**
Laura Orucova – 80 ......................88
Nüşabə Əlizadə - 80 ......................89

**Hesabat**
**Vüqar Məmmədov.** Şərqşünaslıq İnstitutunda ən yeni tədqiqatlar ......................92
**Vüqar Məmmədov.** Azərbaycan həqiqətlərini dünyaya çatdıran şərqşünaslarımız ......................102
**Vüqar Məmmədov.** Şərqşünaslıq İnstitutunun əməkdaşları beynəlxalq elmi tədbirlərdə ......................108

**İtki**
Dünyamalı Əmir oğlu Vəliyev ......................114

**Yeni kitablar**

**Gövhər Baxşəliyeva.** "Nizami Gəncəvinin etnik mənsubiyyəti" (ingilis və fars dillərində) ........ 115
"Heydər Əliyev-100. Çinə səfərinin tarixi" ........ 115
"Azərbaycanın mədəniyyət paytaxtı Şuşa" ........ 115
**Solmaz Rüstəmova-Tohidi**. "Qarabağ-Zəngəzur. 1918-ci il. Azərbaycan qırğınları sənədlərdə" ........ 116
"Azərbaycan" qəzeti (Azərbaycan Demokratik Firqəsi Mərkəzi Komitəsinin orqanı). 1-ci hissə ........ 116
**Əmmar Abbasov.** "Erkən islam tarixi məsələləri (VI-VII əsrlər) azərbaycanlı tədqiqatçıların əsərlərində" ........ 117
«Yazılar» ........ 117
**Lalə Qasımlı.** "XX əsrin II yarısında Türkiyə hekayəçiliyində ənənə və novatorluq (Mustafa Kutlunun hekayələri əsasında)" ........ 118
Bakı quberniyası Şamaxı qəzasının müsəlman əhalisi (XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində) ........ 118
"Mirzə Kazımbəy-220" Beynəlxalq Elmi Konfrans. Tezislər ........ 119
Şərq araşdırmaları (elmi-nəzəri jurnal). 5-ci sayı ........ 119
Şərq araşdırmaları (elmi-nəzəri jurnal). 6-cı sayı ........ 120

**Konfranslar, görüşlər, tədbirlər**

Şərqşünaslıq İnstitutunda "Çoxəsrlik tariximizin şanlı Zəfər Günü" adlı elmi sessiya keçirilib ........ 121
Səudiyyə Ərəbistanının Beynəlxalq İran Araşdırmaları İnstitutunun direktoru Şərqşünaslıq İnstitutunda olub ........ 122
"Şuşa ilinin elan olunmasının bölgədə ictimai-siyasi sabitliyin təmin olunmasında əhəmiyyəti" mövzusunda elmi sessiya keçirilib ........ 123
"Hüseyn Cavid yaradıcılığı Azərbaycan-Türkiyə ədəbi-mədəni əlaqələri kontekstində" mövzusunda elmi sessiya ........ 125
"Müasir Azərbaycan dövlətinin banisi və qurucusu" mövzusunda elmi sessiya keçirilib ........ 126
Şərqşünaslıq İnstitutunun illik hesabat iclası ........ 128
"Qarabağda tolerantlıq və muktikulturalizm ənənələri" mövzusunda elmi konfrans keçirilib ........ 129
"Vasim Məmmədəliyev-80" mövzusunda elmi sessiya ........ 130
Şərqşünas alim Esmeralda Həsənovanın xatirəsi anıldı ........ 131
Şərqşünaslıq İnstitutunda 20 Yanvar faciəsinin ildönümü ilə bağlı tədbir keçirilib ........ 132
Xocalı faciəsinin qurbanları yad edilib ........ 133
"Şərq qadınına tarixilik və müasirlik prizmasından baxış" mövzusunda elmi sessiya ........ 134
"Elm millətin varlığının təminatçısıdır" mövzusunda elmi sessiya keçirilib ........ 136
31 mart Azərbaycanlıların Soyqırımı Gününə həsr edilmiş elmi sessiya ........ 137
"Orta əsr mənbələrində və müasir dövr tədqiqatlarında Qarabağ və Şuşa" mövzusunda elmi seminar ........ 138
Şərqşünaslıq İnstitutunda Müstəqillik Gününə həsr edilmiş elmi sessiya keçirilib ........ 139

# Heydər Əliyev və İslam Əməkdaşlıq Təşkilatı

**Gövhər Baxşəliyeva**
*AMEA-nın vitse-prezidenti v.i.e., Şərqşünaslıq İnstitutunun baş direktoru, akademik*



1993-cü ildə hakimiyyətə yenidən qayıtdığı ilk günlərdən Ümummilli Lider Heydər Əliyev Azərbaycanın xarici siyasətini yeniləşdirdi və ölkənin strateji maraqları əsasında yenidən qurdu. O, ilk növbədə sabiq hakimiyyətin xarici siyasət sahəsində buraxdığı kobud səhvləri və bunun nəticəsində Azərbaycan ətrafında formalaşmış çox gərgin beynəlxalq siyasi vəziyyəti aradan qaldırmaq istiqamətində iş aparmağa başladı, ölkənin strateji maraqlarını region dövlətlərinin və Qafqazda xüsusi təsiri olan ayrı-ayrı dövlətlərin maraqları ilə uzlaşdırmağa yönəlmiş siyasət yürütməyə başladı. Hələ Milli Məclisin sədri seçilərkən o, xarici siyasətin başlıca vəzifələrini və istiqamətlərini müəyyənləşdirdi: «Azərbaycanın müstəqilliyini təmin edən atributlardan biri xarici siyasətdir, Azərbaycanın sağlam xarici siyasəti olmalıdır, düşünülmüş xarici siyasəti olmalıdır, uzaqgörən xarici siyasəti olmalıdır, elə xarici siyasəti olmalıdır ki, Azərbaycanı dünya dövlətləri birliyinə bağlasın, Azərbaycanın bütün dövlətlərlə əlaqəsini, Azərbaycanın mənafeyini təmin etsin və Azərbaycanı de-fakto dünya miqyasında bir müstəqil dövlət kimi tanıtmağı təmin edə bilsin. Azərbaycanın indiyə qədər belə sağlam düşüncəli xarici siyasəti olmayıbdır». Sözünə davam edərərək, Heydər Əliyev bu sahədə buraxılan səhvlərə diqqəti yönəldir: «Azərbaycanın bütün dövlətlərlə gərək bərabər hüquqlu əlaqəsi olsun, Türkiyə ilə, İran ilə, qonşu Gürcüstan ilə, Rusiya ilə də, Amerika ilə də, Avropa dövlətləri ilə də, Ərəbistan dövlətləri ilə də, müsəlman dövlətləri ilə, türkdilli dövlətlərlə də, Orta Asiya dövlətləri ilə, Qazaxıstanla da bərabərhüquqlu əlaqələri olmalıdır». Heydər Əliyev son illərdə Azərbaycanın xarici siyasətində yer tutan özünütəcrid xəttinin tamamilə yolverilməz və milli maraqlara zidd olduğunu vurğulayır. O, özünütəcrid xəttinin acı nəticəsi kimi dünyanın Azərbaycanı tanımamasını, problemlərimizi bilməməsini, haqq səsimizi eşitməməsini göstərir və belə siyasəti "özümüzün özümüzə vurduğumuz zərbə" anlandırır. Ölkənin mənafelərini qorumaq istiqamətində hərtərəfli ölçülüb-biçilmiş addımların atılmasının gərəkliyini vurğulayan Heydər Əliyev Azərbaycanın dövlətçilik mənafelərini hər şeydən uca tutaraq müxtəlif dövlətlərin bütövlükdə Qafqaz və bilavasitə respublikamız üzərində qurulmuş iqtisadi maraq və nüfuz dairəsi uğrunda mübarizələrini nəzərə alaraq, çevik manevrlər və xüsusi taktiki gedişlər etdi. Beləliklə, xarici siyasət xəttində mövcud reallıqları nəzərə alan və ölkənin mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. İlk növbədə müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində yeri, Avropa ölkələri və ABŞ-la, yeni müstəqil dövlətlər və Rusiya ilə, türkdilli dövlətlər və Türkiyə, müsəlman dünyası və İranla, nüfuzlu beynəlxalq təşkilatlarla əlaqələrin yaxın dövr üçün prioritetləri müəyyənləşdirildi və tədricən həyata keçirilməyə başlandı.

Azərbaycan müstəqillik qazandıqdan sonra İslam Əməkdaşlıq Təşkilatına üzv oldu. Heydər Əliyev müsəlman ölkələri arasında əməkdaşlığı möhkəmlətməyi, sülh şəraitini təmin etməyi, mənəvi dəyərlərimizi, mədəniyyətimizi, ənənələrimizi qoruyub saxlamaq və inkişaf etdirməyi əldə rəhbər tutan bu beynəlxalq təşkilatla yaxından əməkdaşlıq etmək, onun vasitəsi ilə müsəlman dünyasının haqq işimizdə bizə dəstəyinə nail olmaq prinsiplərini xarici siyasətimizin vacib istiqaməti hesab edərək bu təşkilatın bütün imkanlarından səmərəli istifadə etmək zərurətini vurğulamışdı. 1993-cü ilin ikinci yarısından başlayaraq bu istiqamətdə görülən işlər sanki yenı nəfəs aldı, İƏT ilə ölkəmiz arasındakı əlaqə və təmaslar intensivləşməyə və fəallaşmağa başladı. 23 noyabr 1993-cü ildə İƏT-ə üzv ölkələrin xarici işlər nazirlərinin keçirilmiş koordinasiya toplantısı Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzü ilə bağlı regiondakı vəziyyəti müzakirə edərək özünün ölkəmizlə bağlı ilk sənədlərindən biri olan bəyanatı qəbul etdi. Toplantı iştirakçılarına Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin müraciəti təqdim edilmişdi. Müraciətdə Ermənistanın Azərbaycanın 20 faizdən çox ərazisinin işğalı nəticəsində ölkədə yaranmış vəziyyət, bir milyondan artıq qaçqın ordusunun olması öz əksini tapmışdı. Toplantı iştirakçıları Ermənistan-Azərbaycan münaqişəsinin genişlənməsi ilə bağlı dərin narahatlıq hisslərini ifadə etmiş və Ermənistanın təcavüzünün sülhə və əmin-amanlığa təhlükə yaratdığını qeyd etmişdilər. Toplantı iştirakçıları eyni zamanda Azərbaycan Prezidentinin Azərbaycan qaçqınlarına təcili humanitar yardım göstərilməsi barədəki müraciətini dəstəklədiklərini bildirmişlər. Bundan sonra ölkəmiz ilə İƏT arasında əlaqələr Prezident Heydər Əliyevin göstərişi ilə daha da intensivləşdi. Azərbaycan bu təşkılatın informasiya, maliyyə



və siyasi dəstək göstərmək imkanlarından tam gücü ilə istifadə etməyə başladı.

1994-cü ilin sentyabr ayında İƏT xarici işlər nazirlərinin Pakistan İslam Respublikasının İslamabad şəhərində keçirilmiş VII Konfransı Ermənistan-Azərbaycan münaqişəsi üzrə daha bir qətnamə qəbul etdi. Qətnamədə Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü və Azərbaycan Respublikası ərazilərinin 20 faizdən çoxunun işğalı qətiyyətlə pislənmiş, münaqişənin dövlətlərin ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə hörmət əsasında ədalətlə və sülh yolu ilə həllinə çağırış səsləndirilmişdir. Ulu Öndər Heydər Əliyevin İƏT Baş katibi, doktor Həmid əl-Qabidlə 1994-cü ilin noyabr ayında Bakıda keçirdiyi görüşlər və danışıqlar respublikamızla İƏT arasındakı əməkdaşlığı daha da fəallaşdırmaqla yanaşı, bir sıra müsəlman ölkələri ilə diplomatik münasibətlər yaratmaq nöqteyi-nəzərindən də çox mühüm əhəmiyyət kəsb etmişdir. Belə ki, İƏT Baş katibi səfərdən qayıtdıqdan sonra respublikamızın o vaxtadək diplomatik münasibətlər qurmadığı müsəlman ölkələrinin rəhbərlərinə məktubla müraciət edərək, onların diqqətini bu məsələyə cəlb etmişdir. 1994-cü ilin may ayından etibarən Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı səfirinə İƏT Baş Katibliyində Azərbaycanın daimi nümayəndəsi funksiyasını daşımaq həvalə edildikdən sonra, səfirlik vasitəsilə İƏT Baş Katibi və onun müxtəlif qurumları ilə mütəmadi və səmərəli iş aparılmağa başlanmışdı.

Azərbaycan Respublikasının İƏT-nin beynəlxalq aləmdəki nüfuz və imkanlarından lazımi səviyyədə istifadə edə bilməsi istiqamətində Prezident Heydər Əliyevin 1994-cü ilin iyul ayında Səudiyyə Ərəbistanına rəsmi səfəri dönüş nöqtəsi oldu. Azərbaycan Prezidentinin Səudiyyə Ərəbistanı kralı Fəhd bin Əbdüləziz Əl-Səudla faydalı danışıqları və İƏT rəhbərliyi ilə səmərəli görüşləri müsəlman aləmində ölkəmizə olan maraq və diqqəti daha da artırdı. Azərbaycanın islam aləminin bir hissəsi olması bir daha yüksək səviyyədə təsdiqləndi. Ermənistan-Azərbaycan münaqişəsi ilk dəfə 1994-cü ildə İƏT-in BMT ilə əməkdaşlığı üzrə problemlər siyahısına salındı. Münaqişənin informasiya cəhətdən və siyasi tərəfdən işıqlandırılması, dünya səviyyəsində onun həlli yollarının və üsullarının

araşdırılması ölkəmiz üçün çox mühüm əhəmiyyət kəsb edirdi.

1994-cü ilin dekabr ayında ilk dəfə olaraq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İƏT-ə üzv ölkələrin Dövlət və Hökumət Başçılarının Zirvə toplantısında iştirak etdi. Toplantıya yola düşərkən jurnalistlərlə söhbətində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İslam Əməkdaşlıq Təşkilatının nüfuzlu beynəlxalq təşkilat olduğunu qeyd edərək bu təşkilatın Azərbaycan üçün əhəmiyyətini çox yüksək dəyərləndirdi: «İslam ölkələri dünyanın böyük bir hissəsini təşkil edirlər. Onların bir milyard nəfərdən artıq əhalisi var. İslam Əməkdaşlıq Təşkilatı bu ölkələrin ümumi potensialından istifadə edərək həm ümumbəşəri proseslərdə iştirak edir, həm də İslam ölkələrinə məxsus spesifik problemlərin həll olunmasına çalışır. Mən şəxsən hesab edirəm ki, hər bir belə regional təşkilat əhəmiyyətlidir və bu kimi təşkilatlar öz səylərini, nəhayət, birləşdirə bilsələr, dünyada sülh daimi olar, əmin-amanlıq, təhlükəsizlik təmin edilə bilər. Ona görə də mən bu Zirvə toplantısına həvəslə gedirəm və şübhəsiz ki, bu toplantıdan çox şey gözləyirəm bir də ona görə ki, İslam Əməkdaşlıq Təşkilatı öz əvvəlki toplantısında da qətnamə qəbul edərək Ermənistanın Azərbaycana təcavüzünü pisləyib, bu barədə beynəlxalq təşkilatlara müraciətlər edibdir».

Ulu Öndər bu toplantını bir növ ATƏT-in üzvü olan ölkələrin Dövlət və Hökumət Başçılarının Budapeşt Zirvə toplantısının davamı hesab edir, orada da Azərbaycan üçün taleyüklü bir çox yeni qərarların qəbul ediləcəyini gözləyirdi. Elə buna görə də orada bu istiqamətdə bir sıra işlər görüləcəyini bəyan etmişdi. Sammitdə Azərbaycan və onun rəhbəri bütün dövlət başçılarının, diplomatların, KİV nümayəndələrinin, demək olar ki, bütün islam dünyasının diqqət mərkəzində idi. Bu, islam ölkələri toplantısında ölkəmizin başçısının ilk iştirak etdiyi sammit, onlara Azərbaycan həqiqətlərini çatdırmaq üçün əldə olunmuş ilk geniş fürsət idi. Bu həm də İƏT-ə üzv olan dövlət başçıları üçün Azərbaycanla yaxından tanış olmaq, onun rəhbərini dinləmək, ölkəmizlə əlaqələr qurmaq, Prezident Heydər Əliyevin simasında həm də təşkilata yenicə üzv qəbul olunmuş müsəlman respublikalarının dünya siyasətinin bir çox məsələləri ilə bağlı nöqteyi-nəzəri ilə tanış olmaq üçün fürsət yaradırdı.




Heydər Əliyev həmişə olduğu kimi bu Zirvə toplantısında da ölkəmizi layiqincə təmsil edərək onun imicini yüksəklərə qaldırdı. Sammitdə Prezidentimizin çıxışı xüsusi diqqət və rəğbətlə qarşılandı, dəfələrlə alqışlara səbəb oldu. Son dövrdə ölkəmizin başına gələn fəlakətlərdən, Ermənistan-Azərbaycan münaqişəsinin səbəblərindən və onun həlli yollarından, müsəlman dünyasının qarşılaşdığı kəskin problemlərdən açıq, hərarətlə və səmimiyyətlə danışan Azərbaycan Prezidenti dünyaya və islam aləminə bizim baxışlarımızı yüksək tribunadan bəyan etdi. Azərbaycan Respublikasının Prezidenti konfransda Asiya dövlətləri adından nitq söylədi. O, göstərdi ki, VII Kasablanka Zirvə toplantısı dünya müsəlmanlarının həmrəyliyinin daha da möhkəmlənməsində, islam dövlətlərinin nüfuz və qüdrətinin artmasında yeni bir mərhələ olacaqdır, islam aləminin qarşılaşdığı çətinliklərin və problemlərin dünya ictimaiyyəti tərəfindən daha aydın başa düşülməsinə geniş imkanlar yaradacaqdır.

Böyük Öndər İƏT ilə olan əlaqələrimizi daim öz nəzarəti altında saxlamış, onların durmadan inkişafı üçün müvafiq tədbirlər görülməsinə, bu sahədə ardıcıl iş aparılmasına xüsusi diqqət verirdi. 1996-cı il sentyabr ayının 21-də Bakıda keçirilən İslam İnkişaf Bankının Beynəlxalq İnvestisiya Konfransı məhz belə tədbirlərdən idi. Bu konfransın işində də Azərbaycan Prezidenti şəxsən iştirak etmişdir. Konfransda çıxış edən Azərbaycan Prezidenti bildirmişdir ki, İslam İnkişaf Bankının belə böyük tərkibdə, yüksək səviyyədə konfransının Azərbaycanda keçirilməsini yüksək qiymətləndirir və bunu Azərbaycan Respublikası ilə İslam ölkələri, İslam İnkişaf Bankı arasında mövcud olan sıx əlaqələrin təzahürü hesab edir. Prezident Heydər Əliyev əmin olduğunu bildirmişdir ki, İslam İn-

kişaf Bankının Azərbaycanda ilk dəfə keçirdiyi konfransı bundan sonra həm İslam İnkişaf Bankının bütün müsəlman ölkələrindəki fəaliyyətinə təkan verəcək, həm də İslam İnkişaf Bankı və onun ətrafında olan iş adamları ilə Azərbaycan arasındakı əlaqələri daha da genişləndirəcəkdir.

1997-ci ildə Prezident Heydər Əliyev Tehranda İƏT-nin VIII Zirvə toplantısında iştirak etmiş, geniş məruzə ilə çıxış etmiş və çoxsaylı görüşlər keçirmişdir. Prezidentimizin orada söylədiyi nitqi və keçirdiyi görüşləri islam aləmində geniş reaksiyaya səbəb olmuşdur. Beləliklə, Prezident Heydər Əliyevin gərgin zəhməti və yorulmaz fəaliyyəti nəticəsində ilk vaxtlar İƏT Baş Katibliyi Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı respublikamızın mövqeyini dəstəkləyən bəyanatlar verdiyi halda, sonrakı mərhələdə İƏT konfransları Ermənistan-Azərbaycan münaqişəsi haqqında daha kəskin qətnamələr qəbul etmişdir. Bu qətnamələrdə Ermənistan-Azərbaycan münaqişəsi birmənalı şəkildə Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü kimi qiymətləndirilir.

İƏT xarici işlər nazirlərinin 1993-cü ildə Kəraçidə keçirilmiş XXI, 1994-cü ildə Kasablankada keçirilmiş XXII, 1995-ci ildə Konakridə keçirilmiş XXIII konfransları Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münaqişə haqqında qətnamələr qəbul etdi. İƏT xarici işlər nazirlərinin 1996-cı ildə Cakartada keçirilmiş XXIV konfransında müvafiq qətnamənin adı dəyişdirilərək, «Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında» adlandırılmışdır. O vaxtdan etibarən xarici işlər nazirlərinin bütün konfranslarında bu qəbildən olan qəmamələrin adı dəyişilməz qalmışdır.

Qeyd etmək lazımdır ki, İƏT dövlət və hökumət başçılarının 1997-ci ildə Tehranda keçirilmiş VIII, 2000-ci ildə Dohada keçirilmiş IX və 2003-cü ildə Malayziyanın Putracaya şəhərində keçirilmiş X konfransları eyni adlı qətnamələr qəbul etmişdir. Əvvəlki qətnamələrdən fərqli olaraq, son qətnamələr xeyli təkmilləşdirilmiş, onlara yeni bəndlər əlavə edilmişdir: «İƏT bütün dövlətləri təcavüzkarı münaqişəni dərinləşdirməyə təşviq edən və Azərbaycan ərazilərinin işğalını davam etdirməyə imkan yaradan silah və döyüş sursatı təchizatından imtina etməyə çağırır; İƏT-ə üzv dövlətləri və dünya birliyinin digər ölkələrini Ermənistanın təcavüzünə və Azərbaycan ərazilərinin işğalına son qoyulması üçün təsirli siyasi və iqtisadi təzyiqlərdən istifadəyə dəvət edir; hesab edir ki, Azərbaycan ona dəymiş ziyana görə kompensasiya almaq hüququna malikdir və bu ziyanın tam şəkildə ödənilməsi üçün məsuliyyət Ermənistanın üzərinə düşür; bu məsələ üzrə İƏT-ə üzv dövlətlərin mövqeyi barədə ATƏT-in hazırki sədrinə məlumat verməsini İƏT Baş katibindən tələb edir» və s. İƏT dövlət və hökumət başçılarının təkcə 2003-cü ilin oktyabr ayında Putracayada keçirilmiş X Zirvə Konfransının qəbul etdiyi qətnamələr Azərbaycan-İƏT münasibətlərinin indiki vəziyyətinin əyani göstəricisidir. Konfrans qeyd edilən siyasi qətnamə ilə yanaşı, «Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi haqqında» qətnamə qəbul etmişdir. Qətnamədə Ermənistanın Azərbaycan Respublikasının Dağlıq Qarabağ və digər bölgələrinin iş-



ğalı, bir milyonadək əhalinin öz yurdundan zorla qovulması ilə müşayiət olunan əməlləri pislənir, ölkənin tarixi üçün belə çətin və böhranlı vaxtda Azərbaycan hökuməti və xalqı ilə tam həmrəylik ifadə olunur, Azərbaycan xalqının əzab-əziyyətini yüngülləşdirmək məqsədilə İƏT-ə üzv dövlətlərə, islam qurumlarına, eləcə də beynəlxalq təşkilatlara müraciət edilir ki, respublikamıza lazımi iqtisadi, maliyyə və humanitar yardım göstərsinlər.

Ümummilli Liderimiz Heydər Əliyev İƏT və onun müxtəlif ölkələrdə yerləşən mərkəzləri ilə ölkəmiz arasında əlaqələr yaradılmasını, ədəbiyyat, mədəniyyət və sənət əsərlərimizin islam dünyasında da öyrənilməsini və yayılmasını həmişə mühüm saymış, bunun üçün bütün tədbirlərin görülməsi barədə müvafiq tapşırıqlar vermişdir. 1997-ci il mayın 8-də İstanbulda olarkən respublikamızın Prezidenti orada yerləşən İƏT tarix və mədəniyyət mərkəzini (İRSİCA) də ziyarət etmişdir. O, öz çıxışlarında qeyd etmişdir ki, islam tarixinə aid Azərbaycanda da böyük araşdırmalar aparılır. Bu araşdırmalar islam dünyasında geniş təbliğ edilməlidir.

İslam Əməkdaşlıq Təşkilatının İstanbuldakı bu mərkəzi ilə Azərbaycan Elmlər Akademiyasının, onun Şərqşünaslıq İnstitutunun və respublikamızdakı bir sıra mərkəzlərin əlaqələrinin daha da sıxlaşdırılması vacibdir. Yaradılacaq belə münasibətlər xalqlarımızın və islam tarixinin, mədəniyyətinin öyrənilib daha geniş təbliğ edilməsində mühüm rol oynaya bilər. Ulu Öndər qeyd etmişdir ki, Azərbaycanın görkəmli şəxsiyyətlərinin yaradıcılığı və xalqımızın qədim tarixə malik mədəniyyəti ümumtürk və islam tarixində özünəməxsus yer tutur. Türk və islam tarixləri yenidən işlənib hazırlanarkən orada Azərbaycanın mütəfəkkir şəxsiyyətlərinin həyat və yaradıcılığı da öz layiqli əksini tapmalıdır. Dövlət başçısı bildirmişdir ki, Azərbaycan mədəniyyətinin, incəsənətinin zəngin tarixi vardır. Bu tarixin öyrənilib yayılmasının əhəmiyyəti böyükdür. XX əsrdə Azərbaycan ədəbiyyatında, mədəniyyətində, incəsənətində əldə olunmuş uğurlar isə xüsusilə təqdirəlayiq və cahanşümul nailiyyətlərdir. Görkəmli bəstəkar Üzeyir Hacıbəyov dahi Nizaminin və Füzulinin «Leyli və Məcnun» poemaları əsasında 1908-ci ildə «Leyli və Məcnun» operası yaratdı, Qara Qarayev isə 1960-cı ildə «Leyli və Məcnun» simfonik poemasını bəstələyərək klassik Şərq mövzusunu müasir sənət səviyyəsinə çatdırdı. Əlbəttə, xalqımızın içərisindən çıxmış belə dahi şəxsiyyətlərin sayı olduqca çoxdur və onların hər birinin yaradıcılığı haqqında saatlarla, günlərlə söhbət açmaq olar. Onlar həm də islam dünyasının böyük şəxsiyyətləri olduqlarına görə bu adamların yaradıcılığının islam aləmində və türk, ərəb dünyasında geniş öyrənilib yayılması olduqca vacibdir.

Sözünün sonunda Azərbaycan Prezidenti vurğulamışdır ki, bununla bağlı olaraq İslam Əməkdaşlıq Təşkilatının mərkəzi ilə Azərbaycanın əlaqələrinin daha da sıxlaşdırılması üçün birgə tədbirlər hazırlanmasının və keçirilməsinin təşkilinə diqqəti artırmaq vacibdir.

Məhz Ümummilli Liderimizin bu tövsiyələri əsasında AMEA Şərqşünaslıq İnstitutu ilə İRSİCA arasında sıx əlaqə yaranmış və bu gün də bir çox istiqamətləri əhatə edən birgə əməkdaşlıq davam edir, müştərək mövzular işlənilir, qarşılıqlı ezamiyyətlər həyata keçirilir, birgə elmi tədbirlər təşkil edilir.

**Govhar Bakhshaliyeva**

**Heydar Aliyev and the Organization of Islamic Cooperation (OIC)**

**Abstract**

From the first days of his return to power in 1993, National Leader Heydar Aliyev renewed Azerbaijan's foreign policy and rebuilt it on the basis of the country's strategic interests. To cooperate closely with the Organization of Islamic Cooperation, which takes the lead in strengthening cooperation among Muslim countries, and through this body achieve the support of the Muslim world in the cause of justice to Azerbaijan were of importance principles of foreign policy, according to Heydar Aliyev. Due to the need to effectively use all the possibilities of this organization, he succeeded in intensifying and activating contacts with the OIC. The article describes in detail the work done by Heydar Aliyev in this field, his participation and speeches at the summit meetings of the OIC, meetings with the leaders of the organization, and the results obtained as a result of all these activities.

# Heydər Əliyev: Azərbaycan Respublikasının ərəb və İslam dünyası ilə diplomatik münasibətləri[1]



**Mutaz Muhyi Əbdülhəmid**
*İraq Respublikası Strateji Araşdırmalar Mərkəzinin müdiri, İraq-Azərbaycan Dostluq cəmiyyətinin sədri, professor*

Tarixən və müasir dövrdə xalqların və millətlərin tarixini nə qədər diqqətlə araşdırsaq, bir o qədər də dövlət quruculuğu, həmçinin dövlət müstəqilliyinin və suverenliyinin qorunub saxlanılması prosesində liderlərin qarşısında duran cığırlara, keşməkeşli yollara nəzər salmış oluruq. Azərbaycan Respublikasının timsalında müşahidə edirik ki, onun müasir müstəqilliyinin adı, suverenliyi, habelə bu müstəqillik və suverenliyinin qorunub saxlanılması məhz Ulu Öndər Heydər Əliyevlə sıx bağlıdır. Belə ki, bu nailiyyətlər Ümummilli Liderin Sovet hakimiyyəti illərindən etibarən çalışdığı yüksək vəzifələr dövründə topladığı böyük təcrübəsi, peşəkarlığı, həmçinin vətəninə və xalqına sonsuz məhəbbəti, idarəçilik bacarığı və təbii cəsarəti sayəsində olmuşdur. O, XX əsrin ilk illərində taleyi təhlükə altında olan dövlətdən fərqli bir dövlət qura bildi və onu gələcək nəsillər üçün qoruyub saxlamağı bacardı.

Ulu Öndər Heydər Əliyev Azərbaycanı parçalanmaqdan və pərakəndəlikdən sabitliyə, yoxsulluq və gerilikdən həyatın bütün sahələrində tərəqqiyə və firavanlığa aparmış və beləliklə Azərbaycanın ölməz tarixi liderinə və müasir intibah qurucusuna çevrilmişdir. Ulu Öndər Azərbaycan xalqının ən çətin dövründə milli birliyin modelini cızaraq ölkədə yaranmış vətəndaş müharibəsinin qarşısını almışdı.

### Heydər Əliyev və İslam dünyası

Heydər Əliyev 1982-ci ildə Sovet İttifaqı Baş nazirinin birinci müavini təyin edildikdən sonra onun müsəlman olması fəaliyyətinin prioritet istiqamətlərində mühüm rol oynamışdır.

[1] Məqaləni ərəb dilindən Azərbaycan dilinə AMEA-nın akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Din və ictimai fikir şöbəsinin müdiri, fəls.ü.f.d. Elnur Mustafayev tərcümə etmişdir

Belə ki, Sovet İttifaqının təmsilçisi kimi müxtəlif vaxtlarda bir çox müsəlman ölkələrinə səfər etmiş Heydər Əliyev bu ölkələrlə əlaqələrin inkişaf etdirilməsində böyük paya sahib idi. O, ərəb və islam dünyasının dostu hesab olunurdu və ərəb dünyasının ədalətli işlərinə böyük dəstək verirdi. Müstəqilliyinin ilk günlərindən etibarən Azərbaycan dövləti ərəb və islam dünyası ilə münasibətlərinin möhkəmləndirilməsi niyyətində olduğunu nümayiş etdirdi. Azərbaycan dövləti siyasi-iqtisadi ortaq maraqlara və tarixi köklərə əsaslanan tarixi, dini və möhkəm bağlar çərçivəsində İslam və ərəb dünyası ilə sıx əlaqələr yaratdı. Ölkəsi ilə İslam dünyası arasındakı tarixi bağlılığın və mədəni dərinliyin miqyasını ilk andan dərk edən Heydər Əliyev hakimiyyətin cilovunu öz üzərinə götürdükdən sonra İslam sivilizasiyasının mütərəqqi irsi və mənəvi dəyərlərinin inkişifana töhfə vermiş və İslam dünyasının ayrılmaz bir parçası olan Azərbaycanın bu əlaqələri daha da möhkəmləndi və fərqli bir məcraya yönəldi.

Ulu Öndər özü üçün əsas vəzifə hesab edərək əməli olaraq İslam əməkdaşlığı təşkilatı dövlətləri ilə müştərək işi gücləndirmək, İslam aləmində həmrəyliyi və birliyi təmin etmək, böyük əhəmiyyətə malik bir sıra problemlərin həllində çoxşaxəli əməkdaşlığı genişləndirmək, İslam mədəniyyətinin qorunmasını təmin etmək, habelə İslam ölkələrinin üzləşdiyi çətinliklərin aradan qaldırılması üçün siyasi və diplomatik qərarların qəbul edilməsində öz əməyini heç vaxt əsirgəməmişdir.

Ümummilli Lider Heydər Əliyev ərəb ölkələri və bütün İslam dünyası ilə münasibətlərə iki bucaqdan baxırdı:

1 - Azərbaycanla İslam ölkələri arasında siyasi, iqtisadi, mədəni və xeyriyyə əlaqələrinin genişləndirilməsi

2 - İslam dünyasına qoşulan bütün ölkələr və xalqlarla əlaqələrin dərinləşdirilməsi və onlar arasında birlik və həmrəyliyin gücləndirilməsi.

Ulu Öndər Heydər Əliyev Sov.İKP MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi ölkənin beynəlxalq əlaqələrinin inkişafında fəal iştirak etmiş, Asiya və Afrika qitələrində yerləşən müxtəlif müsəlman ölkələrinə dəfələrlə işgüzar səfərlərdə olmuşdur. O, həmçinin Sovet İttifaqının Yaxın və Orta Şərq ölkələrinin rəhbərləri ilə apardığı danışıqlarda və siyasi müzakirələrdə yaxından iştirak etmiş, tez-tez bu ölkələrə səfər edən nümayəndə heyətlərinin rəhbəri olmuşdur. Onun 1982-1987-ci illər ərzində Misir, Suriya, İordaniya, Liviya, İraq, Yəmən, Pakistan və digər İslam ölkələrinə etdiyi səfərlər bütün İslam dünyasında onu görkəmli siyasətçilərdən biri kimi məşhurlaşdırmışdı.

1991-ci ildə müstəqillik əldə etdikdən sonra İslam həmrəyliyinin gücləndirilməsi Azərbaycanın xarici siyasətində prioritet məsələlərdən birinə çevrildi və təsadüfi deyil ki, İslam Əməkdaşlıq Təşkilatı Azərbaycan Respublikasının 1991-ci il dekabrın 8-də üzv olduğu ilk beynəlxalq təşkilat oldu və beləliklə, üzv ölkələrlə diplomatik əlaqələr qurulmasına start verilmişdir.

## Heydər Əliyev və Məhəmməd Peyğəmbərin (s) mövludu mərasimi

Ulu Öndər Heydər Əliyevin 1993-cü il sentyabrın 5-də Məhəmməd Peyğəmbərin (s) mövludu münasibətilə Təzə Pir məscidində çıxışı Azərbaycanda din-dövlət münasibətlərinin inkişafında böyük əhəmiyyət kəsb edirdi. Bu çıxışında Ümummilli Lider Heydər Əliyev Azərbaycanda tarixən mövcud olmuş tolerantlıq ənənələrinin hüquqi-siyasi müstəvidə bərpası üçün siyasi iradə nümayiş etdirərək demişdir: "Dinimiz misilsiz mütərəqqi keyfiyyətlərlə təzahür edir. Zühur etdiyi gündən etibarən İslam dini açıq şəkildə mütərəqqi dünya işlərilə harmoniya təşkil etdiyini sübut etmişdir".

Prezident Heydər Əliyev özünün bu çıxışında İslam dini ilə bağlı bir sıra sarsılmaz həqiqətləri qeyd etmişdir və bunlar aşağıdakılardan ibarətdir:

1. İslam dini tarixən mütərəqqi bir din olmuşdur.

2. İslam dini ümumbəşəri sivilizasiya tarixində mühüm əhəmiyyət kəsb edən təlimlər sistemidir, onu qlobal inkişaf prosesindən uzaq olduğunu təsəvvür etmək mümkün deyil.

## Heydər Əliyev və İslam Əməkdaşlığı Təşkilatı

Ümummilli Lider Heydər Əliyev İslam Konfransı Təşkilatının İslam həmrəyliyi ideya-




sını beynəlxalq aləmdə dəstəklənməsi istiqamətində fəaliyyətini yüksək qiymətləndirmişdir. 1994-cü il dekabrın 13-də Mərakeşin Kasablanka şəhərində İslam Konfransı Təşkilatına üzv ölkələrin dövlət və hökumət başçılarının Zirvə görüşündə O, İslam Konfransı Təşkilatının fəaliyyətinə diqqəti çəkərək demişdir: "Biz fəxr edə bilərik ki, İƏT məhz bu nəcib məqsədlərə xidmət edir".

Asiya, Afrika və Avropanın 52 ölkəsindən (Hazırda İslam Konfransı Təşkilatının 57 üzvü var) və bir milyarddan çox əhalisi olan bu təşkilat böyük mənəvi, siyasi, iqtisadi, elmi və mədəni potensiala malikdir. Ölkələrimiz arasında həmrəyliyin, hərtərəfli əməkdaşlığın, sülhün və təhlükəsizliyin qorunması üçün ədalət prinsiplərinə əsaslanan zəruri tədbirlərin görülməsi də İslam Konfransı Təşkilatının əsas hədəflərinə daxildir və bütün bunlar onun nizamnaməsindən irəli gəlir.

Heydər Əliyev İslam Konfransı Təşkilatının Zirvə toplantısında iştirak etmək üçün Mərakeşə səfəri zamanı Küveyt Dövlətinin Əmiri ilə görüşmüş, qarşılıqlı anlaşma şəraitində keçən bu görüşdə hər iki dövlət başçısı bir-birini səfərə dəvət etmişlər. Küveyt əmiri hər hansı müstəqil ölkəyə qarşı təcavüzün qəbuledilməz olduğunu vurğulayıb. O, əlavə edərək belə demişdi: "...sizin köməyə ehtiyacı olan qaçqınlarınız var, biz də onlara kömək edəcəyik...".

Ona görə də 1994-cü ilin dekabrında Mərakeşdə keçirilən İslam Zirvə toplantısında Ulu Öndər Heydər Əliyevin iştirakı bu əlaqələrin möhkəmlənməsinin başlanğıcı oldu. Belə ki, O, zirvə sammitində çıxış edərək böyük əhəmiyyətə malik nitqində xüsusən müxtəlif ərəb ölkələri, ümumən müsəlman ölkələri ilə əlaqələrin inkişaf etdirilməsinin zəruriliyini qeyd etmişdir. Qürur hissi ilə qeyd etmək lazımdır ki, Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti indiki prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə uğurla davam etdirilir.

## Ərəb dünyasının dostu

Prezident Heydər Əliyev kommunist rejiminin marksist ideologiyasına tabe olub-olmamasından asılı olmayaraq ərəb dünyası ilə də ikitərəfli əlaqələrə xüsusi önəm verirdi və bu onun ərəb-islam coğrafiyası məsələlərinə dəstəyi kimi mənəvi-əxlaqi prinsiplərə sadiqliyindən irəli gə-

lirdi. Bu da ona "Ərəb İslam dünyasının dostu" ləqəbini qazandırmışdır.

Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunda tutduğu vəzifədən istefa verir və 1990-cı il yanvarın 20-də Sovet qoşunlarının törətdiyi faciəyə və apardığı siyasətə etiraz olaraq faciənin ertəsi günü Moskvadakı Azərbaycan Nümayəndəliyində bəyanatla çıxış edərək Azərbaycan xalqına qarşı törədilmiş bu cinayəti təşkil edənlərin cəzalandırılmasını tələb etmişdi.

Ermənistanın Azərbaycan torpaqlarında yaratdığı müharibə şəraiti və Qarabağ torpaqlarını işğal etməsi, sovet iqtisadi sisteminin dağılması nəticəsində yaranan dərin iqtisadi böhran, xarici təzyiqlər və bunun nəticəsində yaranan daxili çətinliklər fonunda Azərbaycan xalqı referendum zamanı qəti mövqe nümayiş etdirdi və 1993-cü il oktyabrın 3-də sadiq və xilaskar oğlu Heydər Əliyevi özünə prezident seçdi. Beləliklə o, gələcək nəsillər üçün təhlükəsiz və parlaq gələcəyin əsasını qoydu.

## Azərbaycan Respublikasının İraqla yüksək diplomatik əlaqələri

Qeyd etmək olar ki, Heydər Əliyevin İraq da daxil olmaqla ərəb dünyasının liderləri ilə əlaqələri uzaq keçmişə dayanır. Ümumiyyətlə, tarix boyu hər iki tərəfi bir-birinə bağlayan din, mədəni və siyasi bağlar olmuşdur. Bir sıra azərbaycanlı alimlər İraqda təhsil almış, Nəcəf və Kərbəla şəhərlərində mövcud dini təhsil ocaqlarının məzunu olmuşlar.

Bunu Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allah Şükür Paşazadə 2022-ci il aprel ayında Azərbaycanda səfərdə olan İraq parlamentinin Xarici Əlaqələr Komitəsinin sədri Şerko Məhəmməd Salihin başçılıq etdiyi parlament nümayəndə heyəti ilə görüşündə təsdiqləmişdi. Yığıncaqda Qafqaz Müsəlmanları İdarəsinin sədri qeyd edib ki, çətinliklərə baxmayaraq, Sovet İttifaqı dövründə Azərbaycan müsəlmanları İraqda müqəddəs yerləri ziyarət edir, həmçinin minlərlə iraqlı tələbələr Azərbaycanda müxtəlif akademiya və institutlarda təhsil alırdılar. O, həmçinin qeyd edib ki, biz İraqın İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində Azərbaycana dəstəyini unutmamışıq. İraq dövləti daim Azərbaycanın ərazi bütövlüyünü tanımış və dəstəkləmişdir. Belə ki, "Torpaqlarımızın 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş və bu işğal 30 il davam etmişdi. Erməni işğalçıları Qarabağda dini abidələrimizi dağıtmış, İslam dininə öz nifrətini nümayiş etdirmək üçün məscidləri heyvan tövlələrinə çevirmişdir.

Lakin Azərbaycan xalqı Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən Müharibəsi nəticəsində qəsb edilmiş torpaqları işğaldan azad etdi. Müharibə zamanı dünyanın bir çox ölkəsindən dəstək mesajları aldıq və İraqın da bu ölkələr arasında olmasından qürur hissi duyuruq.

Azərbaycan bu gün Heydər Əliyev prinsiplərinə əsaslanan və 44 günlük müharibədə qəsb edilmiş torpaqları geri qaytaran İlham Əliyevin rəhbərliyi ilə dinamik inkişaf edən, analoqu olmayan iqtisadi artım istiqamətlərinə malik ölkədir. Prezident İlham Əliyevin ardıcıl demokratik və iqtisadi islahatları, müdrik rəhbərliyi, ölkəni rasional idarə etməsi və fəal xarici siyasəti Azərbaycanı regionun lider dövlətinə, beynəlxalq münasibətlərdə etibarlı tərəfdaşa çevirmişdir.

**Mutaz Muhyi Abdulhamid**
**"Heydar Aliyev: diplomatic relations of the Republic of Azerbaijan with the Arab and Islamic world"**
**Abstract**

In the example of the Republic of Azerbaijan, we observe that the name of its modern independence, sovereignty, as well as the preservation of this independence and sovereignty, are closely related to the great leader Heydar Aliyev. Thus, these achievements were due to the national leader's great experience and professionalism, as well as his boundless love for his homeland and people, his management skills, and his natural courage, which he gained during the high positions he held during the years of Soviet rule. He was able to build a different state from the one whose fate was in danger in the early years of the 20th century and manage to preserve it for future generations.

# Heydər Əliyevin azərbaycançılıq ideyasında Cənubi Azərbaycan

**Səməd Bayramzadə**
*AMEA-nın Şərqşünaslıq İnstitutunun Cənubi Azərbaycan şöbəsinin müdiri, t.ü.f.d.*



Şərq-Qərb, Şimal-Cənub dəhlizində ən gözəl təbii-coğrafi şəraitə (dünyadakı 11 iqlim qurşağının 9-u bu ölkədə var), tükənməz yeraltı-yerüstü sərvətlərə və çox əlverişli geosiyasi mövqeyə malik Azərbaycan torpağının ərazi bütövlüyü müxtəlif tarixi mərhələlərdə siyasi manevrlərin qurbanı olmuşdur. Azərbaycanın, onun xalqının müstəqilliyi dəfələrlə pozulmuş, torpağı tapdaq altında qalmış və talanmışdır. Azərbaycana bir xəzinə kimi baxılmışdır.[2] Ona görə də Azərbaycanı hər an yeni fəlakətlər gözləmişdir.

SSRİ-nin dağılması ilə bütün sabiq sovet respublikalarında olduğu kimi, Azərbaycanda da yaranmış ideoloji boşluğu doldurmaq üçün ortaya bir sıra ideyalar atıldı. İslam, türkçülük və azərbaycançılıq bu ideyaların əsas tərkib hissələrini təşkil edirdi. Mövcud tarixi şərait və tarixi təcrübələrin nəticələri sonuncunun – azərbaycançılığın daha real olduğunu şərtləndirdi. Böyük idarəçilik təcrübəsinə malik H.Əliyev hakimiyyəti də bu ideyanı dəstəklədi və ideologiya səviyyəsində formalaşdırdı, uğurla həyata keçirdi. Tarixi təcrübə və həqiqətlər bu gün həmin ideologiyanın yanlış olmadığını göstərir.

Bu gün müstəqillik qazanmış Azərbaycan Respublikasında onun xalqını, sərvətini qorumaq üçün həyata keçirilən azərbaycançılıq ideologiyasını əsaslandıra və möhkəmləndirə biləcək uzunmüddətli iqtisadi siyasət konsepsiyası hazırlanır, sarsılmaz milli əsaslarda dövlət quruculuğu həyata keçirilir.

Müstəqillikdən sonrakı 30 illik bir müddət ərzində Azərbaycan tarixinin saxtalaşdırılmış və sifarişlə yazılmış bir sıra problemləri, tarixi dövrləri geniş miqyasda araşdırılmış və yenidən yazılaraq ortaya qoyulmuşdur.

Bununla belə qeyd edilməlidir ki, Azərbaycan tarixinin öyrənilməsindəki bəzi problemli məsələlər sırasında Cənubi Azərbaycan tarixinin, eləcə də bu tarixi-coğrafi ərazidə yaşayan çoxmilyonlu soydaşlarımıza qarşı ardıcıl olaraq həyata keçirilmiş ayrı-seçkilik siyasətinin araşdırılması və öyrənilməsi əsas mövzulardandır. Eyni zamanda da Azərbaycan bölünmüş bir ölkə, azərbaycanlılar isə parçalanmış bir millət olduğundan bu gün Azərbaycan Respublikasının aparıcı milli ideologiyası olan azərbaycançılığın dünya azərbaycanlıları arasında təsir gücünü araşdırmaq üçün Cənubi Azərbaycan tarixinin tədqiqinə və öyrənilməsinə çox ciddi ehtiyac vardır. Belə ki, İran İslam Respublikasının bugünkü inzibati-ərazi bölgüsünə uyğun olaraq Şərqi və Qərbi Azərbaycan, Ərdəbil, Zəncan, Qəzvin, Həmədan kimi ostanlarında (əyalətlərində) və eləcə də ölkənin paytaxtı Tehran şəhərində və ətrafında (Kərəc şəhəri də daxil olmaqla), Savədə, Xorasan əyalətində, cənub bölgələrində, eləcə də bir sıra digər yaşayış məntəqələrində 25-30 mln. nəfər arasında Azərbaycan türkü (azərbaycanlı) məskunlaşmışdır.[3] Onlar ölkə-

[2] 656-cı ildə Ərəb xilafətinin başına keçən İmam Əli əleyhüs-salamın (dogum ili 599 – ölüm: 23.01.661) Azərbaycan valisi Əş'əs ibn Qeysə (o, xəlifə Osmanın hakimiyyəti zamanı bu vəzifəyə təyin edilmişdi) məktubundan: " ... O iş (**Azərbaycan işi** – *kursiv müəllifindir*) sənin boynunda bir əmanətdir. Səni o işə təyin edən kimsə sənin üzərinə əmanəti qorumaq öhdəliyini qoyub. Rəiyyətin işində öz istədiyin kimi davrana, sənə əmr gəlməyincə məsuliyyətli bir işə girişə bilməzsən. Sənin əlində bənzərsiz və böyük Allahın mallarından var (**yəni Azərbaycan var!** – *kursiv müəllifindir*). Sən onları mənə təhvil verənə kimi mənim xəzinədarlarımdan birisən (5, səh.250).

[3] İranın Prezident Aparatı nəzdindəki "Strateji Planlaşdırma və Nəzarət Şurası" İran Statistika Mərkəzinin 2011-ci ilin ölkənin əhali və mənzil siyahıyaalmasının nəticələrinə əsasən azərbaycanlıların sayını (21 589 917 nəfər) ölkə

nin müvafiq sahələr üzrə idarəçiliyində, onun ərazi bütövlüyünün və sərhədlərinin qorunmasında fəal iştirak etməklə yanaşı, eyni zamanda da ölkənin daxili və xarici siyasətinə, o cümlədən Azərbaycan Respublikası ilə iqtisadı-ticarət, ədəbi-mədəni və turizm əlaqələrinin inkişafına ciddi təsir göstərmək gücünə də malikdirlər. Bu əlaqələri tədqiq etmək və azərbaycançılığın bu əlaqələr fonunda inkişaf edib milli bir ideologiyaya çevrilməsi məsələsi Azərbaycan tarixinin az öyrənilmiş cənub qolunun tədqiqini bizim üçün çox zəruri edir.

İranda şah rejiminin süqutuna və devrilməsinə gətirib çıxaran 1978-1979-cu illər inqilabının qələbəsindən sonra burada yaşayan millətlər və xalqlar bəzi nisbi azadlıqlar əldə etdilər. İran İslam Respublikasının (İİR) 15 noyabr, 1979-cu il tarixində təsdiq edilmiş Konstitusiyasının 15-ci maddəsinə görə, İran xalqının rəsmi müştərək dili və xətti yenə də fars dili və xətti olaraq qaldı, lakin, yerli və etnik dillərin fars dili ilə yanaşı işlənməsi mətbuat, kütləvi informasiya vasitələri və milli ədəbiyyatın məktəblərdə tədrisi azad elan edildi (*2, 7 azər 1358/28 noyabr 1979*). Belə ki, yalnız ibtidai siniflərdə ədəbiyyat dərslərinin ana dilində tədrisinə icazə verildi. Bununla belə bu günün özündə də İranın azərbaycandilli əhalisi üçün ən böyük və başlıca problem yenə də ana dilində tədris müəssisələrinin olmamasıdır. Hələlik Əsas Qanunun 15-ci maddəsi İranda yerinə yetirilmir. İranda Azərbaycan dilində mətbuatın - kitabların, qəzet və jurnalların *(“Azərbaycan”, “Araz”, “Azadlıq”, “Azərbaycan-e ayənde”, “Vətən uğrunda”, “Odlar yurdu”, “Oxtay”, “Çənlibel”, “Azərbaycan kargərləri”, “Ulduz” və s. kimi qəzetlər, “Azərbaycan səsi”, “Varlıq”, “Koroğlu”, “Yoldaş”, “Molla Nəsrəddin” və s. kimi jurnallar*) çapı və nəşri isə hələ İranda yeni Konstitusiyanın təsdiqindən əvvəl başlamışdı.

Sözü gedən inqilabdan sonra İranda şəxsi təşəbbüslər əsasında Azərbaycan dilini öyrədən kurslar açıldı, bəzi siyasi təşkilatlar və cəmiyyətlər fəaliyyətə başladı, Tehran və Təbrizdə ayrı-ayrılıqda Azərbaycan yazıçılar və şairlər cəmiyyəti işə başladı (*3, s.13*). Bu fəaliyyətlərin əsas qayəsini azərbaycanlıları vahid Azərbaycan tarixi və onun mənəvi sərvətləri ilə tanış etmək, vahid tarixi-mədəni köklərə malik Şimali və Cənubi Azərbaycan arasında elmi, ədəbi və mədəni əlaqələr yaratmaq, Cənubi Azərbaycanda milli ədəbiyyat və incəsənətin inkişafına yardım etmək kimi mühüm vətəndaşlıq məsələləri təşkil edirdi. Bu əsasda Cənubi Azərbaycanda maarif və mədəniyyətin, elm və incəsənətin inkişafına xüsusi diqqət yetirilməyə başladı (*3, s.13*).

Elə bu dövrdən başlayaraq o zaman Azərbaycan SSR KP MK-nın I katibi olan Heydər Əliyev sözügedən əlaqələrin möhkəmləndirilməsi, azərbaycançılığın ideyadan ideologiyaya çevrilməsi istiqamətində ilk ciddi addımlarını atdı. Onun israrlı təşəbbüsləri nəticəsində 1976-cı ildə Azərbaycan SSR-də “Cənubi Azərbaycan” adı elmi-siyasi məfhum kimi rəsmiləşdirildi; Azərbaycan Yazıçıları İttifaqında, Azərbaycan Radio və Televiziya Verilişləri Komitəsində, AMEA-nın Ədəbiyyat və Şərqşünaslıq institutlarında müvafiq şöbələr təsis edilərək fəaliy-

---

əhalisinin sayına (**77 891 220** nəfər) nisbətdə - 27,7% göstərmişdir (Bax:11, s.20-21). 2016-cı ilin İran əhalisinin ümumi siyahıyaalınmasının yekunlarına əsasən isə azərbaycanlıların sayı ölkə əhalisinin sayına (**79 926 270** nəfər) nisbətdə 22.33% (tolam 17 848 672 nəfər) göstərilmişdir. Həmin siyahıyaalınmanın nəticələrinə görə, İranın rəsmi inzibati-ərazi bölgüsünə uyğun olaraq azərbaycanlıların (Azərbaycan türklərinin) İranda ostanlar üzrə məskunlaşması və müvafiq olaraq həmin ostanların yerli əhalisinə nisbətdə say faizi aşağıdakı kimi olmuşdur: Tehran - 4 020 094 nəfər (30,3%) – Tehranda nəşr edilən “Həmşəri” qəzetinin 1993-cü il fevral saylarının birində isə bu rəqəm 62% (8 225 935 nəf.) göstərilmişdir; Şərqi Azərbaycan - 3 823 640 nəf. (97,8%); Qərbi Azərbaycan - 2 488 097 nəf. (76,2%); Ərdəbil - 1 247 552 nəf. (98,2%); Zəncan – 1 040 542 nəf. (98,4%); Qəzvin - 668 724 nəf. (52,5%); Həmədan - 1 023 820 nəf. (58,9%); Buşehr - 11 634 nəf. (1%); Çahar-Mahal və Bəxtiyari - 95 724 nəf. (10,1%); Cənubi Xorasanda yoxdur; Əlburz - 979 176 nəf. (36,1%); Fars - 485 127 nəf. (10%); Gilan - 199 925 nəf. (7,9%); Gülüstan - 72 884 nəf. (3,9%); Hörmüzgan - 5 329 nəf. (0,3%); İlamda yoxdur; İsfahan - 358 460 nəf. (7%); Kirman - 28 483 nəf. (0,9%); Kirmanşahda yoxdur; Kohgiluyə və Boyer-Əhməd - 35 653 nəf. (5%); Kürdüstan - 4 809 nəf. (0,3%); Loristan - 5 282 nəf. (0,3%); Mazandaran - 78 805 nəf. (2,4%); Mərkəzi ostan - 297 331 nəf. (20,8%); Qum - 333 409 nəf. (25,8%); Rəzəvi Xorasan - 238 077 nəf. (3,7%); Şimali Xorasan - 177 797 nəf. (20,6%); Simnan - 10 535 nəf. (1,5%); Sistan və Bəlucistanda yoxdur; Xuzistan - 117 763 nəf. (2,5%); Yəzddə yoxdur (Bax:8, səh.46-92). Əgər Tehranda yaşayan azərbaycanlıların sayı “Həmşəri” qəzetinin 1993-cü ildə göstərdiyi faiz nisbəti ilə hesablanarsa, o zaman bu rəqəm 22 054 513 nəf. (ölkə əhalisinin 27,6%-i) olacaqdır. İranın keçmiş xarici işlər naziri dr. Ə.Ə.Salehi 18 yanvar 2012-ci il tarixində Ankarada Əhməd Davudoğlu ilə görüşündə 75 mln. nəfər əhalisi olan İranda yaşayan azərbaycanlıların ölkə əhalisinin təqribən 40%-ni təşkil etdiyini vurğulamışdır (Bax: https://youtu.be/z0xQOXil7HM)

yətə başladı, Azərbaycan Yazıçılar İttifaqının orqanı olan "Azərbaycan" jurnalında Mirzə İbrahimovun, Abbas Zamanovun, Sirus Təbrizli və bu kimi başqa ədiblərimizin tərtibatında "Cənubdan gələn səslər" adı altında silsilə yazılar dərc edildi və bununla da azərbaycançılıq ideyasının rəsmi ideologiyaya çevrilməsinin ilkin mərhələsi başlandı (*9, s.152-153*).

Azərbaycançılıq ideyasının dünya azərbaycanlılarının ümummilli ideologiyasına çevrilməsi işində çox xüsusi və önəmli olan ikinci mərhələsi H.Əliyevin 1982-ci ildə Azərbaycan SSR-in I katibi vəzifəsindən azad edilərək Moskvaya aparılması, daha yüksək məqama - SSRİ MK Siyasi Bürosu üzvlüyünə, eyni zamanda SSRİ baş nazirinin birinci müavini vəzifəsinə təyin edilməsi ilə başlandı.

H.Əliyevin yeni vəzifəyə təyinatı ilə bağlı Azərbaycan və azərbaycançılıq ətrafında beynəlxalq dairələrdə hay-küyə səbəb olan təbliğat kampaniyalarına rəvac verildi. İran əsilli Mehrdad Azəri adlı müəllif fars dilində çap etdirdiyi "Azərbaycan və istismarçıların yeni nəğmələri" adlı kitabında bu həssas məsələlərə işarə edərək yazırdı: "1982-ci ilin 23 noyabr səhəri BBC radiosunun şərhçiləri SSRİ-nin İran Azərbaycanına da göz dikmələri barədə danışır və Əliyevin iki Azərbaycanın bütövlüyü barədə fikirlərini ortaya qoyurdular. Bu şərhlər zamanı o da deyildi ki, guya SSRİ baş nazirinin müavini (H.Əliyev nəzərdə tutulur – *S.B.*) keçən ilin yayında Sovet Azərbaycanında olan xarici diplomatlarla görüşü zamanı onlara Sovet Azərbaycanının nailiyyətlərindən danışmış, eyni zamanda İran Azərbaycanındakı geriliyi, yoxsulluğu təəssüf hissi ilə qeyd etmişdir. Sonda isə demişdir ki, Sovet Azərbaycanı xalqı iki Azərbaycanın birliyini (*o milli-mənəvi birliyi nəzərdə tutmuşdur – S.B.*) və İran Azərbaycanı xalqının da rifah və səadət içərisində yaşamasını arzu edir" (*7, s.5*).

Bundan sonra Kremlin Sütunlu sarayında memarlarla görüşü zamanı mədəniyyət və incəsənət məsələlərindən danışan Heydər Əliyev 20 milyonluq Azərbaycan xalqının dünya mədəniyyətinə və incəsənətinə bəxş etdiyi töhfələri diqqətə çatdırarkən saraydakı uğultuya elə həmin andaca öz qəti təpkisini nümayiş etdirərək demişdir: "Bəli, bəli, təəccüblənməyin, Arazın o tayında bizim 13 milyona yaxın bacı və qardaşlarımız yaşayırlar".[4]

Elə bu səbəbdən Rusiya, Azərbaycan, İran, Amerika və Qərb tarixşünaslığında Azərbaycan məsələsi, azərbaycançılıq yenidən gündəmə gəldi, sözügedən məsələlərlə bağlı çoxlu sayda ideya-siyasi yönümlü yazılar ortaya qoyuldu, elmi-tədqiqat işləri aparıldı və müxtəlif mövqelər sərgiləndi. Azərbaycan və azərbaycançılıq yeni təzyiqlər qarşısında dayanmalı oldu.

SSRİ-nin dağılması ilə ruslar Azərbaycan birliyindən, bu birlik yaranacağı halda, onun iqtisadi qüdrətindən, regionda əldə edəcəyi nüfuzdan, beynəlxalq miqyasda təsirindən və onu müşayiət edən **azərbaycançılıq ideologiyasından** qorxaraq, regionda mövqeyini, xammal mənbələrini və təchizat bazalarını itirmək təhlükəsi qarşısında dayanaraq ermənilərin əlilə Qarabağ məsələsinə rəvac verdilər. Belə bir şərait İranın da karına gəldi. Yeni islam rejimi də azərbaycançılıq ideyalarının güclənməsindən, onun özü üçün fəsadlarından ehtiyatlanaraq Cənubu Azərbaycan birliyini parçalamağa, Azərbaycan birliyi ideyasının qarşısını almağa və bu işdə rus-erməni amilindən məharətlə istifadə etməyə başladı (*Bax: 10*).

1988-1990-cı illərdə Azərbaycanda başlanmış milli demokratik hərəkat fəal bir şəkildə ölkənin müstəqilliyinin bərpasına istiqamətlənmişdi. 1989-cu il sentyabrın 23-də sovet respublikaları arasında Azərbaycan ilk olaraq Suverenlik haqqında qərar qəbul etdi. Bu hərəkatı yatırmaq məqsədilə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə SSRİ rəhbərliyinin göstərişi ilə Azərbaycana qoşun yeridildi. Törədilən vəhşiliklər nəticəsində yüzlərlə Azərbaycan vətəndaşı həlak oldu və yaralandı.

20 Yanvar faciəsindən sonra Heydər Əliyevin Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək, xalqının ağır günündə onun yanında olduğunu nümayiş etdirməsi bütün dünyaya səs saldı və hər tərəfdən Azərbaycanın haqq işini müdafiə edən səslər ucaldı, azərbaycançılıq məfkurəsi dünyada yaşayan bütün azərbaycanlıları çulğaladı. Bu hərəkəti ilə H.Əliyev Azərbaycan xalqının milli özünüdərkinin bərpası və müstəqillik uğrunda mübarizəsinin uğurla sona

[4] SSRİ mərkəzi televiziyasından bu toplantıya aid translyasiyanı şəxsən izləmiş və dinləmişəm. Təəssüf ki H.Əliyevin bu çıxışının qəzetlərdə dərc olunmuş mətnindən həmin hissə çıxarılmışdı.

çatması üçün böyük xidmətlər göstərmiş oldu. Naxçıvana qayıtdıqdan sonra Azərbaycanın üçrəngli bayrağını xüsusi qərarla Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin binası üzərində ucaltdı. Onun bu addımı xalqın milli azadlıq hərəkatına yeni keyfiyyət, yeni ruh gətirdi (*6*).

Azərbaycan xalqının vətənpərvər qüvvələrinin müstəqillik uğrunda dönməz mübarizəsi nəticəsində 1991-ci ilin oktyabr ayının 18-də "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul olundu və beləliklə, Azərbaycan XX əsrdə ikinci dəfə müstəqil dövlət olaraq öz varlığını dünyaya elan etdi.

Heydər Əliyevin yenidən hakimiyyətə gəlişi Azərbaycan dövlətçiliyini möhkəmləndirməklə yanaşı, xalqımızın vahid ideologiya ətrafında birləşməsinin əsasını qoydu. Onun irəli sürdüyü milli ideya Azərbaycanın bütün vətəndaşlarını, dünya azərbaycanlılarını və Azərbaycana bağlı bütün insanları bir məqsəd, bir ideya ətrafında birləşdirə bildi. Bu, vahid bir dövlətin formalaşmasında, müasir, güclü Azərbaycan ölkəsinin yaranmasında ən böyük rola malik olan **AZƏRBAYCANÇILIQ** ideyası idi.

Ümummilli Liderimiz H.Əliyevin 1994-cü ilin fevral ayının 22-dən 25-dək Böyük Britaniyaya ilk rəsmi səfəri olub. Bu səfər zamanı yeni müstəqillik qazanmış Azərbaycanımıza milli qurur, iftixar və güvənc yeri kimi baxan Londondakı soydaşlarımız tərəfindən ikiyə bölünmüş ölkəmizin, millətimizin gələcək taleyi barədə ona sual verilərkən bildirmişdir ki, "Zaman gələcək, bölünmüş Vahid yenidən bütövləşəcəkdir" (*1, aprel 2012, No 9, s.82*).

Elə bu səbəbdən də 1994-cü ilin 29 iyun-2 iyul tarixində H.Əliyevin İrana rəsmi səfəri zamanı onun Təbriz və Urmiya kimi tarixi Azərbaycan şəhərlərinə protokol üzrə nəzərdə tutulmuş ziyarətləri Azərbaycan Respublikası tərəfinin israrlı təkidlərinə baxmayaraq, İran rəhbərliyi tərəfindən ləğv edildi.

Bununla belə, bu səfər zamanı Dağlıq Qarabağ münaqişəsinin həlli yolları, Qafqaz ölkələri arasındakı münasibətlərdə gərginliyə səbəb olan hadisələr, Xəzər dənizində əməkdaşlıq, müştərək sərhəd çayı olan Arazın su mənbələrindən istifadə, ticarət və tranzit keçid məsələləri, Naxçıvan MR-in qaz və işıqla təminatı kimi mühüm məsələlər müzakirə obyekti kimi nəzərdə tutulduğundan Təbriz və Urmiya səfərinin gündəlikdən çıxarılması problem bir məsələ kimi qarşılanmadı və bu səfər baş tutdu (*4, s.18-19*).

Bu səfərin müsbət nəticəsi olaraq tərəflər arasında dostluq münasibətlərinin inkişafı haqqında imzalanmış Bəyanatda deyilirdi ki, tərəflər ... Ermənistan hərbi qüvvələrinin zor işlətməsi və təcavüzünü qətiyyətlə pisləyir, Dağlıq Qarabağın, Azərbaycan Respublikasının işğal olunmuş ərazilərindən təcili və qeyd-şərtsiz olaraq çıxarılmasını, Dağlıq Qarabağ münaqişəsinə dair BMT-nin məlum qətnamələrinin icrasını, habelə qaçqınların öz doğma torpaqlarına qaytarılmasını tələb edirlər (*4, s.42*).

Səfərin son günü, 2 iyul 1994-cü il tarixində İİR Xarici İşlər Nazirliyinin Siyasi Araşdırmalar Mərkəzində çıxış edən Azərbaycan Respublikası Prezidenti H.Əliyev səfər zamanı ona göstərilən diqqət və qayğıya, İran-Azərbaycan diplomatik, iqtisadi-ticarət, ədəbi-mədəni və elmi əlaqələrin inkişafı sahəsində atılan ciddi addımlara və görülən müsbət işlərə, Azərbaycana göstərilən yardımlara görə İran rəhbərliyinə öz dərin təşəkkürlərini ifadə etməklə, bu səfərin İİR ilə AR arasında münasibətlərin gələcək inkişafı üçün mühüm mərhələ olduğunu da qeyd etdi (*4, s.26-28*). H.Əliyev bu qısa çıxışında eyni zamanda onu da vurğuladı ki, Azərbaycan müstəqil dövlətdir və öz müstəqilliyini heç zaman əldən verməyəcəkdir (*4, s.28*). Azərbaycanın xarici siyasəti azad və müstəqildir. Ölkəmiz bütün dünya dövlətləri üçün açıqdır. Biz Azərbaycanın müstəqilliyini tanıyan, onun mənafeyinə toxunmayan, ölkəmizə müsbət münasibət göstərən hər bir dövlətlə əlaqələr qurmağa hazırıq və belə əlaqələr qururuq. Azərbaycanla İran arasındakı münasibətlər dərin köklərə malikdir. Bizim xalqlarımız əsrlər boyu bərabər yaşamış, bir yerdə olmuşlar . Elmi, mənəvi, mədəni əlaqələrimiz bizi tarix boyu birləşdirib. Bunları nəzərə alaraq Azərbaycan İİR ilə dostluq, qardaşlıq əlaqələrini inkişaf etdirmək əzmindədir (*4, s.29*).

H.Əliyev bu çıxışında çox mühüm və həssas bir məsələyə də toxunaraq bildirdi ki, Ermənistana dəstək verən, ona kömək göstərən ölkələr başqa sahələrdə də ona yardım edirlər, o cümlədən hərbi sahədə [*şərhsiz! – S.B.*] (*4, s.31*).

AR Prezidenti çıxışının sonunda qətiyyətlə vurğuladı ki, "... biz bütün dövlətlərin, o cümlədən İİR-in Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı üçün öz səsini qaldır-

masını arzu edirik və güman edirik ki, həmin səslər bundan sonra da gur olacaq. ... Azərbaycan öz müstəqilliyini əldən verməyəcək. Xalqımız öz milli azadlığını qoruyacaqdır" (*4, s.32-33*).

Ulu Öndər bu səfərində Təbrizə və Urmiyaya gedə bilməsə də, onun bu səsini orada eşidirdilər və bu da onların müstəqillik ümidlərini sönməyə qoymurdu.

Azərbaycan Respublikasında Azərbaycan dilini, Azərbaycan tarixini və mədəniyyətini azərbaycançılıq məfkurəsi işığında dünyaya tanıtmaq azərbaycançılığa həm milli bir ideologiya və həm də çox qüvvətli dövlətçilik təlimi kimi nüfuz qazandırmışdır. Azərbaycançılıq nəzəriyyəsi sayəsində Azərbaycan dövləti çağdaş dünyaya inteqrasiya işində beynəlxalq diqqət mərkəzinə keçmiş, sivil dövlət nümunəsi kimi qəbul olunmuşdur. Əslində azərbaycançılıq ideologiyasının fəlsəfəsi də elə Bütöv Azərbaycan, Vahid Azərbaycan ideyasına qulluq etmək deməkdir. Bu, Heydər Əliyev dühasıdır.

**Ədəbiyyat:**

1. "Dəvət" jurnalı
2. "Keyhan" qəzeti
3. Cənubi Azərbaycan tarixinin oçerki (1828-1917). "Elm", Bakı-1985
4. Əliyar Səfərli, Həsən Əlibəyli. Tarixin dörd günü, Tehran, 1994
5. Həzrət Əmirəl-möminin Əli ibn Əli Talib. Nəhcül-Bəlağə, Bakı, 2003
6. Hikmət Babaoğlu. Heydər Əliyev azərbaycançılığı haradan və necə başladı.../ http://modern.az/articles/13620/1
7. Mehrdad Azəri. "Azərbaycan və nəğmeha-ye taze-ye estemargəran" (Azərbaycan və istismarçıların yeni nəğmələri), yersiz, 1982
8. Nətayec-e təfsili-ye sərşomari-ye nofus və məskən (*Ümumi əhali və mənzil siyahıya almasının ətraflı nəticələri*) – 1395/2016, Tehran, İranın mərkəzi statistika idarəsi, 2018
9. Səməd Bayramzadə. Azərbaycançılıq tarixindən: ideyadan ideologiyaya, - Müstəqilliyimiz əbədidir-25, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, Bakı, 2016
10. Talıblı Sübhan. İran İslam Respublikasının Qafqaz siyasətində Dağlıq Qarabağ problemi: 1991-2005-ci illər: tarix elm. üzrə fəlsəfə dok. ... dis. avtoreferatı: 07.00.03 / S. Ə. Talıblı; elmi rəh. Ş. Ə. Tağıyeva; AMEA A.A. Bakıxanov adına Tarix İnstitutu.- Bakı-2010
11. The President's Office, Deputy of Strategic Planning and Control, Statistical Center of Iran. National Population and Housing Census 2011/1390: Selected Findings, October 24, 2011. Table 12 – Population by Sex, Residence and Province: 2011

**Samad Bayramzadeh**

**South Azerbaijan in Heydar Aliyev's policy of Azerbaijanism**

**Abstract**

As Azerbaijan is a divided country and Azerbaijanis are a divided nation, there is a serious need to study the history of South Azerbaijan in order to determine the influence of Azerbaijanism, the leading national ideology of the independent Azerbaijani Republic, among the world's Azerbaijanis.

As a result of the persistent initiatives of the great leader Heydar Aliyev, in 1976 the name of "Southern Azerbaijan" was formalized as a scientific and political concept in the Azerbaijan SSR; Relevant departments were established in the Union of Writers of Azerbaijan, the Committee for Radio and Television Broadcasting of Azerbaijan, and the Institute of Literature and Oriental Studies of ANAS. Starting from this period, the first serious steps were taken to turn Azerbaijanism from an idea into an ideology.

After the second declaration of independence of the Republic of Azerbaijan on October 18, 1991, and the return of Heydar Aliyev to power, along with the strengthening of Azerbaijani statehood, the foundation was laid for the unification of our people around a common ideology. The national idea put forward by the great leader Heydar Aliyev was able to unite all the citizens of Azerbaijan, the world's Azerbaijanis and all the people connected with Azerbaijan around one goal, one idea. This is the idea of **AZERBAIJANISM**, which has the greatest role in the formation of a single state, the creation of a modern, strong Azerbaijani country. This national idea is of special importance in the formation and development of the national identity, culture, and consciousness of our compatriots living in South Azerbaijan.

# Heydər Əliyev və ədəbiyyat (Türk xalqları ədəbiyyatına dəyər kontekstində)

**Elman Quliyev**
*AMEA-nın Şərqşünaslıq İnstitutunun baş elmi işçisi, f.ü.e.d., professor*

Türk dünyamızın iki nəhəng şəxsiyyəti və nəhəng siyasi lideri – Qazi Mustafa Kamal Atatürk və Ulu Öndər Heydər Əliyev haqqında hər zaman düşünərkən XI əsr türk mənəviyyatımızın qızıl kitabı "Divanü lüğət-it-türk"də yer alan aşağıdakı sözlər bir anlığa düşüncələrimə hakim kəsilir: "Tanrının inayəti ilə günəş türk bürclərində doğdu və göylərin bütün dairələri onların mülkləri üzərinə döndü, Tanrı onlara türk adını verdi və onları yer üzünə hakim qıldı. Dövrümüzün xaqanlarını onlardan çıxardı, dünya millətlərinin idarə cilovunu onların əlinə tapşırdı, onları hamıdan üstün elədi, onları haqq üzrə qüvvətləndirdi" (Mahmud Kaşğari, "Divanü lüğət-it-türk", I cild, Bakı, 2006, səh.54 ). Bu sözlərin hikməti kimi zəngin və qədim tariximizin şan-şöhrəti olan Mete, Atilla, Alp Ər Tonqa, Oğuz Kağan, Əmir Teymur, Şah İsmayıl Xətai, Sultan Süleyman, Ərtoğrul, Osman Qazi, Qanuni Sultan Süleyman, Sultan Əbdülhəmid və s. türk siyasi liderlərinin, Mahmud Kaşğarinın sözləri ilə desək, "dünya millətlərinin idarə cilovlarını əllərində saxlamaq və hamıdan üstün olmaq" bacarıqlarının kökündə bir Tanrı inayətinin dayandığı təsdiqini tapır. Qədim türk inanclarından birində deyildiyi kimi: "Tanrı istəməsə kimsə hökmdar ola bilməz". Ona görə də hər iki dahi haqqında düşünərkən bu məntiqdən doğan hikmətin aparıcılığı mənim üçün böyük önəm təşkil edir.

Şübhəsiz, türk dünyasının əvəzsiz və böyük şəxsiyyəti dahi Heydər Əliyevin həyat və tale payında Tanrı inayətinin mövcudluğunu inkar etmək qeyri-mümkündür. Buna görə də Heydər Əliyev fenomeni öz çəkisinə, öz tutumuna, çoxsahəli fəaliyyət istiqamətlərinə görə fərqlənmiş və Heydər Əliyev qeyri-adiliyinin ilahi bir gücə bağlılığına insanlar həmişə inam nümayiş etdirmişlər. Müasir Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyevin geniş diapazonlu siyasi-ideoloji və milli-mənəvi fəaliyyəti yalnız Azərbaycanı deyil, bütövlükdə türk dünyasını əhatə edir. Ulu Öndərin türkçülük fəaliyyəti bir millət olaraq altı min ildən çox tarixi olan, hazırda geniş coğrafiyalarda məskunlaşan təxminən 301 milyonluq türkün bütün istiqamətlərində ümumtürk həmrəyliyinin inkişafı, möhkəmləndirilməsi və irəliyə doğru aparılması yolunda mühüm əhəmiyyət kəsb edir. Ümummilli Liderin türk xalqlarının ədəbiyyat, geniş mənada mədəniyyət ortaqlığını və əlaqə bağlılığını özündə əks etdirən proqram xarakterli fikirləri bu fəaliyyətin tərkib hissələrindən biridir. Heydər Əliyev türk xalqlarının böyüklüyünü, onun ruhani gücünü, mənəvi zənginliyini, ruhunda yaşayan fərqli milli estetikasını, fikrin bədii ifadə imkanlarının yüksəkliyini və s. bilavasitə onun ədəbiyyatı ilə bağlayırdı. Əbəs yerə deyildir ki, Ulu Öndər türk dünyamızın İbn Sina, Nizami, Nəvai, Y.İmrə, Füzuli, Məxtumqulu, Ç.Aytmatov, M.Şəhriyar və s. kimi əbədiyyət simalarını, habelə "Dədə Qorqud", "Manas", "Alpamış" və s. möhtəşəm dastanlarını xalqlarımızın ümumi mədəni sərvəti hesab etməklə yanaşı, onları həm də dünya mədəniyyətinin ecazkar simaları və nümunələri səviyyəsində dəyərləndirirdi: "Qədim dövrlərdə "Dədə Qorqud", "Manas", "Alpamış", "Koroğlu" dastanları, xalqımızın hamısına mənsub olan dahi şairlərimiz, yazıçılarımız – Nizami, Yunis İmrə, Əlişir Nəvai, Füzuli, Nəsimi, Məxtumqulu, Abay və digərləri xalqımızın tarixini, mənəvi dəyərlərini əks etdirir, xalqımızı dünyaya tanıdan ölməz əsərlər yaratmışlar". Qürurla demək lazımdır ki, Azərbaycançılıq, Türkçülük, Turançılıq Heydər Əliyevin dövlətçilik və milli ideoloji konsepsiyasının aparıcı xəttində dayanırdı. Ulu Öndər bu konsepsiya daxilində ümumtürk ədəbiyyatı məsələlərinə dövlətçilik mənafeyi baxımından yanaşır, ortaq ədəbiyyatı, ortaq mədəniyyəti türk dünyasının birliyi üçün mühüm vasitə hesab edirdi. Ulu Öndər haqlı olaraq türk xalqlarının tarix boyu yaratdıqları mədəni abidələri, mənəvi irs nümunələrini ümumtürk kontekstindən dəyərləndirmək üçün




həm tarixi yenidən qiymətləndirmək, həm də ədəbi-mədəni inteqrasiyasını genişləndirmək təşəbbüsü ilə çıxış edirdi. Çünki Ulu Öndər türkün hər bir ədəbi-mədəni irs nümunəsində kökü bir dilə, bir mənəviyyata və bir mədəniyyətə bağlılığı görür və bunun tarixi ortaq mahiyyətinə xüsusi diqqət ayırırdı. Məsələn, dahi Heydər Əliyev təkcə Azərbaycanın deyil, o cümlədən türk dünyasının böyük şairi M.Füzuli sənətindən danışarkən onun sənət estetikasının mahiyyətini açıqlamaqla yanaşı, Füzuli yaradıcılığında əxz olunan milli yaşantıların əhəmiyyətini də göz önündə canlandırırdı. Heydər Əliyev 1994-cü ildə Füzulinin 500 illiyi ilə əlaqədar Türkiyə Böyük Millət Məclisində etdiyi çıxışda belə deyirdi: "Füzuli keçmişdə də türkləri birləşdirən bir şəxsiyyət olmuşdur. Amma indi türk dünyası XX əsrdə parçalanmış olduğu halda, türk dünyasına mənsub ölkələrin, demək olar ki, tam əksəriyyətinin (bir Türkiyədən savayı) onların həyatına, tarixinə, adət-ənənələrinə uyğun olmayan rejimlər içərisində yaşadığı vaxtda Füzuli bizi yaşadaraq bu günlərə gətirib çıxarmışdır". Sitatdan göründüyü kimi Ulu Öndər Heydər Əliyev türk kimliyinin formalaşmasında və türk kimliyinin bütövləşməsində ruhi-mənəvi varlığın vacibliyinə xüsusi önəm vermiş və bu xüsusda ədəbiyyatın rolunu hər şeydən üstün tutmuşdur. Bu mənada Ulu Öndər Heydər Əliyev milli siyasətinin tərkib hissəsinə çevrilən ədəbiyyat siyasətinin mahiyyətində türk xalqları ədəbiyyatının ədəbi-mədəni potensialının böyüklüyünün təsdiqi və təbliği mühüm yer tutur. Ulu Öndər istər Azərbaycan, istərsə də türk dünyasının istənilən coğrafiyasında yazıb-yaradan sənət dahilərimizin yaradıcılıqlarını türkün özünü tanıma və özünü tanıtma yolunda tarixi hadisə hesab edir.

TÜRKSOY çərçivəsində Türk dünyası yazıçılarının 6 noyabr 1996-cı ildə Bakıda keçirilən III qurultayında Ümummilli Lider Heydər Əliyevin tarixi çıxışı ümumtürk ədəbiyyatı problemlərini vahid türk mədəniyyəti hadisəsi tipində dəyər verməsinin əyani təzahürüdür: "Xalqlarımızın böyük tarixini yenidən qiymətləndirmək, hər bir xalqın tarix boyu yaratdığı mənəvi dəyərləri, mədəniyyət abidələrini bütün xalqlar üçün doğma etmək bizim bu görüşlərin mərkəzində duran vəzifələrdir. Bizim köklərimiz bir dilə, bir mənəviyyata, bir dinə bağlı olduğuna görə çox dərindir və mənəvi dəyərlərimiz tarixin bütün mərhələlərində nə qədər çətinliklərlə rastlaşsa da, dayanmayıb, inkişaf edir. İndi isə türkdilli xalqların müstəqil dövlətləri olduğuna görə və bizim əlimizdə böyük imkanlar yarandığına görə bu prosesləri daha da gücləndirə, daha da mütəşəkkil edə bilərik. Bu, bizim borcumuzdur".

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə türk mədəniyyət abidələri ilə bağlı beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi bilavasitə türk milli-mənəvi ideologiyasının dünya arenasında təbliği baxımından əlamətdardır. 2000-ci ilin aprelində Azərbaycan və ortaq türk epos nümunəsi olan "Kitabi-Dədə Qorqud"un YUNESKO səviyyəsində 1300 illik yubileyinin keçirilməsi türk dünyası üçün böyük ədəbi-siyasi, elmi-mədəni hadisə olmaqla yanaşı, həm də Ulu Öndərin dövlətçilik və türkçülük ideologiyasına bağlılığının göstəricisi idi. Ulu Öndərin təşəbbüsü ilə ərsəyə gələn bu tədbir mədəniyyətimizin qədim və böyüklüyünü təsdiqləmək, eyni zamanda dünya türklərini ortaq bir ideya ətrafında birləşdirmək məqsədi daşıyırdı: "Bu gün Azərbaycan xalqı möhtəşəm "Kitabi Dədə Qorqud" eposunun 1300 illiyini böyük bayram kimi təntənə ilə qeyd edir. Bu yubiley bizim üçün, bəşər mədəniyyəti üçün müstəsna əhəmiyyəti olan bir tarixi hadisədir. Bu bizim tarixi köklərimizə, milli ənənələrimizə, milli-mənəvi dəyərlərimizə, mədəniyyətimizə, elmimizə, xalqımızın çoxəsrlik tarixinə olan hörmət, ehtiram bayramıdır. Bu bizim milli azadlığımızın, dövlət müstəqilliyimizin bayramıdır". Sitat türk xalqlarının vahid milli tarix, milli mənəviyyat, milli ədəbiyyat, milli adət-ənənə, milli-mənəvi dəyər və s. fikirləri ifadə etmək baxımından əlamətdardır və təbii olaraq Ulu Öndər Heydər Əliyevin Azərbaycançılıq və Türkçülük ideoloji konsepsiyasının göstəricisidir.




Heydər Əliyev türk xalqları ədəbiyyatı problemlərindən danışarkən, ayrı-ayrı yaradıcı şəxsiyyətlərdən söhbət açarkən məsələyə həm ədəbi, həm də tarixi baxımdan yanaşmış, türk xalqlarının həm siyasi, həm də mədəni həyatında rolu olan yazıçı və şairlərin fikirlərinin bütün zamanlar üçün əhəmiyyət daşıdığını xüsusi qeyd etmişdir. Keçən əsrin 90-cı illər tədbirləri sırasında türkmən şairi Məxtimqulunun, qazax şairi və mütəfəkkiri Abay Kunanbayevin, özbək hökmdarı və siyasi lideri Əmir Teymurun, türk dünyasının digər dahi şəxsiyyətləri olan İbn Sinanın, Nizaminin, C.Ruminin, Nəvainin, Y.İmrənin, Mahmud Kaşğarlının və s. yubiley mərasimlərində Ulu Öndərin çıxış və təbrik məktublarında adları sadalanan şəxsiyyətlərə türk milli bütövlüyü, türk milli əxlaqı, türk milli dəyərləri və s. daxilində münasibət bildirilmiş və bu dahilər zəngin ümumtürk mənəvi irsinin nümayəndələri kimi dəyərləndirilmişdir. Ulu Öndər Heydər Əliyevin XIX əsrin sonu XX əsrin əvvəlində Krım-tatar ədəbiyyatının görkəmli nümayəndəsi, Rusiya müsəlmanlarının lideri, türk millətinin atası və müəllimi, xalq maarifi islahatçısı, tatar milli mətbuatının banisi İsmayıl bəy Qaspiralının "dildə, fikirdə, işdə birlik" ideyasını xatırlaması təsadüfi deyildir. Heydər Əliyev İ.Qaspiralının bu sözlərini böyük keşməkeşlər yaşamış türklər üçün əhəmiyyətli sayır, reallaşacağı təqdirdə irəli sürülən ideyanın türk xalqlarının həyatı üçün vacibliyinə xüsusi diqqət ayırır: "XX əsrin əvvəllərində türk xalqlarını yaxınlaşdırmaq, onları vahid siyasi, iqtisadi və mədəni gücə çevirmək istəyən görkəmli şəxsiyyətlərimiz "dildə, fikirdə, əməldə birlik" şüarı ilə çıxış edirdilər. Biz uzun mübarizələrdən sonra XX əsrin sonunda bu imkana nail olduq. Şübhəsiz, indiki şəraitdə türkdilli dövlətlərin qarşılıqlı əməkdaşlığı bu sahədəki uğurlarımızı daha da artıracaqdır".

Heydər Əliyev bütün zamanlarda türk birliyindən danışarkən onun mədəni birliyinə xüsusi önəm vermiş, xalqların mədəni birliyini onun dili, keçmişi və adət-ənənələri ilə sıx bağlamışdır. Bu mənada Ulu Öndər hər hansı türk yazıçı və şairindən söhbət açanda onun mənsub olduğu xalqla yanaşı, digər türk xalqları ilə də bağlılığına daha çox önəm vermişdir. Təsadüfi deyil ki, Heydər Əliyev Nizami, Füzuli, Nəsimi, Y.İmrə, Nəvai, A. Kunanbayev, Məxtimqulu və onlarla digər türk sənətkarlarını sırf milli türk (Azərbaycan, Türkiyə,özbək, qazax, türkmən) kontekstindən deyil, ümumtürk kontekstində də təqdim etməyi vacib sayır. Məsələn, XIX əsr qazax ədəbiyyatının görkəmli nümayəndəsi Abay Kunanbayevin şəxsiyyəti və bədii yaradıcılığından danışarkən Ulu Öndər onun yaradıcılıq mənsubiyyətini dünya, ümumtürk, qazax və Azərbaycanla əlaqələndirir və bu cür çoxşaxəli mənsubluğun arxasında dahiliyin dayandığını nəzərə çatdırmaq istəyir: “Abay, onun yaradıcılığı bütün bəşəriyyətə, bütün xalqlara məxsusdur. Təbii ki, bu, qazax xalqının fəxri, qazax xalqının xoşbəxtliyidir. Çünki, onun belə görkəmli övladı, alimi, maarifçisi var və o, öz xalqını xoşbəxtliyə və firavanlığa aparan düzgün yol göstərmişdir. Bununla yanaşı, o, bütün bəşəriyyətə, eyni zamanda Azərbaycan xalqına məxsusdur.”

Bildiyimiz kimi, Abay Kunanbayev bir şair və bir yazıçı olaraq XIX əsr qazax modern ədəbiyyatının qurucusu olmuş, ədəbiyyata mövzu, forma, dil, üslub, vəzn yenilikləri gətirmiş qüdrətli söz ustadıdır. Xalq şeiri ənənələrinə bağlılığı, realist təsvir üsullarının zənginliyi, maarifçilik ideyalarının və milliliyin təbliği, ictimai bərabərsizliyə, sosial eybəcərliyə, savadsızlığa, cəhalətə, xurafata və s. tənqidi münasibəti baxımından üstün mövqe tutan Abay Kunanbayev sənəti ilə həqiqi mənada, Ulu Öndərin sözləri ilə desək, “qazax xalqının fəxri, qazax xalqının xoşbəxtliyidir”. Göründüyü kimi, ədəbiyyatşünaslıq və fəlsəfi mühakimə ölçüləri daxilində Abay Kunanbayevin materialist alim və maarifçi-realist sənətkar olaraq dəyərləndirilməsi, bədii-ictimai qayəsinə görə yaradıcılığının mənsub olduğu xalqın milli bədii sərvəti hesab edilməsi Heydər Əliyev dühasının ortaya qoyduğu dəyərlər səviyyəsində əhəmiyyətlidir. Bu mənada türk xalqları ədəbiyyatı problemlərinə yanaşmasında Heydər Əliyev həm də filosof-araşdırmaçı təsiri bağışlayır. Ulu Öndər “tarixi araşdıranda gördüm ki, Güney Azərbaycan, Quzey Azərbaycan və İraq-türkmanları bir bütövün parçalarıdır” – deyərkən tarixi mənbələrdə mübahisə predmetinə çevrilən İraq-türkmanlarının etno-kimliyinə aydınlıq gətirmiş, İraqın Kərkük, Mosul, Ərbil, Səlahəddin, Diyala və s yerlərində yaşayan üç milyondan çox oğuz türkünün Azərbaycanla bağlılığını təsdiq etmişdir. Heydər Əliyevin bu fikirləri bir tərəfdən İraq-türkmanlarının milli-etnik kimliyinin, digər tərəfdən isə yaratmış olduqları mənəvi-mədəni irslərinin konturlarını müəyyənləşdirməkdə mühüm rol oynayır. Doğurdan da, biz ümumtürk ədəbiyyatının tərkib hissəsi olan İraq-türkman ədəbiyyatı ilə, Mustafa Cavadın “İraq türklərinin tarixi (1946)”, Hidayət Kamal Bayatlının “İraq-türkman türkcəsi (1996)” və s. tədqiqat kitabları ilə yaxından tanış olduqda İraq türkmanlarının bizimlə eyni kökdən olduqlarının bir daha şahidi olur, problemlə bağlı Ulu Öndər yanaşmasının təsdiqini görürük. İraq-türkman ədəbiyyatının görkəmli nümayəndəsi Əbdüllətif Bəndəroğlu yaradıcılığında da Ulu Öndərin dediyi kimi, azərbaycanlılarla İraq türkmanlarının bir bütövün parçaları olduğu təsdiqini tapır:

*Azərilər səsinə*
*Mənim qəlbim heyrandır.*
*Əslimiz Azər isə*
*Dilim həm də türkmandır*
*Mənim bütün varlığım*
*Ellərimə qurbandır.*

Klassik irsə, klassik ədəbiyyata münasibətlə yanaşı, türk xalqları ədəbiyyatının müasir mərhələsi, bu mərhələnin ayrı-ayrı ədəbi şəxsiyyətlərinin bədii yaradıcılıqları Heydər Əliyevin həmişə maraq dairəsində olmuşdur. Onu da qeyd edək ki, Heydər Əliyev türk xalqları ədəbiyyatının müasir mərhələsindən danışarkən bu mərhələyə daha çox milli özünüdərk, milli oyanış, milli-əxlaqi dəyərlərin üzə çıxarılması məsələləri daxilində münasibət bildirmişdir. Müasir mərhələdə türk dünyamızın ən aparıcı yazarları olan M.Şəhriyar, Ç.Aytmatov, O.Süleymenov kimi ədəbi şəxsiyyətlərin yaradıcılıqlarını dahi Heydər Əliyev milli-fəlsəfi prizmadan dəyərləndirmiş, bu sənətləri milli böyüklüyümüzün təsdiqi baxımından mühüm ədəbi hadisə hesab etmişdir. Ulu Öndərin 1996-cı ilin oktyabr ayında Daşkənd şəhərində dünya şöhrətli qırğız yazıçısı

Çingiz Aytmatovla, 1999-cu ildə Bakıda görkəmli qazax şairi Oljas Süleymenovla görüşlərində ictimai-siyasi problemlərlə yanaşı, onların yaradıcılıq problemlərindən də danışmış, hər iki sənətkarın yaradıcılığı üçün xarakterik olan milli ruh ideallarına xüsusi olaraq toxunmuşdur. Sovet dövründə qadağan olunsa da, Ulu Öndər düzgün olaraq onların sənətlərinin milli qayəsini təşkil edən türkçülük ideyalarını bütün türk dünyası üçün əhəmiyyətli saymış, hər iki sənətkarı türk milli mənliyimizin, türk milli bədii intellektinin nadir simaları hesab etmişdir.

Ulu Şəhriyar yaradıcılığı Heydər Əliyev üçün ən sevimli yaradıcılıq nümunələrindən biri olmuşdur. Təsadüfi deyildir ki, Ulu Öndərə ünvanlanan "sevdiyiniz şair" sualına "Şəhriyar" cavabı Heydər Əliyevin Şəhriyara olan sonsuz ehtiramlarının ifadəsidir. Şəhriyarın 90 illik yubileyi ilə əlaqədar 1996-cı ildə Bakıda keçirilən tədbirdə Ulu Öndərin çıxışı Şəhriyar yaradıcılığı üçün vacib məqamları əhatə etmək və bu yaradıcılığın ədəbi-bədii tutumunu müəyyənləşdirmək baxımından səciyyəvidir. Belə ki, ustad Şəhriyar sənətinin "şərq şeirinin nadir siması", "yeni ədəbi məktəbin banisi", "filosof şair", "vətəndaş şair" və s. kontekstlərdə dəyərləndirilməsi dahi Heydər Əliyev baxışlarında bu yaradıcılığın yeni ədəbi baxış müstəvisində dəyərləndirilməsi üçün perspektivləri müəyyənləşdir.

Türk xalqları ədəbiyyatının yaradıcılıq problemləri Ümummilli Lider Heydər Əliyevin milli ədəbiyyat və milli mədəniyyət siyasətinin başlıca istiqamətlərindən biridir. TÜRKSOY kimi türk mədəni əməkdaşlıq təşkilatının yaradılmasının əsas təşkilatçılarından biri olması, YUNESKO xətti ilə türkü bir daha özünə qaytaran türk dünyası korifeylərinin yubiley tədbirlərinin keçirilməsi, türkçülük ideyalarının təbliğinə həsr edilmiş çoxsaylı konfransların təşkili və s. Heydər Əliyevin türkçülüklə bağlı mədəni layihə və mədəni tədbirlərin həyata keçməsində aktiv və müqayisəolunmaz fəaliyyətindən xəbər verir və Ulu Öndərə yaşadığımız dövrün **"BİR BÖYÜK TÜRK"** adını daşımağa haqq qazandırır.

Heydər Əliyev türk xalqları mədəniyyəti və ədəbiyyatına kompleks yanaşaraq onu türk dünyasını ortaq bir ideya ətrafında birləşdirəcək vasitə kimi dəyərləndirir. Çünki Ulu Öndər söz sənətini etnik mövcudluğun, milli bütövlüyün, milli mənliyin, milli intellektin göstəricisi hesab edir. Heydər Əliyevin milli ideallara söykənən ədəbiyyat siyasəti milli düşüncəli ədəbi proseslə yanaşı, ədəbi tənqid və ədəbiyyatşünaslığın inkişafına da təsirsiz ötüşməmişdir. Ulu Öndər doğru olaraq zaman-zaman formalaşmış milli ruhumuzun, milli ideologiyamızın, milli psixologiyamızın, milli şüurumuzun özünüifadə və təsirinin ədəbiyyatla əlaqəsini xüsusi qeyd edir və bu dəyərləri əxz etmək üçün ədəbi-bədii düşüncələrimizdən bəhrələnməyi vacib sayırdı. Bu mənada Ulu Öndərin türk xalqları ədəbiyyatı ilə bağlı fikirlərini geniş anlamda ümumtürk mədəniyyətinin dünya mədəniyyəti çərçivəsində təbliğinin təntənəsi, eyni zamanda, öz keçmişinə, mənəvi dəyərlərinə sevgi və hörmətin göstəricisi olaraq hər bir türkə ünvanlanan çağırış və vəsiyyəti kimi qəbul etmək borcumuzdur.

**Ədəbiyyat**

1. M.Kaşgari. Divanü lüğət-it türk, I cild, Bakı. 2006

2. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, 2009

3. Heydər Əliyev və ədəbiyyat məsələləri. Xalq qəzeti, 19-25 iyun 1998-ci il

4. Heydər Əliyev və türk dünyası. Mədəniyyət qəzeti, 3 aprel 2013-cü il

5. Mahirə Hüseynova. Missiya. Bakı, 2019

6. Ayşən Sadıqlı. Ümummilli Lider Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, 2013

7. Tərlan Novruzov. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, 2007

**Elman Guliyev**

**Haydar Aliyev and literature**
**(In the context of value to literature of Turkic nations)**

**Abstract**

The creative problems of the literature of the Turkic peoples is one of the main directions of the national literature and national culture policy of the national leader Heydar Aliyev.The Turkic activity of the great leader is of great importance in the development, strengthening and moving forward of the all-Turkish solidarity in all directions of the approximately 301 million Turks who have a history of more than six thousand years as a nation and currently live in large geographical areas.The programmatic ideas of the national leader, which reflect the literary and cultural commonality of the Turkish peoples in a broad sense, are one of the

components of this activity. Literary figures such as Ibn Sina, Nizami, Navai, Y.Imre, Fuzuli, Makhtumgulu, Ch. Aytmatov, M. Shahriyar, etc. as well as magnificent epics as "Dade Gorgud", "Manas", "Alpamysh", etc. of Turkic world were considered and valued at the level of wonderful faces and examples of world culture by Heydar, Aliyev next to being considered the common cultural wealth of our peoples.

Among the events of the 90s of the last century, at the jubilee ceremonies Turkmen poet Makhtimgulu, Kazakh poet and thinker Abay Kunanbayev, Uzbek ruler and political leader Amir Teymur, other geniuses of the Turkic world Ibn Sina, Nizami, J.Rumi, Navai, Y.Imre, Mahmud Kashgarli, etc. were mentioned to the persons whose names were listed in the speeches and congratulatory letters of the great leader was expressed an attitude Turkish national integrity, Turkish national morals, Turkish national values, etc., and these geniuses were valued as representatives of the rich all-Turkish spiritual heritage.

When the great leader talked about any Turkish writer and poet, he gave more importance to his connection with the people he belonged to, as well as with other Turkish peoples. It is no coincidence that Heydar Aliyev presented important Nizami, Fuzuli, Nasimi, Y. Imre, Navai, A. Kunanbayev, Makhtungulu and dozens of other Turkish artists not only from the national Turkish (Azerbaijani, Turkey, Uzbek, Kazakh, Turkmen) context, but also from the all-Turkish context. Even Heydar Aliyev valued the works of literary figures such as M. Shahriyar, Ch. Aytmatov, O.Suleymenov, who are the leading writers of our Turkish world at the modern stage and considered these arts as an important literary event from a national-philosophical perspective in terms of confirming our national greatness. Heydar Aliyev took a complex approach to the culture and literature of the Turkic peoples and valued it as a means to unite the Turkic world around a common idea.

# Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycan Respublikasının xarici siyasətində Körfəz ölkələri (1993-2003-cü illər)

**Sübhan Talıblı**
*AMEA-nın Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, t.ü.f.d., dos.*

**Giriş**

Heydər Əliyevin hakimiyyəti dövründə müstəqil Azərbaycan Respublikasının xarici siyasətinin konseptual əsasları, məqsədi, prinsipləri və əsas istiqamətləri Azərbaycanın 1995-ci il noyabrın 12-də qəbul edilmiş Konstitusiyasında, Heydər Əliyevin etdiyi xarici səfərlərdə, yerli və xarici KİV-ə verdiyi müsahibələrdə, çıxışlarında, xüsusilə də onun yürütdüyü xarici siyasət strategiyasında öz əksini tapmışdır.

Azərbaycan Respublikasının xarici siyasətinin əsas vəzifələri - ölkənin müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü, təhlükəsizliyini qorumaq və bunları beynəlxalq təhlükəsizlik sistemi ilə əlaqələndirmək; mənafeyi Azərbaycanın milli maraqları ilə həmçinin dövlətçilik maraqları ilə uyğun gələn ölkələrlə daha sıx əməkdaşlıq, müttəfiqlik etmək. Bu imkanlardan istifadə edərək beynəlxalq sistemdə mövqeyini bərkitmək; regionda baş vermiş hər hansı bir gərginliyin və ya münaqişələrin aradan qaldırılmasına səy göstərmək; xalqın mənafeyinə uyğun xarici iqtisadi siyasət yeritmək, ölkə iqtisadiyyatını beynəlxalq iqtisadi sistemdə təmsil etmək; xarici ölkələrlə elmi, mədəni, humanitar əlaqələr qurmaq və bu kimi təşkilatlarda fəal iştirak etmək və s. məsələlər olmuşdur.

Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycan Respublikasının xarici siyasətində Körfəz ölkələri arasında siyasi-diplomatik münasibətlərin yaranması, səfirliklərin açılması və fəaliyyəti, dövlət və hökumət başçılarının, dövlət qurumlarının qarşılıqlı səfərləri, parlamentlərarası əlaqələr, eləcə də parlamentlərarası dostluq

qrupunun fəaliyyəti, iqtisadi-ticari və enerji sahədə əlaqələr, beynəlxalq və regional təşkilatlar çərçivəsində əməkdaşlıq, mədəni, elm, təhsil və humanitar sahədə əlaqələr, Müştərək Komissiyanın fəaliyyəti və s. məsələlər mühüm yer tutur.

Azərbaycan Respublikası xarici siyasətində çoxtərəfli diplomatiyasında Körfəz ölkələri ilə BMT və onun ixtisaslaşmış qurumları, Azərbaycan Respublikasının Körfəz ölkələri ilə BMT, İslam Əməkdaşlıq Təşkilatı ( منظمة التعاون الإسلامي)[5], İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO-Economic Cooperation Organization)[6], İCESCO (Islamic World Educational, Scientific and Cultural Organization- منظمة العالم الإسلامي للتربية والعلوم والثقافة)[7], Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Ərəb Dövlətləri Liqası, OPEC (Organisation of the Petroleum Exporting Countries- منظمة الدول المصدرة للنفط), Qoşulmama Hərəkatı və. s. beynəlxalq və regional təşkilatlar çərçivəsində əməkdaşlıq edir.

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə 1994-cü il sentyabrın 20-də Azərbaycanın XX əsr tarixində siyasi, iqtisadi və strateji əhəmiyyətinə görə ən mühüm müqavilələrdən biri - Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş imzalanıb. Bu, neft strategiyasının əsasını təşkil edən, ölkənin gələcəyi üçün yeni perspektivlər açan və sonrakı illərin təcrübəsində öz layiqli tarixi qiymətini alan "Əsrin müqaviləsi"dir. Dəyəri 7,4 milyard dollar olan "Əsrin müqaviləsi"ndə dünyanın 7 ölkəsini (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç və Səudiyyə Ərəbistanı) təmsil edən 11 beynəlxalq neft şirkəti (Amoco, BP, McDermott, UNOCAL, ARDNŞ, Lukoil, Statoil, Türkiyə Petrolları, Pennzoil, Ramco, Delta) iştirak etmişdir. Onlar tezliklə işçi strukturlar – Rəhbər Komitə, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) və Məsləhət Şurası yaratdılar. Həmin strukturlar hüquqi səlahiyyət qazandıqdan, yəni 1994-cü il dekabrın 2-də Azərbaycan Prezidenti xüsusi Fərman imzalayandan sonra fəaliyyətə başladılar. 1994-cü il dekabrın 12-də Milli Məclis "Əsrin müqaviləsi"ni ratifikasiya etdi.[8] Bu baxımdan Azərbaycan enerji diplomatiyasında Fars körfəzi rayonunda dünya neft ehtiyatlarının 2/3-si, qaz ehtiyatlarının 1/3-i yerləşməsi, Ərəb nefti və qazı Qərb ölkələri iqtisadiyyatında mühüm sabitləşdirici amil kimi təsir etməsi, enerji daşıyıcılarının ixracı bu ölkələrin iqtisadi qüdrətini təmin etməsi və siyasi nüfuzunun artmasına təsiri və s. məsələlər ikitərəfli və çoxtərəfli formatda davam etdirilir.

### *Səudiyyə Ərəbistanı Krallığı ilə münasibətlər*

Azərbaycan Respublikasının xarici siyasətində Səudiyyə Ərəbistanı, iki ölkə arasında siyasi-diplomatik münasibətlərin yaranması, hər iki ölkədə səfirliklərin açılması və fəaliyyəti, dövlət başçılarının qarşılıqlı, hökumət qurumlarının səfərləri, iqtisadi-ticari və enerji sahədə əlaqələr, beynəlxalq və regional təşkilatlar çərçivəsində əməkdaşlıq, mədəni, elm, təhsil və humanitar sahədə əlaqələr, iki ölkə arasında Müştərək Komissiyanın fəaliyyəti və s. məsələlər mühüm yer tutur.

Qeyd edək ki, XX əsrin 80-90-cı illərində və XXI əsrin ilk illərində Səudiyyə Ərəbistanı dünyada və regionda baş verən hadisələrlə bağlı öz xarici siyasətində bəzi korrektələr etdi. Əfqanıstana rus-sovet təcavüzü (1979-1989), İran-



[5]https://www.oic-oci.org/home/?lan=ar
[6]https://eco.int/
[7]https://www.icesco.org/en/

[8] Talıblı S.Ə., Mustafayev E. / "Azərbaycan Respublikasının enerji diplomatiyası" (İordaniya Haşimilər Krallığının məşhur "Neyruz" xəbər agentliyində nəşri) - الرئيس الأذربيجاني علييف/هدفنا هو توجيه الأرباح النفطية إلى مصالح ورفاهية الشعب الاذربيجاني في المستقب
https://nayrouz.com/article/164721-
https://nayrouz.com/post.php?id=164721&fbclid=IwAR3RYyyU2Tv0mU3qcYoeqxYmzO4eyUGiDliwKtQIisMnVB5Zdif6RuX4_Dc#.XzbbieX5ICk.whatsapp

İraq müharibəsi (1980-1988), Misir Prezidenti Mühəmməd Ənvar əs-Sədatın öldürülməsi (1918-1981), İsrailin Livana (Lübnan) qoşun yeritməsi (12-14 iyul 2006), İraqın Küveytə təcavüzü (2 avqust 1990), Liviya rəhbəri Müəmmar Qəddafinin (1942-2011) tənqid və təqiblərə məruz qalması və s. kimi hadisələr ilk öncə ərəb dövlətləri ilə münasibətlərə təsir göstərdi.[9]

Qeyd edək ki, Səudiyyə Ərəbistanın krallığının xarici siyasəti haqda ətraflı məlumat ərəb dilində yazılmış "Əs-siyasət-ul-xariciyyə lil-məmləkətil-Arabiyyəti-əs-Səudiyyə fi miəti am. (100 il ərzində Səudiyyə Ərəbistan Krallığının xarici siyasəti)",[10], Həməd ibn Muhəmməd Ali Raşidin "Əs-siyasət-ul-xariciyyə əs-Səudiyyə vəl-əmnu fi mantaqat-il-xalic. (Səudiyyə Ərəbistanın xarici siyasəti və Körfəz regionunda təhlükəsizlik)"[11], Macid ibn Əbdüləziz Turkinin "Əl-əlaqatu-Səudiyyə-sufyətiyyə fi əs-siyasətul-xaricyyə lil məlik Abdul-Aziz. (Kral Əbdül Əzizin xarici siyasətində Səudiyyə-SSRİ əlaqələri)"[12], Əhməd bn Mahmud Sərhəranın "Əs-siyasət-ul xariciyyə fi ahdi əl-məlik Feysəl ibn Əbdüləziz"[13], Əmin Səatinin "Əl-hüdud-ul - əd-duvaliyye lil məmləkətil - Arabiyyəti- əs-Səudiyyə (Səudiyyə Ərəbistan Krallığının beynəlxalq sərhədləri)",[14] "Ət-tənmiyətu əl-müstədəmə lil-məmləkəti əl-Ərəbiyyətil əs-Səudiyyə. Əl-mutəmar fi-siyasətil - xariciyyə lil məmləkətil- Ərəbiyyətil əs-Səudiyyə (Səudiyyə Ərəbistan Krallığının davamlı inkişaf konsepsiyası)"[15] və s. kitablarda verilmişdir.

Səudiyyə Ərəbistanı Krallığı ( المملكة العربية السعودية) Azərbaycan Respublikasının müstəqilliyini 1991-ci il dekabr 30-da tarixində tanımış, 1992-ci il fevral ayının 24-də iki ölkə arasında diplomatik əlaqələr qurulmuşdur. 1993-cü il yanvarın 27-də Ər-Riyadda Azərbaycanın, Səudiyyə Ərəbistanının isə 1994-cü il noyabrın 21-də Türkiyədə və eyni zamanda Azərbaycanda səfiri akkreditə olunmuş, 1999-cu ilin may ayından səfirliyin müvəqqəti işlər vəkili, iyun ayından isə səfirliyik fəaliyyət göstərmişdir.

Ümummilli Lider Heydər Əliyevin Ərəb dövlətləri içərisində Səudiyyə Ərəbistana 1994-cü il 9-13 iyulda səfəri hər iki ölkə arasındakı münasibətlərdə xüsusi əhəmiyyətə malik olmuşdur. Belə ki, Səudiyyə Ərəbistanı Krallığının İslam və ərəb dünyasında nüfuzu, neft-qaz ehtiyatlarına malik olması, İƏT, KÖƏŞ, ƏDL, OPEC, İslam İnkişaf Bankı, G20 beynəlxalq forumundakı və s. beynəlxalq və regional təşkilatlardakı rolu və iştirakı[16] Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı ilə münasibətlərini şərtləndirən amillərdəndir.[17]

Səudiyyə Ərəbistanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycan haqlı mövqeyini BMT, İƏT, eləcə də digər beynəlxalq və regional təşkilatlar çərçivəsində dəstəkləmiş və Ermənistanla diplomatik əlaqələr qurmamışdır.[18] 1994-1999-cu illərdə azərbaycanlı qaçqın və köçkünlərə kral Fəhdin yardım proqramı çərçivəsində dəfələrlə

---

9İsmayıl R., Axundova N., Bağırova A. Ərəb ölkələrinin çağdaş tarixi. I hissə. Bakı: Xəzər Universiteti nəşriyatı, 2013. - s. 248

10Əs-siyasət-ul-xariciyyə lil-məmləkətil-Arabiyyəti-əs-Səudiyyə fi miəti am. (100 il ərzində Səudiyyə Ərəbistanı Krallığının xarici siyasəti). Vizarat-ul xariciyyə, ər-Riyad. – 1419 h.q., 827 s

11Həməd ibn Muhəmməd Ali Raşid. Əs-siyasət-ul-xariciyyə əs-Səudiyyə vəl-əmnu fi mantaqat-il-xalic. (Səudiyyə Ərəbistanının xarici siyasəti və Körfəz regionunda təhlükəsizlik). ər-Riyad. -2011, - 406 s.

12Macid ibn Əbdüləziz Turki. Əl-əlaqatu-Səudiyyə-sufyətiyyə fi əs-siyasətul-xaricyyə lil məlik Abdul-Aziz. (Kral Əbdül Əzizin xarici siyasətində Səudiyyə-SSRİ əlaqələri). ər-Riyad, h.q. 1436 (2015), - 543 s.

13Əhməd bn Mahmud Sərhəran. Əs-siyasət-ul xariciyyə fi ahdi əl-məlik Feysəl ibn Əbdüləziz. ər-Riyad. – 2007, - 215 s.

14Əmin Səati. Əl-hüdud-ul - əd-duvaliyye lil məmləkətil - Arabiyyəti- əs- Səudiyyə (Səudiyyə Ərəbistanı Krallığının beynəlxalq sərhədləri). Qahirə.- 1991, - 180 s.

15Ət-tənmiyətu əl-müstədəmə lil-məmləkəti əl-Ərəbiyyətil əs-Səudiyyə. Əl-mutəmar fi-siyasətil - xariciyyə lil məmləkətil- Ərəbiyyətil əs-Səudiyyə (Səudiyyə Ərəbsitanı Krallığının davamlı inkişaf konsepsiyası). Nyu-York, - 2018, - 95 s.

16Bax:Əs-siyasət-ul-xariciyyə lil-məmləkətil-Arabiyyəti-əs-Səudiyyə fi miəti am. (100 il ərzində Səudiyyə Ərəbistanı Krallığının xarici siyasəti). Vizarat-ul xariciyyə, ər-Riyad. – 1419 h.q., 827 s.

17Bax: Talıblı S.Ə. İxtisas ölkəsi beynəlxalq münasibətlər sistemində (Səudiyyə Ərəbistanı Krallığı). Bakı Avrasiya Universiteti, BAUU nəşriyyatı, 2018. – 58 s.

18 Talıblı S.Ə. Azərbaycan Respublikasını xarici siyasətində Səudiyyə Ərəbistanı (1991-2003-cü illər). "Heydər Əliyev: Qafqazda sülh və əməkdaşlıq məsələləri" respublika elmi konfransın materialları. Bakı: 3 may 2023, Karvser Tarde MMC, AMEA Qafqazşünaslıq İnstitutu, s. 68-69

ərzaq, dərman və s. humanitar yardımlar edilmişdir.

1995-ci ildə Səudiyyə Ərəbistanı Krallığının ticarət-sənaye Palatasının Prezidenti Şeyx Əbdül Rəhman əl-Carisinin Azərbaycan Respublikasına səfəri zamanı iki ölkənin müvafiq təşkilatları arasında gələcək əməkdaşlıq barədə niyyət protokolu imzalandı. Ölkələrimiz arasında əlaqələr işgüzar, qarşılıqlı faydalı xarakter almağa başladı.[19]

1997-ci il 7 martda yaradılmış Parlamentlərarası əlaqələr üzrə işçi qrupu iki ölkə arasında münasibətlərdə mühüm rol oynamışdır.

İqisadi-ticari və enerji sahəsində əlaqələrin inkişafında 1994-cü il sentyabr 20-də Bakıda "Əsrin müqaviləsi"ndə təmsil olunan Səudiyyə Ərəbistanı Krallığının 2,72% paya sahib olan "Delta-Hess" şirkəti əhəmiyyət kəsb etmişdir.

***Yəmən Respublikası ilə münasibətlər***

Yəmən Respublikası (الجمهورية اليمنية) 30 dekabr 1991-ci ci ildə Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanımış, 25 fevral 1992-ci il ildə diplomatik münasibətlər yaranmışdır.

Yəmən Respublikası BMT və İƏT çərçivəsində Ermənistanın Azərbaycana qarşı təcavüzünü, mədəni-tarixi abidələrimizin dağıdılmasını pisləyən, eləcə də Azərbaycana iqtisadi və humanitar yardımın göstərilməsi ilə bağlı qərarların qəbul edilməsində Azərbaycanı birmənalı olaraq dəstəkləmişdir. Belə ki, 2001-ci ilin dekabr ayında BMT Baş Assambleyasında "BMT ilə ATƏT arasında Əməkdaşlıq" haqqında Qətnamə layihəsində Azərbaycan Respublikasının təqdim etdiyi düzəlişin lehinə səs vermiş 34 dövlətdən biri olmuşdur.20

Yəmən Respublikasının Türkiyə Respublikasında və eyni zamanda, Azərbaycan Respublikasındakı səfiri Əhməd Hüseyn Əl-Başanın 2002-ci il martın 23-də etimadnaməsini Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə təqdim etmişdir.

***Birləşmiş Ərəb Əmirlikləri ilə münasibətlər***

Birləşmiş Ərəb Əmirliklərinin ( **الإمارات العربية المتحدة**) xarici siyasətində Rusiya, Azərbaycan və Mərkəzi Asiya dövlətləri ilə çoxşaxəli münasibətlərə önəm vermiş və onlarında başında iqtisadi əməkdaşlıq dayanmışdır. BƏƏ həmin ölkələrdə bir sıra iqtisadi layihələrin maliyyələşdirilməsində iştirak etmişdir.[21] Birləşmiş Ərəb Əmirlikləri 1991-ci ilin 26 dekabrında Azərbaycan Respublikasının müstəqilliyini tanımış, 1992-ci ilin 1 sentyabrında iki ölkə arasında diplomatik əlaqələr qurulmuşdur. 1994-cü ilin iyun ayında Birləşmiş Ərəb Əmirliklərinin Ankaradakı səfirini Azərbaycana təyin etmişdir. 2001-ci ilin 16 iyun tarixindən etibarən Azərbaycan Respublikasının Səfirliyi BƏƏ-nin paytaxtı Əbu Dabi şəhərində fəaliyyət göstərir. 1994-cü ilin iyun ayında BƏƏ Ankaradakı səfirini Azərbaycana təyin etmişdir. 2015-ci ilin oktyabr ayından BƏƏ-nin Azərbaycanda səfiri Məhəmməd Əhməd Hamel Əl Qubaisi, 2016-cı ilin yanvar ayından Azərbaycanın BƏƏ-də səfiri Daşqın Şikarov olmuşdur.[22]

1994-cü ilin 13 dekabr tarixində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İKT üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Mərakeşin Kasablanka şəhərində keçirilmiş zirvə toplantısı çərçivəsində Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Zayed bin Sultan ali Nəhyanla görüşmüşdür.[23] Azərbaycan Prezidenti ölkəsinə siyasi dəstək verilməsini, qaçqınlara və məcburi köçkünlərə yardım verilməsini xahiş etdi. Qırmızı Aypara Cəmiyyəti, Dar əl-Bər Xeyriyyə Cəmiyyəti (جمعية دار البر)[24], Zayed bin Sultan Əl-Nəhyan xeyriyyə təşkilatı ( مؤسسة زايد بن سلطان آل نهيان للأعمال الخيرية والإنسانية)[25] və digər humanitar təşkilatlarla sıx əlaqələr qurulması istiqamətində tədbirlər həyata keçirildi. 1996-cı ildən Bakıda fəaliyyətə başlayan Dar əl-Bər Xeyriyyə Cəmiyyəti Azərbaycanlı qaçqın və məcburi köçkünlərə 300 tona yaxın ərzaq göndərmişdi.[26]

---

[19]Qasımov M.C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). Bakı: Gənclik, 1996. - s. 85

[20]Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərbaycan nəşriyyatı, 2005. – s. 411

[21]İsmayıl R., Axundova N., Bağırova A. Ərəb ölkələrinin çağdaş tarixi. II hissə - Afrikanın ərəb ölkələri. Bakı,: 2018, "Azpoleqraf", s 378

[22]http://abudhabi.mfa.gov.az/content/51

[23]Heydər Əliyev və Şərq. 6 cilddə. Müəllif tərtibçilər: Qalay Allahverdiyev XİN-in müşaviri, f.e.d. Vəhdət Sultanzadə XİN-in müşaviri. Bakı: Ozan, 2002.

[24]https://daralber.ae/ar/home

[25]https://www.zayedchf.gov.ae/

[26]Qasımlı M.C. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). II hissə. Bakı, Mütərcim, 2015, s.325.

Bundan başqa Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1997-ci ildə İƏT-in VIII Zirvə görüşündə BƏƏ xarici işlər naziri Rəşid Abdulla əl-Nəimi ilə görüşü zamanı ikitərəfli və regional məsələləri müzakirə etməsi, iqtisadi-ticari əlaqələrin genişləndirilməsinin vacibliyini bildirmişdir.

1994-cü ilin oktyabr ayında Azərbaycan Respublikası Milli Məclisi sədrinin başçılıq etdiyi nümayəndə heyəti BƏƏ-yə rəsmi səfər etdi. O, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin məktubunu BƏƏ Prezidenti Şeyx Zayed Bin Sultan Əl Nəhyana təqdim etdi. Məktubda iki ölkə arasında əməkdaşlığın genişləndirilməsinə dair Azərbaycan tərəfinin istəyi ifadə olunmuşdu. Səfər zamanı ikitərəfli münasibətləri genişləndirmək məsələləri müzakirə edildi. Əməkdaşlığa dair Abu-Dabi İnkişaf Fondunun baş direktoru Səid Xalfan Əl Rumeysi ilə sənəd imzalandı. Sənəddə sərmayə qoyuluşu və Azərbaycanda infrastrukturun inkişafına yardımlar edilməsi və s. məsələlər nəzərdə tutulmuşdu.[27]



BƏƏ Dövlət mülki aviasiya departamentinin Prezidenti Əhməd bin Sayyed əl-Məktumun 1997-ci il iyunun 9-11-də Azərbaycana işgüzar səfəri zamanı Bakı-Dubay birbaşa açılan hava xəttini AZAL həyata keçirməyə başlamışdır.

BƏƏ ilə Azərbaycan arasında 1997-ci ildə mal dövriyyəsi 42,9 mln ABŞ dollar, 1998-ci ilə 48, 6 mln ABŞ dollar olmuşdur. Bunun 41,9 mln. dolları idxal, 1,0 mln. dolları isə ixrac idi. 1998-ci ildə ticarət dövriyyəsinin həcmi 48, 6 mln. dollar təşkil etdi. Bunun 45,6 mln. dolları idxal, 3,0 mln. dolları ixrac idi. 1999-cu ildə isə iki ölkə arasında ticarət dövriyyəsinin həcmi azalaraq 21,3 mln dollar oldu. Bunun 12,3 mln. dolları idxal, 9,0 mln. dolları isə ixrac idi. 1993-1999-cu illərdə BƏƏ-dən idxal olunan malların siyahısına əsasən qida məhsulları, tikinti materialları, avtomobillər, kompüterlər və s. daxil idi. Bu dövr ərzində Azərbaycandan BƏƏ-yə məişət texnikası, mis tullantıları, alüminium, maşın avadanlıqları, və onların ehtiyat hissələri, maqnit lentləri və s. ixrac edilmişdi. [28] 2000-c ildə BƏƏ-dən idxal olunan ümumi məhsulun dəyəri 19889,7 min ABŞ dolları, ixrac olunan məhsullar isə 7116,9 min ABŞ dolları təşkil etmişdir.[29]

Ümumiyyətlə, 1993-2003-cü illərdə BƏƏ ilə diplomatik-siyasi münasibətlər qurulmuş və inkişaf etdirilmişdir. BƏƏ-yə münasibətdə Azərbaycanın xarici siyasət məqsədləri formalaşmış, BƏƏ azərbaycanlı qaçqın və məcburi köçkünlərə humanitar yardımlar göndərmiş, Azərbaycanın ərazi bütövlüyü və suverenliyini müdafiə etmiş, iki ölkə arasında ticarət dövriyyəsinin həcmi ildən-ilə artmışdır. BƏƏ Azərbaycandakı infrastruktur layihələrin həyata keçirilməsi üçün kreditlər ayırmışdır. Hər iki ölkə beynəlxalq və regional təşkilatlar çərçivəsində əməkdaşlıq etmişlər.

### *Küveyt Dövləti ilə münasibətlər*

Küveyt Dövləti (دولة الكويت) 30 oktyabr 1992-ci ildə Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanımış, 7 oktyabr 1994-cü ildə iki ölkə arasında diplomatik münasibətlərin qurulması haqqında Protokol imzalanmışdır. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 01 sentyabr 2004-cü il tarixli 317 saylı Sərəncamı ilə Şahin Abdullayev Küveytdə səfir təyin edilmişdir. 14 dekabr 2006-cı ildə isə Fəhd Saad əl-Meynin Küveytin Azərbaycan Respublikasında səfiri təyin edilmişdir. Heydər Əliyev Küveyt dövlətinin əmiri Şeyx Cabir əl-Əhməd əl-Cabir əs-Sabaha məktub göndərərək ikitərəfli münasibətləri inkişaf etdirmək arzusunu bildirdi, Ermənistanın Azərbaycana təcavüzünün ağır nəticələri BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələri, ATƏT, İƏT səyləri barədə yazmış, Azərbaycanın haqq işini dəstəklədiyi üçün bu ölkəyə təşəkkürünü bildirmiş və

[27]Yenə orada, s.324.

[28]Qasımlı M.C. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). II hissə. Bakı, Mütərcim, 2015, s.325.

[29]Məmmədov Z.S. (2002).XXI əsr: İqtisadi inkişafın nəqliyyat faktoru. Bakı: Azərnəşr, s.321-336.

Küveyt əmirini Azərbaycana rəsmi səfərə dəvət etmişdi.[30]Heydər Əliyevin Nyu-Yorkda Küveyt əmiri ilə görüşdəki danışıqların nəticəsinə uyğun olaraq Küveyt azərbaycanlı qaçqın və məcburi köçkünlərə yardım etməyə başladı. 1995-ci ildə Azərbaycanda nümayəndəliyini açan Küveytin Asiya Müsəlmanları Komitəsi qaçqın və məcburi köçkünlərə, yetim uşaqlara yardım edir, maarif, elm və mədəniyyət sahəsində də xeyriyyəçilik tədbirləri həyata keçirirdi. Bundan başqa Küveytin təhsil üzrə Babteyn fondu (مؤسسة عبد العزيز سعود البابطين الثقافية)[31] Misirin əl-Əhzar Universitetində təhsil alan bir neçə azərbaycanlının təhsil xərclərini öz üzərinə götürmüşdü.[32]

28 may 1995-ci ildə Küveyt Milli Məclisi (مجلس الأمة الكويتي) 4 nəfərdən ibarət Küveyt-Azərbaycan parlamentlərarası dostluq qrupunun təşkili haqqında qərar qəbul etmişdir. Küveyt tərəfdən qrupunun rəhbərləri Camal Hüseyn Fahat əl-Ömər, Vəlid Əl-Təbatəbayi, Saud Naşmi Əl-Harici, Saud Əl-Hureyci, Valid Musaed Təbatəbai olmuşlar. Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında "Azərbaycan Respublikası Milli Məclisinin 4 mart 2016-cı il, "Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının yaradılması haqqında" Azərbaycan Respublikası Milli Məclisinin 7 mart 1997-ci il tarixli qərarları qəbul edilmişdir. Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan-Küveyt parlamentlərarası əlaqələr üzrə işçi qrupların rəhbərləri 7 mart 1997-ci ildən Ş.Əliyev, 4 mart 2016-cı ildən H.Mirələmov, 24 aprel 2020-ci ildən V.Əhmədov olmuşdur.

1996-cı ilin mayında AR MM-in sədrinin başçılıq etdiyi nümayəndə heyətinin Küveytə səfəri zamanı Küveyt dövlətinin əmiri Şeyx Cabir əl-Əhməd əl-Cabir əs-Sabah, Küveyt Milli Məclisinin sədri Abullah əs-Səlim Əs-Sabah, Küveytin baş nazirinin birinci müavini və xarici işlər naziri Şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabah ilə görüşmüş, danışıqlar zamanı iki ölkə əməkdaşlığın bütün sahələrdə genişləndirilməsinin vacibliyi vurğulanmışdır.[33]

1997-ci il 7 martda yaradılmış Parlamentlərarası əlaqələr üzrə işçi qrupu iki ölkə arasında münasibətlərdə mühüm rol oynamışdır. Azərbaycan Respublikasının Milli Məclisində Azərbaycan-İordaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupu 5 dekabr 2000-ci il tarixində yaradılmış və ilk rəhbəri Vəsadət Əzizov olmuşdur.

2001-ci ilin 24-28-də Azərbaycanda səfərdə olan Küveyt-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Camal Hüseyn Fahat əl-Öməri və nümayəndə heyətini Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev qəbul etmişdir. [34]Dostluq qrupunun rəhbəri Camal Hüseyn Fahat əl-Öməri iki ölkə arasında əlaqələrin inkişafını yüksək qiymətləndirmiş, Ermənistanın Azərbaycana təcavüzünü pisləmiş, ABŞ-da törədilmiş terror aktlarını müsəlman ölkələri ilə eyniləşdirməyin əleyhinə çıxmışdır.[35]

Küveytlə Azərbaycan arasında əlaqələr ikitərəfli və çoxtərəfli əməkdaşlıq BMT, İƏT və s. beynəlxalq və regional təşkilatlar çərçivəsində də davam edir.[36]



[30]Qasımlı M.C. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). II hissə. Bakı, Mütərcim, 2015, s.334; bax: ARXİN.06.06.1994-26.11.1996. Qovluq №21, v. 77-78

[31]https://www.albabtaincf.org/

[32]Qasımlı M.C. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). II hissə. Bakı, Mütərcim, 2015, s.335.

[33]Hüseynova T.Q. Azərbaycan Respublikasının Körfəz Ölkələri Əməkdaşlıq Təşkilatı üzvü olan Dövlətlərlə münasibətləri. Bakı: 2015

[34]Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Küveyt Parlamentinin nümayəndə heyətini qəbul etmişdir. – Azərbaycan xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə, s. 890-894.

[35]Qasımlı M.C. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). II hissə. Bakı, Mütərcim, 2015, s. 336

[36]Talıblı S.Ə. Azərbaycan Respublikası ilə Küveyt Dövləti arasında münasibətlər / Bakı Avrasiya Universitetinin təşkil etdiyi "Azərbaycanın zəfəri və sosial, siyasi – iqtisadi inkişaf perspektivləri" adlı Respublika Elmi konfransı. Bakı: 26 aprel 2023-cü il

Azərbaycan Dövlət Statistika Komitəsinin hazırladığı 2000-ci ilin idxal və ixrac materiallarına əsasən Küveytdən Azərbaycana gətirilən məhsulların əsasını 30,3%, kimya və neft kimya sənayesi məhsulları 18.5%, yüngül sənaye məhsulları 11,4%, metallurgiya sənaye məhsulları 10,3%, qalan faiz isə digər məhsulların payına düşmüşdür. Ümumiyyətlə, 2000-ci ildə Küveytdən Azərbaycana 257,1 min. ABŞ dolları dəyərində müxtəlif çeşidli sənaye məhsulları idxal və ixrac edilmişdir.[37]

10 fevral 2009-cu il tarixində Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında Əməkdaşlıq üçün Birgə Komissiyanın yaradılması (əl-Küveytdə) ikitərəfli əlaqələrin inkişafında önəmli rolu vardır. Komissiyanın 10 yanvar 2011-ci ildə Əl-Küveyt şəhərində I iclası, 14 fevral 2013-cü ildə Bakı şəhərində II iclası keçirilmişdir.

Ümumiyyətlə, 1993-2003-cü illərdə Azərbaycanın Küveytlə əlaqələrdə iki ölkə arasında siyasi-diplomatik münasibətlərin inkişafı, qarşılıqlı dövlət və hökumət rəhbərlərinin səfərləri, azərbaycanlı qaçqın və məcburi köçkünlərə humanitar yardımların edilməsi, parlamentlərarası əlaqələrin inkişaf etdirilməsi, Küveytin Azərbaycanda həyata keçirilən layihələrə kreditlərin ayrılması, Küveytin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsi, Ermənistanın Azərbaycana təcavüzünü pisləməsi, ticari-iqtisadi əlaqələrin inkişafı və s. məsələlər mühüm yer tutmuşdur.[38]

***Qətər Dövləti ilə münasibətlər***

Qətər Dövləti (دولة قطر) ilə Azərbaycan Respublikası arasında diplomatik münasibətlər 14 sentyabr 1994-cü ildə qurulmuşdur. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 28 sentyabr 2002-ci il tarixli fərmanına əsasən Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanındakı Səfiri E.Araslı, eyni zamanda Qətər Dövlətində fövqəladə və səlahiyyətli səfir təyin edilmişdir. 2007-ci ildə Azərbaycan Respublikasının Dohada, Qətər Dövlətinin isə Bakıda səfirliyi fəaliyyətə başlamışdır.[39] Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 28 dekabr 2022-ci il tarixli Sərəncamı ilə Mahir Əliyev Qətər Dövlətində fövqəladə və səlahiyyətli səfir təyin edilmişdir.[40]

Qətərin xarici siyasəti üçün onun ərəb ölkələri ilə münasibətinin əhəmiyyəti böyükdür. Ərəb həmrəyliyinin qəti tərəfdarı olan Qətər Yaxın Şərq probleminin nizamlanmasında prinsipial mövqe tutur. İsrail tərəfindən işğal olunmuş bütün ərəb torpaqlarının qaytarılmasını və müstəqil Fələstin dövlətinin yaradılmasını tələb edir. O, həmçinin İran körfəzində sabit vəziyyətin qorunub saxlanılmasının tərəfdarıdır. Qətərin xarici siyasətində İran körfəzi sahilinin digər ərəb ölkələri ilə münasibəti xüsusi yer tutur. 1981-ci ildən İran körfəzi ərəb dövlətlərinin Əməkdaşlıq Şurası yaradıldıqdan sonra bu münasibətlər keyfiyyətcə yeni səviyyə almışdır. Qətərin hakim dairələri qeyd edirlər ki, Şura çərçivəsində əməkdaşlıq ölkənin müstəqil iqtisadi inkişafını və təhlükəsizliyini təmin edir. Qətər dövləti də Şuranın üzvü olan ölkələrin "Ümumi bazar"ının yaradılmasının fəal tərəfdarıdır.[41]

2000-ci il noyabrın 12-14-də Qətərin paytaxtı Dohada keçirilmiş İslam Konfransı Təşkilatının dövlət və hökumət başçılarının IX Zirvə Toplantısında Azərbaycan Respublikasının Xarici işlər naziri V. Quliyev iştirak etmişdir.[42]

2002-ci ilin oktyabr ayında Azərbaycanın milli təhlükəsizlik naziri Namiq Abbasov, 2005-ci ildə müdafiə naziri S.Əbiyev Qətər Dövlətində rəsmi səfərdə olmuşdur. Ümumiyyətlə, iki dövlət rəhbərləri arasında mütəmadi olaraq məktublaşma mübadiləsi aparılmış, hökumətlərarası bir sıra hüquqi-normativ sənədlər imzalanmışdır.

Azərbaycan Respublikasının Milli Məclisində Azərbaycan-Qətər parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir.[43]

---

[37]Azərbaycan Dövlət Statistika Komitəsinin 2000-ci ilin malların idxal və ixracına dair Göstəricilər. Bakı: 2001

[38]Talıblı S.Ə. Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycan Respublikasının Körfəz ölkələri ilə münasibətləri / "Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurucusudur" mövzusunda beynəlxalq elmi konfrans. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyası. Bakı, 5 may 2023-cü il

[39]https://doha.mfa.gov.az/az/content/3/ikiterefli-munasibetler

[40]https://president.az/az/articles/view/58420

[41]Soltanova H.B., Məmmədov C.A. Yaxın və Orta Şərq ölkələrinin iqtisadi və sosial coğrafiyası. Bakı: Bakı Universiteti nəşriyyatı, 2008. s. 135.

[42]Həsənov Ə. M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərbaycan nəşriyyatı, 2005. - s. 408

[43]https://e-qanun.az/framework/32253

### *Oman Sultanlığı ilə münasibətlər*

Oman Sultanlığı (سلطنة عمان) 30 dekabr 1992-ci ildə Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanımış, 13 iyul 1993-cü ildə iki ölkə arasında diplomatik münasibətlər qurulmuşdur.[44] Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 28 sentyabr 2002-ci il tarixli fərmanına əsasən Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanındakı səfiri E.Araslı həm də Oman Sultanlığında fövqəladə və səlahiyyətli səfir təyin edilmişdir.

Oman Sultanlığı BMT Baş Assambleyasının 59-cu sessiyası zamanı Ermənistanın təcavüzü nəticəsində işğal olunmuş Azərbaycan ərazilərində vəziyyətlə əlaqədar Azərbaycan tərəfindən irəli sürülmüş təklifi dəstəkləmişdir. Omanın kütləvi informasiya vasitələrində Azərbaycan haqqında məlumatlar Ermənistan-Azərbaycan münaqişəsinə dair materialları dərc edilmişdir.

2003-cü ilin yanvarında “Azərbaycan Hava Yolları” Dövlət Konserninin nümayəndə heyəti Oman tərəfinin dəvəti ilə Məsqət şəhərinə səfər etmiş və Oman Sultanlığının Mülki Aviasiya və Meteorologiya Baş direktorluğunun nümayəndələri ilə görüşmüşdür. Səfər əsnasında tərəflər “Azərbaycan Respublikası Hökuməti ilə Oman Sultanlığı Hökuməti arasında hava əlaqəsi haqqında Saziş” layihəsini müzakirə etmiş və hava nəqliyyatı sahəsində ikitərəfli münasibətlərin gələcək perspektivləri ilə əlaqədar fikir mübadiləsi aparmış, diplomatik kanallar vasitəsilə gələcəkdə də əlaqə saxlamaq barədə razılığa gəlmişdilər.[45]

### *Bəhreyn Krallığı ilə münasibətlər*

Azərbaycan Respublikası ilə Bəhreyn Krallığı (مملكة البحرين)[46] arasında diplomatik münasibətlər 6 noyabr 1996-cı ildə qurulmuşdur.

Bəhreyn xarici siyasətində ABŞ, Böyük Britaniya, Fransa, AFR, İsveçrə, Səudiyyə Ərəbistanı, Körfəz ölkələri, Hindistan, Yaponiya, Koreya Respublikası və s. kimi ölkələrlə geniş siyasi-iqtisadi münasibətlər qurmuşdu. Daxili siyasi sabitliyi möhkəmlətmək, iqtisadi və sosial inkişafa nail olmaq sahəsində Bəhreyn dövlətinin göstərdiyi fəaliyyət onun xarici siyasət kursunun da formalaşmasında əsaslı amil olmuşdu. Müstəqilliyin ilk illərindən Bəhreyn BMT, Ərəb Dövlətləri Liqası, İslam Əməkdaşlıq Təşkilatı və s. beynəlxalq və regional təşkilatların üzvü olmuş, onların fəaliyyətində yaxından iştirak edirdi.[47]

Azərbaycan Respublikası Prezidentinin 28 sentyabr 2002-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı fövqəladə və səlahiyyətli səfiri Elman Araslı iqamətgahı ər-Riyad şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Bəhreyn Dövlətində fövqəladə və səlahiyyətli səfiri təyin edilmişdir.[48]

Azərbaycan Respublikasının Milli Məclisində Azərbaycan-Bəhreyn parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir.[49]

### Nəticə

Heydər Əliyev tərəfindən həyata keçirilən Azərbaycan Respublikasının xarici siyasətində Körfəz ölkələri arasında siyasi-diplomatik, iqtisadi-ticari, elmi-mədəni əlaqələrin qurulması və inkişaf etdirilməsi milli maraqlarımız və dövlətçiliyimiz baxımdan xüsusi əhəmiyyət kəsb etmişdir. Azərbaycan həqiqətlərinin çatdırılması, ərazi bütövlüyümüzə dəstəyin əldə olunması, investisiyaların cəlb olunması, Azərbaycan mədəniyyətinin təbliğ olunması, enerji sahəsində əməkdaşlıq inkişaf etdirilməsi, qarşılıqlı sərmayələrin qoyulması və s. məsələlərdə əhəmiyyət kəsb etmişdir.

Bundan başqa Ümummilli Lider Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycan Respublikasının xarici siyasətində Körfəz ölkələri ilə beynəlxalq və regional təşkilatlar çərçivəsində - BMT, İslam Əməkdaşlıq Təşkilatı, ECO, KÖƏŞ, ƏDL, ICESCO, OPEC, İslam İnkişaf Bankı, Qoşulmama Hərəkatı (NAM), və s. əməkdaşlıq əhəmiyyətli rol oynamışdır.

---

[44] https://riyadh.mfa.gov.az/az/content/57/azerbaycan-oman-sultanligi

[45] Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərbaycan nəşriyyatı, 2005, s. 408

[46] 1782-ci ildən əl-Xəlifə sülaləsi tərəfindən idarə olunan Bəhreyn konstitusiyalı monarxiya quruluşuna malik ölkədir. Böyük Britaniya 1971-ci il avqustun 14-də Bəhreynin istiqlaliyyətini tanıdıqdan sonra digər dövlətlər də tanıyır. Bəhreynin 1973-cü ilin dekabrında həm konstitusiyası qəbul olunmuş, həm də Milli Məclisə seçkilər keçirilmişdir.

[47] İsmayıl R., Axundova N., Bağırova A. Ərəb ölkələrinin çağdaş tarixi. I hissə. Bakı: Xəzər Universiteti nəşriyyatı, 2013. - S. 342.

[48] https://e-qanun.az/framework/903

[49] https://e-qanun.az/framework/32253

## Ədəbiyyat siyahısı

1. https://www.oic-oci.org/home/?lan=ar
2. https://eco.int/
3. https://www.icesco.org/en/
4. Talıblı S.Ə., Mustafayev E. / "Azərbaycan Respublikasının enerji diplomatiyası" (İordaniya Haşimilər Krallığının məşhur "Neyruz" xəbər agentliyində nəşri) - الرئيس الأذربيجاني علييف/هدفنا هو توجيه الأرباح النفطية إلى مصالح ورفاهية الشعب الاذربيجاني في المستقب https://nayrouz.com/article/164721- https://nayrouz.com/post.php?id=164721&fbclid=IwAR3RYyyU2Tv0mU3qcYoeqxYmzO4eyUGiDliwKtQIisMnVB5Zdif6RuX4_Dc#.XzbbieX5ICk.whatsapp
5. İsmayıl R., Axundova N., Bağırova A. Ərəb ölkələrinin çağdaş tarixi. I hissə. Bakı: Xəzər Universiteti nəşriyatı, 2013. –400 s.
6. Əs-siyasət-ul-xariciyyə lil-məmləkətil-Arabiyyəti-əs-Səudiyyə fi miəti am. (100 il ərzində Səudiyyə Ərəbistan Krallığının xarici siyasəti). Vizarat-ul xariciyyə, ər-Riyad. – 1419 h.q., 827 s.
7. Həməd ibn Muhəmməd Ali Raşid. Əs-siyasət-ul-xariciyyə əs-Səudiyyə vəl-əmnu fi mantaqat-il-xalic. (Səudiyyə Ərəbistanın xarici siyasəti və Körfəz regionunda təhlükəsizlik). ər-Riyad. -2011, - 406 s.
8. Macid ibn Əbdüləziz Turki. Əl-əlaqatu-Səudiyyə-sufyətiyyə fi əs-siyasətul-xaricyyə lil məlik Abdul-Aziz. (Kral Əbdül Əzizin xarici siyasətində Səudiyyə-SSRİ əlaqələri). ər-Riyad, h.q. 1436 (2015), - 543 s.
9. Əhməd bn Mahmud Sərhəran. Əs-siyasət-ul xariciyyə fi ahdi əl-məlik Feysəl ibn Əbdüləziz. ər-Riyad. – 2007, - 215 s.
10. Əmin Səati. Əl-hüdud-ul - əd-duvaliyye lil məmləkətil - Arabiyyəti- əs- Səudiyyə (Səudiyyə Ərəbistan Krallığının beynəlxalq sərhədləri). Qahirə.- 1991, - 180 s.
11. Ət-tənmiyətu əl-müstədəmə lil-məmləkəti əl-Ərəbiyyətil əs-Səudiyyə. Əl-mutəmar fi-siyasətil - xariciyyə lil məmləkətil- Ərəbiyyətil əs-Səudiyyə (Səudiyyə Ərəbsitan Krallığının davamlı inkişaf konsepsiyası). Nyu-York, - 2018, - 95 s.
12. Talıblı S.Ə. İxtisas ölkəsi beynəlxalq münasibətlər sistemində (Səudiyyə Ərəbistanı Krallığı). Bakı Avrasiya Universiteti, BAUU nəşriyyatı, 2018. – 58 s.
13. Talıblı S.Ə. Azərbaycan Respublikasını xarici siyasətində Səudiyyə Ərəbistanı (1991-2003-cü illər). "Heydər Əliyev: Qafqazda sülh və əməkdaşlıq məsələləri" respublika elmi konfransın materialları. Bakı: 3 may 2023, Karvser Tarde MMC, AMEA Qafqaz şünaslıq İnstitutu, s. 68-69.
14. Qasımov M.C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). Bakı: Gənclik, 1996. - s. 85
15. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərbaycan nəşriyyatı, 2005. – 752 s.
16. http://abudhabi.mfa.gov.az/content/51
17. Heydər Əliyev və Şərq. 6 cilddə. Müəllif tərtibçilər: Qalay Allahverdiyev XİN-in müşaviri, f.e.d. Vəhdət Sultanzadə XİN-in müşaviri. Bakı: Ozan, 2002.
18. https://daralber.ae/ar/home
19. https://www.zayedchf.gov.ae/
20. Məmmədov Z.S. (2002).XXI əsr: İqtisadi inkişafın nəqliyyat faktoru. Bakı: Azərnəşr 2002. -386 s.
21. Qasımlı M.C. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). II hissə. Bakı, Mütərcim, 2015. – 664 s.
22. ARXİN.06.06.1994-26.11.1996. Qovluq №21, v. 77-78
23. https://www.albabtaincf.org/
24. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Küveyt Parlamentinin nümayəndə heyətini qəbul etmişdir. – Azərbaycan xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə, s. 890-894.
25. Hüseynova T.Q. Azərbaycan Respublikasının Körfəz Ölkələri Əməkdaşlıq Təşkilatı üzvü olan Dövlətlərlə münasibətləri. Bakı: 2015
26. Soltanova H.B., Məmmədov C.A. Yaxın və Orta Şərq ölkələrinin iqtisadi və sosial coğrafiyası. Bakı: Bakı Universiteti nəşriyyatı, 2008. - 304 s.
27. Talıblı S.Ə. Azərbaycan Respublikası ilə Küveyt Dövləti arasında münasibətlər / Bakı

Avrasiya Universitetinin təşkil etdiyi "Azərbaycanın zəfəri və sosial, siyasi - iqtisadi inkişaf perspektivləri" adlı Respublika Elmi konfransı. Bakı: 26 aprel 2023-cü il

28. Azərbaycan Dövlət Statistika Komitəsinin 2000-ci ilin malların idxal və ixracına dair Göstəricilər. Bakı: 2001

29. Talıblı S.Ə. Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycan Respublikasının Körfəz ölkələri ilə münasibətləri / "Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurucusudur" mövzusunda beynəlxalq elmi konfrans. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyası. Bakı, 5 may 2023-cü il.

30. https://doha.mfa.gov.az/az/content/3/iki terefli-munasibetler

31. https://president.az/az/articles/view/58420

32. https://e-qanun.az/framework/32253

33. https://riyadh.mfa.gov.az/az/content/57 /azerbaycan-oman-sultanligi

**Subhan Talibli**

**Gulf countries in foreign policy of the Republic of Azerbaijan during the reign of Heydar Aliyev (1993-2003)**

**Abstract**

The article deals with the conceptual bases, goals, principles and main directions of the foreign policy of the independent Republic of Azerbaijan adopted during the reign of Heydar Aliyev which are reflected in the Constitution of Azerbaijan adopted on November 12, 1995, Heydar Aliyev's foreign visits, interviews and speeches given to local and foreign mass media, and especially in his foreign policy strategy. The main tasks of the foreign policy of the Republic of Azerbaijan between 1993 and 2003 were to protect the country's independence, sovereignty, territorial integrity, security and to connect them with the international security system and make closer cooperation and become allies with the countries whose interests are compatible with the national interests of Azerbaijan as well as with the interests of statehood. Other issues considered in the country's foreign policy included using these opportunities to strengthen its position in the international system, making efforts to eliminate any tensions or conflicts that occurred in the region, implementing a foreign economic policy in accordance with the interests of the people, representing the country's economy in the international economic system, establishing scientific, cultural, and humanitarian relations with foreign countries, actively participating in such organizations, and etc.

In the work, during the reign of Heydar Aliyev, the establishment of political-diplomatic relations between the Gulf countries in the foreign policy of the Republic of Azerbaijan, the opening and operation of embassies, mutual visits of heads of state and government, state institutions, inter-parliamentary relations, as well as the activity of the inter-parliamentary friendship group, economic-commercial and energy relations, cooperation within the framework of international and regional organizations, cultural, scientific, educational and humanitarian relations, activities of the Joint Commission, etc. issues have been researched and analyzed. Here, in the multilateral diplomacy of the Republic of Azerbaijan, the Gulf countries, the United Nations and its specialized agencies, the Republic of Azerbaijan and the United Nations, the Organization of Islamic Cooperation ( منظمة التعاو الإسلامي), the Organization of Islamic Cooperation (ECO- Economic Cooperation Organization), ICESCO (Islamic World Educational, Scientific and Cultural Organization - منظمة العالم الإسلامي للتربية والعلوم والثقافة) Cooperation Council of Turkic-speaking States, League of Arab States Organization of the Petroleum Exporting Countries - منظمة الدول المصدرة للنفط), Non-Aligned Movement and. etc. cooperation within the framework of international and regional organizations are being investigated.

# Şərqşünaslıq İnstitutunda “Heydər Əliyev və müasir Şərq” mövzusunda beynəlxalq elmi konfrans keçirilib





2023-cü il mayın 3-4-də AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu və İraq Respublikası Strateji Araşdırmalar Mərkəzinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Heydər Əliyev və müasir Şərq” mövzusunda beynəlxalq elmi konfrans keçirilib.

81 alimin, o cümlədən İraq, Qırğızıstan, Qazaxıstan və Belarusdan 6 alimin iştirak etdiyi konfransın açılışı mayın 3-də AMEA-nın əsas binasının Akt zalında baş tutub.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Daha sonra Ulu Öndərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransı giriş sözü ilə açan AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli qeyd edib ki, ölkəmizin hər yerində olduğu kimi, Azərbaycan Milli Elmlər Akademiyasında da Ulu Öndərin 100 illik yubileyinə həsr edilən tədbirlər keçirilir. “Heydər Əliyev İli” çərçivəsində Akademiyada 15-dən çox konfransın baş tutduğunu bildirən akademik İsa Həbibbəyli mayın 1-də Türkiyə, Özbəkistan, Gürcüstan Elmlər Akademiyalarının rəhbərliyi və nümayəndələrinin iştirakı ilə AMEA-nın Ümumi yığıncağının Ümummilli Liderin 100 illik yubileyinə həsr olunmuş Xüsusi iclasının keçirildiyini xatırladıb. Diqqətə çatdırıb ki, sözügedən iclasda Ulu Öndərə, Prezident İlham Əliyevə, Qarabağa və Qərbi Azərbaycan mövzusuna həsr olunmuş, Akademiyada işıq üzü görən 300-ə yaxın kitab ictimaiyyətə nümayiş etdirilib.

AMEA rəhbəri, həmçinin vurğulayıb ki, “Heydər Əliyev İli” çərçivəsində Akademiyada 15-ə yaxın fundamental monoqrafik əsər çapdan çıxıb və bu proses hazırda da davam etməkdədir. Bundan əlavə, “Heydər Əliyev və Azərbaycan Milli Elmlər Akademiyası”, “Heydər Əliyev Əlyazmalar İnstitutunda” və “Heydər Əliyev alimlərin xatirələrində” sənədli filmlərinin hazırlandığını diqqətə çatdırıb.

Eyni zamanda Akademiyada “Azərbaycan Milli Ensiklopediyası” Elmi Mərkəzi tərəfindən ikicildlik “Heydər Əliyev Ensiklopediyası”nın hazırlandığını diqqətə çatdırıb.

Şərqşünaslıq İnstitutunda keçirilən konfransın əhəmiyyətini vurğulayan AMEA rəhbəri tədbirin Ulu Öndərin Şərq siyasətini və Türk dünyası ilə qurduğu münasibətləri, atdığı addımların fəlsəfəsini elmi cəhətdən öyrənməyə kömək edəcəyini bildirib.

“Ulu Öndər Heydər Əliyev kimi dünya miqyaslı görkəmli dövlət xadimi, tarixi şəxsiyyətlə və Prezident İlham Əliyev kimi XXI əsrin liderləri sırasında özünəməxsus yeri olan dövlət rəhbəri ilə bir dövrdə yaşamaq böyük iftixar hissidir”, - deyə akademik İsa Həbibbəyli vurğulayıb.

Sonra AMEA-nın vitse-prezidenti v.i.e., Şərqşünaslıq İnstitutunun baş direktoru, akademik Gövhər Baxşəliyeva “Ümummilli Lider Heydər Əliyevin Şərq siyasəti” mövzusunda məruzə edərək bildirib ki, dövlət quruculuğunun




bütün sahələri kimi, müstəqil dövlətimizin yeni beynəlxalq münasibətlərinin qurulması da Heydər Əliyevin adı ilə bağlıdır. O qeyd edib ki, qüdrətli dövlətlərin mənafelərinin toqquşduğu mühüm geostrateji mövqeyi, zəngin yeraltı və yerüstü sərvətləri ilə böyük dövlətlərin diqqətini çəkən Azərbaycanda bütün bu məsələlərin həlli böyük müdriklik, uzaqgörənlik və polad siyasi iradə tələb edirdi və ilk günlərdən Heydər Əliyev dövlətin xarici siyasətinin istiqamətlərini, prinsiplərini, xarakterini müəyyənləşdirdi. Onun sözlərinə görə, ölkənin mənafelərini qorumaq istiqamətində emosiyadan uzaq, hərtərəfli ölçülüb-biçilmiş addımların atılmasının gərəkliyini vurğulayan Heydər Əliyev Azərbaycanın dövlətçilik mənafelərini hər şeydən uca tutaraq müxtəlif dövlətlərin bütövlükdə Qafqaz və bilavasitə respublikamız üzərində qurulmuş iqtisadi maraq və nüfuz dairəsi uğrunda mübarizələrini nəzərə alaraq, çevik manevrlər və xüsusi taktiki gedişlər etdi.

“Heydər Əliyev Şərq müdrikliyini və Qərb praqmatizmini özündə birləşdirən xarici siyasət konsepsiyasını açıqladı və regionda gərginliyin aradan qaldırılmasına və mehriban qonşuluq münasibətlərinin yaradılmasına səy göstərdi. İlk növbədə müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində yeri, Avropa ölkələri və ABŞ-la, yeni müstəqil dövlətlər və Rusiya ilə, türkdilli dövlətlər və Türkiyə, müsəlman dünyası və İranla əlaqələrin yaxın dövr üçün prioritetləri müəyyənləşdirildi və tədricən həyata keçirilməyə başladı. Ölkəmizlə çoxsaylı dini, mədəni, etnik tellərlə bağlı olan Yaxın və Orta Şərq ölkələrinə münasibətdə dünya siyasətinin istiqamətlərini və qanunauyğunluqlarını çox gözəl anlayan Ulu Öndər bu ölkələrlə düzgün münasibətlərin qurulmasına nail olmuşdur. Ərəb dünyasının nəhəngləri olan Səudiyyə Ərəbistanı, Misir Ərəb Respublikası, müsəlman dünyasının liderləri olan İndoneziya, Pakistan, Malayziya və başqa dövlətlərlə də qardaşlıq və dostluq əlaqələri qurmaq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindən biri kimi Prezident Heydər Əliyev tərəfindən diqqətə alındı. Azərbaycan müstəqillik qazandıqdan sonra İslam Konfransı Təşkilatına üzv oldu. Düzgün ölçülmüş və tarazlaşdırılmış siyasi xəttin nəticəsidir ki, ölkəmizin İsraillə yüksək əməkdaşlıq edir”, - deyə o, bildirib.

Akademik çıxışının sonunda qeyd edib ki, Heydər Əliyevin Şərq siyasəti müstəqil Azər-



baycanı yaşatmaq, onu hərtərəfli inkişaf etdirmək, problemlərimizi həll etmək, xalqımızın dünya xalqları birliyində özünəlayiq yer tutmasına nail olmaq məqsədi daşıyıb.

Sonra İraq Respublikası Strateji Araşdırmalar Mərkəzinin rəhbəri, İraq-Azərbaycan Dostluq Cəmiyyətinin sədri professor Mutaz Muhyi Əbdülhəmidin "Heydər Əliyev: Azərbaycanın ərəb və İslam dünyası ilə diplomatiyası" mövzusunda məruzəsi səsləndirilib.

Konfransda həmçinin Astana Beynəlxalq Universitetinin dosenti, t.ü.f.d. Taisiya Marmontova "Nursultan Nazarbayev və Heydər Əliyev: yeni müstəqil dövlətlərdə siyasi liderlik fenomeni", AMEA Qadınlar Şurasının sədri, fəl.ü.f.d. professor Rəna Mirzəzadə "Heydər Əliyev dərsləri Mehriban Əliyevanın Şərq ölkələri ilə mədəni və humanitar diplomatiyasında", Lənkəran Dövlət Universitetinin dosenti, t.ü.f.d. Fəxrəddin Hüseyn "Azərbaycan-İran siyasi-diplomatik münasibətlərinin qurulmasında Heydər Əliyev mərhələsi" mövzusunda məruzə ilə çıxış ediblər, Yusif Balasaqunlu adına Qırğızıstan Milli Universitetinin dosenti, f.ü.f.d. Jayna Kadırkulovanın "Heydər Əliyev - türk xalqının görkəmli oğlu", Belarus Dövlət Rabitə Akademiyasının dosenti, tex.ü.f.d., dosent Yelena Kudritskayanın "Heydər Əliyevin ali texniki təhsil sahəsində Belarus – Azərbaycan əməkdaşlığının inkişafına verdiyi töhfə" mövzusunda məruzələrinin videoyazısı nümayiş etdirilib.



Konfrans öz işini mayın 4-də Şərqşünaslıq İnstitutunda bölmə iclasları ilə davam etdirib. İclaslarda "Azərbaycan – Misir əməkdaşlığının banisi", "Heydər Əliyev və Türk dünyası", "Heydər Əliyev və türk ədəbiyyatı problemləri", "Azərbaycan və İƏT əlaqələrinin formalaşmasında Heydər Əliyevin rolu", "Ulu Öndər və Cavad Heyət", "Müstəqillik dövründə Azərbaycanın ərəb ölkələri ilə diplomatik münasibətləri", "Heydər Əliyev tərəfindən təməli qoyulmuş müasir Azərbaycanın xarici siyasət kursunda Pakistanla əlaqələr", "Heydər Əliyevin Şərq-Qərb münasibətləri prizmasından dinlərarası dialoqun inkişafının gerçəkləşməsində tarixi rolu", "Heydər Əliyevin Azərbaycan və Qazaxıstan respublikaları arasındakı münasibətlərdə rolu", "Heydər Əliyev dövründə Cənubi Koreya-Azərbaycan əməkdaşlığı" və digər mövzularda maraqlı məruzələr səsləndirilib. İclaslarda məruzələr ətrafında müzakirələr aparılıb.

# Şərqşünaslıq İnstitutunda "Heydər Əliyev və Azərbaycan gəncliyi" adlı tədbir keçirilib

2023-cü il fevralın 1-də AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun Gənc Alim və Mütəxəssislər Şurasının təşkilatçılığı ilə 2 Fevral – Gənclər Gününə həsr olunmuş "Heydər Əliyev və Azərbaycan gəncliyi" adlı tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti v.i.e., Şərqşünaslıq İnstitutunun baş direktoru, akademik Gövhər Baxşəliyeva 1997-ci ildən etibarən 2 fevral tarixinin ölkəmizdə Gənclər Günü kimi qeyd olunduğunu, bu tarixin, ümumiyyətlə ölkəmizdə gənclərlə bağlı





dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsinin bu il anadan olmasının 100 illiyini qeyd etdiyimiz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirib. Heydər Əliyevin gənc nəslin inkişafına davamlı qayğı göstərdiyini söyləyən akademik G.Baxşəliyeva qeyd edib ki, Ulu Öndər ölkənin inkişafını birbaşa gənclərin hərtərəfli inkişafı ilə bağlayırdı və gənclərin himayədarı olaraq sağlam düşüncəli yeni nəslin yetişdirilməsini dövlətin və cəmiyyətin prioritet vəzifəsi səviyyəsinə yüksəltmişdi.

Dövlətin gənclər siyasətinin bu gün Ümummilli Liderin layiqli davamçısı, ölkə başçısı cənab İlham Əliyev tərəfindən yeni inkişaf mərhələsinə qaldırıldığını deyən akademik G.Baxşəli-



yeva ölkəmizdə uğurla həyata keçirilən dövlət gənclər siyasətinin nəticəsində bu gün vətənpərvər, milli-mənəvi dəyərlərə, Heydər Əliyev ideyalarına sadiq gəncliyin formalaşdırıldığını vurğulayıb.

Tədbirdə akademik G.Baxşəliyeva İnstitutun elmi və ictimai həyatında səmərəli fəaliyyətlərinə görə gənc əməkdaşlar Aygül Mirzəyevaya və İbrahim Bağırova Şərqşünaslıq İnstitutunun Fəxri Fərmanlarını təqdim edib.

Tədbirdə çıxış edən Şərqşünaslıq İnstitutunun Gənc Alim və Mütəxəssislər Şurasının sədri, institutun Din və ictimai fikir şöbəsinin müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru Elnur Mustafayev Ulu Öndər Heydər Əliyevin hakimiyyətə ikinci dəfə qayıdışından sonra Azərbaycanda dövlət gənclər siyasətinin əsasının qoyulduğunu, Ümummilli Liderin prezidentliyi dövründə ölkə gənclərinin onun diqqət və qayğısını daim öz üzərlərində hiss etdiklərini deyib.

1996-cı il 2 fevral tarixində məhz Ulu Öndər Heydər Əliyev dəstəyi ilə gənclərin 1-ci forumu keçirildiyini xatırladan Elnur Mustafayev Azərbaycanda uğurlu dövlət gənclər siyasətinin həyata keçirildiyini, hazırda 2015-2025-ci illəri əhatə edən Azərbaycan gənclərinin İnkişaf Strategiyasının uğurla icra olunduğunu vurğulayıb, bu gün Azərbaycanda həm mənəvi, həm də fiziki cəhətdən sağlam gənclərin yetişdiyini, onların elm, mədəniyyət, səhiyyə, sənaye, idman və digər sahələrdə uğurlu nailiyyətlər əldə etdiyini bildirib.

İnstitutun Türkiyə tarixi və iqtisadiyyatı şöbəsinin böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Bəşarət Bəşirova çıxış edərək Ulu Öndər Heydər Əliyevin gənclərə qayğısından, gənclərin ölkəmizin ictimai-siyasi həyatında, elmimizdə səmərəli rolundan danışıb.

# Şərqşünaslıq İnstitutunda "Heydər Əliyev və Azərbaycan elmi " mövzusunda elmi seminar keçirilib

2023-cü il iyunun 5-də AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev və Azərbaycan elmi" mövzusunda elmi seminar keçirilib.




Seminarı giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti v.i.e., Şərqşünaslıq İnstitutunun baş direktoru, akademik Gövhər Baxşəliyeva bu il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ilinin tamam olduğunu deyərək, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixdə imzaladığı 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında Sərəncamı xatırladıb və bununla əlaqədar bütün ölkəmizdə olduğu kimi, AMEA-da da bir çox tədbirlərin həyata keçirildiyini bildirib. Şərqşünaslıq İnstitutunda “Heydər Əliyev İli” ilə əlaqədar həyata keçirilən tədbirlərdən söz açan akademik G.Baxşəliyeva bu ilin 3-4 may tarixlərində Azərbaycan, İraq, Qırğızıstan, Qazaxıstan və Belarusdan 81 alimin iştirakı ilə keçirilmiş “Heydər Əliyev və müasir Şərq” mövzusunda beynəlxalq elmi konfransı, 2 Fevral – Gənclər Gününə həsr olunmuş “Heydər Əliyev və Azərbaycan gəncliyi” adlı tədbiri xatırladıb, bir sıra kitabların, o cümlədən Ulu Öndərə həsr olunmuş məqalələr toplusunun çapa hazırlandığını, bir neçə seminarın keçirilməsinin planlaşdırıldığını qeyd edib və bunlardan birincisinin hazırda keçirilən "Heydər Əliyev və Azərbaycan elmi " mövzusunda elmi seminarın olduğunu qeyd edib.

Seminarda institutun Təhsil şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Lalə Bayramova "Heydər Əliyev və Azərbaycan elmi" mövzusunda məruzə edib. Bütün fəaliyyəti xalqa xidmət nümunəsi olan Ulu Öndər Heydər Əliyevin Azərbaycan elminin inkişafında böyük xidmətləri olduğunu deyən məruzəçi, Ümummilli Liderin 70-ci illərdən başlayaraq Akademiyaya xüsusi diqqət göstərdiyini bildirib. Keçmişdə ölkə sərhədlərini çətinliklə aşa bilən Azərbaycan alimlərinin üzünə, məhz Heydər Əliyevin hakimiyyət illərində keçmiş İttifaqın bütün nüfuzlu təhsil və elmi-tədqiqat mərkəzlərinin qapılarının açıldığını deyən L.Bayramova Ulu Öndərin uzaqgörənliyi və qüsursuz milli elmi strategiyası sayəsində alimlərimizin o dövrdə böyük bir coğrafi məkanda ölkə elmini layiqin-





cə təmsil etdiklərini vurğulayıb: “Belə strategiya üzərində qurulmuş inkişaf sayəsində, Azərbaycanda milli təfəkkürə malik ziyalı ordusu yetişdi və bu ziyalı ordusu, sonda Azərbaycanın müstəqilliyə qovuşmasına öz töhfəsini verdi”.

XX əsrin 70-80-ci illərində Azərbaycan Elmlər Akademiyasının respublikanın inkişafına xidmət edən elmi ideyaların, ixtiraların və kəşflərin əsas mərkəzinə çevrildiyini deyən məruzəçi, müstəqillik illərində Heydər Əliyevin rəhbərliyi dövründə də ölkədə elmin inkişafı, elmi-texniki potensialın güclənməsi, yüksəkixtisaslı elmi kadrların hazırlanması, cəmiyyətdə elmi işçilərin nüfuzunun artırılması sahəsində həyata keçirilən önəmli tədbirlərdən bəhs edib, Heydər Əliyevin 15 may 2001-ci il tarixli Fərmanı ilə Azərbaycan Elmlər Akademiyasına “Milli Elmlər Akademiyası” statusu verilməsini, 4 yanvar 2003-cü il tarixli Fərmanının isə AMEA-ya müstəqil dövlətimizin elmi və elmi-texniki siyasətini həyata keçirən ali dövlət orqanı statusu verdiyini xatırladıb.

İnstitutun Qadınlar Şurasının sədri, filologiya üzrə fəlsəfə doktoru, dosent Xanımzər Kərimova seminarda “Heydər Əliyevin Azərbaycan və Misirin elm-təhsil əlaqələrində rolu” mövzusunda məruzə edib. Heydər Əliyevin Azərbaycan və Misir əməkdaşlığının banisi olduğunu deyən məruzəçi Ulu Öndərin iki ölkə arasında bu sahədə əlaqələrinin yaranmasında müstəsna rolundan bəhs edərək, sonrakı illərdə də Ümummilli Liderin layiqli davamçısı cənab İlham Əliyev tərəfindən Misirlə, eləcə də digər ərəb ölkələri ilə elm, təhsil, iqtisadi-siyasi, ədəbi-mədəni əlaqələrin inkişaf etdirildiyini bildirib. Misirlə əlaqələr sahəsində Misirdə Azərbaycan, Azərbaycanda Misir Mədəniyyəti Günlərinin keçirildiyini, bu ölkənin universitetləri ilə təcrübə mübadiləsi aparıldığının, Misir və Azərbaycan arasında elm və tədqiqat mübadiləsi proqramları çərçivəsində şərqşünas alimlərimizin bu ərəb ölkəsində, misirli alimlərin isə Şərqşünaslıq İnstitutunda olduqlarını qeyd edib.

Sonda məruzələr ətrafında çıxışlar olub. Çıxışlarda Ulu Öndərin Azərbaycan elminin inkişafında misilsiz xidmətləri qeyd edilib.

# Мирза Мухаммед Али Казембек и Шокан Уалиханов: выдающиеся интеллектуалы тюркского мира

**Дуйсен Галымжан**
*Институт востоковедения им. Р.Б. Сулейменова (Казахстан), д.э.н*



В XIX веке в период расцвета Российской империи тюркские народы оказались в тисках колониальной политики и порабощения царской администрацией. В этот период зародилась плеяда ярких представителей, образованной элиты тюркских народов, пытавшихся своей активной деятельностью помочь просвещению своих народов. В ряду известных интеллектуалов стоят азербайджанский ученый-востоковед Мирза Казембек и казахский ученый-географ, востоковед, путешественник Шокан Уалиханов.

Прослеживая биографию ученых можно провести параллели между Казембеком и Уалихановым. Азербайджанский ученый родился в семье знатного Гаджи Касим Казембека, происходившего из сословия беков Дербентского и Ширванского ханств. Шокан Уалиханов, был сыном султана Шынгыса и внуком Уали, последнего хана Среднего жуза казахов. По материнской линии, мать Шокана - Зейнеп Шорманова, была дочерью известного Шорман бия (судьи). Оба ученых получили начальное мусульманское образование, упорно изучив арабский и персидский языки. М.Казембек был направлен в г. Омск в Азиатское училище (однако не попал в связи с болезнью). Ш.Уалиханов поступил в Омский кадетский корпус и окончил его полный курс.

М. Казем-Бек вошел в академическую среду Казанского университета, позже Санкт-Петербургского университета, став учредителем факультета восточных языков. В Казанском университете Казембек плодотворно работает как организатор востоковедного образования, так и ученый-исследователь. В стенах университета он издает свой первый капитальный труд по мусульманскому законодательству «Мюхтесерюль вигкает или сокращенный вигкает. Курс мусульманского законоведения по школе Ханефидов». И.Н.Березин писал: «Казем-Бек выполнил настоящий труд блистательно. Не одно глубокое знание арабского языка требовалось здесь: нужны были обширные и ясные сведения в исламе, нужно было подробное знакомство с творениями мусульманских юристконсультов и с их комментариями. Все эти трудности преодолел Казем-Бек и настоящим изданием получил новое право на признательность ориенталистов» [1, с. 39].

Как писал Р.Б. Сулейменов: «Шокан Уалиханов еще в юные годы задавшись целью раскрыть сокровенные тайны прошлого Казахстана, вполне четко осознал невозможность узкого, изолированного подхода к изучению истории, культуры, быта и психологии родного народа. Вместе с другом юности Г.Н. Потаниным он мечтал о путешествиях по странам Азии, о поездке в Китай, Монголию, Тибет. Понимание органической

включенности Казахстана в громадный регион Центральной Азии было присуще ученому на протяжении всей его деятельности [2, с. 10].

Важным вкладом в востоковедение является фундаментальная работа М.Казем-Бека «Дербент-наме». Для сбора материалов и поиска вариантов этого исторического труда ему разрешили выехать в Дербент. По возвращению он писал: «Дербент-наме говорит о моем отношении к моей родине и о тех чувствах, которые я испытал, когда в первый раз после долгого отсутствия посетил Дербент. Я долго и упорно искал рукописи, относящиеся к Дербенту...» [1, с. 45].

Ш. Уалиханов был одним из первых российских востоковедов, обративших внимание на «Тарих-и Рашиди» Мухаммад Хайдара Дулати (Дуглата). Переведенные им извлечения содержат описание деятельности правителей Восточного Туркестана и событий, в связи с которыми упоминаются казахские ханы. Наряду с переводами работа содержит анализ источника. Ш. Уалиханов рассматривает историю возникновения памятника, обстоятельства и цель его написания, сообщает об источниках сочинения, сведения об авторе, извлекая данные из «Тарих-и Рашиди». Несомненную ценность работе придают составленные Ш. Уалихановым на основе этого труда генеалогические таблицы правителей и схематические карты Могулистана [3, с. 34].

Ш. Уалиханов, являясь офицером царской России, был направлен в Восточный Туркестан, где он сумел провести исследования по истории, хозяйственному укладу, культуре западной провинции Китая. Здесь важно отметить знания и эрудицию Казембека и Уалиханова, а также схожесть их суждений в вопросах истории, географии, природы и этнографии народов Центральной Азии.

Для изучения кочевых народов – кыргызов и казахов, по мнению Ш.Уалиханова, особую ценность представляли их легенды, эпос, предания, песни. «Главным источником для истории народов кочевых, - писал он в одной из своих работ о кыргызах будут полубаснословные их легенды и отрывки известий из летописей цивилизованных народов, с которыми они имели столкновения». Интерес представляет оценка Шоканом восточных хроник и официальных сочинений, в том числе китайских: «…Китайские летописи и восточные хроники не отличаются последовательностью и точностью. Самый способ тонического переложения иностранных имен на китайские иероглифы через какие-нибудь китайские слова, по звуку близко подходящие к настоящему имени, недобросовестность китайцев, которые жертвовали при этом точностью для того, чтобы выразить своими иероглифами злую насмешку, наконец, непоследовательность, с которою следили китайцы за переворотами орд, варварских, особенно в период между династиями Тан и Юань, делает этот вопрос далеко не ясным, как бы следовало ожидать от множества фактов, сохраненных их историей» [2, с. 11]. М. Казембек вторит Уалиханову отмечая: «Китайские историки, передавая потомству акты и факты своего отечества, не только не смотрели на избранный ими предмет с критической точки, с которой они никогда не были знакомы, но даже не выражали своего сомнения о невероятности и баснословных указаниях, на которых основали они систему своей науки» [1, с. 142]. Думается, их взгляды были схожи, так они являлись представителями российского востоковедения и определялись политикой того времени в отношении Цинского Китая.

Необходимо отметить отношение к религии в исследованиях Уалиханова и Казембека. Так, Шокан посвятил ряд статей изучению религиозных верований казахов и состоянию ислама в казахской степи. В работах «Следы шаманства у киргизов», «О мусульманстве в степи» он дает глубокий и анализ религиозной ситуации в Казахстане. До начала XIX столетия казахи, по мнению Уалиханова, хотя и называли себя последователями Магомета, были по существу шаманистами. Шаманство у казахов, пишет Шокан, «смешалось с мусульманскими поверьями и, смешавшись, составило одну веру, которая называлась мусульманской, но (они) не знали Магомета, верили в Аллаха и в то же время в онгонов (духи предков), приносили жертвы на гробницах мусульманским угодникам, верили в шамана и уважали

магометанских ходжей» [4, с. 470, 1, с. 15]. Уалиханов писал: «…под влиянием татарских мулл, среднеазиатских ишанов и своих прозелитов нового учения, народность наша все более и более принимает общемусульманский тип…». Просветитель против насаждения религиозного дурмана и невежества, требует проведения реформ, ликвидации религиозных школ.

Казембек, говоря о месте ислама в жизни народов Востока, писал: «Народы, исповедующие ислам, управлялись с духовной стороны фанатизмом, а с светской – деспотизмом. Оба эти бремени изнурили их силы, притупили их способности и остановили их умственное развитие, которое с тех пор уже не могло подняться с первых своих ступенек». Здесь необходимо отметить его неопубликованные труды «О языке и литературе персов до исламизма», «Известия из Закавказья», «Очерки истории мусульманского Кавказа» и др., в которых он затрагивал вопросы истории Азербайджана [1, с. 115-117].



Мировую славу путешественника и ученого принесли Ш. Уалиханову его путешествие в Кашгар, труды и исследования об этой неизведанной для европейской науки страны. Дневники Шокана стали ценнейшим источником по истории Восточного Туркестана. Благодаря его упорству были привезены уникальные исторические источники, в частности сочинения Мирзы Мухаммада Хайдара «Тарих-и Рашиди, рукопись «Тазкира-и ходжаган», сочинение «Тазкира-и султан Сутук Бугра-хан», «Тазкира-и Туглук Тимурхан», повествующие об основателе правившем в X-XI вв. в Восточном Туркестане и Средней Азии династии Караханидов, об основателе Могульского государства и др. рукописи, сочинения, представляющие большую научную ценность. Исследуя историю, культуру и быт уйгурского народа, Ш. Уалиханов привлекает данные письменных источников. «Уйгуры, по свидетельству Абу-л Гази, были народ тюркского корня и были в числе первых значительных племен огузовых: канглы, кипчаки, уйгуры» [2, с. 17, 3, с. 36].

М. Казембек значительное место в своих трудах уделял изучению истории уйгуров, посвятив специальную работу под названием «Исследование об уйгурах». «Никакое имя, - писал он, - в истории северных народов в Центральной Азии не представляется нам столь занимательным в отношении к древним памятникам словесности и вместе столь неопределенным, по своему значению, как название уйгур» [1, с. 151]. Говоря о происхождении слова «уйгур» Казембек приводил несколько доводов. «В самом деле, - писал он в одном месте, - в тюркском языке мы находим корень этих созвучных слов (уир, уюр, или уйгур и проч.), являющихся в разных формах, в разных изменениях, сообразных с различием самих наречий и имеющих везде значение – предаться, последовать, прилепляться, соединяться, причастие от него союзник. Например, в турецком и азербайджанском наречиях уймаг часто употребляется во всех этих значениях».

Именно в этих исследованиях проявляется интересное сходство Уалиханова и Казембека, характеризующее их как настоящих ученых.

Уалиханов и Казембек являлись представителями российского востоковедения. Их образование, жизнь проходила в Российской империи, круг их общения, окружение представляло передовую, высокообразованную часть русского общества. Шокана с детства окружали друзья его отца академик

А.И.Шренк, декабристы С.М.Семенов, В.И.Штейнгель, друзья из Омска С.Сотников, Н.Ф.Костылецкий, Я.С.Капустин и др. В Омском кадетском корпусе он учился у К.К.Гутковского, И.В.Ждан-Пушкина, А.П.Померанцева и др. Он дружил с С.Ф. Дуровым, особые дружественные отношения связывали его Ф.М.Достоевским. Большое влияние на Уалиханова оказал известный ученый-географ П.П.Семенов-Тянь-Шанский. После Кашгарской экспедиции ученый мир Петербурга встретил Ш.Уалиханова как отважного путешественника, замечательного исследователя, востоковеда. Творческие и дружеские связи его расширились. Он общался с географами А.Ф.Голубевым, М.И.Венюковым, Н.А.Северцовым, геологом Н.В.Мушкетовым. В круг его знакомых входили такие видные ученые и общественные деятели, как А.Н.Бекетов, Д.И.Менделеев, А.Н.Майков, В.В.Григорьев и др. [5, с. 26-27].

М.Казембек являлся видным ученым-востоковедом, общался с известными учеными: ректором Казанского университета, профессором-математиком Н.И.Лобачевским, писателями Н.Г.Чернышевским, Л.Н.Толстым, ученым-востоковедом, академиком Б.А.Дорном, ученым-китаеведом В.П.Васильевым, ученым-арабистом Х.Д.Френом и др.

Одной из параллелей между Уалихановым и Казембеком необходимо считать добрые отношения с ученым-востоковедом, профессором Казанского университета И.Н.Березиным. Будучи воспитанником кадетского корпуса Шокан в письме И.Н.Березину высказал мысль, что казахский народ, «образовался от союза разных племен турецких и монгольских во время междоусобий в орде, начавшихся тотчас после смерти Бердибека, …каждый потомок Батыя хотел быть ханом и иметь народ: так и думаю образовались ханства Крымское, Казанское, орда Чорайгаковская, союз узбеков-шейбанов и казаков [6, с. 122]. Работы Ш.Уалиханова «Письма профессору И.Н.Березину» и «Заметки при чтении книги проф. И.Н.Березина “Ханские ярлыки”», посвящены анализу переводов И.Н.Березиным ханских ярлыков и разбору встречающихся в них непонятных слов и терминов. В процессе работы Ш.Уалиханов сравнивает язык ярлыков XIV-XVI вв. с живыми языками тюркских народов XIX в., прослеживает его эволюцию.

Казанский период работы М.Казембека являлся одним из продуктивных, именно здесь он составил знаменитую «Грамматику турецко-татарского языка», получившую Демидовскую премию академии наук России. И.Н.Березин являлся учеником Казембека и стал близким соратником. Он писал: «Ученая деятельность Казембека большой частью обуславливалась обстоятельствами, а не исходила от его собственного выбора; кроме того, однажды принявшись за какую-нибудь работу, Казембек со свойственным ему широким горизонтом старался охватить всю сферу вопроса и от этого, начав с письма Тохтамыша к Ягайлу, он вдавался в подробное изучение истории Средней Азии... Во всяком случае, Казембек относился к своему предмету с любовью...» [1, с. 33, 41].

Перу М. Казембека принадлежат труды «Ас-Саб’ ус-Сейййар, или Семь планет: история крымских ханов, сочинения на турецком языке Сейд Ризою», «Исследование об уйгурах», «История о народах, обитавших в Средней Азии в древние времена» и др. Ш.Уалиханов в свои неполных 30 лет жизни написал множество трудов: «Предания и легенды Большой киргиз-кайсацкой орды», «О состоянии Алтышаара или шести восточных городов китайской провинции Нан-лу в 1858-1959 годах», «Киргизское родословие», «Очерки Джунгарии», «Записки о Кокандском ханстве» и др. Современники Валиханова - учёные и специалисты высоко оценили труд Уалиханова о Кашгаре, считая его «в высшей степени полезным для правительства и для науки», восполняющим «пробелы европейских учёных - географов и востоковедов, сведениями которых мы доселе руководствовались».

Оба ученых были избраны действительными членами Русского Географического общества: Казембек в 1850 г., Уалиханов в 1857 г.

Думается Казембек и Уалиханов являясь представителями разного поколения, жили в одно время, сложном XIX в. Они, стали пионерами в изучении непростой истории и культуры народов Кавказа и Центральной

Азии, Востока в целом. Их объединяло аристократическое происхождение, всестороннее образование, чувство национального самосознания, любовь к своему народу и главное – характер смелых исследователей неизведанного!

Так охарактеризовал М.Казембека профессор И.Н.Березин: «Как ученый – Мирза Казембек представляет редкое явление, заслуживающие особенного внимания и наблюдения: благодаря особенным обстоятельствам азиатского воспитания и позднейшего европейского развития он соединял в себе обширное восточное знание с европейской наукой...».

Профессор Н.И.Веселовский написал о Шокане: «Как блестящий метеор промелькнул над нивой востоковедения потомок киргизских ханов и в то же время офицер русской армии Чокан Чингисович Валиханов. Русские ориенталисты единогласно признали в лице его феноменальное явление и ожидали от него великих и важных откровений о судьбе тюркских народов...».

Таким образом, и М.Казембек и Ш.Уалиханов явили собой пример беззаветного служения науке и своим народам, являясь образцом интеллектуалов тюркского мира.

## Литература


1. Рзаев А.К. Мухаммед Али Мирза Казем-Бек. – М.: Наука. Главная редакция восточной литературы, 1989. – 199 с.
2. Сулейменов Р.Б. Выдающийся исследователь Казахстана, Средней и Центральной Азии // Известия АН КазССР. Сер. обществ. наук, 1985. - № 5. – С. 10-19.
3. Бекмагамбетова М.А. Чокан Валиханов как источниковед // Известия АН КазССР. Сер. обществ. наук, 1985. - № 5. – С. 31-36.
4. Валиханов Ч.Ч. Исторические предания о батырах XVIII в. // Собрание сочинений: В 5-ти т. – Алма-Ата, 1961. - т. 1. – С. 216-222.
5. Утениязов С.К. Влияние передовой русской интеллегенции на формирование Ч.Ч. Валиханова как ученого и публициста // Известия АН КазССР. Сер. обществ. наук, 1985. - № 5. – С. 25-31.
6. Валиханов Ч.Ч. Собрание сочинений: В 5-ти т. – Алма-Ата, 1961. - т. 1. – С. 122.; Валиханов Ч.Ч. Собрание сочинений в восьми томах. – Алматы: Дайк-Пресс, 2012. – Т.1. – 700 с.



**Duysen Galimjan**


**Mirza Muhammad Ali Kazembek and Shokan Ualikhanov: outstanding intellectuals of the Turkic world**


**Abstract**

The article follows the biographies of Mirza Kazembek, the Azerbaijani orientalist, and Shokan Ualikhanov, the Kazakh geographer, orientalist, and traveler. The author draws parallels between Kazembek and Ualikhanov and examines their creativity. The attitude towards religion is noted in the researches of these outstanding scientists. The scientific environment surrounding them is compared, and one of the parallels between them is their relationship with I.N. Berezin, an oriental scholar and professor of Kazan University. The author notes that both M. Kazembek and Sh. Ualikhanov are examples of the intellectuals of the Turkic world and are examples of selfless service to science and their people.

# “Molla Nəsrəddin” jurnalında “İbrahim bəyin səyahətnaməsi”

**Mahmizər Mehdibəyova**
*AMEA-nın Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, f.ü.f.d.*

“İbrahim bəyin səyahətnamə”si İranda olduğu kimi, bir çox Şərq ölkələrində, həmçinin Azərbaycanda ədəbi ictimaiyyətin diqqətini cəlb etmiş, dövrü mətbuatda məqalə və tədqiqi xarakterli araşdırmalar yazılmışdır.

Roman fars dilində nəşr olunduğundan az sonra Cəlil Məmmədquluzadənin də diqqətini cəlb etmişdir. Şübhəsiz ki, romanı M.Şahtaxtlı, Firudin bəy Köçərli, Ömər Faiq, Nəcəf bəy Vəzirov, Nəriman Nərimanov, Əbdürrəim bəy Haqverdiyev, Abdulla Şaiq, Məhəmməd Hadi, Hüseyin Cavid və başqa Azərbaycan ziyalıları da oxumuşlar. Bir çox Azərbaycan mətbuatı onun nəşri haqqında məlumat vermişdir. Lakin "Molla Nəsrəddin" səhifələrində romanla bağlı materiallar tədqiqatlarda müraciət edilmiş materiallardan xeyli çoxdur. Zeynalabdin Marağalı Mirzə Cəlil başda olmaqla mollanəsrəddinçilərin həmməsləki və ideya sələflərindən olmuşdur.

Yaradıcılığı boyu müsəlman Şərqinin, ulu babalarının yurdu Cənubi Azərbaycanın problemlərindən söz açan Cəlil Məmmədquluzadə bir məqaləsində yazırdı: "Mən bir iranlı kimi (ədib ata-babasının Cənubi Azərbaycandan gəldiyinə işarə edir-M.M.) təqdiri qəza ilə bəzi Avropa dövlətlərinin diplomatik mübarizəsi üçün meydana çevrilmiş öz vətənindəki hadisələrdən daha çox danışacağam; bu o ölkədir ki, orada həmin dövlətlərin cürbəcür mənafeyi və şöhrətpərəst məqsədi toqquşaraq hay deməmiş münaqişə və ağır vəziyyət törədir”. [1, s,76]

"İbrahim bəyin səyahətnaməsi"ndə tənqid edilən bu məsələ də Cəlil Məmmədquluzadəni düşündürən problemlərdən idi. Odur ki, müəllif jurnalın nəşr olunduğu ilk illərdə çıxan felyetonlarda bir neçə dəfə romana müraciət edib, ondan parçalar misal gətirmiş, bəzisinin tərcüməsini vermişdir. Jurnalda romanın motivləri əsasında çəkilmiş karikaturalar da vardır. Məşhur "Həmşəri" felyetonu isə belə sona çatırdı: "Elə ki, bir-birinizin əlinizdən yapışdınız, o vədə söz yox ki, genə kağız yazıb soruşacaqsınız ki, "indi pəs neyləyək? Və o vədə... Mən sizə kağız yazacam ki, Arazı hoppanıb keçin tar-mar vətəninizə və "İbrahim bəyin səyahətnaməsi"ni oxuyun, oxuyun, oxuyun". [2,s,77]

Burada Cəlil Məmmədquluzadənin Zeynalabdin Marağalıya və "İbrahim bəyin səyahətnaməsi" romanına münasibəti, onu qiymətləndirilməsi də duyulur. Elə müəllifin romanı təbliğ təşəbbüsünün özü də təqdirəlayiq bir hadisə idi.

Firidun bəy Köçərli 1906-cı ildə yazdığı "İranın oyanması" məqaləsində "İbrahim bəyin səyahətnaməsi"ni, "səlis ədəbi dildə yazılmış" bu əsərin İranın özünə olduğu kimi, kənarlara da çox böyük təsir bağışlamasını göstərir və onu "səlis, ədəbi dildə yazılmış", "ifşaedici bir əsər" kimi qiymətləndirirdi. Firidun bəy Köçərli başqa bir yerdə də roman haqqında yüksək fikir söyləyərək yazırdı: "Kitab müasir İranın həyatı ilə, xüsusən, İran xalqının vəziyyəti və İran hökumətinin ona münasibəti ilə oxucuları tanış edirdi. Bu kitab bir daha bizdə belə bir əqidəni möhkəmlətdi ki, İran ən bədbəxt ölkədir və o, yaxın gələcəkdə mütləq məhv olacaqdır" [3, 1906, N19]

Zeynalabdin Marağalının “İbrahim bəyin səyahətnaməsi” romanının Azərbaycanda geniş elmi tədqiqi XX əsrin 50-ci illərindən başlanır. Müəllif professor Mir Cəlal "Mirzə Fətəli Axundovun farsca yazan şagirdləri” adlı məqaləsində Zeynalabdin Marağalını Cəlil Məmmədquluzadə, Nəcəf bəyVəzirov, Əbdürrəhim bəy Haqverdiyev kimi yazıçılarla birlikdə Mirzə Fətəli Axundov realizmini davam və inkişaf etdirən qələm sahibi hesab edir, ilk dəfə ondan bəhs edir. Azərbaycan yazıçısı kimi bəhs edir. Onun sənətkar kimi formalaşmasında öncə milli zəmini əsas götürür, sonra Şərq, Avropa və rus ədəbi-ictimai fikrinin təsirini.

Bütövlükdə professor Mir Cəlalın bu məqaləsi Azərbaycanda Zeynalabdin Marağalının öyrənilməsi yoluna yaşıl işıq yandırdı.

Cəlil Məmmədquluzadənin əsərlərinin üçüncü cildinə yazdığı müqəddimədə isə professor Mir Cəlal "Molla Nəsrəddin" və "Səyahətnamə" münasibətlərinə toxunmuşdur. Alim jurnal”dakı baş məqaləyə - "Təzə il" məqaləsinə

əsaslanaraq, romanda və "Molla Nəsrəddin" jurnalında Sədi yaradıcılığına münasibətin üst-üstə düşdüyünü də qeyd edir. [4, s,23] O göstərir ki, Əli bəy Hüseynzadə "Füyuzat" səhifələrində Sədini Tolstoya bərabər tuturdusa, Sədinin əsərlərinin mollaxanalarda "Quran" ayəsi kimi öyrədilməsinə Zeynalabdin Marağalı da, mollanəsrəddinçilər də etiraz edirdilər.

Əziz Mirəhmədov Cəlil Məmmədquluzadə haqqındakı məqaləsində isə romanın mollanəsrəddinçilərə təsirindən bəhs edərək yazır: "XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda heç bir kitab "Səyahətnamə" qədər şöhrət tapmamış, Cəlil Məmmədquluzadə və dostlarına heç bir kitab "Səyahətnamə" qədər xoş gəlməmişdir. Onların ideya aləminə "Səyahətnamə" təxminən doxsanıncı illərin ortalarında daxil olmuşdur. Yanğılı adam soyuq bulağı, zülmətdə olan kəs yanar məşəli necə qarşılarsa, onlar da bu əsərləri elə qarşılamışdılar" [1, s.84] Məhəmmədəli Sidqinin yazdığına görə "Səyahətnamə nəşr olunan kimi atası öz dostu Şeyxovla bahəm həmin kitabı bir gecədə oxumuşdur. Çox keçmədən bu əsərin ayrı-ayrı seçmə yerləri onların dilinin əzbəri, ədəbi məclislərinin, söhbət və mübahisələrinin, biri-birilərinə yazdıqları məktublarının əsas mövzularından biri olmuşdur. Çünki həmin yazıçılar onları düşündürüb narahat edən bir çox suallara bu əsərdə cavab tapmışdılar".

Cəlil Məmmədquluzadə yaradıcılığının, eləcə də "Molla Nəsrəddin" jurnalının, Molla Nəsrəddin ədəbi məktəbinin görkəmli tədqiqatçısının bu qənaətləri romanın mollanəsrəddinçilərə təsirini müəyyənləşdirir.

Zeynalabdin Marağalının "İbrahim bəyin səyahətnamə"si romanına münasibəti məsələsinə geniş şəkildə toxunan ilk müəllif də Həmid Məmmədzadədir. Onun əsərin birinci, ikinci cildlərinin müəllifsiz çap olunmasının səbəblərinin izahı da inandırıcıdır.

Daha çox müasir həyatdan mövzular almağı sevən Cəlil Məmmədquluzadə XIX əsrin sonu, XX əsrin əvvəllərində İran gerçəkliyinin misilsiz lövhələrini yaradarkən "Səyahətnamə" motivlərinə müraciət etmədən keçmirdi. "Səyahətnamə"də rastlaşdığımız hadisələr, problemlər və adamlarla yuxarıda dediyimiz kimi, Cəlil Məmmədquluzadə yaradıcılığında tez-tez rastlaşırıq.

"Səyahətnamə" Mirzə Cəlil yaradıcılığının ən mühüm qaynaqlarından biri kimi diqqəti cəlb edir. Bunun nəticəsidir ki, ictimai həyatın yaramazlıqlarını tənqid və ifşa etməyi qarşısına məqsəd qoyan Cəlil Məmmədquluzadə "Səyahətnamə"ni təqdir və tərcümə edir, öz yazılarında dönə-dönə əsərdən parçalar gətirir, "Molla Nəsrəddin" jurnalından ondan hissələr dərc edirdi ki, bütün bunlar onun romana münasibətini göstərirdi. Zeynalabdin Marağalı da, Cəlil Məmmədquluzadə də "diridirlər ölü kimi, ölüdürlər diri kimi" sözlərilə xalq, vətən hissindən məhrum, avam, zalım bəndələri elə "ölülər" adlandırırdı. Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin" səhifələrində həmşərilərin qürbətdəki taleyini, gün-güzəranını elə Zeynalabdin Marağalı kimi qələmə alırdı. "İranlılara", "İran konsulları", "İran fəhlələrinin pulu hara gedir?", "İranın Batum konsuluna başıbağlı məktub", "Həmşəri", "Məhəmmədəli şah və büdpərəstlər", "Quba meydanı", "Bağdad", "Bəqaüssəltənə", "İttihad" kimi felyetonlarda biz İbrahim bəyin qarşılaşdığı "Həmşəri"lərlə yenidən, daha faciəli şəkildə görüşürük. Cəlil Məmmədquluzadə də Marağalı kimi iranlıların nə üçün belə zəlil vəziyyətə düşməsinin səbəblərini də açıb göstərirdi. Müasir sivilizasiyanın nailiyyətlərindən, elm və tərəqqidən, təhsildən məhrum olan bu adamların vəziyyəti həm Cəlil Məmmədquluzadəni, həm də Marağalını eyni dərəcədə düşündürürdü. Həm "Səyahətnamə"də, həm də Cəlil Məmmədquluzadə yaradıcılığında cəhalət və xurafat insanların faciəli vəziyyətə düşməsinin əsas səbəbi kimi göstərilmişdi.

Misirdən köçüb, Azərbaycanda yaşamaq istəyən İbrahim bəy əsil vətən aşiqidir. Onun vətən sevgisi İrana, eyni dərəcədə Azərbaycana aiddir. Romanın bir yerində Azərbaycanla bağlı deyir: "Sevməli olduğumuz vətən, qoynunda boy atdığımız müqəddəs torpaqdır. Əhli-əyalımızın məskəni, namusumuzun sığınacağı, babalarımızın dəfn olduğu yer olan və bizi boya-başa çatdıran bu palçıqlı dam-divarları qorumaq və bu mühiti sevmək bizim müqəddəs vəzifəmiz və zəruri borcumuzdur". [5, s.197]

Bu günümüz üçün çox gərəkli olan, Abbas Səhhətin "Könlümün sevgili məhbubi mənim" misralı şeirini andıran bu sözlər də Zeynalabdin Marağalının Azərbaycana sevgisindən gəlir. Bir də ona görə ki, Firudin Köçərli, M.Şahtaxtlı, Cəlil Məmmədquluzadə və başqa simalar Nizami, Xaqani, Mirzə Əbdürrəhim Talıbov, Zeynalabdin Marağalı kimi sənətkarların fars dilində

yazmalarını zamanın bəlası sayırdılar. Baş verən olayları qabaqcıl İran və Azərbaycanın ictimai-siyasi durumu ilə bağlayırdılar. Onları əsl Azərbaycan sənətkarları kimi tanıyır, tanıdır, əsərlərini təbliğ edirdilər. Məhəmməd ağa Şahtaxtlı bir zaman Avropa mütəfəkkirlərinin latınca, Firdovsi, Hafiz və Sədidən əvvəlki əsrlərdə farsları ərəbcə yazmalarını xatırlayır və belə şəraitdə, belə zamanda Talıbov və Zeynalabdin Marağalı kimi ədiblərin fars dilində yazmalarını "təbii" sayırdı. Firudin bəy Köçərli isə onlar “fars dilində yazmaqla farsların boynuna minnət qoymuşdur” deyirdi. Cəlil Məmmədquluzadənin "Cənublu qardaşlara", "Səyahətnamə"ni oxuyun, oxuyun, oxuyun” sözlərində həm də bu məna duyulur. Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Ömər Faiq, Salman Mümtaz kimi qələm sahiblərinin "Mozalan bəyin səyahətnaməsi" satirik yumorlu silsilə felyetonlarının məhz "İbrahim bəyin səyahətnaməsi" romanının təsiri ilə yazmaqları da onun Azərbaycan ədəbi mühiti ilə sıx bağlı olduğunu, irs və varislik ənənəsinin uğurlu davamını göstərirdi. Əbdürrəhim bəy Haqverdiyev "Mozalan bəyin səyahətnaməsi"nin meydana gəlməsi ilə bağlı yazırdı: "Bir dəfə cəm olub, "İbrahim bəyin səyahətnaməsi"ndən söhbət edirdik. Burada "Molla Nəsrəddin"in dostlarından Ömər Faiq Nemanzadə, Salman Mümtaz, Qurbanəli Şərifzadə var idi. Mən dedim: Nə olardı bu kitaba nəzirə bir "Səyahətnameyi-Molla Nəsrəddin" də olardı... Bu yerdə Mirzə Cəlil üzünü bizə tutub dedi:

- Gəlin biz də "Mozalan"ı gəzdirək. Ancaq bunun "Səyahətnaməsi"ni öz aramızda bölüşdürək. Hər kəs onu özü gördüyü, bildiyi yerə aparıb, səyahət etsin. Oxuyanlar güman etsinlər ki, həqiqətən bu adam gəlib, buraları görüb, bu felyetonları yazıb. Belə də oldu. Birinci felyetonu mən başlayıb, "Mozalan"ı Bakıya kimi gətirdim. Bakıdan Məşhədə onu Salman Mümtaz apardı. İrəvan və Naxçıvan tərəflərində Qurbanəli Şərifzadə gəzdirdi. Beləliklə, "Mozalan bəyin səyahətnaməsi" ortaya çıxdı. [6,s.3,4] Əbdürrəhim Haqverdiyev “Molla Nəsrəddin” jurnalında “Ceyranəli”, “Xortdan”, “Həkimi-nuni-səğir”, “Lağlağı”, “Mozalan”, “Süpürgəsaqqal” və başqa imzalarla hekayə, felyeton və publisist məqalələr çap etdirmişdir. O, eyni zamanda jurnalın fəal mühərrirlərindən biri kimi tanınırdı. Bu satirik jurnalda Əbdürrəhim Haqverdiyev dövrünün vacib məsələləri barədə bir çox satirik əsərlər dərc etdirərək, xalqa dostunu və düşmənini yaxından tanıtdırmışdı. “Molla Nəsrəddin” jurnalı “İbrahim bəyin səyahətnaməsi”nin müsbət cəhətlərindən yeri düşdükcə parçalar verirdi. “İbrahim bəyin səyahətnaməsi”nin təsiri ilə mollanəsrəddinçilərin tərəfindən yaranan “Mozalan bəyin səyahətnaməsi” silsilə felyetonlarının onun təsiri ilə meydana gəlməsi ədəbi təsir faktı kimi dəyərləndirilmişdir.

Ümumiyyətlə, demokrat yazıçı Cəlil Məmmədquluzadənin ideyasını “İbrahim bəyin səyahətnaməsindən” alıb “Molla Nəsrəddin” məcmuəsində çap etdiyi felyeton və məqalələr öz mövzu, ictimai-bədii dəyəri ilə seçilir.

## Ədəbiyyat


1. Mehdibəyova M. “Z. Marağalının həyatı, mühiti və yaradıcılığı”, Elm və təhsil, Bakı, 2022
2. Həbibbəyli İ. “Molla Nəsrəddin” ensiklopediyası, Elm və təhsil, Bakı: 2020
3. Köçərli Firudin bəy. İranın oyanması. “Otqoloski” qəz.., 4 avqust 1906, N19
4. Məmmədquluzadə C. əsərləri 3-cü cild, 1947, Azərbaycan EA-nın nəşriyyatı,
5. Məmmədzadə H. “İbrahim bəyin səyahətnaməsi”, Bakı: 1982
6. “Molla Nəsrəddin jurnalında səyahətnamələr”, Bakı: 2007


**Mahmizar Mehdibeyova**

**"Journey of Ibrahim Bey" in the magazine "Molla Nasreddin"**

**Abstract**

The novel by Zeynalabdin Maragali "Journey of Ibrahim Bey" attracted the attention of the literary community in many countries of the East and Azerbaijan, as in Iran. Many Azerbaijani media reported about the novel. However, there are more materials related to the novel on the pages of the magazine "Molla Nasreddin" than in studies on the novel. The feuilletons and publicist articles of the writer-democrat Jalil Mammadguluzade, the idea of which he drew from the novel “Journey of Ibrahim Bey” and published in the collection “Molla Nasreddin”, are distinguished by their subject matter and social and artistic value.

# Hökumə Billurinin M.Şəhriyardan tərcümələri

**Zəminə Zeynalova**
*AMEA-nın Ədəbiyyat İnstitutunun elmi işçisi*



Məhəmmədhüseyn Şəhriyar 1906-cı ildə Təbriz şəhərində anadan olmuşdur. O, təkcə Azərbaycanın deyil, bütün Şərqin şairi idi. Zəngin yaradıcılığa malik M.Şəhriyarın fars dilində olan ədəbi irsinin bir çox dillərə, o cümlədən Azərbaycan dilinə tərcüməsi ilə məşğul olan şairlərdən biri də Hökumə (Həkimə) Billuri olmuşdur.

H.Billurinin Şəhriyar yaradıcılığına olan məhəbbəti və marağı onun bu şair haqqında yazdığı monoqrafiya, elmi araşdırma və tərcümələrdə öz təcəssümünü tapmışdır. Belə ki:

1. "M.Şəhriyarın həyat və yaradıcılığı" (oçerk) fars ədəbiyyatı tarixi üçün portret.
2. "M.Şəhriyarın yaradıcılığı" Nizami adına Ədəbiyyat İnstitutunun çapa hazırladığı "Ədəbiyyat tarixi" üçün bölmə.
3. "M.Şəhriyar" (monoqrafiya) və M.H.Şəhriyardan olan tərcümələri bunu sübut edir.

H.Billuri M.Şəhriyardan çoxsaylı tərcümələrin müəllifidir. Bunlardan qəzəllər, qəsidələr, qitələr, sərbəst şeirlər diqqəti çəkir.

M.Şəhriyarın H.Billuri tərəfindən Azərbaycan dilinə çevrilmiş "Hicabın üz qarası" adlı qəzəlində qadınlara qara hicab geyindirməklə bütünlükdə xalqın gözünə, şüuruna, azrularına və nəhayət demokratik dünyəvi dəyərlərinə qara pərdə çəkən quruluşa, şeyxlərə işarə edilir:

*Ağ gün gətirdi Şeyxə sənin qarə paltarın,*
*Qarə gününlə qarə edibsən hicabı sən.*
*Meydən danışma Şeyxə, ona mey nəyə gərək?*
*Xalqın qanın içir, yerə əndər şərabı sən.*[1]

daha sonra

*Xacəyə, Şeyxlə vuruşur Şəhriyar şeir,*
*Göndər, varaqla bir də o zəngin kitabı sən.*

"Ey qadın" adlı qəzəlində M.Şəhriyar qadının cəmiyyətdəki arxa planda olan mövqeyinə, tapdalanmış hüququna təəssüflənir. Onları həyatda öz layiqli yerlərini tutmağa, fəaliyyətsizlikdən əl çəkib mübariz, fəal olmağa dəvət edir:

*Ey qadın!*
*Hüququndan söhbət aç, bir söz söylə, ey qadın!*
*Ağır zəncirləri qır, düşsün dillərə adın.*
*Dinib-danışan saz ol, yaşa nəğmələr kimi,*
*Bu sonsuz kədərinlə parçalama qəlbimi.*
*Şərəf-şan bayrağını ucalt öz əməlinlə,*
*Səadət bayrağını sanc dünyaya əlinlə.*
*İstərəm görünməsin bir də gözlərində nəm,*
*Mərd ol, cəsarətini görsün bütün bu aləm.*
*Sən aysan, öz başına yumruq niyə döyürsən,*
*Düyünlə yumruğunu, Şeyxin başına döy sən!*[2].

H.Billuri M.Şəhriyardan etdiyi tərcümələrə çox həssaslıqla yanaşmış, onun dilindəki şirinliyi, səlisliyi, sətiraltı mənaları olduğu kimi ver-

[1] M.Şəhriyar. Seçilmiş əsərləri. Bakı. "Avrasiya Press", 2005, s. 162-163.
[2] Yenə orada, s.163-164.

məyə çalışmışdır. M.Şəhriyarın “Fələyin bayramlığı”, “Həyat zindanı” kimi qəzəllərində onun həyatındakı uğursuzluqların, çətin məqamların şahidi oluruq. Adları qeyd olunan iki qəzəldən olan nümunələri təqdim edirik:

*Sən qara ürəklisən, ey bayram, üzün qara*
*Azadə insanlara bayram əlvan gəlmədi.*
*Dostlar qonaq gələrdi hər il şəkərə, qəndə,*
*Fəqət ürək qanına kimsə mehman gəlmədi.*
*Mənim evim yox daha, mən tək xanımansızam*
*Görüşümə bir nəfər, bircə insan gəlmədi.*

*Bayramlıq, nə gətirdin bu il bizə, ey fələk,*
*Get-get, səndən nə ümid, nə də aman gəlmədi.*
(Fələyin bayramlığı)[4]

İki iyirmi yaşadım, iki yüzə bərabər,
Bəxtim kamança deyil, sinəmi dağlamışam.
Səbir imtahanında, münsif münsifsə əgər,
Qiymətimi beş yazar, nəfsimi oxlamışam.
(Həyat zindanı).[5]

M.Şəhriyar qəzəllərində gözəli vəsf etməklə paralel olaraq nakam sevgisindən daim söhbət açır, uğursuz taleyindən şikayət edir. Belə silsilə qəzəllərindən “Əbədi xəzan”, “Tədrici ölüm”, “Gülün arxası, üzü olmaz”, “Məhəbbətin məlalı”, “Sevinc yaşı”, “Sənətkarın ayı”, “Nakamlıqlar”, “Əlim ətəyinə”, “Cananın cilvəsi”, “Hicran çəkmişəm” və digərlərindən nümunələrə nəzər salaq:

*Məhəbbət diyarını tərk etmədin, ey ürək,*
*Bu uğursuz məhəbbət eylədi bayramı qan.*
*Ətirli qönçəm idin, dayan, güldürüm səni,*
*Bahara qürrələnmə, pusquda durmuş xəzan,*
*Bir gecə zindanıma tələs, sübhə acıq ver,*
*Şəmi yandırıb-yaxım, qarşında tapşırım can.*
*Dəyiş təbəssümünü canıyla Şəhriyarın,*
*Sevinclə bunu verib, onu alardım, inan!*
(Məhəbbətin məlalı).[6]

*Həyat oldu, mən oldum, bir də dərdü qəm oldu,*
*Bircə bu qəmli ürək şairə həmdəm oldu.*
*Nakamlığa o qədər öyrəşdim bu dünyada,*
*Həsrət xoş günümdə də qəlbimə məlhəm oldu.*
*Söylə, necə döndərim bu dönük taleyimi,*
*Dünya mənə əzəldən bir dönük aləm oldu.*
(Nakamlıqlar).[7]

H.Billurinin M.Şəhriyar yaradıcılığına olan məhəbbəti onları müxtəlif tellərlə bir-birinə bağlayır. Həmin bağlantılardan biri də hər iki şairin musiqiyə olan marağı və sevgisidir. H.Billuri M.Şəhriyarın “Qəmli ney”, “Mənə həmdəm olan ney” qəzəllərini tərcümə edərkən buna bir daha əminlik hasil etmişdir. Neylə söhbətdə Şəhriyar sevgilisindən, onun dönüklüyündən olan gileyini belə ifadə edir:

*Gül əkər, xar dərər bağbanlar,*
*Get gülüm, layiqin ol gülçindi.*
*Torpağından göyərib Fərhadın,*
*Qəmli ney, bəlkə dinən Şirindi.*
(Qəmli ney).[8]

və ya

*Danış, ey ney, sənin tək qəmliyəm mən,*
*Əzəldən sirli bir qəm axşamım var,*
*Ürək yüz yarə almış yar əlindən,*
*Nə səbrim, nə davam, nə də şamım var.*
(Mənə həmdəm olan ney).[9]

H.Billuri M.Şəhriyardan “Həyat”, “Atamın matəmində” və “Əziz Azərbaycanıma xitab” kimi qəsidələri dilimizə çevirmişdir. “Həyat zindanı” adlı qəsidədə M.Şəhriyar öncə həyatdan, onun törətdiyi çətinliklərdən, keçirdiyi iztirablardan gileylənib onu cəhənnəmə bənzədir:

*Əzəl gündən bu dünya nemət dolu dəstərxan,*
*Mən ki, tamah əlimi çoxdan çəkmişəm ondan.*
*Fələk qara kasadan nə pay vermişdir mənə,*
*Bu dünya gözlərimdə qaralmışdır hər zaman.*

Lakin şeirin ikinci hissəsində şair, sanki həyatı bu qədər qınamaqdan usanır, həyata olan baxışın məcrasını başqa səmtə yönəldir:

*Bu şeirə gözlərim sataşan zaman,*
*Utandım həyatın şərəf-şanından*
*Dedim ki, nankoram, duz çörək yedin,*
*Həyat süfrəsində sındı nəməkdan.*

---

4 M.Şəhriyar. Seçilmiş əsərləri. Bakı. “Avrasiya Press”, 2005, 164-165.
5 Yenə orada, s.169.
6 Yenə orada, s.167-168.
7 Yenə orada, s. 171.

8 M.Şəhriyar. Seçilmiş əsərləri. Bakı. “Avrasiya Press”, 2005, s. 160-161.
9 Yenə orada, s. 172.

*Əgər yüksəlişə səndə həvəs yox,*
*Nöqsan özündədir, özündə inan.*
*Həyatla ey könül, əhdin var dedim,*
*Abad gördüyünə söyləmə viran.*
*İnsan zəkalısa, baxıb görər ki,*
*Həyat başdan-başa elmdir, ürfan.*
*Həyat dənizində eşq qəvvası ol,*
*Oradan çıxarsan əlində mərcan,*
*Çətinlik kamala aparır səni,*
*Həyat imtahandır, böyük imtahan.*
*Xızı tək zülmətə qatlaşsan əgər,*
*Dirilik suyunu onda taparsan.*
*Ömrü zəhərləyən qara ölüm də,*
*Həyatı özünə seçmişdir məkan.*
*Həyatın qədrini bildi Şəhriyar,*
*Həyata şairin canı da qurban.*
(Həyat).[10]




Cənubi Azərbaycanın azadlıq mübarizəsi, orada yaşayan həmvətənlərinin əsarətin buxovlarından qurtulmaları uğrunda apardıqları müqavimət hərəkatı nəinki M.Şəhriyar və H.Billuri, bütünlükdə o tay və bu tayda yaşayan cənublu yazarların şeirlərinin əsas leytmotivlərini təşkil edir.

"Əziz Azərbaycanıma xitab" qəsidəsindən bəzi sətirlərə nəzər salmaq yuxarıdakı fikrimizə əyani sübutdur.

*Fədakarlıq günüdür qalx, anam Azərbaycan!*
*Əbədiyyət beşiyi, ölümsüz bir cahansan.*
*Ey min-min bəlalara sinə gərib, mərd duran,*
*Ey düşmənlər önündə qaya kimi sərt duran.*
*Ömrünü, taleyini bəxş edən tufanlara,*
*Ahın dağlara düşsün, göz yaşın dumanlara.*
*Ey məhəbbət, ey ülfət məskəni məğrur Vətən!*
*Gözü yolda, yaralı, həsrət anam da sənsən.*
(Əziz Azərbaycanıma xitab).[11]

H.Billuri M.Şəhriyardan fars dilində yazdığı digər şeir nümunələrindən olan "Maarifimiz", "Eşqin xumarı", "Mənim eybim", "Təbin quyusu", "Ulağın neçəyə?" və "Cavanlıq sərvəti" kimi qitələri də ana dilimizə özünəməxsus poetik şirinliklə tərcümə etmişdir.

"Maarifimiz" adlı qitədə M.Şəhriyar yaşadığı cəmiyyətdə maarifçilik sistemində baş alıb gedən cəhalətdən, zülmətdən, rəzalətdən söhbət açır.

Onun dili ilə desək:

*Nəyimiz var öyrənməli, cəhalətdir maarifimiz,*
*Maarifin özünə də xəyanətdir maarifimiz.*
*Əcnəbilər qələmilə yazılmışdır proqramı,*
*Tutuquşu dərsi verir, o sifətdir maarifimiz.*

*Ustalaşıb düzü əyri, əyrini düz tanıtmağa,*
*Yazıq millət, faciədir, müsibətdir maarifimiz,*

yenə orada:

*Gözlərini aça bilsən bu ağır div yuxusundan,*
*Nalən çatar fələklərə, fəlakətdir maarifimiz.*
*Cavanlara nə bir sənət, nə də həyat dərsi verir.*
*Açır zillət qapısını, cəhalətdir maarifimiz.*

daha sonra:

*Bikəs vətən, hünərsizlər, qeyrətsizlər əlindəsən,*
*Başdan-başa xəyanətdir, cəhalətdir maarifimiz.*
(Maarifimiz).[12]

H.Billurinin M.Şəhriyardan etdiyi tərcümələr sırasında sərbəst vəzndə yazılmış "Eynşteynə peyğəm" adlı şeir çox önəmlidir. Şair görkəmli fizik Eynşteynə ünvanladığı bu şeirdə özünün dahi alimə olan dərin ehtiramını bildirməklə, ona "Elmin Allahısan, ey böyük düha" – deyir. Lakin o, bütün uğurlarla yanaşı, təəssüfləndiyini də gizlətmir:

[10] M.Şəhriyar. Seçilmiş əsərləri. Bakı. "Avrasiya Press", 2005, s. 384-385.

[11] Yenə orada, s. 386-387.

[12] Yenə orada, s. 400-401.

*Fəqət min əfsus,*
*Heyf ilhamından, kəşfindən sənin*
*Bombalar düzəldir*
*Dünya qopacaq,*
*Cahan çıxacaqdır öz məhvərindən,*
*Qarşında diz çöküb, yalvarıram mən.*
*Şairin gözündən yuxusu qaçmış*
*Hərbin əjdahası, qorxunc, dəhşətli,*
*Cəhənnəm sayağı ağzını açmış.*

Daha sonra alimə müraciət edərək deyir:

*Ey ustad,*
*Arzusun eşit şairin!*
*Vicdan imperiyası eylə cahanı,*
*İşıqlı zəkanla ulu dühanla,*
*Döndər sən behiştə, döndər dünyanı*
*Qoy qəlbi, elmiylə fərqlənsin insan!*

*Qardaşlıq, sədaqət,*
*Bir də məhəbbət*
*Bayrağı altında birləşsin cahan!*[13]

M.Şəhriyar Eynşteynə xitabən yazdığı bu şeirdə də yaşadığı vətənə, onun dünyaya bəxş etdiyi məşhur oğullarına da işarə edir:

*Soruşmaq istərəm bir də ki, ustad:*
*Viran İran haqda eşitmisənmi?*
*Ora beşiyidir korifeylərin,*
*Orda doğulmuşdur bu Əli Sina,*
*Gərək dünya onu ulu dağ sana.*

və sonda şair deyir:

*Eynşteyn!*
*Bir az da irəli ustad!*
*Elmin göylərində bir də qanad çal,*
*Ağıl dünyasında bir az da ucal,*
*Musanı, İsanı, Məhəmmədi də*
*Elə bir məqamda bir zirvədə gör!*
*Sənin əlindədir qəlbin açarı,*
*Sənin əlindədir, elmin açarı.*
*Bu eşqin, bu elmin, ağlın əlilə*
*Həll et edilməz müəmmaları.*
(Eynşteynə peyğəm).

Bununla da şair dahi alimi öz kəşfi ilə üzüzə qoyur, ağlının bəhrəsindən insanlığa, bəşəriyyətə qarşı istifadə olunmasının əleyhinə çıxır.

[13] M.Şəhriyar. Seçilmiş əsərləri. Bakı. “Avrasiya Press”, 2005, s. 423-426.

Burada tədqiqə cəlb edilməyən tərcümə nümunələrinin adlarını çəkmək mütləqdir: “Döyüş”, “Əbədi xəzan”, “Tədrici ölüm”, “Vəhşi şikar”, “Mən olmaz”, “Qış ağası”, “Gülün arxası, üzü olmaz”, “Sevinc yaşı”, “Səfər azuqəsi”, “Həyat zindanı”, “Sənətkarın ayı”, “Yanan pərvanə”, “Əlim ətəyinə”, “Həzin təranə”, “Cananın cilvəsi”, “Divan və divanə”, “Bayram axşamı”, “Hicran çəkmişəm”, “Atamın matəmində”, “Gecə günəşi”, “Ayın aynasında”, “Hoqqa”, “Bədbəxtlik”, “Camal və Kamal”, “Təbriz şəhəri”, “Tehran və tehranlı”, “Yetim uşaq”, “Tiryəki tərk etmək həbi”, “Qumarın bəlası”, “İş bilən”.

Bu məqalədə H.Billurinin M.Şəhriyar yaradıcılığına olan tükənməz rəğbətinin təzahürü kimi “söz mülkünün sultanı”na həsr etdiyi əsərlər və tərcümələr işıqlandırıldı. Bütün bunlarla yanaşı M.Şəhriyarın da H.Billuri yaradıcılığına biganə qalmadığını əks etdirən şairin “Hökuməcan” şeirini təqdim etmək yerinə düşərdi:

*Sən Vətəndən sarı qəlbin döyünürsə, maralım,*
*Vətənin də maralından sarı qəlbi döyünür.*
*Vətəni bağruva bassan sevinərsən yenə sən,*
*Ki Vətən də balasın bağrına bassa sevinir.*
*Mənim eşqim ucalıb, qürbət olub dünya mənə,*
*Dost duyanmır döyünür, düşmən duyanmır, öyünür.*
(Təbriz, oktyabr, 1986).[14]

## Ədəbiyyat


1. Şəhriyar M. Seçilmiş əsərləri. Bakı, “Avrasiya press”, 2005, 478 s., s.160-172, 384, 386, 400, 423.
2. Şəhriyar M. Əbədiyyət gülüyəm mən. Bakı, “Elm və təhsil”, 2017, 285 s., s.119.
3. Billuri H. M.Şəhriyar (Monoqrafiya). Bakı, “Elm”, 1984, 156 s.


**Zamina Zeynalova**

**Hakima Billuri's translations from M.Shahriyar**

**Abstract**

The author of the article, mentioning the monograph and scientific research of H. Billuri, dedicated to M. Shahriyar, commented on her translations from Persian.

[14] M.Şəhriyar. Əbədiyyət gülüyəm mən. Bakı, “Elm və təhsil”, 2017, s.119.

# Muradəli Qüreyşi Qaflantının yaradıcılığında vətənpərvərlik motivləri

**Elmira Bağırova**
*AMEA-nın Ədəbiyyat İnstitutunun böyük elmi işçisi*



M.Q.Qaflantı Cənubi Azərbaycanın Miyanə vilayətinin Çaroymaq mahalının Heydarabad kəndində yoxsul bir ailədə anadan olmuşdur. Yeddi yaşında kəndlərindəki Mirzə Məmmədin məktəbinə getmiş, 1942-ci ildə məktəbi buraxıb, ailəsinin maddi vəziyyətinə kömək etmək üçün atası ilə birlikdə işləməyə məcbur olmuşdur. 1945-1946-cı illərdə Azərbaycanda qurulan Milli Hökumət Qaflantının ailəsini də sevindirir, arzuları, ümidləri yeniyetmə Muradəlini gələcəyə nikbin baxmağa ruhlandırır. Lakin çox keçmir ki, Qaflantının fədai əmisi tutulur, hərəkatın düşmənləri tərəfindən vəhşicəsinə kəndin küçələrində öldürülür. Qaflantının ailəsi talanır və kənddən çıxarılır. Köçdükləri kənddə bir neçə il yaşadıqdan sonra gənc Muradəli Tehrana gedir və uzun müddət orada yaşayır. Özü kimi didərgin düşmüş minlərlə azərbaycanlıların acı taleyi ondan da yan ötmür.

Qaflantı həyatında çox əzab və əziyyətlər çəkmişdir. Şahlıq rejiminin dözülməz və qeyri-insani şəraitində təhsil əvəzinə çörək dalınca qaçmağa, doğma yurd-yuvasından uzaqlara getməyə məcbur olmuşdur. Ədalətsizlikləri qanıyla, canıyla hiss edən Muradəli Qüreyşi hələ erkən yaşlarından məhrumiyyətlərlə üz-üzə gəlmişdir. Tehranda da çox rahatlıq görməyən gənc Qaflantının bütün olanlara, baş verən hadisələrə nifrəti artırdı. O, öz ana yurdunu, xalqını unutmur, daima ürəyində onlara böyük bir sevgi və məhəbbət bəsləmişdir. O, şah rejiminə dərin nifrətini bildirirdi, onun devrilməsini, yıxılmasını arzulayırdı. Bu acınacaqlı həyat sonralar şairin əsərlərində öz əksini tapır, bu motivləri daha yanğılı şəkildə misralara çevirməyə əsas verir.

Bütün bunlar onun şəxsiyyətində, sənətində, şeirlərində bariz şəkildə gözə çarpan cəsurluq, mübarizlik, dönməzlik, mətanət kimi qürur hisslərinin oyanıb həyat amalına çevrilməsinə səbəb olmuşdur. Doğma kəndindən, obasından ayrı düşən şairin misralarında həzinlik, kədər və həsrət hissləri onun qızğın-alovlu coşqunluğu ilə yanaşı duyulmaqdadır. Elə acınacaqlı həyatı da onda romantik duyğuların baş qaldırmasına səbəb olur. Sanki şair dözülməz, ağrılı, cansıxıcı vəziyyətdən yaxa qurtarmağa, xilas olmağa, qanad açmağa dərin ehtiyac duyur. O, riyakarlığı, paxıllığı, xəyanəti heç cür qəbul edə bilmir. Həyatı sevmək, düzgünlük, ətrafındakılara sevgi-məhəbbət aşılamaq kimi amillərin bir-birinə qovuşması şairin sənət ideallarına düz istiqamət verir, onun həqiqi sənət yoluna qədəm qoymasına köməkçi olur. Sonralar Qaflantının sənəti yalnız gerçək həyatdan yaranmış bədii surətlərə çevrilir, uydurma və saxta məzmunlardan qaçır:

*Şairi yaşadan, şeiri yaşadan,*
*Nə huri, nə pəri, nə də mələkdir,*
*Şeirə can verən, şeirə ruh verən,*
*Həqiqət bəzəkli aydın gerçəkdir.*
(3, s. 24)

Vətənpərvərliyi, insanlıq eşqilə çırpınan ürəyi onu klassik şeirimizin müasir səslənən ənənələrinə bağlamışdır. Klassik şairlərimizin insana və insanlığa hörmət, insan ləyaqətinə qiymət kimi xüsusiyyətləri onun gələcək sənət yoluna və bu yolda doğru-düzgün irəliləməyinə təkan verir:

*Alqışladım, həqiqəti ananların eşqini,*
*Yer üzündə el dərdini qananların eşqini,*
*Əli qabar, alnı açıq insanların eşqini,*
*Nəğmə qoşdum, illər boyu Vətən dedim, el dedim,*
*Sinə gərdim, sözlərini bəm demədim, zil dedim.*
(3, s. 30)

Bu şeirlər Qaflantı sənətinin, mövzularının ana xəttidir, elə buna görə də bu səpkidə müxtəlif çalarlı, müxtəlif məzmun və formalı əsərlər yazıb yaratmışdır.

Gənc yaşlarında olarkən Çaroymaqda keçən günlərini, kəndlilərin azad həyat uğrunda mübarizələrini, xanlara qarşı qanlı döyüşlərini görür, onların canlı şahidi olurdu. Sonralar yetkinləşib yaşa dolduqca onun yaddaşından silinməyən xatirələri, fərqi yoxdur xoş və ya məyusedici, onun gələcək əsərləri, oxunaqlı şeirləri üçün bir mövzuya çevrilirdi. Məhz yaradıcılıqda uğur qazanması üçün, ürəyəyatımlı şeirlər yazması üçün zəmin yaradırdı, duyğularını bir mənzumə şəklində dilə gətirirdi.

Qaflantı uzun illər şeir, ədəbiyyatla məşğul olmuş, yazıb-yaratdığı əsərləri mətbuatda, məcmuələrdə nəşr etdirmişdir. Onun mövzularının çoxu xalqının ruhundan doğan, cəmiyyətimizin irəli sürdüyü tələblərdən və zamanəmizin istəklərindən qaynaqlanan mövzulardır.

Şairin ictimai lirikasının baş mövzuları da məhz gündəlik həyatımızda baş verən hadisələr, cəmiyyətimizdə olan insani xüsusiyyətlərin tərənnümü, xalqımızın mənəviyyatına yad olan eybəcərliklərə qarşı etiraz, bir sözlə, insan səadəti, vətənin tərəqqisi, səmimiyyət, buludsuz həyat kimi motivlərdir.

Uzun illər hökm sürən qanlı-qadalı şahlıq rejimi vətənini xainlərin məskəninə, sevimli xalqını isə istismarçıların əlində alətə çevirmişdi. Şah və onun ətrafındakılar cəmiyyəti pozğunluğa yuvarlayır, insanlar arasında çaşbaşlıq salırdı. İnsanların söz demək haqqını əlindən alır, danışanı zindanlara atır, ailələri viran və gözüyaşlı qoyurdu. İstibdad və zülm bir çox əsərlərdə, şeirlərdə sanki üsyana çağırışlar edirdi. Məhz həmin zamanlar Qaflantının da qələmi bu üsyana tərəfdar çıxan insanları birləşdirmək, mübarizəyə çağırmaq üçün bir vasitə idi:

*Sən ey qan gölündə üzən tacdar!*
*Bil, gecə dalında aydın səhər var,*
*Gələcək o gün ki, sənin sarayın*
*Ellərin əlilə viran qalacaq,*
*Qışa çevriləcək baharın, yayın.*
(3, s. 63)

Pərişanlıq, dözülməz həyat şəraiti şairi ürəkdən sarsıdırsa onun xalqla birlikdə mübarizəyə inamını, əzmini gücləndirir, səsini ellərin səsinə qataraq, sanki bu savaşın, inqilabın nəhayət ki, qələbə çalacağını qəddar və zalım şaha göstərirdi:

*Görürəm çoxdandır batıbdır yasa,*
*Şahların zülmündən dolubdur kasa,*
*Ürəklərdə ülfət əkən də yoxdur,*
*Dillər qadaxlanıb, qollar bağlanıb,*
*Heç bir cınqırtı da çəkən də yoxdur.*
(3, s. 63)

Bu arzular, işıqlı sabaha inam həqiqətə yaxınlaşdıqca şair bir daha yazdığı şeirləri ilə qürurlanır, çünki bu misralar bir daha sübut edir ki, həyatda vətənlə, ellə bağlı ümidlər insanı, sənətkarı, şairi gələcəyə nikbin baxmağa sövq edir, xalqın içindən gələn, ürəyindən keçən duyğuları həyata keçirməyə ruhlandırır.

Qaflantı şeirlərinin ilham mənbəyi, onların özəyi, mayası Vətən torpağıdır. Bu torpağın barlı-bərəkətli, açıq süfrəli, sədaqətli insanları, xalq qəhrəmanları, musiqisi, dünəni, bu günü və sabahı şairin ürəyində nəğmələrə, misralara çevrilir, ona qol-qanad verir. Gələcəyə ümid, nikbin əhval-ruhiyyə, cəsurluq, məğrurluq, əzəmət, yaşayıb-yaratmaq həvəsi kimi insani xüsusiyyətlər şairi daha da vəcdə gətirir və o, bu məziyyətlərin nəğməkarına çevrilirdi. Onu şair edən oduközü sönməyən vətən torpağıdır. Şair haqlı olaraq deyir ki, "söndürmədim ürəyimdə Vətənimin çırağın". Bu çıraq onun ürəyində sönərsə, şairliyini, vətəndaşlığını, hər şeyini itirər.

Qaflantı vətənin bu günü ilə bərabər dünənini də, gələcəyini də düşünür. O, geriyə boylanaraq yaşadıqlarını hafizəsində canlandırmaqdan çəkinmir, əksinə, vətən qəhrəmanlarının simasını, onların həyatını, mübarizəsini gözləri önündə canlandırır.

Həmin qəhrəmanların xəyalı, əməlləri şairə vətəndaşlığın vətənə bağlılığını insanlığın dərin mənasını öyrədir:

*Qaflantıyam, andım o günləri mən,*
*Canlandı gözümdə çiçəkli Vətən,*
*Keçdi ürəyimdən o gül, o çəmən,*
*Bülbüllü bağları yadıma düşdü.*
(3, s. 16)

Sabaha, işıqlı gələcəyə inam, ümid, nəcib duyğular, düşüncələr, arzular bir-birini əvəz

edir, müjdələrə çevrilir. Vətənin azadlığı, ellərin, oba və kəndlərin, şəhərlərin abadlığı, dirçəlişi və tərəqqisi, xalqın firavan yaşayışı bədii boyalarla, səmimi duyğularla gözlərimiz qarşısında arzu olunan bir mənzərə yaradır:

*Çağlasın şəlalələr,*
*Çətir açsın lalələr,*
*Qurtarsın qəm, nalələr,*
*Sevinsin el, sevinsin.*

(3, s. 34)

Vətən övladı olan şəxs təkcə ümid və istəklərlə kifayətlənə bilməz. Həm də sülhsevər, vətənpərvər, insanpərvər, bütün millətlərə hörmət etmək kimi məziyyətlər də qardaşlığın, insanlığın göstəricisidir. Şair məhz insan əli ilə, zəkası ilə bəzənmiş dünyanı xəyalında belə təsəvvür edir, görür və arzulayır:

*Dünya gözəlləşsin insan əlilə,*
*Bütün gözəllikdən kam alsın insan,*
*Yaşasın, yaratsın öz əməlilə,*
*Azadlıq qoynunda qocalsın insan.*

(3, s. 33)

Muradəli Qaflantının əsərləri məzmun, forma etibarilə tükənməz söz sənətimizdən, şifahi xalq ədəbiyyatımızdan, aşıq şeirimizdən qidalanmışdır. Cürətlə demək olar ki, inkişaf etməkdə olan ədəbiyyat, xüsusilə şeirin, sənətin tərəqqisi, yenilənib yüksəlməsi şairin yaradıcılığına təsirsiz ötməmişdir. Ədəbi mühit onun şeirlərində məzmunlardan, formalardan tutmuş başqa üslubi məsələlərə qədər güclü təsir buraxmışdır. O, öz mövzularına vətəndaş-şair gözü ilə baxır . Canlı danışıq dilindən, xalq dilindən, aşıq poeziyasının inkişafından, imkanlarından tez-tez istifadə etməsi şeirərinə başqa bir təravət bağışlamışdır. Elə bu qəbildən olan cəhətlər də onu başqalarından fərqləndirir, məhz buna görə də şairin yaradıcılığına yüksək qiymət vermək lazımdır. Qaflantı şeirlərində bir sıra Azərbaycan şeirinə xas olan doğma obrazlarla qarşılaşırıq. Qeyd etdiyimiz kimi, bu obrazların çoxu şifahi xalq ədəbiyyatından gəlir və digər obrazlarla eyni hüquqa malikdirlər. Lakin bu obrazların xarakterik xüsusiyyətlərini saxlayaraq onları müasirləşdirib, öz mənəvi dünyası və dövrü, şəraiti ilə uyğunlaşdıraraq yeni tərzdə təqdim etmişdir.

M.Qaflantının "Təpiyin dağı" adlı şeirinə nəzər salaq. Ustad Şəhriyarın "Heydərbabaya salam" şeirindən təsirlənərək yazdığı açıq-aydın diqqət çəkir. Lakin onun bu əsəri məzmunca ictimai və mütərəqqidir. Şeiri oxuduqca müəllifin nikbin əhval-ruhiyyəsini hiss edirik, işıqlı gələcəyə inandığının şahidi oluruq, şairi üzən sükutun sındığını görürük. Şeirin əvvəlində müəllif yağı düşmənin onun elində, obasında "at oynatdığını", özünü ev yiyəsi kimi apardığını, yırtıcı kimi xalqı talayıb-çapdığını, zülmün ərşə qalxdığını təsvir edir. Anaların ağlar qaldığını, cavanların canlarını qurban verdiyini, bala deyib inləyən qadınların ah-naləsini göz önünə gətirir.

Düşmənin xalqın kökünə balta vurduğunu, onu məhv etməyə cəhd göstərdiyini, elin, obanın əməyindən istifadə edərək ölkəni yoxsulluğa sürüklədiyini sənətkar şeirin dili ilə oxucuya çatdırır:

*Elimizin əməyini yeyirlər ,*
*Ölkəmizdə bizə, yoxsuz, deyirlər!*

(4, s. 58)

Sonra isə ancaq xalqın birliyini, vəhdətini nicat yolu bilən şair qardaşın qardaşa kömək əlini uzatmasını, bir yumruq olmasını tövsiyə edir:

*Günəş çıxar, itib gedər sis-duman,*
*Qardaş çatar qardaşının yanına,*
*Lərzə düşər yad ellərin canına.*

(4, s. 59)

"Ellərimə arxalanım" şeirində müəllif kimdənsə kömək gözləməyi, kiməsə arxayın olmağı bir tərəfə qoyur, bu fikirləri özündən uzaqlaşdırmağa çalışır, ancaq öz gücünə inanmağı düşünür, əllərim silah tuta bilirsə, özümə bel bağlamalıyam, özümə arxalanmalıyam, deyə düşünür:

*Ürəkləndim silahlanım,*
*Ellərimə arxalanım!*

(4, s. 75)

"Darıxma, elimə dedim, bu qədər", "Utan xalqımızdan, dedim düşmənə" şeirlərində Qaflantı hiyləgər, məkrli düşmənlərin nə qədər qorxaq və içiboş olduğunu göstərərkən xalqını vətənpərvər oğul və qızlarını düşmənə qarşı mətin olmağa və hər zaman mübarizəyə hazır olmağa çağırır. Həmçinin, "Şehda" meydanının faciəsindən sonra söylədiyi "Yaşasın qəhrəman Vətən övladı" adlı şeirində isə İran xalqlarının is-

tibdada, imperializmə qarşı haqlı döyüşlərini çox mükəmməl surətdə əks etdirmişdir.

Qaflantının şeir dili çox sadədir, xalqın danışıq dilinə yaxındır. Əsərlərində folklorun, şifahi xalq ədəbiyyatının təsiri çox aydın görünür. Onun şeirlərini bir də nəzərdən keçirəndə hiss olunur ki, şairin ilk əsərlərində görünən bir sıra tərs baxışlar getdikcə qələbə çalaraq son əsərlərində mütərəqqi və qabaqcıl düşüncələrə yol açır.

Uzun illər yazıb-yaratmış, böyük sənətkarlıq təcrübəsinə malik olan, keşməkeşli həyat yaşamış qocaman söz ustası elə əsərlər müəllifidir ki, orada məhəbbət lirikası, ictimai-siyasi şeirlər, xatirələr, eləcə də dostlara və qələm yoldaşlarına yazdığı əsərlər diqqəti cəlb edir.

Ölməz ustad şairlər Həbib Sahir, Gəncəli Sabahi, Haşım Tərlan, Yəhya Şeyda, Həbib Fərşbaf və başqa ünlü yazarlarımız haqqında qələmə aldığı şeirlər, onlara ithaf etdiyi sətirlər unudulmazdır. Qaflantının bu sənətkarlara qarşı hörmət, ehtiram, sevgi, məhəbbət və qədirbilənliyinin təsdiqidir.

"Bizim kəndin bir illik tarixi" əsərinə nəzər salaq. Bu poemada şairin dilindən çıxan, ürəyindən gələn səmimi duyğuları, eşitdikləri, gördükləri hadisələri tərənnüm etməsi, oxucuda maraq oyadır. Müəllif bu əsəri yazmaqla sanki başına gələn hadisələri göz önünə gətirir, xalqın əzablı günlərini, başlarına gələn müsibətləri qələminin gücü ilə insanlara çatdırır. Əsər şeirlə yazılsa da oxucuya çox maraqlı gəlir, oxunaqlıdır, həm də çox sadə dildə yazıldığından sanki hekayətə qulaq asırsan. Fikir, hiss nə qədər aydın və dolğun deyilirsə, şeir bir o qədər təsirli olur:

*Dedim: "Səbr eləyin, gəlim özümə,*
*Deyim, yaxşı qulaq asın sözümə,*
*Əzəldən olduğun danışım sizə,*
*Gör necə zülm olub bu gündə bizə.*

(4, s. 23)

Şair qəhrəmanının dili ilə atasının başına gələnləri, anasının, əmisinin, qonşularının düşdüyü iztirablı günləri bir-bir övladlarına nəql edir, xanların, ərbabların, ağaların kəndliləri quzğun kimi talayıb-çapmalarını, onların başına açdığı müsibətləri uşaqlarına danışaraq yenidən o günləri bir də yaşayır. Fədailərin onlara köməyə gəlməsi, arxa durması xanları qorxuya salırdı, lakin xain düşmənin məkrli əməlləri nəticəsində xalqın aldadıldığı, yanlışlığa yol verməsi işin xeyrinə deyil, zərərinə olduğu üçün insanları yenə məyus edirdi:

*Çox yerdə elimə qurdular tələ,*
*Dərdlərin çoxunu yazmadan hələ,*
*Ellərim ayılar, intiqam alar...*
*Keçən günlərimi yadına salar.*

(4, s. 52)

Amma xalq yenə də mübarizəsini davam etdirirdi. Quduz xanlar ixtiyarı ələ alaraq, Çaroymaqda qətllər törədir, xalqı zülm içində boğurdular, insanların birliyini isə sındıra bilmirdilər. Bütün bu hadisələri ürək yanğısı ilə təsvir edən əsərin qəhrəmanı hələ dərdlərin çoxunu deyə bilmədiyini, lakin işıqlı sabahlara çıxacağını dəqiq bildiyini, ona inandığını, ümid etdiyini qətiyyətlə qələmə alırdı:

*Görübsən, hər qışın dalısı yazdı,*
*Bil ki, yaman günün ömrü çox azdı.*

(4, s. 52)

Zəhmətkeş şair Muradəli Qüreyşi illər boyu ürəyindəki eşqi, məhəbbətilə, xalqına, vətəninə bəslədiyi səmimiyyətilə zirvələrə ucalmış, oxucu ürəyində layiqli yer tutmağa müvəffəq olmuşdur, həmişə də hörmət və ehtiramla yad ediləcəkdir.

## Ədəbiyyat


1. Cənubi Azərbaycan ədəbiyyatı antologiyası, IV c. Bakı, "Elm",1994,404s.
2. M.Q.Qaflantı. Seçilmiş əsərləri. Təbriz, "Eldar", 1978/1357, 75 s.
3. M.Q.Qaflantı. Ömür aynası. Tehran, "Nəşre Mina",1990/1369, 80 s.
4. Muradəli Qüreyşi Qaflantı. Ulu çinar (Transliterasiya, tərtib və ön sözün müəllifi Qəndab Əliyeva). Bakı, "Elm və təhsil", 2020, 252 s.


**Elmira Bagirova**

**Patriotic Motifs in the Work of Muradali Gurayshi Gaflanti**

**Abstract**

Muradali Gureishi Gaflanti was born in Miyane province, South Azerbaijan. Gaflanti, who opposed the shah's regime from the beginning, had a deep hatred for the oppressors and those who exploited the people. In his works, he described the struggle of the people for freedom and their hope for a brighter future. The poet, who wanted to see his homeland free and loved his people with all his heart, wrote in his poems about such human feelings as courage and perseverance.

# Şərq-Qərb münasibətləri prizmasından dinlərarası dialoq və Azərbaycan təcrübəsi

*"Avropa ilə Asiyanın qovşağında, Böyük İpək Yolunun üstündə yerləşən Azərbaycanda zərdüştilik, atəşpərəstlik kimi qədim dini inanclar öz izlərini qoymuş, İslam, Xristianlıq və Yəhudi dinləri əsrlər boyu dialoq və qarşılıqlı anlaşma mühitində dinc, yanaşı yaşamış və hələ də yaşamaqdadır".*

**Ümummilli Lider Heydər Əliyev**

**Ceyhun Ağayev**
*AMEA-nın Şərqşünaslıq İnstitutunun böyük elmi işçisi, f.ü.f.d.*

**Giriş**

Məlum olduğu kimi, ötən əsrin ortalarından başlayaraq dinlərarası dialoq tarixi kökləri olmasına baxmayaraq qloballaşma ilə bərabər yeni bir tədqiqat obyekti kimi tədqiqatçıların diqqətini cəlb etmişdir. Dünyada yeni tendensiyaların formalaşması, qlobal mənada yeni anlayış və terminləri aktuallaşması, milli-etnik münasibətlərdə yaranan bir çox problemlər bir daha göstərdi ki, dinlərarası dialoqun aparılması vacib bir məsələdir. Amma təəssüflər olsun ki, bu qədər vacib və mühüm bir məsələ illər və hətta əsrlər boyu tarixin tozlu rəflərində qalmışdır.

Dialoqun bir dinə mənsub müxtəlif qrupların, həm də fərqli dinlərə mənsub insanların, inanc və düşüncələrini bir-birlərinə məcburən və ya qeyri-etik yollarla qəbul etdirmə təşəbbüsündə olmadan, ortaq məsələlər ətrafında tolerant şəraitdə razılaşaraq bir məxrəcə gəlməsi vacib məsələdir.

Tarixə nəzər salsaq görərik ki, İslam dininin ümumi olaraq Qərblə, xüsusilə də xristianlıqla on əsrdən çox münasibətləri demək olar ki, normal olmamışdır. Bunun səbəbi kilsənin dialoqa açıq olmaması və müsəlmanlara şübhə ilə baxması olmuşdur.

Məşhur siyasi xadim, bütün dinlərə eyni məsafədə yanaşmanın daha doğru olacağına inanan Mahatma Qandi qeyd etmişdir ki; "Günümüzün ehtiyacı yalnız bir din deyil, müxtəlif dinlərin tərəfdarlarına qarşı qarşılıqlı hörmət və dözümlülükdür". (16) Həqiqətən də dinlərarası, mədəniyyətlərarası dialoqun yaradılması, qarşılıqlı hörmət göstərilməsi müasir cəmiyyətdə demokratik stabilliyin yaradılması üçün çox vacibdir. Nəzərə almaq lazımdır ki, dinindən, dilindən, milli mənsubiyyətindən, inanıb-inanmamağından asılı olmayaraq hamımız eyni dünyada yaşayırıq. Elə buna görə də cəmiyyətdə bir-birimizə qarşı olan münasibətlərimizdə bütün bunları nəzərə alaraq davranmalı və ona görə maksimum dözümlülük göstərməliyik.

**1. Dinlərarası dialoq və onun mahiyyəti**

Dinlərarası dialoq: Müxtəlif dinlərə mənsub insanlar bir-birlərinə öz inanclarını və düşüncələrini məcbur qəbul etdirməməli, bərabərlik, tolerantlıq, dürüstlük, səmimilik, sevgi, hörmət və xoş niyyətdə ortaq olmalıdır. Sülh, azadlıq və demokratik bir mühitdə yaşamağın hər bir kəsin arzusu olduğu da unudulmamalıdır. Bunlar birbiri ilə danışmağa, əməkdaşlıq etməyə, birlikdə yaşamağa və hətta güzəştə getməyə imkan verəcəkdir. Hər bir kəsin dinində olan fərqli və oxşar cəhətlərə baxmayaraq, önəmli olan din mənsubları bir-birlərini olduqları kimi qəbul etsinlər. (1,s.31)

Dünyada qloballaşma prosesinin geniş vüsət aldığı bir zaman kəsiyində dünya dövlətlərinin siyasi və mədəni həyatında bir sıra köklü dəyişikliklərin baş verdiyinin şahidi olduğumuz üçün yuxarıda qeyd olunan bir-birini qəbul etmək prinsipinin unudulduğunu görürük. Bir sıra dövlətlər öz siyasətini, inancını möhkəmlətmək və başqalarına qəbul etdirmək üçün müasir metodlara, bəzən istəməsə belə, müraciət etmək məcburiyyətində qalmışdır. Bunun ilkin səbəbi varlığını davam etdirmək olsa da, əsas səbəb qloballaşma prosesinin bir parçası olmaqdan ibarətdir. Buna görə son illər ərzində müxtəlif ölkələrdə və bir çox qabaqcıl universitetlərdə dəfələrlə dinlərarası dialoqun təbliği və təşviqi

istiqamətində müzakirələr aparılmış, beynəlxalq konfranslar, simpoziumlar keçirilmişdir.

Belə ki, dünya dövlətləri üçün qarşılıqlı münasibətlərə xələl gətirən və bəzən də qlobal problemə çevrilən məsələlərin aradan qaldırılması üçün dinlərarası dialoqun genişləndirilməsi böyük əhəmiyyət kəsb edir. Çünki müasir dövrdə qloballaşma prosesi ictimai həyatın bütün sahələri ilə yanaşı, mədəniyyətə və dinlərarası dialoqa ciddi təsir göstərir. Bu təsiri xüsusi ilə rəqəmsal texnologiyaların sürətli inkişafında dinlərarası dialoqa necə sürətli təsir etdiyinin şahidi oluruq. Bütün bunlara baxmayaraq, bir çox hallarda isə bu proses milli və dini şüurun düzgün formalaşmasına öz mənfi xüsusiyyətini göstərir. Belə olan təqdirdə dinlərarası dialoqun təbliği və inkişafı istiqamətində təhlil aparmaq əhəmiyyətli olur.

Məlum olduğu kimi, qloballaşan dünyada dinlərarası dialoq müxtəlif zamanlarda müxtəlif mənalarda istifadə olunduğu üçün fərqli dinlər, dindarlar və o cümlədən dindar olmayanlar arasında bəzən anlaşılmazlığa səbəb olmuşdur. Hadisələrin gedişatı ərəfəsində qloballaşmanın “müxtəlif maraqların riskli və münaqişəli oyunu” fikri deyilənlərə qismən də olsa, haqq qazandırır. (2, s.86)

Belə olan təqdirdə dinlərarası dialoqun mahiyyətinin necə başa düşülməsi məsələsi əhəmiyyət qazanır. Rusiyalı dinşünas İ.N.Yablokovun fikrincə, dinlərin dialoqu - “müxtəlif dünyagörüşü olan insanların qarşılıqlı münasibət və qarşılıqlı təsirlərinin çoxtərəfli tarixi prosesi olub, əsas məqsədi həm müxtəlif din nümayəndələri, həm də inanclı və inancsızlar arasında münaqişə və insan hüquqlarının pozulmasının qarşısını almaqdır”. (3, s.359-360)

Başqa bir rus tədqiqatçısı A.V.Juravskiyə görə, “dinlərin dialoqu” kifayət qədər şərti anlayışdır. Çünki gerçək dialoq dinlər arasında yox, yalnız müxtəlif dinlərə inanan insanlar arasında ola bilər. Onun fikrincə, “dinlərin dialoqu dedikdə biz mədəni informasiyanın kortəbii mübadilə prosesini yox, şüurlu surətdə qarşılıqlı anlaşma başa düşürük. Bu özünün həm nəzəri təhlilini, həm də institusional rəsmiləşməsini tələb edən mürəkkəb prosesdir. Belə dialoq yalnız indi, bu günlərdə başlayır. Məhz bu səbəbdən dialoq haqqında elmin daha bir əhəmiyyətli xüsusiyyəti var: o eyni dərəcədə həm dialoqu tədqiq edir, həm də onu yaradır, o təkcə dialoq haqqında elm yox, həm də dialoq elmidir”. (4, s.23)

Müasir dövrdə dinlərarası dialoq deyəndə, qarşılıqlı anlaşma prinsiplərinin və münasibətlərin qorunub saxlanması, xüsusilə dini məsələlərin siyasiləşdirilməməsi nəzərdə tutulur. Məlum olduğu kimi, dünyanın bir çox ölkəsində dinin siyasiləşdirilməsinə imkan verilməməkdədir. Dinin siyasiləşdirilməsi, siyasətə alət edilməsi onun müqəddəs amaldan uzaqlaşdırmaq deməkdir ki, bu da yolverilməzdir. Din və onun bildirdikləri daim uca tutulmalıdır. Hər kəs dinə və qarşılıqlı dialoqa mədəniyyət səviyyəsindən yanaşmağı bacarmalıdır ki, qarşılıqlı dialoq yarana bilsin.

Qeyd etmək lazımdır ki, dünyada dini zəmində baş verən münaqişələrin əsas səbəbi dini savadsızlıq və bu istiqamətdə təbliğat və təşviqatın düzgün aparılmamasıdır. Bu məsələlərin həllində təkcə dinlərarası deyil, həm də bununla sıx bağlı olan mədəniyyətlərarası dialoqun aparılması mühüm şərtdir. Hər mədəniyyətin öz taleyi, öz tarixi, dəyərlər sistemi vardır. Mədəni tarix dini, siyasi, sosial-iqtisadi əlamətlərlə bir-birindən fərqlənir. XX əsrin ikinci yarısından sonra dövlət sərhədlərinin açılması, eyni zamanda mədəni sərhədlərin açılmasına da şərait yaratdı və onun müasir modernləşdirmə formalarından biri kimi mədəniyyətlərin qovuşmasının, mədəniyyətlərarası dialoqun təməlini qoydu. Biz eyni ilə dinlərarası əlaqələrin genişlənməsini və onlar arasında dialoqun yaranmasını da bu qayda ilə izah edə bilərik. Müasir maarifçilikdə mədəniyyətlərarası və dinlərarası dialoqlar insanların və millətlərin yaxınlaşmasının həlledici amilinə çevrilir, bir-birinin əksi olan həyat tərzlərinin, bəzən bir-biri ilə mübarizə aparan dinlərin və dəyərlər istiqamətlərinin yaxınlaşmasına səbəb olur. (5, s.98-104)

Müasir dövrdə bir çox problemlər və maneələrə baxmayaraq, son dövrlərdə dinlərarası dialoqun inkişafı və təbliği istiqamətində mühüm irəliləyiş olmuşdur. Belə ki, müsəlmanlarla qeyri-müsəlmanların münasibətləri əhəmiyyətli dərəcədə yaxşılaşmış, bunun inkişaf etdirilməsi istiqamətində Vatikanla İslam dünyası arasında bir sıra müqavilələr imzalanmış və “müsəlman-xristian dialoqu komitələri” yaradılmışdı. (6, s.9)

Qeyd etmək lazımdır ki, “Dialoqun baş tutması bir neçə şərtdən asılıdır. Bu şərtlərin ən mühümlərinə daxildir: a) Dialoq zamanı dinlər

və mədəniyyətlərin müstəqilliyi (sərbəstliyi) təmin edilsin; b) Dialoq demokratik şəraitdə baş tutsun və bu zaman hər bir dinə münasibətdə bərabərlik və ədalət prinsipləri gözlənilsin; v) Dialoq bu və ya digər dinin hegemonluğuna tabe etdirilməsin; q) Dialoq kağız üzərində qalmamalı, praktikada özünü təsdiq etməli, insanların mənəvi, ruhi həyatını qidalandırmalıdır; ğ) Dialoq zamanı ədəb-ərkan qaydaları gözlənilməli, səmimiyyət düzgünlük, səbr yumşaqlıq (həlimlik), mehribanlıq, dözümlülük (tolerantlıq), qanacaqlılıq, fərasətlilik, gözəl əxlaq, fəsahətlilik və nitq rəvanlığı kimi keyfiyyətlər əsas götürülməlidir”. (7, s.7)

Dialoqun demokratikliyinin təzahürlərindən biri də budur ki, hər bir din öz məfhum və ideyalarını, dialoqdakı hüquqi təmsilçilərinin metodlarını sərbəst ifadə etmək hüququna sahibdir. Bu zaman digər dialoqçuların kənardan müdaxiləsinə icazə verilmir. Onlar yalnız əlavə məlumat, ətraflı informasiya, ortaq problemlərin həlli ilə əlaqəli suallar verə bilərlər. Müəyyən məsələnin həlli üçün müxtəlifliyə baxmayaraq, birgə cəhd göstərmək, təkliflərin ortaq məxrəcə gətirilməsi üçün fikir mübadiləsi aparmaq hər bir dinin haqqıdır. Dini-mədəni müxtəlifliyi qəbul etmək bəşəriyyətin qədim və indiki reallığını qəbul etməkdir, dinin və insanlığın birliyinə əsaslanan dini-mədəni birliyin yenidən aşılanması istəyini dilə gətirməkdir. Habelə bu, “Dində məcburiyyət (zorakılıq) yoxdur. Artıq doğruluq (iman) azğınlıqdan (küfrdən) ayırd edildi” (8) qaydasına əsaslanmaqla dini-mədəni plüralizmin, müxtəlifliyin təsdiqidir. Odur ki, Quranın onlarla ayəsində dini və mədəni tolerantlığa çağırış vardır. (9, s.17)

Yuxarıda qeyd olunduğu kimi istər Quranda, istərsədə hədislərdə verilən mesajlar ilk öncə qarşılıqlı anlaşma olması istiqamətindədir. Türkiyəli alim Bekir Karlığa 1998-ci il Mədəniyyətlərarası Dialoq Simpoziumunda çıxış edərkən dialoqda əsas olan insanların bir-birini başa düşüb qəbul etməsi fikrini irəli sürmüşdür: “Dialoqun baş tuta bilməsi üçün tərəflər bir-birini başa düşməlidir. Anlamaq, başa düşmək həm də tanış olmaq üçün bilmək lazımdır. Ona görə də dialoq tərəflərin “haqq” və “doğruluq” mövzuları üzərində deyil, öncəliklə qarşılıqlı şəkildə aparılmalıdır. O, “bilmək”, “tanınmaq” və “anlamaq” əsaslarına söykənməlidir. Yəni dialoq bizim fərqlərimizin aydın göründüyü yerdir. “İnam” və “dəyərlər”dən daha çox ortaq nöqtələrimiz “etik”, “estetik”, “mədəni” və “intellektual” planda axtarılmalıdır. Təbii ki, bundan sonra inanc və dəyərlər sahəsində birliyimiz özünü göstərəcək və ortaq nöqtələrdə görüşmək imkanımız olacaqdır. (10, s.13-19)

**2. Şərq-Qərb münasibətlərində Azərbaycan təcrübəsi**

Yuxarıda qısa olaraq qeyd olunan məsələlər müasir dövrdə dinlərarası dialoqun təbliği və təşviqi istiqamətində dünyada baş verən proseslər bir daha onu göstərir ki, müsəlmanlar üçün dialoq zəruridir bu bir fürsətdir. Ümumiyyətlə tarixə nəzər salsaq, dünyada sülhün bərqərar olmasında müsəlmanların atdığı xoşniyyətli addım əksər vaxtlarda onun əleyhində istifadə olunmuşdur. Çünki heç bir tarixi dövrdə Qərb onun İslamı və müsəlmanları qərəzsiz başa düşməyə çalışacağı bir mühitə imkan verməmişdir. Buna baxmayaraq, bütün islam ölkələri son illər dünyada baş verən müsbət dəyişiklikləri, dinlərarası dialoqun təbliği və təşviqi istiqamətində atılan addımları və bu müsbət havanı çox yaxşı qiymətləndirməlidir.

Bu istiqamətdə bir çox dövlətin fəaliyyəti yüksək qiymətləndirilir. Burada Azərbaycanın xüsusilə fərqləndiyini görürük. Belə ki, Azərbaycan dövləti dünyada sülhün, əmin-amanlığın və dinlərarası dialoqun təbliği və təşviqi istiqamətində heç bir zaman kənarda qalmamışdır. Tam tərsinə, dinlərarası dialoqun inkişafı istiqamətində əsas hədəfini tolerantlıq və multikulturalizm üzərində inkişaf etdirmişdir. Bunun üçün görülən məqsədyönlü işlər dialoq mühitinin qorunması və inkişafı istiqamətində əsas faktorlardan birinə çevrilmişdir. Bütün bunlara baxmayaraq, qloballaşan və mədəniyyətlərarası münasibətlərin gündən-günə yaxşılaşdığı bir dövrdə dini radikalizm, ekstremizm, separatizm və terrorizm tolerantlıq və multikulturalizm mühitinə mənfi təsirini göstərmişdir. Azərbaycan illərlə ekstremizm, separatizm və terrorizmlə mübarizə aparan bir dövlət kimi, bu kimi hadisələrə ciddi əhəmiyyət vermiş və bu istiqamətdə də işləri davam etdirməkdədir. Elə buna görədir ki, Azərbaycan tolerantlıq və multikulturalizmlə bağlı bir çox beynəlxalq konfranslar təşkil etmiş və dünyaya xüsusilə də Şərq və Qərb üçün nümunə ola biləcək bir sıra addımlar atmışdır.

Qeyd etmək lazımdır ki, bunlara misal olaraq, 2016-cı il yanvarın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkədə "Multikulturalizm ili" elan etməsi haqqında Sərəncam vermişdir. Dünya ölkələri Azərbaycanda əsrlər boyu formalaşan milli-mədəni rəngarənglik mühitinə, tolerantlığa böyük maraq göstərir, Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun 2016-cı ildə Bakı şəhərində keçirilməsi də bunu sübut etdi. Dünyada etnik, dini münaqişələrin tüğyan etdiyi bir zamanda dövlət başçısının 2016-cı ili Azərbaycanda "Multikulturalizm ili" elan etməsi beynəlxalq aləmdə də rəğbət doğurdu. (11)

Azərbaycanda keçirilən beynəlxalq tədbirlər müasir dövrdə dinlərarası dialoqun təbliği və təşviqi istiqamətində ilklərdən birinə imza atmış, Şərq-Qərb üçün əhəmiyyət kəsb edən dinlərarası dialoqunun yenidən canlanması üçün aparıcı bir missiyanı öz üzərinə götürmüşdür. Çünki Şərqin də ayrılmaz bir hissəsi olan Azərbaycan müasir sivilizasiyanın və dinlərarası dialoqun formalaşmasında öz töhfəsini verməklə bir daha sübut etdi ki, sivilizasiyalar və dinlərarası münasibətlərin inkişafında Şərqin rolu danılmazdır.

Tanınmış tədqiqatçı alim, professor Səlahəddin Xəlilov "Sivilizasiyalararası dialoq" adlı kitabında qeyd olunan istiqamətdə görülən işlərə xüsusi bir mahiyyət qazandırmışdır: "Müasir dövrdə proseslər vahid sivilizasiyanın formalaşması istiqamətində gedir. Ən azı, qloballaşma buna xidmət edir. Lakin bu vahid sivilizasiyanın "Qərb sivilizasiyası" anlayışı ilə bilərəkdən və ya bilməyərəkdən qarışdırılması halları üstünlük təşkil edir. Halbuki, müasir sivilizasiyanın strukturunda bütün əvvəlki lokal sivilizasiyaların nailiyyətləri təmsil olunur və Şərqin rolu heç vaxt unudulmamalıdır. (12, s.8)

Məlum olduğu kimi, qeyd olunan prosesin gerçəkləşməsi üçün liderlər xalqın daim arzusunda olduğu azadlıq, müstəqillik və tolerant bir mühitin formalaşması üçün əllərindən gələni əsirgəmirlər. Ulu Öndər Heydər Əliyev deyirdi: "Biz Azərbaycan deyəndə onun sərvətini, onun gözəl təbiətini nəzərdə tuturuq. Lakin bununla yanaşı, respublikanın ən başlıca sərvəti əsrlərdən bəri bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan, müxtəlif millətlərdən olan, müxtəlif dinlərə etiqad edən insanlardır. Ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olar, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir". (11)

Göründüyü kimi "...Ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olar, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir" ifadəsi Azərbaycanda multikulturalizm, tolerantlıq və dini dözümlülüyün dövlət siyasətinin bir parçası olduğunun bariz nümunəsidir. Müasir dövrdə dinlərarası dialoqdan və bu istiqamətdə görülən işlərdən danışırıqsa, ilk öncə ölkəmizdə bizimlə bərabər yaşayan digər xalqların və millətlərin nümayəndələrinə qarşı olan münasibətə baxmaq lazımdır.

IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda "Heydər Əliyev şəxsiyyəti və Azərbaycanda dinlərarası harmoniya" mövzusunda panel sessiyasındakı çıxış edən Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İsraildəki nümayəndəliyinin rəhbəri, beynəlxalq münasibətlər sahəsində israilli ekspert Arye Qut çıxışında Azərbaycan multikulturalizmi və tolerantlığı barədə bunları qeyd etdi: "Əhalisi əsasən müsəlmanlardan ibarət olan Azərbaycan bir sıra digər etnik və dini qruplar, o cümlədən xristian və yəhudi icmaları üçün də doğma ev kimidir. Milli azlıqlara hörmət və dözümlülük Böyük İpək yolu dövründən zəmanəmizə qədər mühüm rol oynayır. Azərbaycanda Avropa dövlətlərindən daha əvvəl, hələ XX əsrin əvvəlində, Azərbaycan Xalq Cümhuriyyəti dövründə qadınlara seçki hüquqları verilib. Həmin dövrdə və sonrakı illərdə Azərbaycan hökumətində milli azlıqların nümayəndələri, o cümlədən yəhudilər də olub. Azərbaycanlılar yəhudilərə heç vaxt əcnəbi kimi baxmayıblar". (13)

"1918-ci ildə müstəqilliyini elan edən Azərbaycan müsəlman Şərqində qadınlara səsvermə hüququ verən ilk respublikadır. Bu ölkə Fransadan daha dünyəvi dövlətdir". Bu fikirləri Fransa Yəhudi İnstitutları Təmsilçiliyi Şurasının (CRIF) icra bürosunun və Azərbaycanın Dostları Assosiasiyası inzibati şurasının üzvü Jan-Pyer Allali bildirib. J.P.Allali Bakının Qərb şəhərlərindən də modern bir şəhər olduğunu diqqətə çatdırıb. O qeyd edib ki, "Azərbaycanda bütün dinlərin nümayəndələri qarşılıqlı hörmət şəraitində yaşayır. Xristian ölkəsi olan Ermənistanda yəhudilərin ölkəni tərk etməsini, amma müsəlman ölkəsi olan Azərbaycanda yəhudilərin hələ

də yaşaması" məsələsinə də toxunan yazıçı bunun Azərbaycanda hökm sürən tolerantlıq mühiti ilə bağlı olduğunu bildirib. (13)

Amerikada çıxan "The Hill" nəşrində ABŞ-dakı Simon Vizental Mərkəzinin rəhbərinin müavini Abraham Kuperin məqaləsində: "Onilliklər boyu, hətta Azərbaycanın dövlət müstəqilliyi bərpa ediləndən əvvəl də multikulturalizmin geniş yayıldığı bu ölkəyə dəfələrlə səfər edib. A.Kuper yazır ki, sonuncu səfəri müddətində Azərbaycan Prezidenti İlham Əliyevlə görüşüb, Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin yüksək qiymətləndirdiyi keyfiyyətlərin - Azərbaycanda çoxillik konfessiyalararası tolerantlıq və harmoniya ənənələrinin dəstəklənməsinə görə dövlət başçısına minnətdarlığını bildirib.(13)

Müasir dövrdə həyata keçirilən multikulturalizm siyasəti, dinlərarası dialoq fəaliyyətləri və bu istiqamətdə görülən işlər Azərbaycan dövlətinin tolerantlıq prinsiplərinə sadiq qalmasının bariz nümunəsidir. Prezident İlham Əliyev Azərbaycanın Şərqlə Qərbi birləşdirən multikultural məkan olduğunu bildirib: "Azərbaycan son illər ərzində dünya miqyasında multikulturalizm mərkəzinə çevrilib. Ölkəmizdə keçirilən beynəlxalq tədbirlər, dünya forumları, sivilizasiyalararası, humanitar, mədəniyyətlərarası dialoq forumları bunu göstərir. Biz nəinki ölkə daxilində bu məsələləri lazımi səviyyədə tənzimləyirik, eyni zamanda, bir çox ölkələr üçün yol göstəririk. Biz istəyirik ki, bu nümunədən istifadə etsinlər. Əgər etsələr yenə də gərginlik azalar. Çünki bir çox hallarda müharibələr dini və məzhəb zəminində aparılır. İndi yan-yörə, hər tərəf alovlanır, yanır. Azərbaycanda sabitlik hökm sürür, inkişaf dinamikası güclənir. Bizim ölkəmizdə yaşayan bütün xalqların nümayəndələri özlərini rahat hiss edirlər. Onlar hamısı bizim qardaşlarımızdır, dəyərli vətəndaşlarımızdır. Bu da bir nümunədir. Bu, böyük bir sərvətdir. Biz bu sərvəti qoruyuruq. Ümumiyyətlə, ölkəmizi bütün bəlalardan qoruyuruq. Heç kimin işinə qarışmırıq və qoymuruq ki, kimsə bizim işimizə qarışsın. Ancaq xoş niyyət göstəririk. Ancaq hər bir məsələ ilə, xüsusilə bizi maraqlandıran məsələ ilə bağlı prinsipial mövqeyimiz həmişə ifadə olunur". (14)

"Azərbaycan multikulturalizmi" monumental dərsliyinin bir sıra xarici ölkə universitetlərinə tədris proqramına daxil edilməsi, xarici ölkə gəncləri üçün nəzəri biliklərini təcrübi biliklərlə tamamlamaq üçün Azərbaycanda yay və qış məktəblərinin açılması, ayrı-ayrı beynəlxalq səviyyəli görüşlər multikultural ideyaların getdikcə yayılmasının qarşısıalınmaz bir prosesə, faydalı beynəlxalq reallığa çevrildiyini sübut edir. Prezident İlham Əliyevin son 17 ildə dünya ölkələrinə dostluq, barış yayan çağırışları - Bakı şəhərində ənənəvi olaraq Humanitar forumlara, beynəlxalq görüşlərə ev sahibliyi etməsi və qloballaşan dünyada dinlərarası dialoqun təbliği və təşviqi istiqamətində Azərbaycan kimi gənc bir dövlətin öz təcrübəsini Şərq və Qərblə paylaşması onu göstərir ki, Azərbaycan tolerant və sülhsevər bir xalqdır. (15)

**Nəticə**

Araşdırmamızın nəticəsində "Şərq-Qərb münasibətləri prizmasından dinlərarası dialoq və Azərbaycan təcrübəsi" mövzusu bir çox yerli və əcnəbi tədqiqatçıların diqqət mərkəzində olduğu məlum olmuşdur. İslam dininə və onun təməl prinsiplərinə görə dinlərarası dialoqun böyük əhəmiyyəti, dəyəri və vacibliyi vardır. İslam tarixinə nəzər salsaq görərik ki, İslam dini digər dinlərlə müqayisədə dialoqun əsas lokomotivi olmuşdur. Qərb üçün də müsəlman mədəniyyəti və dinlərarası dialoq islamın bir parçası və mədəniyyəti olduğu unudulmamalıdır. Qərb dünyası yaxşı bilir ki, müsəlmanlar islamın ilk dövrlərindən başlayaraq dinlərarası dialoqa Allahın əmri və İslam mədəniyyətinin ayrılmaz bir hissəsi kimi sahib çıxmışdır. Müsəlmanlar həmişə öz dinlərinin düzgün başa düşülməsi, İslam düşüncə tərzinin formalaşması və təbliği istiqamətində mütəmadi olaraq dinlərarası dialoqdan istifadə etmişdir. Dünya dövlətləri, o cümlədən Şərqlə Qərb arasında qarşılıqlı münasibətlərə zərbə vuran və bəzən də qlobal problemə çevrilən məsələlərin həlli istiqamətində dialoq qaçılmaz olmuşdur. Zaman keçdikcə məlum olmuşdur ki, Şərqlə Qərb dinlərarası dialoq deyəndə eyni mahiyyəti mənimsəmədikləri üçün dialoq qura bilməmişdir.

Qərbin Şərqlə, o cümlədən müsəlmanlarla əlaqələrinə birbaşa təsir edən toqquşma tarixən ciddi problemlərə səbəb olmuşdur. Elə bu səbəbdəndir ki, Şərq dünyası Qərblə əsrlərdir mübarizə aparmağa məcbur olmuşdur. XX əsrin ortalarından etibarən dünyada gedən qloballaşma prosesi öz müsbət təsirini dialoq fəaliyyətinədə

göstərmişdir. Təəssüflər olsun ki, hələ də Qərbin müsəlmanlara qarşı olan hegemonluq siyasəti dinlərarası dialoqun tam olaraq qurulmasına mane olmaqdadır. Buna görədə Şərq-Qərb müstəvisində dinlərarası dialoq öz bəhrəsini tam olaraq verə bilməməkdədir.

Müxtəlif din mənsublarının əsərlərində bir daha şahidi oluruq ki, azərbaycandakı tolerantlıq prinsipləri Şərq-Qərb üçün nümunə təşkil edir. Çünki xalqımızın etnik xüsusiyyətlərində "Ədalətli və insaflı" olmaq prinsipi əsas yer tutur. Xalqımızın mayasında olan tolerantlıq və haqpərəstlik bizləri digər millətlərdən və xalqlardan xeyli fərqləndirir. Elə bu səbəbdəndir ki, müasir dövrdə Şərq-Qərb münasibətlərinin daha sağlam olması və qarşılıqlı dialoq prinsipləri əsasında formalaşması üçün Azərbaycan təcrübəsi xüsusi əhəmiyyətə malikdir.

## Ədəbiyyat


1.Abdurrahman Küçük, "Dinlerarası Diyaloğa Niçin İhtiyaç Vardır?", Dinî Araştırmalar, c.I, sy.l (1998), s. 31.

2.Məmmədzadə İ. Qloballaşma və müasirləşmə şəraitində fəlsəfənin aktuallığı haqqında. Bakı: Təknur, 2009, 226 s.

3.Яблоков И. Н. Религиоведение. Москва: Гардарики, 2000, 536 с.

4.Журавский А.В. Очерки христиано-мусульманских отношений. Москва: Свято-Филаретовский православно-христианский институт, 2014. 192 с.

5.Ə.H.Həmzəyev. "Dövlət və Din". - 2010.- №9-10.-S.98-104.

6.Məhəmməd Xəlifə Həsənin "Dialoq mədəniyyəti və metodologiyası" Bakı, 2011. səh.9.

7.Məhəmməd Xəlifə Həsənin "Dialoq mədəniyyəti və metodologiyası" Bakı, 2011, səh.7.

8. "əl-Bəqərə" surəsi, 256-cı ayə".

9.Məhəmməd Xəlifə Həsənin "Dialoq mədəniyyəti və metodologiyası" Bakı, 2011, səh.17.

10.Bekir Karlığa, (Açılış Konuşması) Kültürlerarası Diyalog Sempozyumu, İst. Büyük Şehir Belediyesi, 7-8 Mart 1998, İst., s.13-19.

11.Respublika. - 2020. - 23 dekabr. - № 270. - S. 6.

12.Səlahəddin Xəlilov. Sivilizasiyalararası dialoq. Bakı: "Adiloğlu" nəşriyyatı", 2009, s.8.

13.https://scwra.gov.az/az/view/allnews/5?menu_id=61

14.https://scwra.gov.az/az/view/news/2566/birgeyashayishin-numunesi

15.https://www.elibrary.az/docs/qazet/qzt2020_18126.pdf

16.https://az.wikipedia.org/wiki/Tolerantl%C4%B1q


**Jeyhun Aghayev**

**Interreligious dialogue from the perspective of East-West relations and Azerbaijani experience**


**Abstract**

If we look at the process of globalization in the world, we see that a number of new events are taking place, both in the East and in the West. Thus, the economic, political, and cultural processes taking place against the background of the unity of East and West, especially the strengthening of civilizations between these two poles, and the conduct of interreligious dialogue in accordance with the requirements of modern times are of particular importance. This article discusses different approaches to relations between East and West and explores the importance of Azerbaijan's experience in this area.

The first part of the article discusses the different approaches of scholars and researchers to interfaith dialogue. Of these approaches, the approaches of Mahammad Khalifa Hasan, Salahaddin Khalilov, Sakit Huseynov and Bekir Karliga, who pay special attention to globalization and interreligious dialogue, were especially noted. The importance of Azerbaijan's experience in the development of East-West relations on the topic of interreligious dialogue was also investigated.

The second part of the article examines the importance of interreligious dialogue and the experience of Azerbaijan through the prism of East-West relations. This section focuses on the importance of holding international scientific conferences on "Philosophy, tolerance and multiculturalism in Azerbaijan" recently. It also stressed the importance of the policy of multiculturalism, interreligious dialogue, and the works done in this direction, as well as the commitment of the Azerbaijani state to the principles of tolerance.

# İranda türklərin ana dilində oxuyub-yazmalarına niyə imkan verilmir?



**XX əsrin əvvəllərində, Qacarlar hakimiyyətinin son illərində İran hakim dairələrində üstün düşüncəyə çevrilmiş millətçilik Rza Pəhləvinin hakimiyyətə gəlişindən sonra dövlət ideologiyasına çevrilmiş və ölkədə farsdilli milli dövlətin qurulmasında əsas rol oynamışdır. Nəticədə, İran əhalisinin yarısından çoxunu təşkil edən türklərin milli hüquqları ardıcıl olaraq tapdanmışdır. Azərbaycan vilayətləri zaman keçdikcə ikinci dərəcəli ərazilər kimi ayrıseçkiliyə məruz qalmış, soydaşlarımızın milli varlığı tarixi geriliyə məhkum edilmişdir. İnsan hüquq və azadlıqlarının dünyada qlobal trendə çevrildiyi, BMT İnsan Haqları Bəyannaməsinin bütün xalqlara milli və bəşəri hüquqlardan istifadə bərabərliyi elan etdiyi bir dövrdə İranda belə bir cəhalət siyasi düşüncəyə necə hakim kəsilmiş, gerizəkalılığa söykənən kütləvi ədalətsizlik necə bərqərar olmuşdur? Müsahibimiz Azərbaycan Milli Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun baş direktoru, akademik Gövhər Baxşəliyeva bu suallarımızı belə cavablandırdı:**

– Bütün dünyada türk soyuna qarşı düşmən münasibət bəsləyən imperialist dairələrin təhriki və himayəsi ilə İranda dövlət siyasəti səviyyəsinə yüksəldilmiş antitürk ideologiya XX əsr boyunca tədricən və zorakı üsullarla gerçəkləşdirilmişdir. Eyni zamanda, antibəşəri mahiyyət daşıyan bu ideologiyanı ərsəyə gətirənlər – hakimiyyət və ətrafındakı irticaçı qüvvələr İranın tərəqqisinin milli birlikdən keçdiyini bəhanə kimi əsaslandırmağa çalışmış, bunun üçün vahid dil, əxlaq, ənənə, hətta geyim eyniliyinin zəruriliyini ortaya atmışlar.

Bu məsələdə fars dili inteqrativ, bütünləşdirici funksiyanı yerinə yetirməli, ölkə daxilində yayılmalı və türk dili də daxil olmaqla, bütün fərqli dilləri aradan qaldırmalı idi. Pəhləvi şahlığının qurulması ilə tarixdə və gerçəkdə var olan İran tamamilə kənara atılmış, əvəzində ari irqinin əzəli, əbədi və əsl dövləti kimi irəli sürülən İran ortaya atılmış və bu baxış dövlətin rəsmi ideologiyasına çevrilmişdir.

**– Pəhləvilərin hakimiyyətinin ilk illərində müəyyən irticaçı dairələr hökuməti İran Azərbaycanında assimilyasiya və fars dilinin təbliği siyasəti yeritməyə təşviq etməklə yanaşı, hətta onun türklərdən ibarət əhalisinin Mərkəzi İrana zorla köçürülməsi və farsdilli əhali ilə birgə yerləşdirilməsi kimi insanlığa zidd ideyalar da irəli sürmüşdülər.**

– Bütün bunlar İranda Azərbaycan adlı bir məmləkətin xəritədən silinməsi, onun min illərdən bəri burada sakin olmuş türk əhalisinin etnik cəhətdən yox edilməsi siyasətinin məsuliyyətsizcəsinə körüklənməsi demək idi. Lakin şah rejimi buna ehtiyac duymayaraq bütün ölkənin farslaşdırılması üçün daha incə üsullara rəvac verdi. Bu, ölkədə başdan-başa təhsilin farslaşdırılması yolu ilə əhalinin etnik tərkibinin dəyişdirilməsi siyasəti idi.

Belə bir ideoloji zəmində yeni monarx çox sayda ziyalının da dəstəyi ilə bütün sahələrdə, o cümlədən, təhsildə mərkəzləşmə siyasəti həyata keçirməyə başladı. Bütün ölkə üzrə dərsliklərin məzmunu ümumiləşdirildi və digər kitablardan

dərslik kimi istifadə edilməsi qadağan olundu. Ölkə ərazisindəki bütün məktəblərdə, o cümlədən, xarici məktəblərdə fars dilinin tədrisi icbari elan edildi.

İranın təhsil sistemi fars millətçiliyinə və fars dili əsasında vahid İran milli kimliyinin formalaşmasına əsaslanan hakim ideologiyanın təbliği üçün bir vasitəyə çevrildi. Bu dövrdə hökumət və onun ideoloqları qeyri farslara, xüsusilə türklərə qarşı yürütdükləri assimilyasiya siyasətini əsasən təhsil vasitəsilə həyata keçirməyə çalışmışlar. Onlar belə hesab edirdilər ki, vahid dil – fars dili əsasında təhsil sistemi coxmillətli ölkə olan İranda “vahid İran milləti”nin yaranmasına yardımçı olacaq və fars təfəkkürlü yeni nəsil yetişdirəcəkdir.

İran hökuməti təhsil sistemində tətbiq olunan məhdudiyyətlərlə yanaşı, Azərbaycan və digər qeyri-fars dillərində kitablar və jurnalların nəşrinə də qadağa qoydu.

**– Tarixdən bilirik ki, II Dünya müharibəsindən əvvəlki illərdə, Rza şah diktaturası dövründə (1925–1941) ümumiran millətçiliyi (paniranizm) artıq bitkin ideoloji forma alaraq dövlət siyasətinin ana prinsipinə çevrilmişdi...**

– Məsələ burasındadır ki, XX yüzilliyin əvvəllərində ümumiran millətçiliyi kimi formalaşmağa başlayan ideologiya 20-ci illərdən fars şovinizmi kimi irticaçı bir şəkil almış, Rza şah diktaturası dövründə dövlətin daxili siyasətinin ideoloji əsasını təşkil etmiş və milli azlıqları farslaşdırmağı tələb etmişdir. Azərbaycan vilayətlərini farslaşdırma siyasəti istiqamətindəki əməli addımlar isə əsasən 1923-cü ildən başlayır.

İran dövlət arxivlərində saxlanılan həmin dövrə aid sənədlərə əsasən, bu tədbirləri belə sıralamaq olar: Azərbaycanda fars dilinin yayılması və türk dilinin yox edilməsi üçün farsdilli məktəblərin açılması və farsdilli müəllimlərin işə cəlb olunması; dövlət dairələrindəki azərbaycanlı işçilərin farslarla əvəz edilməsi; Azərbaycanın müxtəlif bölgələrində ibtidai məktəblərin yaradılması üçün xüsusi büdcənin ayrılması; məktəblərdə müəllimlərin dərsi türk dilində başa salmasına qadağa qoyulması; türk dilində kitab və dərgilərin nəşrinin və Türkiyədən bölgəyə materialların gəlməsinin qadağan olunması; farsca konsertlərin təşkil olunması; kitabxanaların yaradılması; farsdilli bölgələrdən gətirilmiş müəllimələrin nəzarəti altında fəaliyyət göstərən nümunəvi bağçaların yaradılması və uşaqların 3–4 yaşdan etibarən bu bağçalara cəlb edilməsi və s.

Həmin sənədlərdə həmçinin Türkiyənin Azərbaycanda türk dili, ədəbiyyatı və mədəniyyətini yayması və öz nüfuzunu burada artırmasına təşəbbüs göstərməsi vurğulanır, pantürkizm cərəyanının Azərbaycanda yayılması təhlükəsinin qarşısının alınması tələb olunurdu. İranda ziyalıların əksər hissəsi və təhsil nazirliyinə görə, “türk dili müxtəlif dövrlərdə İranda xarici ağalıqdan qalma uğursuz bir miras” olub, ləğv və məhv edilməli idi. Diqqət çəkən məqamlardan biri odur ki, 1926-cı ildə Təhsil Nazirliyi ölkədə ibtidai məktəblərin yaradılması üçün ayrılan büdcəni ancaq 5 sərhəd əyalətinə ayırmışdı, fars dili və ədəbiyyatının yayılması üçün məktəblərin açılmasına xüsusi diqqət ayrılırdı.

**– Niyə məhz sərhəd əyalətləri? Niyə məhz fars dili və ədəbiyyatına xüsusi diqqət?**

– Şübhəsiz ki, bu illərdə millətçi ziyalıların Pəhləvi hökumətinin diqqətinin bu məntəqələrə yönəltməsi həmin yerlərin əhalisinin Türkiyə və sovet Azərbaycanı ilə həmsərhəd olması ilə bağlı idi. Şah rejiminin 3 ölkənin qonşuluqda yaşayan əhalisinin ortaq dili olmasını ciddi təhlükə hesab etməsi həmin təhsil büdcəsinin bu bölgələrdə fars dilinin yayılması üçün ayrılmasının əsas səbəbi idi. Rəqəmlərə diqqət yetirdikdə görürük ki, ən çox diqqət Cənubi Azərbaycana yönəldilmişdir. Çünki ərazisinin genişliyi və Türkiyə ilə həmsərhəd olması farscanın orada məktəblərdə təhsil vasitəsilə yayılmasını daha çox tələb edirdi. İlk addımda mədrəsələrin açılması, 2-ci addımda farsdilli müəllimlərin göndərilməsi ilə fars dili geniş öyrədilməli idi.

Rza şahın baş naziri, müəllimi və İranda modern panfarsizmin yaradıcılarından olan M.Əli Furuği Ankarada səfir olduğu dövrdə şaha və İran Xarici İşlər Nazirliyinə göndərdiyi məktubda İranda əlifbanın dəyişdirilməsinin səhv addım olduğunu göstərmişdi: “İranda yəhudi, erməni və assur kimi azsaylı və təklükəli olmayan azlıqlar vardır. Ancaq türklər, kürdlər və ərəblər çoxsaylı əhali olan təhlükəli azlıqlardır. Ən təhlükəlisi isə türklərdir və dövlət bu məqamı hər vaxt diqqətdə saxlamalıdır”. 1930-cu illərdə fars millətçiliyi Azərbaycan və türk dillilər başda olmaqla, qeyri fars əhalinin maddi və mədəni varlıqlarına qarşı fəaliyyətini davam etdirmişdir.

**– Beləliklə, Pəhləvilər dövründən başlanan türk dilinə münasibətdə siyasiləşmiş nöqteyi-nəzər və fars dilindən yeganə təlim-təhsil dili kimi istifadəyə əsaslanan, türk-Azərbaycan dilində nəşrlərə və təhsilə qoyulan qadağalar İranda soydaşlarımızın dilinin funksionallığını azaltmış və onun ədəbi dil kimi inkişafının qarşısını almışdır.**

– Bu siyasətin ən ağır və ağrılı nəticəsi isə o oldu ki, İranda türk dilinin yazı imkanları inkişafdan qaldı və on milyonlrla insanın danışdığı bu dil yalnız danışıq vasitəsi səviyyəsində mövcudluğunu davam etdirdi. İranda türk dilinin üstünlüyü, statusu barədə hər hansı bir söhbət zərərli pantürkizm kimi dəyərləndirildi.

Azərbaycan ostanının (əyalətinin) Maarif və Mədəniyyət İdarəsinin 1952-ci ildə məktəblərə göndərdiyi məxfi sərəncamda deyilirdi: "Möhtərəm orta məktəb müdiri! Əldə edilən məlumata görə, bir müddətdir ki, Türkiyədə müxtəlif türk irqləri haqqında kitablar nəşr olunur və bu kitablarda əsası olmayan sənədlərlə azərbaycanlıların türk olduğu iddia edilir. Onlar bu bölgənin xalqının tərz və təfəkkürünə nüfuz etməklə, pantürkizmi yaymaqla öz məqsədlərinə nail olmaq istəyirlər".

Məhəmmədrza şahın (1941–1979) həyata keçirdiyi "Ağ inqilab" da cənubi azərbaycanlıların dilinə, maarif və mədəniyyətinə böyük zərbə vurmuşdur. Azərbaycan dilinin və milli kimliyinin varlığı rejim üçün ən təhlükəli işlərdən biri olmuşdur. Mühitdəki ağır şərtlərə, qadağalara baxmayaraq, o dövrdə də Cənubi Azərbaycanda ana dili və milli kimlik uğrunda mübarizə milli azadlığın əsas hədəflərindən biri kimi davam etmişdir. 70-ci illərin sonuna doğru cənubi azərbaycanlılar bütün İran xalqları kimi ümumiran daxilində şahlıq rejiminə və bu rejimin səbəb olduğu iqtisadi, siyasi, mədəni və mənəvi böhrana qarşı mübarizəyə qalxdılar.

**– Lakin azərbaycanlılar 1978–1979-cu illər İran İslam inqilabından sonra ölkədə yeni bir demokratik quruluşun yaranması ilə sosial-iqtisadi tələblərlə yanaşı, milli tələblərin həllini tapmasını gözləsələr də, inqilabın nəticələri onların xeyrinə ciddi istiqamətdə bir dəyişiklik yaratmadı.**

– Milli istəklər içərisində, xüsusilə ana dilində təhsil məsələsi öndə gəlirdi. İnqilabdan dərhal sonra azərbaycanlılar digər qeyri-fars xalqların nümayəndələri ilə birlikdə bu istiqamətdə fəaliyyətə başladılar. Təəssüf ki, İranda yaşayan qeyri-fars xalqlar tərəfindən irəli sürülən yarımçıq milli tələblər belə konstitutisiyada əksini tapmadı və 1979-cu ilin dekabr ayında qəbul edilən İran İslam Respublikası konstitusiyasına görə, fars dili ölkənin rəsmi dövlət dili sayılmaqla, təhsil, kitablar, qəzet və dərgilər, rəsmi yazışmalar bu dildə olmalıdır.

İİR konstitusiyasının 15-ci maddəsində milli dillərdən danışıldıqda qeyd olunur ki, məktəblərdə fars dili ilə yanaşı, milli ədəbiyyatların tədrisi azaddır. Aydındır ki, bu məhdud hüquq milli məktəblərdə, o cümlədən, Azərbaycan məktəblərində yalnız ana dili və ədəbiyyatının tədrisinə aiddir, tədrisin, ümumiyyətlə, ana dilində aparılmasına isə imkan vermir.

Pəhləvilər dövründə qeyri-fars xalqların dillərinə qoyulan yasaq və assimilyasiya siyasəti İslam inqilabından sonra da davam etdirildi. Pəhləvilər dövründə olduğu kimi, islami hakimiyyət dövründə də hakim rejim və onun ideoloqlarının fikrincə, təhsilin farsca aparılması qeyri-fars xalqlara, o cümlədən, azərbaycanlılara etnik mənsubiyyətlərini, dillərini və milli mədəniyyətlərini unutmaqda kömək etməli idi. Əks halda, bu, İranın bütövlüyü və gələcəyi üçün təhdid sayılır.

Son illərdə İran rəsmilərinin azərbaycanlıların ana dilində təhsil kimi milli tələblərini dilə gətirib, bu istiqamətdə vədlər verməsi hazırda ölkədəki azərbaycanlıların ən önəmli tələbinin bu məsələ olması ilə əlaqədər qarşılayıcı tədbir kimi qəbul edilə bilər. Belə ki, hökumət ana dilində təhsil tələbi ilə bağlı gözləmə siyasətini təqib edir, azərbaycanlı kütləni verdiyi vədlərlə razı salmağa çalışır, lakin heç bir əməli addım atmır.

Min illərdir ki, bugünkü İran əhalisinin xeyli hissəsini təşkil edən azərbaycanlılar inkişafın bütün sahələrində əldə etdikləri uğurlarla bu ölkənin milli-mədəni, iqtisadi və siyasi zənginliyini daha da artırmış, dövlətçiliyini qoruyub saxlamışlar. Lakin özlərinin də etiraf etdiyi kimi, onlar İran konstitusiyasında göstərildiyi qədər də milli və mədəni haqlarını almamışlar.

**– Maraqlı məlumata və şərhə görə çox sağ olun!**

**"Xalq qəzeti"**

# Açıq və gizli niyyətli İran

***Son vaxtlar İranın regional siyasətinin əsas istiqamətləri sırasında Qafqaz ölkələri ilə bağlı müddəalar ön sıraya keçib. Azərbaycanın Vətən müharibəsində işğalçı Ermənistanı məğlub edərək ərazi bütövlüyünü bərpa etməsinin Cənubi Qafqazda yaratdığı yeni reallıqlar İranın ölkəmizə qarşı siyasətində anlaşılmaz və zərərli nüanslar aşkara çıxarıb.***

**Sözdə Azərbaycanla ortaq dəyərlərdən, dostluq münasibətlərindən dəm vuran bu ölkənin rəhbərliyi təcavüzkar Ermənistanla hərtərəfli iş birliyi yaratmaqla ölkəmizə qarşı revanşist əhvalı qızışdırmaqda davam edir. Bu gedişat İranın Azərbaycanla bağlı siyasətini müxtəlif səviyyələrdə – ilk növbədə, tarixi, diplomatik, elmi-nəzəri və media platformalarında yenidən nəzərdən keçirməyi zəruriləşdirir.**

**AMEA Şərqşünaslıq İnstitutu Cənubi Azərbaycan şöbəsinin müdiri Səməd Bayramzadə bütün bunlar barədə qəzetimizə açıqlamasında bildirdi:**

– İranın Azərbaycanla münasibətləri və əlaqələri xüsusi cəhətləri ilə fərqlənir. Bu da anlaşılandır. Belə ki, 1813 və 1828-ci illərdə Rusiya İmperiyası ilə İran arasında müvafiq olaraq imzalanmış Gülüstan və Türkmənçay müqavilələrinə görə Azərbaycan və azərbaycanlılar iki ölkə arasında bölünmüş oldu. Qeyd edilməlidir ki, etnik azərbaycanlıların böyük əksəriyyəti İran ərazisində yaşayırlar. Müxtəlif mənbələrdə və mütəxəssislər tərəfindən İranda yaşayan Azərbaycan türklərinin sayı 30–35 milyon nəfər arasında göstərilir. İranın keçmiş xarici işlər naziri Ə. Salehi 2012-ci il Ankarada səfərdə olarkən 75 milyon nəfər əhalisi olan İranda yaşayan azərbaycanlıların ölkə əhalisinin 40 faizini – 30 milyon nəfər təşkil etdiyini bildirmişdi.

İranda azərbaycanlıları və farsları yalnız ərazi deyil, eyni zamanda, din birliyi də yaxınlaşdırır. Belə ki, eyni dinə etiqad edən həm azərbaycanlı, həm də farsların adət-ənənələrində, təbii ki, oxşar cəhətlər formalaşmışdır. Sözsüz ki, yuxarıda qeyd olunan bu cəhətlər hər iki xalqı yaxınlaşdırır. İranı və Azərbaycanı bir-birinə tərəf çəkən çox amillər vardır, amma bununla belə, onları bir-birindən uzaqlaşdıran amillər də mövcuddur.




Bu gün İran azərbaycanlısının milli şüurunun unikallığı bir tərəfdən onun birləşdirici amil olan şiəlik mentaliteti və digər tərəfdən də türk milli əsası ilə bağlı olmasındadır. İran rəhbərliyi də sonuncuya iki ölkənin münasibətlərində gərginlik yaradan amil kimi baxır. Sözsüz ki, milli-dini amillər Azərbaycan və İran arasında dövlətlərarası münasibətlərin inkişafına təsir göstərir. Amma regionda, xüsusilə, Qafqazda, siyasi-iqtisadi və hərbi problemlərin miqyası çərçivəsində milli-dini amilləri bu gün həlledici deyil, yan amillər kimi qiymətləndirmək olar.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Arazqırağı bölgəyə səfərlərinin birində regiondakı proseslərdən danışarkən İran tərəfinə də mesaj olaraq demişdir: “Bu gün Azərbaycanın razılığı olmadan bu bölgədə hər hansı bir təşəbbüs gerçəkləşə bilməz”. Bu gerçəklik baxımından İranı daha çox narahat edən onun qonşuluğunda suveren Azərbaycan Respublikasının hərbi-iqtisadi cəhətdən güclənməsi, Avropa, xüsusilə də Türk birliyi dövlətləri ilə inkişafda olan bərabərhüquqlu əməkdaşlığı, dünyanın ən qlobal problemlərinin həllində nüfuz sahibi olan dövlətlərlə bir sırada dayanması, Şimal–Cənub və Şərq–Qərb dəhlizlərində çox mühüm geosiyasi movqeyə malik olmaqla regionun çox mühüm problemlərinin həllində söz sahibinə çevrilməsi kimi məsələlərdir.

Azərbaycan Qarabağ qələbəsindən sonra qətiyyətlə bəyan etdi ki, bundan əsas istəyi bölgədə maneəsiz keçid əldə etmək, Zəngəzur dəh-

lizini işə salmaqdır ki, qatarlar və avtomobillər Naxçıvana, Türkiyəyə rahat keçə bilsin. Keçən ilin dekabrında İranla Azərbaycan arasında yükdaşımaları intensivləşdirmək məqsədilə Astara çayı üzərində avtomobil körpüsünün yenidən inşası ilə bağlı razılıq əldə olundu. Ötən ilin dekabrında İran, Azərbaycan və Gürcüstan Fars körfəzi–Qara dəniz marşrutu məsələsi üzərində də razılaşdı. Azərbaycan Fars körfəzi ilə Qara dəniz arasındakı daşımalarda əsas tranzit olacaq.

Nəticədə, İran müharibədən sonra Cənubi Qafqazda həyata keçiriləcək layihələrdən kənarda qalmayacaq, eyni zamanda da bu razılaşma hələ əsası 8 il öncə qoyulmuş "bir kəmər, bir yol" layihəsinin İran üzərindən keçən Cənub dəhlizinin potensialını artırmaqla Azərbaycan və İran arasında mövcud gərginliklərin azalmasına, əməkdaşlığın yüksələn xətt üzrə inkişafına, ölkələrin və onların xalqlarının yaxınlaşmasına, regionda sülhün və sabitliyin qorunmasına, eləcə də təhlükəsizliyin təmin olunmasına qarant olacaqdır. Azərbaycan əməldə də göstərir ki, onun məqsədi gərginlik yaratmaq yox, digər qonşu dövlətlərlə olduğu kimi, İranla da əməkdaşlıq etmək, ortaq layihələri reallaşdırmaqdır. Bir şərtlə ki, Azərbaycanın daxili işinə qarışmasınlar.

**Azərbaycan–Ermənistan münaqişəsinin davam etdiyi dövrdə, eləcə də ölkəmizin qələbəsi ilə bitən 44 günlük II Qarabağ savaşından sonra ermənipərəst mövqe tutan İranın artıq bu təcavüzkar ölkə ilə strateji əlaqələr qurmasını vurğulayan müsahibimiz dedi:**

– Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan MR arasında yeni kommunikasiya bağlantılarının yaradılması dar mənada Azərbaycanın əsas hissəsinin Naxçıvanla inteqrasiyasını təmin etmək olmasına baxmayaraq, geniş mənada regionun nəqliyyat-kommunikasiya xəritəsində strateji dəyişikliklərə səbəb olacaq layihə hesab olunur. Lakim İran tərəfi bi layihəni ilk gündən öz maraqlarına qaşı ciddi təhlükə kimi qarşılayıb. Bu ölkə Zəngəzur dəhlizinin açılmasını düyünə salmaq üçün ona öz ərazisindən paralel olan dəhlizin yaradılmasında israrlıdır. Azərbaycan İran layihəsini alternativ variant kimi qəbul etsə də, İran rəsmiləri Ermənistandan keçən birbaşa dəhlizi "qırmızı xətt" elan ediblər.

Zəngəzur dəhlizinin yaradılması iqtisadi cəhətdən ciddi problemlər yaşayan Ermənistanın özü üçün də olduqca mühüm əhəmiyyət kəsb etməsinə baxmayaraq, keçən müddət ərzində Zəngəzur dəhlizinin yaradılmasına maneçilik törətdi, üzərinə götürdüyü öhdəliklərə zidd olaraq, müxtəlif bəhanələrlə, qəsdən onu əngəlləməyə çalışdı. Ermənistan rəhbərliyi elə zənn edirdi ki, belə bir kommunikasiya yalnız onun ərazisindən və onun icazəsi ilə yaradıla bilər. Təəssüf ki, İran da bu mövqedədir.

Qafqaz respublikaları içərisində müsəlman İranının ən sıx əlaqələri xristian Ermənistanı ilə formalaşmaqdadır. Bu münasibətlərin indiki durumunda yalnız iqtisadi səbəblər deyil, eyni zamanda, praqmatik siyasi amillər də əsas rol oynayır. Həm İran, həm Ermənistan məlum səbəblər üzündən müəyyən dərəcədə təcrid olunmuş vəziyyətdədirlər. Eyni zamanda da hər iki dövlət Türkiyə ilə münasibətlərə ehtiyatla yanaşır, belə ki, onlar regionda "pantürkist" ideyaların yayılması və güclənməsindən, eyni zamanda, Qarabağın erməni işğalından azad olunmasından sonra "sionist qüvvələrin onların sərhədlərinə yaxınlaşmalarından" narahatdırlar. Bu, ortaq mövqe İranla Ermənistanı yaxınlaşdıran amillər sırasındadır.

**Səməd Bayramzadə İran–Azərbaycan münasibətləri ilə yanaşı, İran–Türkiyə münasibətlərinin də region üçün xüsusi əhəmiyyət kəsb eməsini söylədi:**

– Bütün dünyaya məlumdur ki, Türkiyə və Azərbaycan strateji müttəfiqdir. Bu dövlətin təhlükəsizliyi Azərbaycanın təhlükəsizliyidir. İran qardaş Türkiyə ilə münasibətlərin bu səviyyəsindən narahatdır və qısqanc mövqeyini gizlətmir. İran–Türkiyyə münasibətlərindən danışarkən ilk olaraq qeyd edilməlidir ki, rəsmi Ankara 20 ilə yaxındır İranı Türkiyə üçün təhlükəli dövlətlər siyahısından çıxarıb.

Türkiyə hakimiyyəti İrana qarşı çoxsaylı təzyiqlərin qaşrısını alıb. Hətta İstanbulda bu ölkənin atom proqramının dinc məqsədli olmasına dair beynəlxalq konfrans belə keçirib. Qərbdən olan müttəfiqlərinin İslam Respublikasına qarşı son illər tətbiq etdiyi sanksiyalara, demək olar, qoşulmayıb. İran isə bütün bunların müqabilində uzun illərdir Türkiyənin təhlükəsizliyi və ərazi bütövlüyünü təhdid edən terrorçu təşkilatları dəstəkləyib. Suriya və İraqdan Türkiyəyə hücumlara yardım edib.

Tehran hakimiyyəti Azərbaycanla münasibətlərdə olduğu kimi, üzdə Türkiyə ilə də mehriban qonşuluq münasibətlərindən danışaraq alt

qatda qonşu dövlətdə xaos yaratmaq, onu zəiflətmək üçün fəaliyyət göstərmişdir. Bu baxımdan, Türkiyəyə qarşı pozuculuq həm də onun strateji müttəfiqi olan Azərbaycana qarşı pis addım sayılmalıdır. Azərbaycan və Türkiyə beynəlxalq aləmdə İranın təklənməsi ilə bağlı sanksiyalara qoşulmamaqla İslam həmrəyliyinə və qonşuluq münasibətlərinə sadiqliklərini sübut etmişlər.

Beləliklə, İranın Azərbaycana və Türkiyəyə qarşı münasibətindəki açıq-gizli narahatlıq hallarından, arzuolunmaz addımlardan əl çəkməməsi artıq qəbuledilməz səviyyəyə çatmışdır.

**Çapa hazırladı:**
**Tahir AYDINOĞLU,**
**"Xalq qəzeti"**

# İranda Zəngəzur dəhlizinin qondarma təhdidləri ətrafında hay-küyün əsl mahiyyəti

**Vidadi Mustafayev**
*AMEA-nın Şərqşünaslıq İnstitutunun İran tarixi və iqtisadiyyatı şöbəsinin müdiri, t.ü.f.d*

Azərbaycan xalqının öz Ali Baş Komandanı, Prezidenti və müzəffər ordusu ətrafında Dəmir yumruq kimi birləşməsi nəticəsində 44 günlük Vətən müharibəsində qalib gələrək işğalçıları öz ərazilərindən qovmasından sonra dərhal bütün sahələrdə bərpa və yenidənqurma işlərinə start verildi. Həmin sahələrdən biri də nəqliyyat infrastrukturunun bərpası, yenidən qurulması və genişləndirilməsi idi.

Nəqliyyat infrastrukturunun bir hissəsini Azərbaycanın qərb bölgələri və ya Şərqi Zəngəzur bölgəsi ilə Naxçıvan Muxtar Respublikası arasında Ermənistanın cənub-şərqindən, Qərbi Zəngəzurdan keçən və hələ Sovetlər dövründə mövcud olmuş və məlum düşmənlərimiz tərəfindən dağıdılmış dəmir yolu və avtomobil yolları təşkil edir.

Azərbaycanda ölkənin qərb bölgəsi ilə Naxçıvanı birləşdirəcək nəqliyyat infrastrukturu Zəngəzur dəhlizi kimi qeyd edilir.

Həmin bölgədə nəqliyyat infrastrukturunun bərpa edilməsi məsələsi Azərbaycan Respublikası, Rusiya Federasiyası prezidentləri və Ermənistanın baş nazirinin imzaladığı 10 noyabr 2020-ci il tarixli üçtərəfli atəşkəs haqqında Bəyanatın 9-cu maddəsində (*əslində Ermənistanın baş nazirinin imza atdığı Kapitulyasiya sənədində*) öz əksini tapmışdır.

Bununla belə kapitulyasiya aktı imzalandığı gündən indiyə kimi məğlub Ermənistan Qərbi Zəngəzurda nəqliyyat dəhlizinin açılmasına müxtəlif bəhanələrlə, ilk növbədə dəhliz anlayışından çıxış edərək, razılıq verməmişdir.

Biz burada beynəlxalq nəqliyyat dəhlizi kimi mürəkkəb və vahid tərifi olmayan bir hadisədən, Ermənistanın həmin nəqliyyat dəhlizinin yaranması və işləməsinə müqavimət göstərməsinə daxili, regional və qlobal təsirlərdən danışmaq deyil, İran İslam Respublikasında Zəngəzur dəhlizi məsələsinə dəyişən münasibəti nəzərdən keçirməyə çalışacağıq.

Əvvəlcə qeyd etmək lazımdır ki, İran İslam Respublikası Azərbaycanın apardığı 44 günlük Vətən müharibəsinə və həmin müharibənin gedişində qazandığı uğurlara və qələbəyə məyusluq hissi ilə yanaşmışdır. Ona görə biz bu yazıda İranın Vətən müharibəsinin gedişi və yekununa münasibətini qısa şəkildə nəzərdən keçirib Zəngəzur dəhlizi ilə bağlı mövqeyini nisbətən geniş araşdırmağa çalışacağıq.

İran İslam Respublikasının Vətən müharibəsinin ilk yarısında sərgilədiyi ictimai, diplomatik yanaşma və döyüşlərin gedişinə ciddi təsir göstərə biləcək praktiki əməllərini deyil, Azərbaycan ordusunun İranla sərhəd zonası-

nın 132 km-lik hissəsinin işğaldan azad edilməsindən sonra sərgilədiyi qeyri-məntiqi və qərəzli mövqeyi haqqında bir iki faktı xatırlatmaqla kifayətlənməyi vacib sayırıq.



Azərbaycan ordusu müharibənin 26-cı günü - 22 oktyabr 2020-ci il tarixində Azərbaycan-İran sərhədinin qeyd edilən hissəsini düşməndən tamamilə azad etdi.

Oktyabr ayının 23-ü - müharibənin 27-ci günü İran Silahlı Qüvvələrinin baş sözçüsü xəbərdarlıq edərək hər cür həmləyə və təhdidə qarşı sərt cavab verəcəklərini elan etdi. İran ərazisinə kimin hücum edəcəyi və təhdid edəcəyi məlum deyildi. Azərbaycan öz ərazilərini işğaldan azad etməklə, Ermənistan isə Azərbaycanın irəliləməsinə mane olmağa çalışmaqla məşğul idi. Bununla belə 23 oktyabr günü İran-Azərbaycan münasibətlərində İranın məlum olmayan strategiyasına uyğun olaraq diplomatik gərginlik mərhələsinin başlanğıcı günü kimi hesab edilə bilər.

Oktyabr ayının 25-i - müharibənin 29-cu günü Qubadlı şəhəri azad edildikdən, yəni Azərbaycan ordusu Ermənistanla sərhəd bölgəsinə çıxışını genişləndirdikdən sonra İslam İnqilab Keşikçiləri Korpusunun (SEPAH) Quru qoşunları komandiri bəyanat yayaraq, İranın sərhəddə (*Ermənistan sərhədini nəzərdə tuturdu*) heç bir dəyişikliyi qəbul etməyəcəyini və sərhədlərin toxunulmazlığının İranın "qırmızı xətti" olduğunu elan etdi. İran zahirən beynəlxalq hüququn tanınmayan müdafiəçisi kimi çıxış etdiyini, əslində isə Ermənistanın müdafiəçisi olduğunu və Azərbaycana xəbərdarlıq etdiyini göstərirdi. Bu, hərbi yolla həll edilməkdə olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində İranın tutduğu həqiqi mövqeyin – Ermənistanın işğalçı, təcavüzkar siyasətini 30 il ərzində bütün vasitələrlə dəstəklədiyini davam etdirməsinin elanı idi. Yəni İran Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalının nəinki tərəfdarı, eləcə də əsas sponsoru qismində yenə də çıxış etməkdə olduğunu nümayiş etdirirdi. Deməli, İran Azərbaycan ərazilərinin işğalda qalmasında maraqlı, Azərbaycanın öz ərazilərini işğaldan azad etməsində, ərazi bütövlüyünü, suverenliyini təmin etməkdə maraqlı olmadığını göstərirdi. Çünki Ermənistan Azərbaycana hərbi təcavüz edərək onun ərazilərini işğal edərkən İran beynəlxalq hüququn nə dediyini unudaraq qırmızı xətdən danışmırdı.

Bunun ardınca Azərbaycandan İrana qarşı uydurma təhdidlərin olduğunu, sərhədə yaxın ərazidə təkfirçilərin və sionistlərin mövcudluğu kimi sərsəm iddiaları bəhanə edərək, ölkənin şimal-qərb regionunda - Cənubi Azərbaycanın Şimali Azərbaycanla sərhəd bölgəsində Hərbi Hava Qüvvələrinin gücləndirildiyi (27 oktyabr), Quru qoşun hissələrinin sərhəddə yerləşdirildiyi (30 oktyabr) elan edildi. Azərbaycan Şuşa şəhərini işğaldan azad etdiyi günlərdə (6 noyabr) İranın Silahlı Qüvvələrinin Quru qoşunlarının komandanı heç bir xarici dövlətə (?) beynəlxalq qanunlardan kənara çıxmağa icazə verilməyəcəyini və bununla da bölgəyə daha

çox ordu yerləşdirildiyini və onun gücləndirildiyini bildirdi. Sanki hansısa xarici dövlət Azərbaycan ərazisindən İrana hücum etməyə hazırlaşırmış və İran da ona qarşı geniş hazırlıq işləri görürdü.

Şuşa azad edildikdən (8 noyabr) sonra Azərbaycanın Vətən müharibəsində qələbəsini həzm edə bilməyən İran tərəfi düşmənçilik mövqeyini yeni iftira və böhtanlarla ifadə edərək Azərbaycana qarşı siyasətinin mahiyyətini gizlədə bilmirdi.

Noyabr ayının 9-da İran mediasında səsləndirilən fikirlər həmin ölkənin Azərbaycan siyasətinin gələcək istiqamət və məqsədlərini aydın şəkildə nümayiş etdirirdi.

Həmin fikirləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Cənubi azərbaycanlıların hadisələrə, xüsusən də Türkiyənin bölgədə mövqeyinə hakimiyyətdən fərqli münasibətlərinin doğurduğu narahatlıq. Cənubi azərbaycanlılar guya Türkiyənin Xəzər dənizinə çıxmasını və İranın təcrid olunmasını dəstəkləyirlər.

2. Guya kimlərsə İranın siyasi sisteminə qarşı planlar hazırlayır, ona görə İran sistemə qarşı ən kiçik tərpənişi belə qəbul etməyəcəyini elan edir.

3. Guya hansı qüvvələrsə İrana təcavüz planı hazırlayır, ona görə Şimal Hərbi dairəsinin Hərbi Hava Qüvvələrinin komandanı heç kimin İrana təcavüz etməsinə icazə verməyəcəklərini bəyan edir.

4. Guya İran kiminsə ölkənin hansısa bölgəsini işğal etməsini planlaşdırdığını və separatizmin gücləndiyini gördüyü üçün Azərbaycanda səfirinin dili ilə işğalçılıq və separatizmi özünün qırmızı xətti elan edir.

Göründüyü kimi, İran Azərbaycanın Vətən müharibəsində hərbi uğurları və parlaq qələbəsini İslam rejiminin sonu, İrana təcavüzün və onun ərazisinin bir hissəsinin işğal edilə biləcəyinin başlanğıcı kimi dəyərləndirərək artıq ictimai fikirdə Azərbaycandan gələ biləcək böyük təhlükə haqqında geniş rəy yaratmağa başlamışdır.

Burada ilk gündən diqqəti cəlb edən əsas məqam İran hakimiyyətinin öz anti-Azərbaycan mövqeyini Cənubi azərbaycanlıların Vətən müharibəsinə müsbət yanaşması və uydurma xarici təhlükənin Cənubi Azərbaycanı hədəf alması ilə əsaslandırmağa çalışması idi.

Azərbaycanın Vətən müharibəsində qələbəsinə qarşı İran özünün düşmənçilik mövqeyini pərdələmək üçün guya ona qarşı təhlükənin regionda təkfirçi və sionist qüvvələrin mövcudluğundan irəli gəlməsi kimi son dərəcə əsassız və hətta gülünc iddialarla əsaslandırmağa çalışırdı.

Bütün qonşu islam ölkələrinin daxili işlərinə qarışan, ərəb dünyasında əsil İslamın daşıyıcısı və hamisi iddiası ilə dini pərdə arxasında böyük dövlətçilik ambisiyasını reallaşdırmaq istiqamətində hərəkət edən, Ərəb-İsrail böhranından öz maraqları üçün istifadə edərək İranın dünənki müttəfiqi olan İsrail dövlətini özünə düşmən seçən İslam respublikası əhalisinin əksəriyyəti müsəlman və şiə məzhəbi ardıcılı olan Azərbaycan dövləti ətrafında qırmızı cizgilər çəkməklə məşğul idi. Əvvəlcə Ermənistanın təsbit edilməmiş, delimitasiya və demarkasiya olunmamış sərhədini qırmızı rəngə boyadığını Azərbaycana elan etdi. Sonra isə subyekti göstərilməyən işğalçılığı, eləcə də coğrafiyası və subyekti elan edilməyən separatizmi qırmızı xətt elan etdi.

Beləliklə, İranın gələcək siyasi, hərbi və ideoloji fəaliyyətinin istiqamətini Azərbaycan ətrafına çəkdiyi, zahirən ölkələrin və dövlətlərin beynəlxalq hüquqa əsaslanan suverenlik və ərazi bütövlüyünün təmin olunmasına, əslində isə Azərbaycanın xarici siyasətinə xas olmayan, lakin gələcəkdə ona qarşı istifadə edilə biləcək sahələrdə üç qırmızı xətt (Ermənistanın sərhədləri, işğalçılıq, separatizm) müəyyən edəcəkdi.

İranın növbəti qırmızı xəttini gələcəkdə Azərbaycanın qərb rayonları –Şərqi Zəngəzurla Naxçıvan Muxtar Respublikasını birləşdirəcək və Ermənistan ərazisinin cənub-qərbindən-Qərbi Zəngəzurdan keçəcək kommunikasiya və o cümlədən nəqliyyat əlaqələri məsələsi təşkil edəcəkdi.

Belə ki, artıq noyabr ayının 10-da (2020) Azərbaycan, Rusiya prezidentləri və Ermənistan baş nazirinin imzaladığı üçtərəfli Bəyanatın 9-cu bəndi, o cümlədən nəqliyyat əlaqələri ilə bağlı müddəası ("Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcəkdir") ilə tanış olduqdan sonra orada əks olunan fikirlərin şərhinə başlanmış, mətndə müəyyən qeyri-müəyyənliklər olduğu və meydana gələn narahatlıqlar ifadə olunmuşdur. Bununla yanaşı İran tərəfi bundan əvvəl qeyd edilən qırmızı cizgiləri davam etdirərək dərhal İranın yeni geosiyasi dəyişiklikləri qəbul etmədiyini vurğulamışdır. Bu, Azərbaycanın 44 günlük Vətən müharibəsindən sonra İranın çəkdiyi yeni qırmızı xətt idi.

Diqqət edildikdə aydın görünür ki, İranın çəkdiyi qırmızı cizgilərin nə bir geosiyasi, nə siyasi, nə də real əsası yox idi. Çünki Azərbaycanın İrana münasibətdə nə işğalçılıq, nə sərhədlərin dəyişdirilməsi kimi planları yox idi. İranın cizgilər, xüsusən sərhədlərin dəyişməməsi ilə bağlı qırmızı xətti, siyasəti onun Qafqaz siyasətinin nə qədər məkrli olduğunu bir daha əyani nümayiş etdirir. İran Azərbaycan Respublikası ərazisinin 20%-nin işğal edilməsinə, sərhədinin 132 kilometrinin faktiki dəyişməsinə, yəni Ermənistan silahlı qüvvələrinin nəzarətinə keçməsinə zahirən səssiz qalıb, mahiyyətcə isə nəinki razı qaldığını, hətta təcavüzkara hərtərəfli dəstək verdiyini unudaraq, Azərbaycanın Ermənistanın sərhədinin bir metrini belə öz nəzarəti altına almadığı halda, təcavüz barədə xəbərdarlıq edirdi.

Əgər separatizm dedikdə İranın qeyri-fars xalqlarının öz əsas etno-milli hüquqları uğrunda mübarizəsi nəzərdə tutulurdusa, bu onun daxili siyasətinin problemi idi. Geosiyasi dəyişikliyə gəlincə, Azərbaycanın qələbəsi nəticəsində artıq yeni geosiyasi reallıq yaranmışdır. Onu görmək istəməmək, qəbul etməmək iddiasına düşmək Azərbaycana qarşı düşmənçilik münasibəti sərgiləməkdən başqa cür dəyərləndirilə bilməz.

Ədalət naminə demək lazımdır ki, İranda Zəngəzur dəhlizinə münasibətdə prezident H.Ruhani hökumətinin (2013-2021) fəaliyyətinin sonuna (iyun 2021) kimi iki mövqe mövcud idi. Hökumət nümayəndələrindən bəzilərinin zəif müsbət, digər hakimiyyət qollarının, xüsusən müstəqil xarici siyasət yeridən və bir başa Rəhbərə tabe olan SEPAH-ın və qəribə görünsə də, həmin məsələdə ona yardımçı kimi çıxış edən Müdafiə Nazirliyi və ilk növbədə Rəhbərə tabe olan Silahlı Qüvvələrin Baş Qərargah rəisi (SEPAH generalı) və qoşun növlərinin komandanları və onlara yaxın dairələrin təmsilçilərinin radikal mənfi münasibətini qeyd etmək olar.

Belə ki, Azərbaycanın 44 günlük Vətən müharibəsində qələbəsini təsbit edən 10 noyabr üçtərəfli bəyanatını şərh etməyə başlayan İranın həm rəsmi, həm özəl media qurumları, ekspertlərin bir çoxu Azərbaycanın qərb bölgəsi ilə Naxçıvanı birləşdirəcək nəqliyyat/kommunikasiya əlaqəsi haqqında bir sıra həqiqətə uyğun olmayan fikir və şaiyələr yaymağa başlamış və İran hökuməti həmin şayiələrə münasibət bildirmişdir. 13 noyabr 2020-ci il tarixində İİR xarici işlər nazirinin siyasi işlər üzrə müavini Seyid Abbas Əraqçi gələcəkdə açılacaq Zəngəzur dəhlizi haqqında danışarkən demişdir: "İranın Ermənistan və Azərbaycana tranzit marşrutu dəyişmir". Ona görə "Naxçıvan-Zəngəzur yolu ilə bağlı şayiələr əsassızdır". Əraqçi vurğulamışdır: "Geopolitik dəyişiklərdən söz getmir. İran-Ermənistan sərhədi yerindədir."

15 noyabr 2020-ci il tarixində məsələyə daha pozitiv yanaşma sərgilənir. Belə ki, İran saytlarından birində yerləşdirilmiş "Sülh dalanı - bölgə əməkdaşlığının genişləndirilməsi üçün irəli sürülən təşəbbüs" adlı yazıda dəhlizin Ermənistan-İran sərhədini bağlamadığı vurğulanır. Belə tranzit marşrutların çox olması arzusu ifadə edilir və göstərilir ki, bunlar "sülh dəhlizləri"dir. Çünki əməkdaşlığı asanlaşdırır. İran əmək-

daşlığın inkişafına dair kompleks plan üzərində işləməlidir".

İİR hökuməti dəhliz məsələsi ətrafında yaradılan hay-küyə aydınlıq gətirməkdə davam edirdi.

18 noyabr 2020-ci il tarixində hökumətin rəsmi orqanı olan "İRNA" (İslam Respublikasının Xəbər agentliyi) saytında gedən "Qarabağ atəşkəsi və Zəngilan-Naxçıvan koridoru haqqında gerçəklər" adlı yazıda qeyd edilir ki, İran ilə Ermənistan arasında sərhədin əldən getməsi haqqında şayiənin heç bir əsası yoxdur. İran ilə Azərbaycan arasında yeni keçid yaranacaq. Azərbaycan əməkdaşlıqda qərarlıdır. Zəngəzur dəhlizinin İranın geosiyasi, geoiqtisadi mövqeyini zəiflədəcəyi barədə hay-küyə cavab olaraq qeyd edilir ki, kiçik bir koridor İranın əhəmiyyətini azaltmaz. Əksinə, bundan Azərbaycan-İran əməkdaşlığı daha çox mənfəət əldə edəcək

İran hökuməti dəhliz ətrafında yaradılan ajiotajla bağlı öz mövqeyini bəyan etməkdə davam edirdi.

21 noyabr 2020-ci il tarixində saytlardan birində "Regionda yaranmış yeni reallıqlar haqqında" yazıda qeyd edilir ki, Naxçıvan yolu regional əlaqələrdə fundamental dəyişikliklərə səbəb olmayacaq.

İranda hökumətin (İcra hakimiyyətinin) səlahiyyət və imkanları məhdud olduğundan, bir neçə qərar qəbul etmə mərkəzinin varlığı və Rəhbərə birbaşa tabe qüvvələrin müstəqil və bir çox hallarda hökumətin (islahat və ona yaxın dairələri təmsil etdiyi vaxtlarda) xəttinə zidd, onun mövqeyinin zəiflədilməsinə yönəlmiş siyasət yeritməsi İranın Azərbaycan siyasətində şovinist-millətçi, imperiya düşüncəli təcavüzkar dairələrin yeritməkdə olduğu xəttin üstünlük qazanmasına şərait yaradırdı.

İranda qeyd edilən, xüsusən güc strukturlarını təmsil edən dairələr və onların informasiya agentliklərində dəhliz məsələsinə uydurma təhlükə prizmasından yanaşılması, onun guya İranın tranzit, nəqliyyat, infrastruktur sahələri, milli təhlükəsizlik və s. üçün təhdid təşkil etdiyi iddiası davam etdirildiyindən artıq hökumət həmin məsələyə münasibət bildirməkdən vaz keçir, çünki hələ müharibə dövründə formalaşan radikal anti-Azərbaycan ideologiyası tərəfdarları hökumətin mövqeyi və dediklərinə əhəmiyyət vermirdilər.

13-cü prezident seçkilərində (yay 2021) qalib gələn radikal mühafizəkarların təşkil etdiyi hökumət işə başlayandan sonra (13 avqust) hökumət(İcra hakimiyyəti) ilə digər radikal dairələr arasında fikir və mövqe ayrılığına son qoyulmuş və artıq bütün hakimiyyət vahid cəbhədən çıxış etməyə başlamışdır. Ona görə də rəsmilər, hakimiyyəti təmsil edən ekspertlər və media nümayəndələri Zəngəzur dəhlizi ilə bağlı mənfi rəy formalaşdırmaqda davam edirdilər. Yeni hökumətin 2022-ci ilin sonlarına qədərki fəaliyyəti ərzində İranda cəmi bir neçə dəfə dəhlizlə bağlı obyektiv mövqe müşahidə etmək mümkün idi. Birinci dəfə belə mövqe ekspert tərəfindən bəyan edilmişdir.

6 oktyabr 2021-ci il tarixində Türk və Qafqaz üzrə mütəxəssis - Seyid Əli Qaimməqaminin yazısında İran strateqlərinin qızışdırdığı əsasız iddiaların – Sünik/Qafan vilayətinin işğal ediləcəyi və Zəngəzur dəhlizinin işə düşəcəyi ilə Çinin "Bir kəmər, bir yol" layihəsinin aradan gedəcəyi kimi fikirləri kökündən yanlış hesab edilir, əksinə Mərkəzi Asiya, Qafqaz və Türkiyənin həmin layihənin işə düşməsində maraqlı olduqları vurğulanır. Müəllif İranda məsələyə birtərəfli yanaşmanı İran mütəxəssislərinin ölkə ətrafında baş vermiş məsələlərdən və regionun strateji məsələlərindən xəbərsiz və məlumatsız olmaları ilə izah edir.

Qeyd edilən dövrdə məsələyə ikinci dəfə də obyektiv yanaşma müşahidə edilir. Belə ki, 4 dekabr 2021-ci il tarixində "Trend-news" agentliyinə müsahibə verən İranın Azərbaycandakı keçmiş səfiri Möhsün Pakayin deyir: "İranda Zəngəzur dəhlizindən istifadə edə bilər." Sonra əlavə edir : "Zəngəzur dəhlizi Şərq-Qərb dəhlizinin bir hissəsidir və onun canlandırılması İran-Ermənistan sərhə-

dinə təsir etməyəcək. Tehran sovet dövründən qalan ənənəvi yolların dirçəldilməsinin əleyhinə deyil, hətta buna müsbət yanaşır".

İrəli gedərək qeyd etmək lazımdır ki, həmin müsahibə haqqında məlumat verən İran saytı öz şərhində keçmiş səfirin dediklərinə qarşı fikir bildirmişdir.

Zəngəzur dəhlizi ilə bağlı yeni hökumətin fəaliyyəti dövründə qeyd edilən nadir obyektiv mövqe müstəqil ekspertlər tərəfindən sərgilənmişdir və hakimiyyətin mövqeyinə heç bir təsir göstərmək imkanına malik deyildi.

Bununla da bizim ardıcıl izlədiyimiz 5 saytda (Təbrizdə mühafizəkar qüvvələri təmsil edən "ANAJ", mərkəzi Xəbər agentliklərinin "İRNA" və "İSNA", SEPAH-a yaxın "farsnews" və özünü müstəqil adlandıran mühafizəkar dairələri təmsil edən "tasnim" saytları) Zəngəzur dəhlizi ilə bağlı az-çox obyektiv və müsbət yanaşmalar başa çatmış olur.

Yeni hökumətin fəaliyyətə başlamasından (13 avqust 2021) sonra hökumət və ona yaxın mediada mühafizəkarların mövqeyi əks olunmağa başlayır. Bunu ilk növbədə "İRNA" saytında gedən materiallarda görmək olar. Saytda mühafizəkarların radikal və təhdidedici mövqeyi ön plana çıxır. Meydan iki ölkə arasında düşmənçilik hisslərini qızışdıran ekspertlərə verilir.

Biz aşağıda dəhlizin regionun və ölkələrin geosiyasi, iqtisadi və geoiqtisadi mövqeyinə təsiri haqqında deyil, onun necə deyərlər, "qorxulu" yan təsirləri haqqında İranın mühafizəkar dairələrinin fantaziyasının bəzi məhsullarını qeyd etməyi nəzərdə tuturuq.

## Zəngəzur dəhlizinin İran üçün "qorxu" yaradan təsirləri

Həmin mövzuda yazılar çox olduğundan biz tarixləri göstərmədən ardıcıl və qısa şəkildə dəhliz düşmənlərinin əsas "dəlillər"ini qeyd etməyi zəruri hesab edirik.

1.Dəhlizin xarici dövlətlərin ideyası olması

Ekspert d-r Əhməd Kazımi yazır: "Saxta Zəngəzur dəhlizi" planı və ya əslində "NATO Turan dəhlizi" planı İranın şimal-qərb qonşuluğunda, Qafqazın mühüm bölgəsində İngiltərə ilə sionist rejimin geosiyasi intriqasıdır. Türkiyə və Azərbaycan Respublikası bu planda agent və icraçı rolunu oynayır".

Guya Adam Tomson (Böyük Britaniyanın NATO-da keçmiş səfiri) deyib ki, 2020-ci il müharibəsindən sonra NATO-nun Xəzər dənizinə çıxışı üçün imkan yaranıb. Türkiyə Zəngəzur dəhlizi vasitəsi ilə Azərbaycanla birbaşa əlaqə quraraq NATO ölkəsi kimi Xəzər dənizinə çıxış imkanı əldə edir və bununla NATO Çinə bir qədər də yaxınlaşır. Bu başabəla ekspert feyki həqiqət kimi qələmə verərək ona istinad edib. Halbuki A.Tomson onun adından deyilənlərin feyk olduğunu şəxsən bəyan edib (bax: "Как Ереван мечтал Баку с Москвой и Пекином поссорить", youtube).

Ekspert Şiva Əlizadə yazır: "Bu, köhnə Britaniya-sionist planının bir hissəsidir". "Zəngəzur dəhlizi" planı İngiltərənin geosiyasi intriqasıdır, ingilis-sionist sui-qəsdidir.

Qafqaz üzrə ekspert, anti-Azərbaycan mövqeyi ilə seçilən panfarsistlərdən biri olan Əhməd Kazımi yazır: "Avropadan Qara dənizə, oradan da Xəzər dənizinə, oradan da Orta Asiyaya və Rusiyanın cənub sərhədlərinə dəhliz yaratmaq 200 il əvvəl İngiltərə tərəfindən nəzərdə tutulmuşdu".

2. "Bu dalan - NATO-nun Turan dəhlizi İsrailə lazımdır".

Belə ki, bəzi ekspertlər hesab edirdilər ki, bu dəhliz, "NATO-nun Turan dəhlizi" adlı trans-regional strategiyanın kiçik bir hissəsidir.

- "Bakı və Ankara dünyanın türkdilli adlanan əhalisini birləşdirən layihənin əsas marionetləridir və təbii ki, bu yolla ciddi iqtisadi səmərə əldə edirlər".

Bütün bu cəfəngiyatlar İranda Azərbaycan və Türkiyənin müstəqil xarici siyasət yeritməyə qadir olmamaları haqqında ictimai rəy formalaşdırmağa hesablanıb.

- Dəhliz Böyük Turan, Pantürkizm ideyasının reallaşdırılmasına hesablanıb.

Beynəlxalq hüquq üzrə mütəxəssis və Avrasiya üzrə araşdırıcı d-r Əhməd Kazeruni Zəngəzur dəhlizini Pantürkizm coğrafiyasının dəhlizi, Böyük Turan ideyasının reallaşmasında mühüm həlqə hesab edir. O, öz şərhində dəhlizi Pantürkist coğrafi qovuşma/bağlantı, Pantürkist xəttin birləşməsi/Pantürkist xətti adlandıraraq Böyük Turan, Pantürkizm təsiri, Pantürkizm xətti kimi ifadələrdən gen-bol istifadə edir. Ekspert "Türk Dəhlizi" layihəsini "Böyük Türküstan" kimi bölgədə son bir ildə nəzərdən keçirilən layihələrdən biri hesab edir. Ekspert bu dəhlizi "Yeni osmanizm" siyasətinin tərkib hissəsi hesab edir və onu Türküstan dəhlizi adlandıraraq, xəbərdarlıq edir ki, Türkiyə "Yeni imperatorluq yaratmaq istəyir və bu, İran üçün çox təhlükəlidir". Adıgedən ekspert fantaziyasına güc verərək Zəngəzur dəhlizinin yaradılmasının vaxtilə Atatürk tərəfindən təklif edildiyini bəyan edir.

Başqa bir ekspert eyni ideyanı başqa sözlərlə ifadə edərək dəhlizin Türkiyənin türk ekspansionizmi, regionda Pantürkizmi gücləndirmək siyasətinə xidmət etdiyini göstərməyə çalışaraq, iranlılarda pantürkizm xofu yaratmağa səy edir.

İran hakimiyyətini təmsil edən ideoloqlar haqqında danışdıqları tarixi reallıqları nəzərə almadan nəqliyyat dəhlizini guya pantürkizm ideologiyasının əsas ötürücüsü kimi qələmə verərək iranlıları pantürkizmlə mübarizəyə səfərbər etməyə çalışırlar. Doğrudanmı dəhliz ideoloji vasitə rolu oynayır, yoxsa ideologiya tamamilə başqa vasitələrlə hazırlanır və yayılır.

3. Dəhlizin İran və İrəvan üçün böyük "təhlükəsi"

Dini-millətçi ideologiyanın ötürücülərindən olan saytlardan birində getmiş "Azərbaycan və Ermənistan sazişinin İran üçün iqtisadi nəticələri/İranın Ermənistanla sərhəd zolağının əldən getməsi" adlı yazıda deyilir: "Xəritə göstərir ki, Ermənistanla sərhəd zolağı aradan gedir. İran yalnız Azərbaycanla həmsərhəd olacaq".

Daha sonra sayt Ermənistanı da türk təhlükəsi ilə qorxutmaq üçün göstərir ki, dəhliz İrəvanı türk mühitində çoxtərəfli mühasirə vəziyyətinə salır.

Ekspert dəhlizə qarşı mübarizəni əsaslandırmaq üçün tarixə müraciət edərək yazır: "Tarix boyu "Zəngəzur dəhlizi" adlanan bir dəhliz və ya keçid olmayıb və bu bir növ tarixi təhrifdir".

SEPAH generalı Azərbaycana münasibətdə qırmızı xətlər cızmağa adət etdiyindən Zəngəzur dəhlizinin yaradılmasını geosiyasi dəyişiklik hesab edir və deyir: "Bölgədə hər cür geosiyasi dəyişiklik bizim qırmızı xəttimizdir".

İranda dəhliz məsələsinin artıq həll edildiyi barədə şayiələr yayılırdı. Bunlardan birində deyilir ki, Azərbaycan Ermənistanla danışıqlar aparır ki, Zəngəzura sahib olsun, əvəzində Şimali Qarabağı Ermənistana versin.

Dəhliz təhlükəsi Türkiyə ilə əlaqələndirildikdə hökumət ekspertlərinə görə daha inandırıcı görünür. Ona görə qeyd edilir ki, dəhlizin yaradılması ilə Türkiyə Zəngəzuru İranın üzünə bağlayacaqdır.

İran özü üçün Türkiyədən daha qorxulu düşməni İsrail hesab etdiyindən dəhlizlə bu ölkə arasında hər hansı bir əlaqədən danışılsa, onda təhlükənin daha inandırıcı görünə biləcəyini unutmur. Odur ki dalanın birinci növbədə İsrailə lazım olduğu fikri vurğulanır.

İranda dəhlizin yaradılmasına qarşı arqumentlər daim çoxaldılırdı. Belə ki beynəlxalq hüquq üzrə mütəxəssisin fikrincə, dəhlizin Ermənistan və İran üçün təhlükəsi həm də ondan ibarətdir ki, onun özündə "bir ərazi tamahkarlığı gizlənir".

İranlı mütəxəssis İrəvanı qorxudur ki, dəhliz yaradılarsa, bölgə məlum olmayan səbəbdən Ermənistanın nəzarətindən, hakimiyyətindən çıxacaqdır.

Bizim izlədiyimiz saytlarda qeyd edildiyi kimi, dəhliz haqqında obyektiv fikirlərə az-az rast gəlinirdi. Hakimiyyətin məlum dairələrinin ideoloqları həmin nadir hallarda ifadə edilən fikirləri də təkzib etməyə vaxt ayırırdılar.

Professor ekspertlərdən biri yazır: "...Deyirlər ki, Azərbaycan Naxçıvan ilə ən qısa zolaqda dalan açmaq istəyir və bu da İranın Ermənistanla sərhədini kəsmir. Bu fikir böyük bir səhvdir. Çünki dəhliz Ermənistan-İran əlaqələrinin kəsilməsi deməkdir". Ekspert dəhlizin Ermənistan üçün təhlükəsini də göstərməyi unutmur. O yazır: "Turan dəhlizi Sünik vilayətini (İranın qonşuluğunda) Ermənistandan ayırmaqla bu ölkəni İran yolundan, tarixi nəfəs keçidindən məhrum edir". Bir az da qabağa gedərək dəhlizin ermənilərin nə az nə çox milli varlığı üçün təhlükə olduğunu iddia edərək yazır: "Nəhayət, Cənubi Qafqazda erməni mədəniyyəti və kimliyi yox olacaq". Ekspert İranda dəhlizə az-çox obyektiv münasibət bəsləyənləri milli xəyanətdə ittiham edərək yazır: "Turan dəhlizinin tərəfdarlarının məqsədi İranı öz təbii, ədalətli və tarixi maraqlarından məhrum etməkdir". Ekspert İranın dəhlizə qarşı qəti mövqe tutduğuna işarə edərək yazır: "İran bu ingilis-sionist sui-qəsdinə mütləq qarşı çıxacaq və pantürk arzusunun həyata keçməsinə imkan verməyəcəkdir". Ekspert dəhlizin yalnız ermənilərin deyil, həm də farsların milli varlığı üçün təhlükə olduğu barədə yazır: "Bu dəhliz tranzit və iqtisadi yoldan daha artıqdır və ölkəmizin maraqlarını, daha da önəmlisi, şiə və iranlı kimliyini hədəf alır". Ekspert belə hesab edir ki, bütün hallarda "Turan dəhlizinin həyata keçirilməsinin zəruriliyi ilə bağlı Bakının və onun tərəfdarlarının heç bir əsaslandırması qəbul edilməməlidir".

Dəhliz təhlükəsinin miqyasını göstərmək üçün ekspert yazır: "Dəhliz tərəfdarları həmçinin etnik şovinizm vasitəsilə İranın geosiyasi imkanlarını zəiflətməyə, İranın Mərkəzi Asiyada tarixi, mədəni və sivilizasiya irsini məhdudlaşdırmağa və şiəlikdən uzaqlaşdırmağa çalışırlar". Dəhliz xofunu alovlandırmaq üçün ekspertlər ağlasığmaz dəlillər irəli sürürlər. Sözügedən ekspert yazır: "Bu dəhliz İranı parçalamağa çalışır və sonrakı mərhələlərdə Təbrizi hədəf alacaq".

İranlı hakimiyyət ekspertləri dəhlizə nəqliyyat infrastrukturunun bir elementi kimi deyil, dağıdıcı, məhvedici fövqəltəbii bir qüvvə kimi baxaraq onun məqsədinin bir tərəfdən erməni mədəniyyəti və kimliyini, digər tərəfdən şiə və iranlı kimliyini məhv etmək və İranı parçalamaqdan ibarət olduğunu vurğulayırlar. İki məntəqəni birləşdirən və İran ərazisinə daxil olmayan həmin dəhlizdə erməni və fars kimliyini, erməni mədəniyyətini, fars şiəliyini məhv etmək və İranı parçalamaq gücünü ancaq paranoyalı alimlər görə bilərlər.

Bütün bu qorxu saçan cəfəng fikirlər iranlılar tərəfindən hakimiyyətin dəhlizə qarşı müqavimətinin dəstəklənməsinə nail olmağa hesablanmışdır. Çünki nə dindar öz şiəliyini, nə millətçi öz kimliyini bir dəhlizə qurban verməyə hazır olmaz.

Dəhlizin İran üçün indiyə qədər mövcud olan bütün xarici təhlükələrdən daha böyük təhlükə olduğunu iddia edən ekspertlər ona qarşı mübarizə yollarını təklif etməyi unutmurlar. Ekspertlərdən biri bu barədə "əməli" təkliflər verir:

a) İran daxilində bu işlə məşğul olanların çoxu dəyişdirilməli, ya da öz baxışlarını dəyişdirməlidirlər.

b) Xəzərdə yük nəqliyyat gəmilərinin sayı artırılmalıdır.

c) Ermənistanla hərbi-müdafiə əməkdaşlığını genişləndirmək lazımdır.

Göründüyü kimi İran tərəfi təkcə iranlıları deyil, həm də ermənistanlıları Dəhliz təhlükəsi ilə qorxudaraq ona qarşı birgə müqavimət göstərməyin zəruri olduğu fikrini aşılamağa çalışır.

4. İranın Zəngəzur Dəhlizinə qarşı mübarizəsinin motivi

İran İkinci Qarabağ müharibəsində Rusiyadan çəkinərək əməldə Ermənistanı, müharibənin sonlarına doğru sözdə Azərbaycanı dəstələyərək ikibaşlı siyasət yeritdiyindən, Cənubi Qafqaz regionunda tamamilə zəif mövqe nümayiş etdirərək, hətta ondan kənarda qalmaq təhlükəsi ilə üzləşməli oldu. Ona görə də regiona qayıtmaq üçün vasitələr axtarmağa başladı.

### İranın Zəngəzur dəhlizi məsələsinə münasibəti onun Azərbaycan siyasətinin mahiyyətini daha qabarıq şəkildə nümayiş etdirir

Yuxarıda İranın İkinci Qarabağ müharibəsinin gedişində getdikcə Azərbaycana qarşı açıq mövqe tutması və onun uydurma səbəbləri haqqında ətraflı danışılmışdır.

İran tərəfinin bəhanə gətirdiyi səbəblərin tam olmayan siyahısı aşağıdakılardan ibarətdir:

Azərbaycan, Türkiyə, İsrail əməkdaşlığı, guya təkfirçi terroristlərin İranın şimal sərhədlərinə bitişik ərazilərə gətirilməsi, təqribən İranın bütün Şimal-qərbi ilə həmsərhəd ərazilərə Azərbaycanın nəzarət etməsi və Türkiyə ilə qonşu olması, Naxçıvan və Qarabağın Azərbaycanın nəqliyyat kommunikasiyası ilə birləşdirilməsi ilə İranın Ermənistanla quru sərhədinin aradan getməsi, İsrailin İranda etnik hərəkatlar yaratmaq məqsədi ilə Azərbaycanı himayə etməsi, hətta burada hərbi baza yaratmaq istəməsi, İsrail, Türkiyə, Azərbaycanın Qarabağ azad olandan sonra Azərbaycan Respublikasını separatizm mərkəzinə çevirəcəkləri barədə Qərbə söz vermələri, İsrail casuslarının Cənubi azərbaycanlılar arasında iş aparması, casusların dini kimliyi zəiflətmək, etnik və dini fərqləri qızışdırması, separatçı qruplar arasında yaxınlaşma yaratması, Şərqi Azərbaycan vilayətində olan separatçıları xaricdə olan separatçılarla birləşdirməyə səy göstərməsi, onların aralarındakı ixtilafları azaltmağa çalışması və həmin işdə müəyyən uğur qazanılması, Amerika və İsrail kəşfiyyat orqanlarının Cənubi azərbaycanlı separatçılarla işləməsi, Sionist rejimin xüsusi xidmət orqanlarının indi İranın sərhədlərindən o tərəfdə yerləşdirilməsi, Cənubi azərbaycanlı separatçıların ekoloji problemlərin həlli və vilayətin iqtisadi maraqlarının qorunmasında fəal rol oynaması, Azərbaycan Respublikası ərazisində etnosentrik separatçı qrupların fəaliyyət göstərməsi, Sovet İttifaqının dağılmasından sonrakı illərdə bu ərazilər də Ermənistanın nəzarətində olduğu üçün, xüsusi bir problemin olmaması, problemlərin Azərbaycanın öz ərazilərini işğaldan azad etməsindən sonra başlaması, Qarabağın ermənilər tərəfindən idarə olunduğu zamanı İran üçün problemin olmaması, işğal altında olan Qarabağın İran üçün təhlükəsizlik sahəsi olması, İranın Birinci Qarabağ müharibəsindən sonra Qarabağda mövcud olan separatçı rejimi yeni reallıq kimi qəbul edərək yaranmış geosiyasi vəziyyətin dəyişməsinə mane olması, Azərbaycanın pantürkləri İrana qarşı qaldırmaq istəməsi, Brenda Şafferin Cənubi azərbaycanlıları ayrılmağa təhrik etməsi, yeni osmanizmin Türküstan dəhlizi (Zəngəzur dəhlizi) vasitəsi ilə yeni imperiya yaratmaq planı, Azərbaycan Respublikasındakı separatçı cərəyanların tərəfdarlarının olması, Bakının anti-İran etnik təşviqat siyasəti yeritməsi, Güney Azərbaycan adından istifadə edilməsi, Bakının anti-İran etnik təhrikedici kanallarının(o cümlədən 13-cü youtube kanalında) mövcud olması, pantürkizmin İran azərbaycanlıları arasında etnik mənsubları öz aləti kimi istismar etməyə çalışması, pantürkizmin irqçi simaya məxsus olması, son onilliklərdə Əjdər Tağızadə, Sirus Təbrizli, Piruz Dilənçi, Aslan Xalidi, Mahmudəli Çehraqani və s. kimi şəxslərlə əməkdaşlıq edilməsi, hazırda bəzi siyasi xadimlər, rəssamlar, müğənnilər, rəqqasələr, jurnalistlər, eləcə də azərbaycanlı məşhurlar kimi tanınan "təqlidçilər"in pantürkizm hərəkatı ilə əməkdaşlıq etməsi, dəhlizin pantürk arzusunun həyata keçirilməsində mühüm həlqə olması, Qafqazda müstəmləkəçilərin 200 illik arzusunun - İslam birliyinin qarşısının alınmasına yönəlmiş səyləri, ərəblərin Qafqaz və Mərkəzi Asiyadan İrana hücum etmək üçün istifadə etmək planının olması, Amerikanın Əfqanıstanda uğursuzluqdan sonra İrana Qafqazdan girməyi planlaşdırması, İran hakimiyyətinin pantürkistlərə qarşı qətiyyətli addım atmaması, İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan Respublikasının İran daxilində etnik çağırışlar məsələsinə diqqət yetirməsi və azərbaycançılıq

ideyasını təbliğ etməsi, İrandan ayrılmaq ideyasının təbliğ edilməsi, etnik şovinizm vasitəsi ilə İrana təsir göstərilməsi, İranın Mərkəzi Asiyada tarixi, mədəni və sivilizasiya irsini məhdudlaşdırmağa və şiəlikdən uzaqlaşdırmağa çalışılması, dəhlizin İranı parçalamağa yönəlməsi və sonrakı mərhələlərdə Təbrizi hədəf alması, İranın dini siyasətinə qarşı etnik siyasət yeridilməsi, Türkiyənin Böyük Türküstan yaratmaq siyasəti və s. və i.a. təkrar-təkrar qeyd edilir.

- Dəhlizin sonrakı mərhələlərdə Təbrizi hədəf alması,

- Dəhlizin pantürk arzusunun həyata keçirilməsində mühüm həlqə olması,

- Dəhlizin İranın Ermənistanla quru sərhədinin aradan qaldırması

Ermənistan ərazisindən keçəcək dəhlizin, qısa bir nəqliyyat-kommunikasiya xəttinin İran üçün bu dəhlizlə heç bir əlaqəsi olmayan çox ciddi, hətta həyati təhlükə yarada bilməsini ancaq xəstə beyinlər və qeyri-adi




fantaziyaya malik olan “alim və ekspertlər” görə bilərlər. Həmin alim və ekspert kimi çıxış edən siyasi və mülki insanların dəhlizdə nəqliyyat məsələsi ilə bağlı olmayan böyük təhlükələr görməsi onların ölkələrində həqiqətən hansısa potensial bir problemin olması ilə izah edilə bilər

İran saytlarında Azərbaycanın öz ərazilərini işğaldan azad etdikdən sonra Azərbaycanın qərb bölgəsinin (Şərqi Zəngəzurun) Ermənistan ərazisindən (Qərbi Zəngəzurdan) keçərək Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək dəhliz-Zəngəzur dəhlizinin İran üçün yarada biləcəyi uydurma birbaşa və yan təhlükələri haqqında İran saytlarında iranlı alim və ekspertlərin xronoloji ardıcıllıqla qeyd edilmiş fikirlərini mövzu üzrə qruplaşdırsaq, belə bir mənzərə alınar.

a) Zəngəzur dəhlizinin İran İslam Respublikasının təhlükəsizliyi üçün birbaşa təhdidləri:

- Naxçıvan və Qarabağın Azərbaycanın nəqliyyat kommunikasiyası ilə birləşdirilməsi,

- Dəhlizin İranı parçalamağa yönəlməsi,

b) İkinci Qarabağ müharibəsinə qədər Cənubi Qafqazda İranı qane edən geosiyasi vəziyyət:

- Sovet İttifaqının dağılmasından sonrakı illərdə Ermənistanın nəzarətində olduğu üçün bu ərazilərdə xüsusi bir problemin olmaması,

- Qarabağın ermənilər tərəfindən idarə olunduğu zaman İran üçün problemin olmaması,

- İşğal altında olan Qarabağın İran üçün təhlükəsiz sahə olması,

- İranın Birinci Qarabağ müharibəsindən sonra Qarabağda mövcud olan separatçı rejimi yeni reallıq kimi qəbul edərək yaranmış geosiyasi vəziyyətin dəyişməsinə mane olması.

Azərbaycanın öz ərazilərini işğaldan azad etməsini İran özü üçün səbəbi məlum olmayan əsas təhlükə mənbəyi hesab edir.

c) Öz ərazi bütövlüyünü bərpa edib dəhliz açmaq istəyən Azərbaycan Respublikasının İran üçün yaratdığı uydurma təhlükələr:

1. İkinci Qarabağ müharibəsinə qədər Azərbaycanın İranla həmsərhəd və işğal altında olan bölgəsinin İslam Respublikası üçün təhdid yox, fürsət regionu olması;

- Sovet İttifaqının dağılmasından sonrakı illərdə bu ərazilərin Ermənistanın nəzarətində olduğu üçün xüsusi bir problemin olmaması,

- Qarabağın ermənilər tərəfindən idarə olunduğu zaman İran üçün problemin olmaması,

- İşğal altında olan Qarabağın İran üçün təhlükəsiz sahə olması

2.Azərbaycan Respublikasının İkinci Qarabağ müharibəsindən sonra İslam Respublikası üçün yaratdığı təhlükələr;

- Azərbaycan Respublikası ərazisində etnosentrik separatçı qrupların fəaliyyət göstərməsi,

- Azərbaycanın öz ərazilərini işğaldan azad etməsindən sonra İran üçün problemlərin başlanması,

- Azərbaycanın pantürkləri İrana qarşı qaldırmaq istəməsi,

- Azərbaycan Respublikasında separatçı cərəyanların tərəfdarlarının olması,

- Bakının anti-İran etnik təşviqat siyasəti yeritməsi,

- Bakıda Güney Azərbaycan adından istifadə edilməsi,

- Bakının anti-İran etnik təhrikedici kanallarının (o cümlədən youtube kanalında 13-cü kanal) mövcud olması,

- İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan Respublikasının İran daxilində etnik çağırışlar məsələsinə diqqət yetirməsi,

- Azərbaycançılıq ideyasını təbliğ etməsi,

- İrandan ayrılmaq ideyasının təbliğ edilməsi,

- Etnik şovinizm vasitəsi ilə İrana təsir göstərilməsi

İranlı alim və ekspertlər Azərbaycan Respublikasının İrana qarşı geniş miqyasda etnik/separatizm təhlükəsi yaratdığını və İranın məhz separatizmə qarşı son dərəcə həssas olması baxımdan qeyd edilən məsələyə geniş diqqət və yer ayırdıqlarını nümayiş etdirirlər. İranlılar həmin məsələnin dövlətin bütövlüyü üçün niyə ciddi təhlükə yaratdığının səbəblərini 100 ildən çox bir dördə yeridilən daxili hakim millətçilik, şovinizm, etnik-dini ayrı-seçkilik siyasətində axtarmayıb və ondan danışmasalar da, avtomatik olaraq fikirləşmək olar ki, İranın milli birliyi, onun nəticəsi kimi ərazi bütövlüyü və suverenliyi o qədər də möhkəm dayaqlara söykənmir.

3. Azərbaycanla ən yaxından əməkdaşlıq edən ölkələrin İran üçün yaratdığı təhdidlər.

a) Türkiyə Respublikası;

- Təqribən İranın bütün Şimal-qərbi ilə həmsərhəd ərazilərə Azərbaycanın nəzarət etməsi və Türkiyə ilə qonşu olması,

- Türkiyənin Böyük Türküstan yaratmaq siyasət və s. və i.a.,

- Osmanizmin Türküstan dəhlizi (Zəngəzur dəhlizi) vasitəsi ilə yeni imperiya yaratmaq planı,

b) İsrail dövləti;

- İsrailin İranda etnik hərəkatlar yaratmaq məqsədi,

- İsrailin Azərbaycanda hərbi baza yaratmaq istəməsi,

- İsrail casuslarının Cənubi Azərbaycanda və xaricdə yaşayan Güneyli azərbaycanlı separatçılar arasında iş aparması,

- Sionist rejimin xüsusi xidmət orqanlarının indi İranın sərhədlərindən o tərəfdə yerləşdirilməsi. Bura həmçinin İran əleyhinə Azərbaycan, Türkiyə və İsrail əməkdaşlığını da əlavə etmək lazımdır.

Xəstə beyinli iranlı ekspertlər üç ölkənin çox geniş sahədə beynəlxalq hüquq, bərabər hüquqluluq və qarşılıqlı faydalı əməkdaşlıq

prinsiplərinə söykənərək uzun müddətli və geniş əməkdaşlığında İran üçün təhlükə görməsi təbiidir. Çünki İslam Respublikası təsis edildiyi gündən siyasi-dini ideologiyaya əsaslanan ekspansionizm siyasəti yeritmək üçün İsrail dövlətini heç bir əsas olmadan özünə düşmən seçdiyindən İsrailin Azərbaycanla əməkdaşlığına təhlükə mənbəyi kimi baxır. İran İsraillə çox yaxın əməkdaşlığa malik olan heç bir digər ölkəni (məsələn Orta Asiya ölkələrini, o cümlədən həmsərhəd olan Türkmənistanı) özünün bilavasitə düşməni hesab etməyərək ondan İsraillə əməkdaşlığı kəsməyi tələb etmir.

İran dünyəvi dövlət olan, bütün ölkələrlə əməkdaşlıq etmək siyasəti yeridən və türk dövlətlərinin qarşılıqlı əməkdaşlığı və əlaqələrinin dərinləşməsinə səy göstərən Türkiyəni özünün əsas regional rəqibi kimi gördüyündən Cənubi Qafqazda və Azərbaycanda təsiri və nüfuzunun artmasını özü üçün təhlükə hesab edir, Türkiyənin və türk dövlətlərinin İranın maraqlarına təhlükə yaratdığını Pantürkizm təhlükəsi adı altında bəyan edir.

c) İrana qarşı separatizm və pantürkizm təhlükəsi

- Amerika və İsrail kəşfiyyat orqanlarının Cənubi azərbaycanlı separatçılarla işləməsi,
- Brenda Şafferin Cənubi azərbaycanlıları ayrılmağa təhrik etməsi,
- İsrail və Türkiyənin Qarabağ bölgəsi işğaldan azad olandan sonra Azərbaycan Respublikasını separatizm mərkəzinə çevirəcəkləri barədə Qərbə söz verməsi,
- Pantürkizmin İran azərbaycanlıları arasında etnik mənsubları öz aləti və dayağı kimi istismar etməyə çalışması,
- Pantürkizmin irqçi simaya məxsus olması,
- Pantürkizmin Cənubi azərbaycanlı müxalifət və məşhurlar ilə əməkdaşlıq etməsi

İranlıların fikrincə Azərbaycan, Türkiyə və Orta Asiya dövlətləri hamısı İrana qarşı pantürkizm vasitəsi ilə mübarizə apararaq onun üçün ciddi təhdid yaradırlar.

İran bir tərəfdən bütün türk dövlətləri ilə geniş siyasi, iqtisadi əlaqə qurub və əməkdaşlıq edir, digər tərəfdən uydurma pantürkizm təhlükəsi bəhanəsi ilə həmin ölkələrin milli kimliyi və bir-iri ilə sıx əməkdaşlıq etməsinə qarşı mübarizə aparır. Türk dövlətlərinin İranın onlara qarşı ikili və riyakar siyasətinə xüsusi diqqət yetirmələri çox vacibdir.

d) Azərbaycanın İrana qarşı hücum etmək üçün plasdarma çevrilməsi;

- Amerikanın Əfqanıstandakı uğursuzluğundan sonra İrana Qafqazdan girməyi planlaşdırması,
- Ərəblərin Qafqaz və Mərkəzi Asiyadan İrana hücum etmək üçün istifadə etmək planının olması,
- İsrailin Azərbaycan ərazisindən İrana hücum etmək niyyətinin olması.

Müstəqil daxili və xarici siyasət yeridən Azərbaycan Respublikasının öz ərazilərində digər ölkələrin hərbi bazalarını yaratmağa yol verməmək haqqında Milli Təhlükəsizlik doktrinası və Xarici siyasət doktrinasında qonşularla bərabərhüquqlu, faydalı qarşılıqlı əməkdaşlıq prinsiplərinin nəinki qeyd edilməsini, eləcə də ardıcıl həyata keçirilməsini İran görməzdən gəlməyə üstünlük verərək daxili auditoriyada anti-Azərbaycan düşmənçiliyini gücləndirmək xəttini davam etdirir.

e) Azərbaycandan və digər türk ölkələrindən, həmçinin İranın daxilindən İrana yönələn digər təhdidlər;

- İranın Mərkəzi Asiyada tarixi, mədəni və sivilizasiya irsini məhdudlaşdırmağa və şiəlikdən uzaqlaşdırmağa çalışılması,
- Qafqazda müstəmləkəçilərin 200 illik arzusunun - İslam birliyinin qarşısının alınmasına yönəlmiş səyləri,
- Cənubi azərbaycanlı separatçıların ekoloji problemlərə qarşı və vilayətin iqtisadi maraqlarının qorunmasında fəal rol oynaması,
- İran hakimiyyətinin pantürkistlərə qarşı qətiyyətli addım atmaması.

İran regional və hətta qlobal təhdidlərlə üz-üzə olduğu və həmin təhdidlərin əsil səbəbləri-İranın daxildə milli zülm və etnik-di-

ni ayrı seçkilik və xaricdə müsəlman ölkələrə qarşı müdaxilə siyasəti haqqında öz vətəndaşları arasında təhrif olunmuş rəy yaratmaq üçün heç bir iftira, böhtan və uydurmalardan əl çəkmir.

### *İranın Azərbaycana qarşı düşmənçiliyinin səbəbləri harada axtarılmalı*

Azərbaycanın İkinci Qarabağ müharibəsində zəfər çalması və öz ərazilərini düşmən işğalından azad etməsindən sonra İranın Azərbaycana qarşı düşmənçilik münasibətinin həqiqi mahiyyəti və məzmunu özünü əyani şəkildə göstərmişdir. Azərbaycanın Zəngəzur dəhlizi vasitəsi ilə Şərqi Zəngəzuru Qərbi Zəngəzurla birləşdirməsi sahəsində siyasi, ideoloji və praktiki fəaliyyətinə həsr olunmuş alim ekspert yazılarında, yuxarıda xülasə edildiyi kimi, Azərbaycanın, onun əməkdaşlıq etdikləri ölkələrin və dəhliz projesinin İranın ərazi bütövlüyü, milli birliyi, suverenliyi üçün yaratdığı və yarada biləcəyi təhlükə və təhdidlər haqqında reallıqdan uzaq bütün cəfəng ideya və fikirlər yer almış və daim təkrarlanmışdır. Yuxarıda qeyd edildiyi kimi, biz İranda nəqliyyat dəhlizinin iqtisadi və geoiqtisadi, geosiyasi xarakteristikası və mümkün təsirləri haqqında yazılardan deyil, bir iqtisadi-nəqliyyat hadisəsi olan dəhlizın iranlı alim ekspertlərin nəzərində İran üçün yarada biləcək və ya gücləndirə biləcəyi ağla gələn və gəlməyən yan təhdidlərə diqqəti cəlb etməyi qarşımıza məqsəd qoymuşuq. Yeri gəlmişkən, yuxarıda göstərildiyi kimi, İranda çox az və hətta nadir hallarda olsa da, Zəngəzur dəhlizinin İranın iqtisadi, geoiqtisadi və geosiyasi maraqları üçün nəinki təhdid yaratmadığını, əksinə onun həmin sahədə maraqlarına cavab verdiyi haqqında yazılara rast gəlmək olurdu. Bu fakt İranda müəyyən qüvvələrin Azərbaycana qarşı düşmənçilik siyasətinin arxasında başqa səbəb və niyyətin gizləndiyini aşkar şəkildə göstərir. Həmin səbəbi müəyyən etmək üçün İranın əsas diqqətinin Azərbaycan, Türkiyə, İsrail və digər dövlətlərin guya İranda separatizm və pantürkizm fəaliyyəti ilə məşğul olmalarına yönəlməsində görmək olar.

İranı ən çox narahat edən həmin ölkədə guya separatizm fəaliyyətləri olduğundan və pantürkizm onun mühüm bir ünsürü hesab edildiyindən, əvvəlcə pantürkizm haqqında bir neçə söz demək lazımdır.

İranda pantürkizm, Cənubi Azərbaycanda pantürkizm haqqında son 30 ildə son dərəcə geniş, müxtəlif səviyyəli, səpgili, həcmli yazılar meydana gəlmişdir. Həmin yazıların bir əsas cəhəti pantürkizmə verilən tərifdə özünü göstərir.

İranda Cənubi azərbaycanlıları türk adlandıran və milli hüquqlara malik olduğunu müdafiə edən fikir cərəyanı pantürkizm və bəyan edən istənilən şəxsi, istər İranın özündə, istərsə də ondan kənarda, pantürk adlandıraraq onu, Cənubi azərbaycanlıları Türkiyəyə, Şimali Azərbaycana birləşdirmək sahəsində fəaliyyətdə-elmi, ideoloji, siyasi, ictimai və sairədə ittiham edirlər. Bundan əlavə, İranda Cənubi azərbaycanlıları və Şimali azərbaycanlıları vahid bir xalq və türk xalqlarından biri adlandıranları və həmin ideyanı dəstəkləyənləri də pantürk siyahısına daxil edirlər. Nəticədə türk xalqlarının bütün sahələrdə əməkdaşlığının genişlənməsinin vacibliyini dəstəkləyən ideya cərəyanını pantürkizm adlandırırlar.

İranın millətçi alim və siyasiləri Cənubi azərbaycanlıların milli azadlıq hərəkatını pantürkizm hərəkatı kimi səciyyələndirərək nəinki bir xalq kimi azərbaycanlılara və Azərbaycana, eləcə də bütövlükdə türk dövlətləri və türk xalqlarına qarşı mübarizə apardıqlarını nümayiş etdirərək öz cızma-qaralarında, çıxışlarında zahirən yaxın siyasi-iqtisadi əlaqələr qurmağa çalışdıqları türk dövlətləri və xalqlarına qarşı əslində ikiüzlülük və hörmətsizlik nümayiş etdirirlər.

Qeyd edildiyi kimi, İranda pantürkizmi Cənubi azərbaycanlıların separatizm adlandırılan milli azadlıq hərəkatının mühüm ideya-mənəvi ünsürü hesab edirlər. İranda milli azadlıq hərəkatı Cənubi azərbaycanlılarla

məhdudlaşmadığından pantürkizm İran miqyasında Cənubi azərbaycanlıların milli hüquqları uğrunda çıxış edən Cənubi Azərbaycan ideya-siyasi cərəyanlarına şamil edilir. Bu baxımdan pantürkizm separatizmin bir ünsürü kimi qələmə verildiyindən daha məhdud anlayış kimi çıxış edir. Bunun müqabilində separatizm adlandırılan milli azadlıq hərəkatı İranda ən geniş yayılmış ideya, ideoloji, ictimai, mədəni və siyasi bir hadisədir və bütün qeyri-fars xalqların ictimai-siyasi, mədəni həyatlarının ən mühüm hissəsini təşkil edir.

Azərbaycan və onunla yaxından əməkdaşlıq edən ölkələrin İranda separatizm adlandırılan milli-azadlıq hərəkatına təsir imkanları və həmin sahədə real və ya ehtimali fəaliyyətləri əsas təhlükə hesab edilir.

Həmin "təhlükə"nin aradan qaldırılmasının, məlum olduğu kimi, müasir, sivil dünyada çox sadə həll yolu vardır: İranda yaşayan etnik-milli və etnik-dini azlıqların milli, dini hüquqlarının tanınması və təmin edilməsi. Amma 100 ildən çox bir müddətdə qeyri-fars xalqlara qarşı hakim millətçilik, zorakı assimilyasiya, etnosid siyasəti yeridən İran hakimiyyəti həmin siyasətindən əl çəkmədiyini əməldə nümayiş etdirərək gələcəkdə də bu siyasəti davam etdirəcəyi mesajını verərək, belə siyasətlə real və ehtimali maneələri aradan qaldırmaq niyyətini vurğulayır.

İran özünün bütün iranlılara qarşı antibəşəri, antidemokratik və ədalətsiz, qeyri-fars xalqlara qarşı irqi, etnik, dini, linqvistik ayrıseçkilik siyasəti qarşısında nədənsə, çox mühüm maneələrdən biri kimi Azərbaycan Respublikasını nəzərdə tutur. Həmin baxış hələ 1917/1918-ci ildə meydana gəlsə də, 1991-ci ildə Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra yeni mərhələyə daxil olmuşdur.

İran İslam Respublikası Cənubi azərbaycanlıların milli hüquqlarını təmin etmək əvəzinə, Azərbaycan Respublikasından düşmən obrazı yaradaraq İran əhalisi və xüsusən də Güney azərbaycanlılar arasında Azərbaycana qarşı düşmən və neqativ münasibət yaradıb möhkəmlətmək və Güney azərbaycanlılara qarşı etnosid siyasəti yeritməyi davam etdirməyə çalışır. İran öz siyasətini əsaslandırmaq üçün Azərbaycanın İrandan fərqli olaraq dünyəvi dövlət olması, İranın düşmənləri (İsrail, ABŞ) və rəqibləri (Türkiyə, Ərəb ölkələri) ilə yaxın əməkdaşlıq etməsi amilindən geniş istifadə etməyə çalışır.

Həmin siyasət Azərbaycanın əleyhinə yönəlməkdən daha çox İranda milli azlıqlara və ilk növbədə Güney azərbaycanlılara qarşı yönəlibdir. Çünki İranın düşməninə və ya düşmən obrazına rəğbət göstərmək milli və dövləti xəyanət hesab edilə bilər. Bu amil Güney azərbaycanlıları nəinki Şimali Azərbaycana rəğbət göstərməkdən, həmçinin öz milli hüquqları uğrunda çıxış etməkdən çəkindirməlidir. Məhz buna görə Azərbaycan və hətta nəqliyyat-kommunikasiya dəhlizi belə İranı separatizm yolu ilə parçalamaq amili kimi qələmə verilir və ona qarşı geniş təbliğat aparılır və ideoloji qarşıdurma obyekti kimi nəzərdən keçirilir.

İran Güney azərbaycanlılara qarşı son yüz ildə həyata keçirdiyi milli zülm və etnik ayrı-seçkilik siyasətini əvvəlki kimi davam etdirmək üçün Azərbaycanı İranın düşməni elan edib ona qarşı ideoloji mübarizəni genişləndirərək, müxtəlif vasitələrlə, o cümlədən güc nümayişi, təzyiq göstərmək, Güney azərbaycanlıları həmin prosesə geniş şəkildə cəlb edərək həm Güney azərbaycanlıları milli hüquqlar uğrunda dinc vasitələrlə mübarizədən yayındırmaq, həm də Azərbaycan Respublikasını Güney azərbaycanlıların ən bəsit milli hüquqlarını beynəlxalq müstəvidə müdafiə etmək imkanından məhrum etmək istiqamətini seçmişdir.

Amma tarixi təcrübə göstərir ki, polietnik dövlətdə hər hansı bir xalq (İranda fars xalqı) hakim xalq kimi digər xalqlara qarşı sonsuza qədər irqi-ayrı seçkilik, hakim millətçilik, etnosid və linqvosid siyasəti yeridə bilməz. Həmin siyasət son nəticədə dövlətin parçalanmasına və hakim xalqın qeyri-müəyyən perspektivlə üzləşməsinə səbəb olur.

Tarixi təcrübə unudulmamalıdır.

# İranın uğursuz diplomatik addımları regionda münasibətlərin gərginləşməsinə xidmət edir

Azərbaycan Respublikasının müstəqil daxili və xarici siyasət yürütməsi, beynəlxalq əlaqələrini gündən-günə daha da genişləndirməsi, ikitərəfli və çoxtərəfli əməkdaşlıqda maraqlı olması, regional layihələr həyata keçirməsi, xüsusilə də tarixi torpağımız olan Qarabağın təcavüzkar Ermənistanın işğalından azad edilməsi, Azərbaycan ordusunun güclənməsi, sərhədlərimizin möhkəmləndirilməsi bir sıra dövlətlər kimi, İranı da narahat etdi. Cənub qonşumuz İran İslam Respublikasının anti-Azərbaycan xarakterli hərəkətləri, ölkəmizə qarşı ikili münasibət nümayiş etdirməsi ictimaiyyət arasında da birmənalı qarşılanmadı. İranda azərbaycanlıların üstünlük təşkil etməsinə, qarşılıqlı münasibətlərdə bu əhalinin başlıca amil kimi mühüm rol oynamasına, ölkəmizin əlverişli geosiyasi mövqeyə və zəngin resurslara malik olmasına, Transqafqaz yolunun Azərbaycandan keçməsinə, onun iqtisadi və siyasi təsir gücünün artmasına və respublikamızın hər zaman mehriban qonşuluq münasibətlərinə üstünlük verməsinə baxmayaraq, İranın rəsmi şəkildə "Ermənistanın təhlükəsizliyi bizim təhlükəsizliyimizdir", - deməsi bu ölkənin anti-Azərbaycan mövqeyinin nümayişidir.

İran-Azərbaycan əlaqələrinə və İranın regional məsələlərdə Azərbaycana qarşı tutduğu mövqeyə geniş oxucu auditoriyasının marağını nəzərə alaraq AMEA Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent Sübhan Talıblının bu mövzuda olan məqaləsini təqdim edirik.

**Siyasi-diplomatik münasibətlər**

İran İslam Respublikası qonşu dövlətlərlə münasibətlərini milli mənafeyi, sərhədlərinin təhlükəsizliyi və ərazi bütövlüyünün təminatı, eləcə də daxili sabitliyinin qorunması, etnik məsələyə həssaslıqla yanaşma və s. prinsiplər əsasında qurur. Bu baxımdan, ərazisində 35 milyondan çox azərbaycanlının yaşadığı İran bu gün Cənubi Qafqazda söz sahibi olan Azərbaycan Respublikası ilə münasibətlərinə həssaslıqla, ehtiyatla yanaşır.




Sovet sisteminin dağılması ərəfəsində SSRİ-yə daxil olan respublikaların bir qismi xarici ölkələrlə ikitərəfli əlaqələri inkişaf etdirməyə və genişləndirməyə can atırdılar. Qeyd edilməlidir ki, İranın hələ sovet dövründə Bakıda konsulluğu fəaliyyət göstərirdi və SSRİ daxilində olan Azərbaycanın bu ölkə ilə bəzi əlaqələri mövcud idi. SSRİ-nin süqutu Azərbaycan-İran münasibətlərinin yaxşılaşmasına kömək etdi. 1991-ci ilin 18 oktyabrında Azərbaycan "Dövlət müstəqilliyi haqqında Konstitusiya aktı"nı qəbul etdi və həmin qanunda özünün müstəqil dövlət olduğunu bütün dünyaya bildirdi. Həmin il dekabrın 25-də İran İslam Respublikası Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıdı, 1992-ci il martın 12-də iki dövlət arasında diplomatik münasibətlər quruldu.

8 dekabr 1992-ci il tarixində müstəqil Azərbaycan Respublikasının İran İslam Respublikasına təyin edilmiş səfiri Nəsib Nəsibzadənin başçılığı ilə ilk diplomatik heyət Tehrana gəldi. 12 dekabr 1992-ci ildə səfir öz etimadnaməsinin surətini İranın xarici işlər naziri Əli Əkbər Vilayətiyə təqdim etdi. Artıq iki qonşu ölkə arasında siyasi-diplomatik əlaqələr genişlənərək səfirlik səviyyəsinə çatmışdı. Növbəti gün, 1992-ci il dekabr ayının 13-də Azərbaycan Respublikasının ilk səfiri etimadnaməsini İran Prezidenti Haşimi Rəfsəncaniyə təqdim etdi. Görüş zamanı

İran Prezidenti bildirmişdir ki, İran ilə Azərbaycan arasında diplomatik münasibətlərin yaradılması iki ölkə arasında əməkdaşlığın genişlənməsinə səbəb olmuşdur.

Qeyd edək ki, hər iki ölkənin səfirlikləri, İranın Bakıdakı Mədəniyyət Mərkəzi və Naxçıvan MR-də Baş Konsulluğu, eləcə də Azərbaycan Respublikasının Təbriz şəhərində Baş Konsulluğu fəaliyyət göstərir. Xüsusilə vurğulanmalıdır ki, Azərbaycan Respublikası Vyana Konvensiyasının müddəalarına riayət edərək İran səfirliyinin və diplomatik nümayəndəliyinin ölkəmizdə həm ərazi baxımından, həm də geniş ştat tərkibində fəaliyyətinə şərait yaratmışdır. İran səfirliyinin binalarının həm Bakının mərkəzində, həm də Yasamal rayonu ərazisində, səfirliyin Mədəniyyət Mərkəzinin isə Nizami metrosunun arxasında yerləşməsini, Naxçıvanda baş konsulluğunun binasını, İranın Bakı Ticarət nümayəndəliyini və s. buna misal göstərmək olar. Lakin Azərbaycan Respublikasının 1992-ci ildən Tehranda fəaliyyət göstərən səfirliyi və 2005-ci ildən Təbrizdə Baş Konsulluğunun binası üçün bu günə qədər torpaq sahəsi verilməmişdir. Bundan əlavə, İranda Azərbaycan Respublikasının Səfirliyinin həm Mədəniyyət Mərkəzi yoxdur, həm də səfirliyin işçi ştatı İranın Azərbaycandakı Səfirliyinin əməkdaşlarının sayından 5 dəfədən də azdır.

Fikrimizcə, iki ölkə arasında münasibətlərin inkişafında dövlət başçılarının qarşılıqlı səfərlərinin mühüm rolu olmuşdur. Belə ki, bu səfərlər zamanı iki ölkə arasındakı münasibətlər nəzərdən keçirilmiş, ikitərəfli əlaqələrin inkişafına mane olan problemlərin həlli üçün tədbirlər nəzərdə tutulmuş və iki dövlət arasında mehriban qonşuluq münasibətlərinin inkişafına hüquqi zəmin yaratmaq məqsədilə sənədlər imzalanmışdır. Bütün bunlara rəğmən, İranın siyasi rəhbərliyi Azərbaycanla imzaladığı sənədlərə, rəsmi görüşlərdə dediyi fikirlərə, qərarlara hörmət etməli, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi xarici siyasətə, beynəlxalq hüquq nöqteyi-nəzərdən hörmət etməlidir.

## İkinci Qarabağ müharibəsində İranın mövqeyi

Birinci Qarabağ müharibəsində Azərbaycan xalqının ümid etməsinə baxmayaraq, İranın vasitəçiliyinin uğursuz olması, münaqişə dövründə ölkəmizə hərtərəfli dəstək göstərməməsi, Azərbaycana müharibənin ilk dövrlərində humanitar yardım etsə də, Ermənistana enerji, neft məhsulları, iqtisadi yardımlar etməsi, işğal olunmuş Azərbaycan ərazilərinə sərmayə qoyuluşu, ermənilərin İranda Azərbaycan əleyhinə fəaliyyəti, İranın Ermənistanı rəsmi şəkildə təcavüzkar dövlət adlandırmaması və s. Azərbaycan ictimaiyyətinə yaxşı bəllidir.

İkinci Qarabağ müharibəsində də Birinci Qarabağ müharibəsində olduğu kimi, İran siyasi rəhbərliyinin susqunluğu, gözləmə mövqeyində durması, yalnız Azərbaycan Prezidentinin hərbi diplomatiyasının uğur qazanmasına yaxın ölkəmizi "müdafiə etməsi" İranın Azərbaycana qarşı ikitərəfli münasibətlərinin göstəricisi idi. Hətta İkinci Qarabağ savaşında Şərqi Azərbaycan əyalətinin kəndi - Culfa şəhərinin Siyahrud (Qaraçay) bölgəsindəki Dizəl kəndi yaxınlığında yerləşən, 1995-ci ilin sentyabrında İranla Ermənistan arasında açılmış Nurdüz sərhəd körpüsündə Ermənistana gedən yük maşınlarının artması, qida, tikinti, energetika ilə yanaşı, hərbi ləvazimatların daşınması da cənubi azərbaycanlılarda ciddi narazılığa səbəb olmuşdur. Bu, İranın Ermənistana növbəti dəstəyi, təcavüzkar, terrorçu ölkəyə açıq-aşkar yardımı idi. Halbuki, bütün sənəd, fakt, mənbə, elmi ədəbiyyat və arxiv sənədlərinə istinad edəndə bütün dünyaya bəlli olduğu kimi, müsəlman İran İslam Respublikasına da məlumdur ki, bir çox dövlətlərin də dəstəklədiyi uydurma "qondarma erməni soyqırımı", "erməni problemi", "erməni məsələsi" Osmanlı dövlətinə, Türkiyə Respublikasına, Azərbaycan Respublikasına, eləcə də türk-müsəlman xalqlarına qarşı hazırlanmış bir plandır. İran İslam Respublikasının isə təcavüzkar Ermənistana dəstəyi, İran Konstitusiyasına, eyni zamanda İslam prinsiplərinə tamamilə ziddir.

## Beynəlxalq və regional təşkilatlar çərçivəsində əməkdaşlıq

Azərbaycan Respublikasının xarici siyasətində beynəlxalq və regional təşkilatlarla ikitərəfli və çoxtərəfli əməkdaşlıq mühüm yer tutur. İranla Azərbaycan arasında münasibətlər İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, BMT, Qoşulmama Hərəkatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə çərçivəsində də davam etdirilmişdir.

Azərbaycan Respublikasının xarici siyasətində İƏT-lə əməkdaşlıq xüsusi yer tutur. 1997-ci ilin dekabr ayında Tehranda keçirilən İƏT-in Zirvə toplantısında Azərbaycanın haqq işini dəstəkləyən və Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləyən bəyanatın qəbul edilməsinin Azərbaycan Respublikası üçün mühüm siyasi-diplomatik əhəmiyyəti olmuşdur. 2017-ci ildə Azərbaycanda "İslam Həmrəyliyi ili" elan olunmuş və Bakıda "İslam Həmrəyliyi Oyunları" keçirilmişdir.

1994-cü il yanvarın sonlarında Tehranda ECO-nun Xarici İşlər Nazirləri Şurasının IX sessiyası keçirilmiş, Azərbaycan Respublikası xarici işlər naziri Həsən Həsənov ECO-ya üzv olan dövlətləri Azərbaycanın haqq işini müdafiə etməyə və təcavüzkar Ermənistana qarşı siyasi və iqtisadi sanksiyalar qəbul etməyə çağırmışdır. İƏT-in Qəzvin-Astara Dəmiryolu Dəhlizi üzrə Yüksək Səviyyəli İşçi Qrupu təsis edilmiş və 2013-cü ildə Bakıda Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) üzrə Yüksək Səviyyəli İşçi Qrupunun ilk iclası keçirilmişdir.

Qeyd edək ki, Ermənistanın Azərbaycana təcavüzünü İran İslam Respublikası beynəlxalq və regional təşkilatlar çərçivəsində pisləmişdir. Lakin İran rəsmi olaraq Ermənistanı təcavüzkar adlandırmamış, Parlamentində Xocalı soyqırımını tanımamışdır.

İranın coğrafi mövqeyindən asılı olaraq Tehran Azərbaycan Respublikası ilə nəqliyyatın müxtəlif sahələrindən istifadə etməklə iqtisadi əlaqələr yaratmaq imkanlarına malikdir. Azərbaycan Respublikasının İranla dəniz nəqliyyatı, Bakı-Təbriz-Tehran dəmir yolu, Bakı-Astara-İran avtomobil yolu mövcuddur.

Bu gün iqtisadi münasibətlər Azərbaycan-İran əməkdaslığının mühüm istiqamətlərindən biridir. Ölkələrimiz arasında iqtisadi-texniki və ticarət əlaqələrinin inkişafına təkan verən amillərdən biri də əlverişli kommunikasiya xətləri vasitəsilə neft emalı, birgə neft daşınması sahəsində əməkdaşlığın olmasıdır. Eyni zamanda, hər iki ölkənin əlverişli nəqliyyat sisteminə malik olması, iqtisadi əlaqələrin formalaşmasına təkan verə bilən müxtəlif istehsal sahələrinin mövcudluğu mühüm iqtisadi əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikası 2005-ci ildə "Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi haqqında Saziş"ə qoşulub. Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi Avropa ölkələrinin, Rusiyanın, Orta Asiya və Qafqaz regionlarının Fars körfəzi və Hindistana çıxışına, Xəzəryanı ölkələrin Qara dəniz limanları ilə ticarət əlaqələrinin intensivləşdirilməsinə şərait yaradacaq. Həmin dəhliz Avropa-Cənubi Asiya-Yaxın Şərq arasında dəmir yolu daşımalarını, müvafiq olaraq dəmir yolunun istər yerli, istərsə də tranzit daşımalarından əldə etdiyi gəlirləri artırmağa imkan verəcək. 2014-cü ilin dekabrından isə Bolaşakdan keçərək Qazaxıstandan birbaşa Türkmənistana, Etrek-Qorqan (Akayla) keçidi ilə isə İran dəmir yoluna birləşən yeni dəmir yolu xətti istifadəyə verilib.

Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin Qərb marşrutu (Həştərxan-Mahaçqala (Rusiya)-Samur-Astara (Azərbaycan)-Astara-Rəşt-Qəzvin (İran) bu dəhlizin strateji hədəfi, məqsədləri baxımından ən optimal olanıdır. Amma ən ucuz və daha tez başa gələn, daha az resurs tələb edən Qərb marşrutunun tam gücü ilə işləməsi 14 ildir ki, ləngiyir. Halbuki, bu marşrutla dəmir yol daşımaları Şərq marşrutu ilə müqayisəyəgəlməz dərəcədə üstünlüklərə malikdir. Dəhlizin Qərb marşrutu ilə Cənub-Şərqi Asiyadan Avropaya yüklərin daşınması 10-15 faiz ucuz başa gələcək. Yüklərin Süveyş kanalı vasitəsilə daşınmasında 800 km daha az məsafə qət ediləcək. Eyni zamanda, daşıma müddəti 20 gün azalacaq və yüklər daha etibarlı yolla mənzilbaşına çatdırılacaqdır.

Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin Azərbaycan üzərindən keçən Qərb marşrutunun reallaşmasının zəruriliyi İran Prezidenti Həsən Ruhaninin 2014-cü ildə Azərbaycana səfəri zamanı bir daha gündəliyə gəldi. Prezident İlham Əliyev və Həsən Ruhani Bakıda iki il əvvəl birgə bəyanatla çıxış etdilər. Dövlət başçıları Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılmasının hər iki tərəfin marağında olmasını, nəqliyyat dəhlizinin bütün bölgə üçün əhəmiyyətini, İranın Qara dənizə və Avropaya, Rusiyaya çıxışını təmin edəcəyini açıqladılar. Bu bəyanatın Bakıda verilməsi də mühüm mesaj idi və Azərbaycanın Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin işləməsi üçün uzun illərdən bəri göstərdiyi səylərin ilk bəhrəsi sayıla bilərdi.

Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi həm də çox mühüm geosiyasi layihədir və Cənubi Qafqaz regionunda, Xəzər bölgəsində Azərbaycanın mövqelərinin möhkəmləndirilməsi üçün yeni imkanlar açır, Ermənistanın beynəlxalq nəqliyyat dəhlizləri ilə bağlı planlarının üzərindən xətt çəkir. Azərbaycan Rusiyanın Cə-

nuba, İranın isə Şimala önünü açmaqla region üçün geosiyasi sabitliyin təmin edilməsi və risklərin aradan qaldırılmasında mühüm rol oynayır.

Azərbaycan İranla nəqliyyat və kommunikasiya sahəsində əməkdaşlığı müsbət qarşılamış, bunları imzaladığı sənədlərdə, əməli fəaliyyətdə də sübut etmişdir. Lakin digər sahələrdə olduğu kimi, nəqliyyat və kommunikasiya sahəsində də İran tərəfi yenə də ambisiya nümayiş etdirmiş, münasibətlərin üstündən xətt çəkərək Azərbaycanın regional güc mənbəyi rolu oynamasını həzm edə bilməmişdir. Deməк ki, İran tərəfi üçün imzalanmış müqavilələrin hüquqi tərəfi və etibarlılığı yoxdur. Təbii ki, regiondan təcrid olunan İran üçün Azərbaycanla əməkdaşlıq daha vacibdir. Çünki Azərbaycan Respublikası İranla münasibətlərə hər hansı ideoloji, irqçi, təzyiq və s. amildən deyil, regional əməkdaşlıq, mehriban qonşuluq prizmasından yanaşmışdır.

**Xəzərin statusu məsələsi**

İnkişaf etməkdə olan siyasi, iqtisadi, mədəni əlaqələrlə yanaşı, iki ölkə arasındakı münasibətlərdə bəzi problemlər də mövcuddur. Sovet İttifaqı dağıldıqdan sonra Xəzər dənizinin statusu, habelə, onun dibi, səthi və orada olan təbii ehtiyatlarla bağlı yeni problemlər ortaya çıxdı: Xəzərdəki ehtiyatlara bütün sahilyanı dövlətlər sahibdir, yoxsa onların arasında bərabər bölünməlidirsə, onda bu, hansı əsasda həyata keçirilməlidir?

Azərbaycan Respublikası Konstitusiyasının 11-ci maddəsinə görə, Xəzər dənizinin (gölünün) Azərbaycana mənsub olan bölməsi Azərbaycan Respublikası ərazisinin tərkib hissəsidir. Karbohidrogen ehtiyatlarına görə Xəzəri İran körfəzi ilə müqayisə etmək olar. Bununla əlaqədar bütün Xəzərətrafı ölkələr dəniz qatlarının öyrənilməsinə və Xəzərdəki sərvətlərin mənimsənilməsinə çalışırlar.

Azərbaycan Respublikası İranla qonşuluq və Xəzər dənizindən istifadə məsələsində əməkdaşlıq prinsipini əsas tutaraq 1994-cü ilin dekabrında neft kontraktındakı payından müəyyən bir hissənin İrana verilməsinə təşəbbüs göstərmişdir. Lakin Azərbaycan Respublikasının bu təşəbbüsü kontrakta qoşulmuş ABŞ və Avropa şirkətləri tərəfindən məqbul hesab olunmamışdır. 1996-cı il "Şahdəniz" və 1997-ci il "Lənkəran-Talış dəniz" kontraktlarının hər birində İranın 10 faizlə istirak etməsinə baxmayaraq, o, yenə də dənizin milli sektorlara bölünməsi haqqında Azərbaycan tərəfin təklifinin əleyhinə çıxmış və İran bu günə qədər də həmin mövqeyində israrlıdır.

Xəzəri milli sektorlara bölmək barədə Azərbaycan tərəfinin təklifindən fərqli olaraq, İran Xəzərin "kondominium" prinsipi, yəni Xəzərin təkindən və səthindən, eləcə də bütün sərvətlərindən bərabər istifadə prinsipi əsasında bölgü aparılması təklifini irəli sürmüşdür. Bu təklif hüquqi, elmi, həm də praktik baxımdan qəbul oluna biləcək təklif deyildir. İran son illərdə Xəzərlə bağlı mövqeyində bir qədər "yumşalmaya" meyil edərək 50/50 bölgü prinsipindən 20 faiz bölgü prinsipinə razı olduğuna dair eyhamlar vurur. Lakin digər Xəzəryanı dövlətlərlə yanaşı, Azərbaycan Respublikası da İranın bu təklifini qəbul etmir.

2001-ci ildə İran hərbi gəmilərinin Xəzərin Azərbaycan sektorundakı neft yatağında işləyən tədqiqat gəmisinə həmlə etməsi, İran qırıcılarının Xəzər dənizi üzərindən sərhədlərimizi pozaraq Bakının yaxınlığına qədər uçması, dəfələrlə Xəzərdə hərbi manevrlər keçirməsi İranın Xəzər dənizinin statusu ilə bağlı addımlarının heç də sülhpərvər olduğunu göstərməmişdir.

Xəzərin statusu məsələsində hər iki ölkənin alim və mütəxəssislərinin iştirakı ilə birgə elmi konfransların, dəyirmi masaların təşkili, müştərək kitabların çapı, alim və mütəxəssislərin mübadiləsi, ekoloq və bioloqların birgə fəaliyyətləri, gəmiçilik, eyni zamanda Xəzərin fauna və florasından birgə istifadə edilməsinin daha da məqsədəuyğun olması əvəzinə, İran Xəzərdə Azərbaycana qarşı əzələ nümayiş etdirir. Halbuki, İranda qurulmuş dövlətlərdə həmişə Azərbaycan sərkərdələri, qoşun başçıları öndə olub, bu gün də İran ordusunda azərbaycanlılar üstünlük təşkil edir. İkincisi də Azərbaycanın hərbi, hərbi-sənaye, hərbi təhlükəsizlik sahəsində əməkdaşlıq əlaqələri ölkələrin bərabərhüquqlu, qarşılıqlı anlaşma, başqa dövlətlərin ərazilərinə qarşı deyil, Azərbaycan ordusunun inkişafına, ərazisinin qorunmasına yönəlmişdir.

İran tərəfinin görülən işləri, atılan addımları, maddi-mənəvi dəyərlərə sahib, yeraltı-yerüstü sərvətlərlə zəngin olan, insan potensialının güclü olduğu Azərbaycanla münasibətləri genişləndirmək əvəzinə sərt mövqe, anti-Azərbaycan mövqeyi tutması heç də İrana başucalığı gətirməyəcək. Yuxarıda qeyd olunan faktlardan da

məlum olur ki, Azərbaycan Respublikası həmişə əməkdaşlığa, birgə layihələrin həyata keçirilməsinə maraqlı olub və bunu əməldə də sübut edib.

**İranda azərbaycanlıların milli hüquqları**

İki ölkə arasında münasibətlərin inkişafına kömək edən amillərdən biri də elmi və mədəni əlaqələrin yaradılıb inkişaf etdirilməsidir. Təhlillər göstərir ki, İranla bu istiqamətdə əlaqələrin inkişaf etdirilməsi hər iki ölkənin milli mənafelərinə tamamilə uyğundur və regionda strateji məqsədləri üçün böyük əhəmiyyət kəsb edir.

Bu əlaqələrin inkişaf etdirilməsi üçün bir sıra saziş və protokolların imzalanmasına baxmayaraq, həmin sənədlər obyektiv və subyektiv amillərin təsiri altında tam gücü ilə işləməmiş, demək olar ki, bir sıra müddəalar kağız üzərində qalmışdır.

İranda yaşayan azərbaycanlıların sayı ilə bağlı bu günə kimi rəqəmlər dəqiq olaraq İran statistikasında verilməmişdir. Çünki İranda əhalinin etnik tərkibi haqqında məlumatlar dəqiq göstərilməmiş, azərbaycanlıların doğma dildə yazmaq, təhsil almaq məsələsi, milli hüquqları, ictimai-siyasi və iqtisadi vəziyyəti, yaşadığı şəhərlər və s. həm Azərbaycan, həm də dünya ictimaiyyətinin diqqətində olmuşdur.

İranda Cənubi Azərbaycanı əyalətlərə bölərək, tarixi yer adlarımızı dəyişərək, sosial-iqtisadi vəziyyəti ağırlaşdıraraq, ana dilindən və milli hüquqlardan və s. məhrum edərək güneylilərə qarşı siyasət həyata keçirmişlər. Belə ki, 1906-cı ildə İranda inzibati ərazi bölgüsü aparılarkən böyük əraziyə malik olan Güney Azərbaycan ölkənin ən böyük əyaləti olan Şimal əyalətinin tərkibinə daxil edilir. Türkiyə Nizami Ordu nümayəndəliyinin 1927-ci ildə tərtib etdiyi "İran Azərbaycanı tətbiq raporu" adlı kitabda Azərbaycanın 12 vilayətə bölünməsi göstərilir. Bundan başqa, 1932-ci ildə Güney Azərbaycanı Şərqi və Qərbi Azərbaycan əyalətlərinə, 1937-ci ilin noyabrında 6 ostana (Azərbaycan ərazisi 3-cü və 10-cu bölgə ilə birlikdə şimal-qərb ostanına daxil edilir), 1937-ci ilin dekabrında 10 ostan və 49 şəhristana, (Zəncan Gilan ostanına, Həmədan isə Kürdüstan ostanına, Ərdəbilin Səfarud adlanan bölgəsi Rəşt şəhristanına, Azərbaycanın mərkəzi Təbriz olmaqla 3-cü ostan olan Şərqi Azərbaycana, mərkəzi Urmiya olmaqla 4-cü ostan olan Qərbi Azərbaycana birləşdirilir), 1938-ci ildə 17 ostana (bölgüdə Zəncan mərkəzi ostana qatılır), 1940-cı illərdə Saqqız bölgəsi Mahabaddan ayırıb Sənəndəc şəhristanına, 1950-ci illərdə əvvəlcə 11, daha sonra 14 ostana (Astara Gilana, Savə Tehrana qatılır), 1960-cı ildə 3-cü və 4-cü Şərqi Azərbaycan və Qərbi Azərbaycan ostanlarına, 1960-1970-ci illərdə 13 ostana, əvvəl 8, daha sonra isə 11 fərmandarlığa (qubernatorluq) və 151 şəhristana (Həmədan və Zəncan əvvəlcə fərmandarlıqlar, 1973-cü ildə ayrıca ostana, 1968-ci ildə isə Ərdəbil şəhristanına aid olan Astara şəhəri də ayrıca ostan olur) bölərək ərazilərimizi hissə-hissə, xalqımızı isə pərən-pərən etmişdilər. Bu siyasət şah zamanında olduğu kimi, İran İslam Respublikası qurulandan sonra da davam etdirilmiş, ölkə əvvəlcə 24, daha sonra isə 28 ostana bölünmüşdür. 1990-cı illərin əvvəllərində Güney Azərbaycan ərazisi əsasən Şərqi Azərbaycan, Qərbi Azərbaycan, Həmədan, Zəncan ostanlarına, 1993-cü ildə Ərdəbil, Qəzvin Zəncan ostanından ayrılaraq ayrıca müstəqil əyalətə çevrilir. İİR-in statistika mərkəzinin 2006-cı ilin hesablamaları üzrə nəşr etdirdiyi "ərazinin və əhalinin ümumi hesablanmasına" əsasən ölkə 30 ostan, 336 şəhristan, 889 bəxş, 2400 dehestan, 1012 şəhər, 63904 kiçik yaşayış mərkəzinə (Güney Azərbaycanın ərazisinə 6 ostan, 62 şəhristan daxil edilir) bölünmüşdür.

Qeyd edək ki, İran İslam Respublikasının Konstitusiyasının XII fəslin 15-ci maddəsində "İran xalqının rəsmi müştərək dili və xətti farsdır. Sənədlər, məktublaşmalar, rəsmi mətnlər və digər kitablar bu dil və xətlə olmalıdır. Lakin yerli və etnik dillərin fars dili ilə yanaşı işlənməsi mətbuat, kütləvi informasiya vasitələri və milli ədəbiyyatın məktəblərdə tədrisində azaddır", XIII fəslin 19-cu maddəsində isə "İran xalqı hansı etnik qrup (qövm) və qəbilədən asılı olmayaraq bərabər hüquqa malikdir, rəng, irq, dil və bu kimi amillər kimsəyə üstünlük (imtiyaz) vermir" deyilsə də, lakin bu günə kimi İranda sayca əhalinin yarısını təşkil edən türklərin və digər xalqların milli hüquqları, mənəvi haqları, ana dili, milli kimliyi, ana dilində təhsil və s. məsələlər həll olunmayıb.

M.Məhəmmədi "Güney Azərbaycan məsələləri" kitabında yazır ki, 1995-ci ildə İran Ali Təhlükəsizlik Şurasının katibi Əli Laricaninin rəhbərlik etdiyi İran dövlət televiziyasının keçirdiyi rəy sorğusu zamanı paylanan anketlərdə

türklər qeyri-adi məxluqlar kimi təqdim olunmuş, onlarla birlikdə yaşamaq və ailə qurmaq məsələsi ictimai rəy predmetinə çevrilmişdi. 2000-ci ildə İran Xarici İşlər Nazirliyi tərəfindən nəşr olunmuş bir kitabda türk sözünün mənası "əl-üzünü yumayan", "tərli və namaz qılmayan" kimi verilmişdi.



2006-cı ilin mayında rəsmi "İran" qəzetində türklərin təhqir kimi karikaturalarda (müəllifi Mana Neyistani) verilməsi Cənubi Azərbaycanda etirazlar yaratmış, milli hərəkatın başlanğıcında yeni mərhələ olmuşdur. Bu hadisələri "milli qiyam" və ya "milli dirçəliş" adlandırmışdılar. Çünki indiki İran Respublikası dövründə də xalqımızın milli-mədəni hüquqlarından, ana dilindən məhrum edilməsi, ana dilində təhsilin qadağan olunması və qeyri-fars millətlərə qarşı şovinist siyasəti aparılır.

İran rəhbərliyi tərəfindən "Azərbaycan İranın başıdır", Azərbaycan "İranın fəxri"dir deyilməsinin şahidi olmuşuq, lakin Cənubi Azərbaycanın sosial-iqtisadi inkişafı, həm də azərbaycanlıların hüquqlarının qorunması yalnız sözlərdə olmuşdur.

Ulu Öndər Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdəki fəaliyyətində dünyada yaşayan azərbaycanlılara, xüsusilə də cənubi azərbaycanlılara həssaslıqla yanaşmışdır. Onun şəxsi təşəbbüsü və qayğısı ilə 1976-cı ildə Azərbaycan SSR-də "Cənubi Azərbaycan" məfhumu həm elmi, həm siyasi termin kimi rəsmiləşdirilmiş, Azərbaycan Yazıçılar İttifaqı, Azərbaycan Radio və Televiziya Verilişləri Komitəsi, AMEA-nın Ədəbiyyat və Şərqşünaslıq institutlarında müvafiq şöbələr təsis edilərək fəaliyyətə başlamışdır. S.Bayramzadə "Heydər Əliyevin azərbaycançılıq ideyasında Güney Azərbaycan" adlı məqaləsində yazır ki, Heydər Əliyevin yeni vəzifəyə təyinatı ilə bağlı Azərbaycan və azərbaycançılıq ətrafında beynəlxalq dairələrdə hay-küyə səbəb olan təbliğat kampaniyalarına rəvac verildi. İran əsilli Mehrdad Azəri adlı müəllif fars dilində çap etdirdiyi "Azərbaycan və istismarçıların yeni nəğmələri" adlı kitabında bu həssas məsələlərə işarə edərək yazırdı: "1982-ci ilin 23 noyabr səhəri BBC radiosunun şərhçiləri SSRİ-nin İran Azərbaycanına da göz dikmələri barədə danışır və Əliyevin iki Azərbaycanın bütövlüyü barədə fikirlərini ortaya qoyurdular. Bu şərhlər zamanı o da deyildi ki, guya SSRİ baş nazirinin müavini keçən ilin yayında Sovet Azərbaycanında olan xarici diplomatlarla görüşü zamanı onlara Sovet Azərbaycanının nailiyyətlərindən danışmış, eyni zamanda İran Azərbaycanındakı geriliyi, yoxsulluğu təəssüf hissilə qeyd etmişdir".

Ümummilli Lider Heydər Əliyev siyasətini uğurla davam etdirən cənab Prezidentimizin "Dünyanın müxtəlif ölkələrində yaşayan qardaşlarımızı, - on milyonlarla qan qardaşlarımızı, - dəstəkləyəcəyik. Təkcə Azərbaycanın hüdudlarından kənarda yaşayan azərbaycanlıların sayı Azərbaycanda yaşayanlardan xeyli çoxdur, bir neçə dəfə çoxdur. Onların təhlükəsizliyi, hüquqları, salamatlığı bizim üçün çox böyük əhəmiyyət kəsb edir. Biz taleyin hökmü ilə dövlətimizdən ayrı düşmüş azərbaycanlıların Azərbaycan dilini, Azərbaycan ənənələrini, Azərbaycan mədəniyyətini qoruyub saxlamaları, azərbaycançılıq prinsiplərinə sadiq olmaları və öz tarixi Vətəni ilə əlaqələri heç vaxt kəsməmələri üçün əlimizdən gələni edəcəyik" fikri bir daha Azərbaycan dövlət başçısının dünya azərbaycanlılarına, o cümlədən cənubdakı soydaşlarımıza diqqətinin əyani sübutudur.

Lakin bütün təqib, təzyiq, həbs, işgəncə və hədələrə baxmayaraq, İrandakı soydaşlarımızın milli qüruru, milli-mənəvi haqları sınmamışdır. Belə ki, hər il ana dilində təhsilin tələbi ilə boykot edilmə kampaniyası, 21 Azərinin (12 dekabr) ildönümü, Beynəlxalq Ana dili Günü, hər il iyulun 6-sı Azərbaycan qəhrəmanı Babək Xürrəminin doğum günü ilə əlaqədar Babək qalasına (Bəzz qalası, Qaradağ mahalının Kəleybər qəsəbəsi yaxınlığında yerləşən qala) yürüş, icazə verilməməsinə və maneələrə baxmayaraq, Xocalı faciəsi ilə bağlı Tehrandakı Ermənistan səfirliyi önündə aksiyaların keçirilməsinə cəhdlər, may hadisələri ilə bağlı Azərbaycanın tanınmış ictimai-siyasi xadimləri ilə əlaqəli mitinq,

nümayiş, yürüş, tədbirlərin keçirilməsi onu bir daha göstərir ki, cənubdakı soydaşlarımızın həmişə milli azadlıq, milli vətənpərvərlik, ana dili uğrunda mübarizə və mücadilələri sönməmiş, bunu şərəflə davam etdirmişlər.

### İran mətbuatında Azərbaycana qarşı yazılar

İran mətbuatında, ayrı-ayrı ictimai və siyasi şəxslərin fikirlərində, yazılarında Azərbaycan Respublikası ərazisinin tarixən "Azərbaycan" yox, "Aran" adlandırılması, 1918-ci ildə Azərbaycan Cümhuriyyətinin yaradılması, Azərbaycan Respublikası ərazisinin tarixən İran ərazisi olması və Rusiya-Qacar müharibələri zamanı Gülüstan və Türkmənçay müqavilələri nəticəsində işğal edilməsi, Azərbaycanın dövlət quruluşu və əlifbasının İslam etiqadlı əhalinin mövqeyini əks etdirməməsi, Azərbaycan Respublikasının İranla düşmən mövqedə olan ABŞ və İsraillə münasibətləri, Azərbaycanda dindarların hüquqlarının pozulması, milli azlıqların hüquqlarının tapdanması və s., Azərbaycanın ayrı-ayrı ictimai-siyasi xadimlərinə qarşı qərəzli, hüquqazidd, reallığı əks etdirməyən məqalələrə və fikirlərə rast gəlirik.

Halbuki, Azərbaycan Respublikası, həmçinin İran və xarici ictimaiyyətin nümayəndələri də bilir ki, əvvəla, Azərbaycanın adı tarixi İran adından da qədimdir, ikincisi AXC 28 may 1918-ci ildə qurulanda İran adında dövlət yox idi, üçüncüsü, Gülüstan və Türkmənçay müqavilələrinə də nəzər yetirdikdə həm ərazi, həm maddi-mənəvi, həm mühacir, həm iqtisadi, sosial haqlar baxımından Azərbaycan xalqı həm bölünmüş, həm də haqları əlindən alınmışdır. Dördüncüsü, Azərbaycan Respublikasının dövlət quruluşu həm İran İslam Respublikasına, həm də dünyaya bəllidir. Azərbaycan işğalçı Ermənistanı öz ərazilərindən çıxarmaqla İrandan fərqli olaraq bütün dünya dövlətləri ilə bərabərhüquqlu əməkdaşlıq əlaqələri qurur, həmçinin Azərbaycan Respublikasının ABŞ və İsraillə münasibətləri heç zaman hər hansı bir üçüncü tərəfə, o cümlədən də İrana qarşı olmamışdır. İranın Ermənistanla əlaqələri isə birbaşa Azərbaycan-İran münasibətlərinə qarşıdır və o, işğalçını dəstəkləmişdir. Lakin İrana qarşı embarqolar qoyulması və blokadada olması ABŞ-ın və digər ölkələrin Azərbaycan ərazisindən İrana qarşı istifadə edilməməsi istiqamətində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin cəsarətli mövqeyi İran rəhbərliyinə məlumdur. Azərbaycan dini quruluşlu dövlət olmasa da, tarixdən məlumdur ki, istər ərəb dili, istər fars dili, istərsə İslam elmlərinin öyrənilməsi, yayılması və inkişafında mühüm rol oynayıb. Azərbaycan xalqı İslamla bağlı inanclarına hər zaman sahib olub, bu gün də bunu davam etdirir. Azərbaycanda milli azlıqların hüquqlarına gəldikdə isə ölkəmizdə bütün etnik azlıqların milli adət-ənənələrinə, inanclarına, hüquqlarına hörmətlə yanaşılıb, bu gün də belədir. Azərbaycanda heç bir dinə, dilə, inanca qarşı ayrı-seçkilik olmamışdır. Yaxşı olardı ki, İran istər Rza şahın dönəmində, istərsə də İslam Respublikası qurulandan sonra əhalisinin bu günə kimi milli hüquqlarının, mədəni-mənəvi haqlarının, milli kimliyinin, insan haqlarının və s. vəziyyətinə nəzər yetirib, Azərbaycan Respublikasındakı vəziyyətlə müqayisə etsin.

### Zəngəzur dəhlizinə münasibət

Zəngəzur dəhlizinin açılması bu gün Rusiya, Türkiyə, İran, Çin, ABŞ və Avropa İttifaqının maraq dairəsində xüsusi əhəmiyyət kəsb edir. Buna görə də, həm Ermənistan, həm də onu dəstəkləyən bəzi dövlətlər və təşkilatlar da artıq başa düşürlər ki, Zəngəzur dəhlizinin açılmasına qarşı hər hansı müqavimət və ya prosesi əngəlləmək və vaxtı uzatmaq cəhdinin mənası yoxdur. Çünki Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı xarici siyasət kursu tam açıq və şəffafdır, beynəlxalq hüquqa, mehriban qonşuluq siyasətinə, region ölkələri arasında inteqrasiyaya əsaslanır. Eyni zamanda, Cənubi Qafqazın lider dövləti olan və müstəqil xarici siyasət yürüdən Azərbaycan Respublikasının Zəngəzur dəhlizi ilə bağlı mövqeyə nail olması da şübhəsizdir ki, artıq reallığa çevrilir. Bundan əlavə, bu il martın 11-də Azərbaycanla İran arasında Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu imzalanıb. Ümumiyyətlə, dəhliz hazırkı İran-Ermənistan sərhədindən 5 km cənubdan keçərək Şərqi Zəngəzur ilə Naxçıvanı birləşdirən dəmiryol sahəsindən, çoxzolaqlı avtomobil şosesindən, elektrik enerji ötürmə xətlərindən, rəqəmsal rabitə və başqa elementlərdən ibarət olacaqdır. Təbii ki, Türkiyə

və Azərbaycan prezidentlərinin bölgədə sülhün tezliklə əldə edilməsinin önəmini vurğulamaları, ikitərəfli dostluq və qardaşlıq münasibətlərinə dair məsələlər və gələcək təmaslar barədə fikir mübadilələri aparmaları bir daha onu sübut edir ki, Türkiyə və Azərbaycan dostluğu, qardaşlığı və müttəfiqliyi regionda sülh və əməkdaşlığın qarantıdır.

İran rəsmilərinin "Zəngəzur dəhlizi bizim qırmızı xəttimizdir" siyasətinin arxasında isə Türkiyə-Azərbaycan birliyi, regionda türk xalqlarının söz sahibi olması, inteqrasiyası və s. qarşı məqsədlər dayanır.

**Qafanda baş konsulluğun açılması**

İranın Qafanda baş konsulluq açması İran diplomatiyasına başucalığı, diplomatik qələbə gətirmədi, regionda oyunçu olmasına təsir etmədi, etməyəcək də. Azərbaycanın regional mövqeyinə, Zəngəzur dəhlizi ilə bağlı atdığı addımlara sadəcə vaxt uzatma, müəyyən maneələr törətdi ki, İranın bu siyasəti Azərbaycan, Türkiyə və digər ölkələr tərəfindən mənfi qarşılandı. Deyərdim ki, bu addım İran diplomatiyasının uğursuz, hesablanmamış, cılız bir addımı idi.

İranın xarici işlər naziri Hüseyn Əmir-Abdullahiyan İrəvanda erməni həmkarı Ararat Mirzoyanla görüşü zamanı "Biz Ermənistanın təhlükəsizliyini İran İslam Respublikasının təhlükəsizliyi və regionun təhlükəsizliyi hesab edirik", İranın Qafanda baş konsulu təyin olunan Morteza Abedin Varaminin "İranın yüksək rütbəli rəsmiləri dəfələrlə bəyan ediblər ki, ölkələrin ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərə hörmət edilməlidir. Ermənistanın təhlükəsizliyi İranın təhlükəsizliyidir. Biz isə çox aydın şəkildə deyirik ki, biz heç bir sərhəd dəyişikliyini rəsmən tanımayacağıq" deməsi İranın Azərbaycanla olan siyasətinə, verdiyi sözlərə, imzaladığı sənədlərə ziddir. Təcavüzkarın yanında olması deməkdir. Bundan başqa, açılış mərasimində Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan, İranın İrəvandakı səfiri Abbas Bədəxşah Zohuri də iştirak etmişdir.

Ümumiyyətlə, regiondakı geosiyasi vəziyyətin təhlili, Azərbaycan və İran xalqları arasındakı etnik, din, dil və mədəniyyət ilişkiləri, çoxəsrlik tarixi ənənələrin mövcudluğu onu deməyə əsas verir ki, Azərbaycan Respublikası özünün xarici siyasətində İran İslam Respublikasına xüsusi yer vermiş, mehriban qonşuluq və faydalı əməkdaşlıq prinsipini əldə əsas tutmuşdur. İki qonşu ölkə arasında əlaqələri daha da inkişaf etdirmək üçün Azərbaycan Respublikasının çox böyük imkanlara malik olması, İranda azərbaycanlıların böyük üstünlük təşkil etməsi, İran coğrafiyasında qurulan dövlətləri məhz Azərbaycan türklərinin qurması (həmin dövlətlərdə heç zaman fars əsilli dövlət başçısı olmamışdır), azərbaycanlıların sosial, iqtisadi, siyasi təfəkkür, yüksək dünyagörüşə sahib olmaları, Azərbaycanın iqtisadiyyatının, təbii sərvətlərinin zənginliyi, dünya dövlətləri ilə münasibətlərinin yüksək səviyyədə olması, hərbi və hərbi sənayesinin inkişaf etməsi, tolerant dövlət olması və s. nəzərə alınmalı, Azərbaycan dövləti və xalqına qarşı qərəzli, kəskin, ziddiyyətli mövqedən çəkinməli, Azərbaycanla hüquq, qanun və mehriban qonşuluq prinsipləri əsasında münasibətlər qurulmalıdır. Çünki Azərbaycan dövləti ötən əsrin 90-cı illərinin Azərbaycanı deyil, Azərbaycan xalqı da, xüsusilə də dünyadakı və güneylilər artıq həminki xalq deyil.

Bu gün Azərbaycan öz xarici siyasətində, hərbi və hərbi təhlükəsizlik sahəsində, sərhədlərinin mühafizəsində, dövlətçiliyinin qorunmasında, bir sözlə, müstəqil Azərbaycan Respublikasının qüdrətlənməsində maraqlıdır. Bu, Azərbaycan Respublikasının siyasətinin əsas prinsipidir. Xüsusilə də Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən, hazırlanan müasir Azərbaycanın dövlətçilik strategiyası Prezident və Ali Baş Komandanı İlham Əliyev tərəfindən xüsusi həssaslıq, nizamlılıq, Azərbaycanın milli maraqlarına uyğun şəkildə davam etdirilir. Çünki dövlət və dövlətçilik bizim qanımızda, canımızda, ruhumuzdadır. Bu baxımdan, İran İslam Respublikası Azərbaycan Respublikasının sərhədlərinin qorunmasına, ordusunun qüvvətlənməsinə, aparılan daxili və xarici siyasətinə hörmətlə yanaşmalı, Azərbaycan Respublikasının və xalqının gücünü nəzərə almalı, öz xarici və daxili siyasətində korrektələr etməlidir.

**"Respublika" qəzeti**
**24, 25, 26 noyabr, 2022-ci il**

# Türklərin İranın ən qədim sakinləri olduğunu toponimlər də sübut edir



Cənubi Azərbaycan toponimlərini araşdırmaq Azərbaycanın dilçi alimlərinin qarşısında duran əsas məsələlərdən biridir. Etnonimlərin leksik-semantik xüsusiyyətlərini araşdırmaq istər dil tarixi, istərsə də müasir ədəbi dil üçün maraqlı faktlar verir. Buna görə də etnonimlər bir onomastik vahid kimi həmişə dilçi alimləri maraqlandırıb. Toponimlər etnik prosesləri özündə daha qabarıq əks etdirən və xalqımızın formalaşmasında rol oynamış bir neçə tayfanın, xüsusilə türkdilli tayfaların və tayfa birləşmələrinin adlarını indiyə qədər qoruyub saxlayan ən etibarlı mənbələrdəndir. Cənubi Azərbaycanda türk mənşəli toponimlərin üstünlük təşkil etməsi, bu ərazidəki qədim adların əsas hissəsinin türk mənşəli leksik vahidlərdən ibarət olması bu fikri əsaslandırmağa imkan verir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi filologiya üzrə fəlsəfə doktoru Aybəniz Həsənova söyləyib. O bildirib ki, İranın rəsmi məlumatlarında və xarici iranşünaslıqda sayca farslardan sonra ikinci xalq sayılan, lakin həm Cənubi, həm də Şimali azərbaycanlıların İranda sayca əksəriyyət hesab etdikləri azərbaycanlılar (İran türkləri) kompakt şəkildə Qərbi və Şərqi Azərbaycan, həmçinin bu ostanlarla qonşu olan Gilan, Tehran, Mərkəzi ostanlarda, iri və xırda adalar halında İranın əksər ostanlarında, xüsusən farsların məskunlaşdığı mərkəzi İran vilayətlərində məskunlaşıblar. Azərbaycanlılar İranda olan 31 ostandan 24-də, farslar isə 17-də yayılıblar.

Güney Azərbaycan ərazisinin bölünməsi təqviminə nəzər salaq, 1937-ci ilin noyabrın 7-də Rza şah Pəhləvi Məclisinin qanununa əsasən, Qacarlar dövründəki əyalətlərin tarixi adları ixtisar olundu və İran ərazisi şimal-qərb, qərb, şimal, cənub, Mekran və şimal-şərq adı ilə 6 ostana ayrıldı. Həmin ilin dekabrında sözügedən bölgüyə yenidən baxıldı. İran ostanları 1-dən 10-a qədər rəqəmlərlə adlandırıldı. Təbriz şəhəri üçüncü ostanın, Urmiya isə dördüncü ostanın mərkəzi oldu. Güney Azərbaycan hüdudları və "Azərbaycan" adı ölkə xəritəsindən tamamilə silindi. Ərdəbil üçüncü ostanın tərkibinə daxil idi. Bu bölgülər 1960-cı ilə qədər davam etdi. Həmin il üçüncü və dördüncü ostanlara Şərqi Azərbaycan və Qərbi Azərbaycan adları verildi.

Bu bölgüdə Azərbaycan şəhərlərindən bəziləri qonşu ostanlara verilsə də, Həmədan fərmandarlıq kimi qaldı. Ərdəbil, Zəncan Şərqi Azərbaycan ostanına daxil oldu. 1994-cü ildə mərkəzi Ərdəbil şəhəri olmaqla Ərdəbil ostanı yaradıldı. Şərqi Azərbaycan ostanının mərkəzi Təbriz şəhəridir. Ostanın mühüm şəhərləri Əhər, Bostanabad, Binab, Təbriz, Sərab, Səhənd, Şəbüstər, Kəlibər, Marağa, Mərənd, Miyanə, Heris, Həştrud, Azərşəhr, Üskü, Culfa, Məlikan, Çaroymaq, Vərzəqan, Şərəfxanə və s. sayılır.

Cənubi Azərbaycanda azərbaycanlılar, kürdlər, tatlar və başqa xalqlar yaşayır. Ölkədə rəsmi dil fars dili olsa da, Cənubi Azərbaycanda yerli əhali əsasən Azərbaycan dilində danışır. Türklər - azərbaycanlıların ulu babaları bu ərazidə təşəkkül tapan ən qədim yerli xalqlardan biridir. Cənubi Azərbaycan ərazisində deyil, bütün İran ərazisində türk mənşəli yer adlarının sayı həddindən artıq çoxdur. Cənubi Azərbaycanda bir çox etnotoponimlər vardır ki, onların əksəriyyəti Şimali Azərbaycan ərazisindəki etnotoponimlərlə səsləşir. Əfşar, Kəngərli, Kosalar, Boyatkənd, Qarabağlar, Xəzər kəndi, Xələc, Quşçu, Qarağaclı, İlxanlar, Qarahacılı, Kosalı, Qaralar, Şamlı, Kotançı, Dəmirçi, Qıpçaq, Abdallar, Qazançı, Qapanlı, Düyərli, Cığatay, Qarasalehli, Qaradağlı, Qaraqoyunlu, İslamlı, Padar, Kəbirli, Qacar, İlxıçı, Səlcuq, Türkmən, Şirvanşahlı, Qarğa, Boyaqçı, Poladlı, Abbaslı, Alpout, Axtaçı, Koxalı, Yəhərçi, Topçu, Dizə, Aydınlı, Şabanlı, Qaravanlı, Qaravəlili və s.

Cənubi Azərbaycanın toponimlər sisteminin araşdırılması nəticəsində elmi faktlarla sübuta yetirilir ki, türklər İranın ən qədim sakinləridir.

# Laura Orucova – 80



AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun Ərəb filologiyası şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Laura Orucova Azərbaycan şərqşünaslığında ərəb dilinin tədqiq sahəsində önəmli yeri olan alimlərdən biridir. O, 1943-cü il iyulun 2-də Bakı şəhərində anadan olub. 1950-ci ildə paytaxtın 151 saylı orta məktəbinin 1-ci sinfinə gedib. Məktəbi bitirdikdən sonra 1960-1965-ci illərdə o vaxtkı Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Şərqşünaslıq fakültəsinin Ərəb şöbəsində təhsil alıb.

Həmin illərdə respublikanın ən mötəbər təhsil ocağında, ən nüfuzlu fakültədə təhsil alan, Laura Orucova dəyərli alim-pedaqoqlardan dərs almış, sonralar tanınmış elm, ictimai xadimlərlə tələbəlik illərini paylaşmışdır – akademik Vasim Məmmədəliyev, Azərbaycan Respublikasının xarici siyasət məsələləri üzrə dövlət müşaviri olmuş diplomat Vəfa Quluzadə, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri olmuş Rafiq Əliyev və başqaları.





İnstitutu bitirdikdən sonra ilk fəaliyyətinə Azərbaycan Dövlət Radiosunda tərcüməçi kimi başlamış, lakin ziyalı ailəsində dünyaya göz açan Laura Orucova çox keçmədən ağır, məsuliyyətli, çox zəhmət tələb edən, nəsillərə miras qalacaq elm yolu ilə addımlamağa qərar verir. Beləcə, 1965-ci ildə Azərbaycan Elmlər Akademiyasının Yaxın və Orta Şərq xalqları İnstitutunun (indiki AMEA Şərqşünaslıq İnstitutu) aspiranturasına qəbul olunmuşdur. Aspiranturanı bitirdikdən sonra 1969-cu il yanvarın 1-dən həmin institutda kiçik elmi işçi vəzifəsində fəaliyyətə başlayıb.

1971-ci ildə «Əz-Zəncaninin «Məbəd fit-Təsrif» əsəri» mövzusunda namizədlik disserta-



siyasını müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsini alıb. 1976-1986-cı illərdə filologiya üzrə elmi dərəcələrin verilməsi üzrə Xüsusi Şuranın elmi katibi olub.

Laura Orucova zəngin elmi yaradıcılığa imza atmış alimlərdəndir. Dissertasiya mövzusu üzrə «Əz-Zəncaninin «Məbəd fit-Təsrif» əsəri» (rus dilində) kitabı 1977-ci ildə «Elm» nəşriyyatında çap olunub. Həmçinin «Развитие арабской филологии в Азербайджане» monoqrafiyasının (Z.Şıxəlibəyli ilə həmmüəlliflikdə), «Ərəb linqvistik terminləri lüğəti»nin (Azərbaycan və rus dillərində), «Azərbaycan-latın-rus-ərəb tibb terminləri lüğəti»nin, 40-a yaxın elmi məqalənin müəllifidir. Bir neçə əsərin redaktoru olub. 2021-ci ildə isə alimin "XVIII əsr Azərbaycanlı alim İbrahim əl-Araşinin dilçilik yaradıcılığı" adlı monoqrafiyası işıq üzü görüb.

Elmi fəaliyyəti ilə yanaşı, L.Orucova zəngin pedoqoji fəaliyyətə də malikdir, məzunu olduğu Bakı Dövlət Universitetində, Ali İctimai Kollecdə uzun illər ərəb dilindən dərs deyib, bu gün ona ustad kimi baxan tələbələri İlkin Əlimuradov, Seymur Əhmədov, Elvüsal Məmmədov, Gülşən Həmidli, Lamiyyə Hüseynova və başqaları onun elmdə yolunu uğurla davam etdirirlər.



Laura Orucova bu gün fəaliyyətini AMEA-nın Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Ərəb filologiyası şöbəsində institutun qocaman alimləri və gənc elmi potensialı ilə çiyin-ciyinə davam etdirir. O, zəngin dilçilik elminin ayrı-ayrı istiqamətləri üzrə gənc alimlərin yetişməsində yaxından iştirak edir, zəngin elmi təscürbəsini usanmadan paylaşır. Dəyərli qocaman alim, pedaqoq Laura Orucovaya can sağlığı, uzun ömür və yeni-yeni elmi uğurlar arzu edirik.

**Xumar Ələkbərova,**
*AMEA-nın Şərqşünaslıq İnstitutunun Ərəb filologiyası şöbəsinin müdiri, f.ü.f.d., dosent*

# Nüşabə Əlizadə - 80



Azərbaycan şərqşünaslığı onun müxtəlif sahələrində eləcə də təhsil sahəsində çalışan yüzlərlə mütəxəssislə təmsil olunmuşdur. Öz vəzifələrini vicdanla, şərəflə yerinə yetirən onların heç də hamısı yüksək vəzifə və dərəcələr əldə etməyə can atmır, lakin bu onların xidmətlərinə və elmi-pedaqoji fəaliyyətlərinin nəticələrinə xələl gətirmir. Peşəkar dairələrdə onlar öz işlərinə münasibətində, savadlılığına və geniş biliyinə, faktların mürəkkəb qarışmasını anlamaq və öz fikirlərini ifadə etmək bacarığına görə yaxşı tanınır və yüksək qiymətləndirilir. Belə alim pedaqoqlardan biri də BDU-nun Orta şərq dilləri və ədəbiyyatı kafedrasının dosenti, filologiya elmləri namizədi Nüşabə Əlizadədir.

Əmək fəaliyyətinə AMEA-nın şərqşünaslıq institutunda başlayan və uzun müddət burada çalışan Nüşabə xanım sonra taleyini BDU ilə bağlamış və burada 30 ilə yaxındır ki, müxtəlif





fənlərdən o cümlədən, fars ədəbiyyatı tarixi, ədəbiyyatşünaslığın nəzəri problemləri, Azərbaycan və İran ədəbiyyatının qarşılıqlı əlaqələri, mənbəşünaslıq, mətnşünaslıq və. s dərs deyir. Nüşabə xanım həm bakalavriat, həm də magistratura pilləsində dərs aparır və pedoqoji işini fəal tədqiqat fəaliyyəti ilə uğurla əlaqələndirir. O öz vəzifəsinə çox məsuliyyətlə, hətta mən deyərdim pedantik şəkildə yanaşır. Üzrlü səbəb olmadan dərsləri buraxdığı, vaxtında hansısa məqalə, rəy, hesabat yazmadığı, əlavə icmal mühazirələri aparmaqdan imtina etdiyi bir hadisəni mən hələ də xatırlamıram. Tələbələrindən də dərslərə eyni münasibəti tələb edir, onların problemlərini araşdırır və hər birinin lazımi tədris materialını mənimsəməsinə çalışır.

Şərqşünaslığa onun yolu hələ ötən əsrin 60-cı illərindən düşmüş və bu yolun başlanğıcında heç şübhəsiz "valideynləri" o vaxtkı ADU-nun tanınmış alim və professorları Mübariz və Zinət xanım Əlizadə durmuşdular.

Şərqşünaslıq elmi sahəsində tanınmış nümayəndələrdən olan Nüşabə Məmməd Mübariz qızı Əlizadənin 80 yaşı tamam olur.

1943-cü ildə Bakı şəhərində anadan olmuş Nüşabə xanım 1950-ci ildə Bakıda öz məzunları ilə şöhrət qazanmış 132 saylı məktəbin I sinifinə getmiş və 1960-cı ildə həmin məktəbi əla qiymətlərlə bitirmişdir. Onun gələcək həyat yolunu seçməsində atası, ali məktəbdə fars ədəbiyyatı fənnindən dərs deyən Mübariz müəllimin böyük rolu olmuşdur. Yüksək şairlik istedadına malik olan Mübariz müəllim fars şairlərindən Ə.Cami, Ə.Firdovsi, M.Bahar, F.Yəzdi, S.Behbəhani, və başqalarının yaradıcılığından seçdiyi şeirləri azərbaycan dilinə tərcümə edər, ailə üzvləri çay süfrəsi ətrafında yığışarkən həmin tərcümələri atalarının ifasında dinləyərdilər. Nüşabə xanım da onları böyük maraqla izləyir, şeirlərində təsvir edilən məzlum xalqın ağır acınacaqlı həyat tərzindən təsirlənər və həmin əsərləri orijinalda oxumaq arzusuna düşərdi. Bu arzu onu Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin fars dili və ədəbiyyatı ixtisasını seçməsinə səbəb oldu.

1960-cı ildə sənədlərini həmin fakültənin fars filologiyası şöbəsinə təqdim etdi, qəbul imtahanlarından yüksək qiymətlər alaraq arzusuna çatdı və 1965-ci ildə həmin ali məktəbi fərqlənmə diplomu ilə bitirdi. Qəbul imtahanında yüksək bal topladığı üçün I kursdan sinif nümayəndəsi təyin olunur. Coşqun tələbə həyatı, dərslərə dəvamiyyət, seminarlarda fəal iştirak, kitabxanalarda seminar mövzularına hazırlaşmaq – bütün bunlar o dövr tələbələrinin aktual məsələləri idi. Elmi Cəmiyyətin üzvü kimi o, müxtəlif mövzularda məqalələr yazır, həmin cəmiyyətin fəal üzvlərindən biri olur. Əla qiymətlərlə oxuduğuna, fakültənin ictimai həyatında fəal iştirakına görə fakültə Elmi Şurasının qərarı ilə əlaçı tələbə kimi Nüşabə xanım M.F.Axundov adına fəxri təqaüdə təqdim edilir.

1963-cü ildə Moskva Dövlət Universiteti Tələbə Elmi Cəmiyyətinin təşkil etdiyi konfransın dəvəti ilə orada məruzə ilə çıxış edir və MDU-nun fəxri fərmanı ilə təltif olunur. Ali



təhsil illərində qazandığı uğurlar Nüşabə xanımı təhsili davam etməyə həvəsləndirmiş və o 1965-ci ildə AEA Şərqşünaslıq İnstitutunda müsabiqədə iştirak edərək "İran ədəbiyyatı" ixtisası üzrə əyani aspiranturasına daxil olur. "Bozorq Ələvinin nəsri" mövzusu üzərində elmi tədqiqat işini 1973-cü ildə müdafiə edərək, SSRİ Ali Attestasiya Komissiyası tərəfindən filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsini alır.

1994-cü ildə Azərbaycan Respublikası Ali Attestasiya Komissiyasının qərarı ilə N.Əlizadəyə Asiya və Afrika xalqları ədəbiyyatı üzrə baş elmi işçi adı, 2004-cü ildə isə dosent elmi adı verilmişdir.

Nüşabə Əlizadə İran ədəbiyyatının nəzəri məsələləri, görkəmli sənətkarlarının həyatı və yaradıcılığı ilə bağlı elmi tədqiqat aparır, Tehran, Təbriz, Moskva, Ankara, Tiflisdə keçirilən elmi-nəzəri konfranslarda məruzələrlə çıxış etmiş, elmi diskussiyalarda fəal iştirak etmişdir. Onun fars ədəbiyyatı sahəsində Qulamhüseyin Saedi, Feridun Tonkaboni, Nasir Xudayar, Sadiq Hidayet, Mahmud Etimadzade, Behazin, Sadiq Çubək, Cəlal Al-e Əhməd, Cəmal Mirsadeqi ilə bağlı tədqiqatları, müxtəlif mövzularda, o cümlədən Sədi Şirazinin "Gülüstan" və "Bustan" əsərləri haqqında, Nəsrullah Mərdaninin "Setiğ-e soxən", "Lahutinin Hindistan yazıçısına məktubu", "İran-Azərbaycan ədəbi əlaqələrində bədii tərcümə", Əbdülhüseyn Nuşinin "Xan və digəran", "İslam inqilabi ərəfəsində İran hekayəsi", Qulamhüseyn Saedinin "Azərbaycan dilində pyesi haqqında", "Firdovsi "Şahnaməsi"nin tərcümələri", "Şəhriyar poeziyası tərcümələrdə", "Simin Behbəhaninin şeirlərinin tərcüməsi", "Nizami irsinə layiqli hədiyyə", "Səməd Behrəngi əsərlərində alleqoriya", "Cəmal Mirsadiqi yaradıcılığında reallığın bədii əksi", "Səməd Behrənginin ictimai-siyasi baxışları" adlı məqalələri var.

Nüşabə xanım Orta Şərq dilləri və ədəbiyyatı kafedrasında bakalavr pilləsi üçün fars ədəbiyyatı fənninin proqramını tərtib etmişdir. Bu fənnin əsasını fakültədə əməkdar elm xadimi filologiya elmləri doktoru, professor Məmməd Mübariz Əlizadə yaratdığı üçün onun adını proqramın həm 2001-ci il, həm də 2008-ci il çapında həmmüəllif kimi göstərilmişdir.

Nüşabə Əlizadənin "Bozorg Ələvinin nəsri" adlı monoqrafiyası 1989-cu ildə, Sədi Şirazinin



"Gülüstan" əsərinin tədrisi adlı metodik vəsait 2003-cü ildə çap olunmuşdur.

O, BDU-nun Şərqşünaslıq fakültəsi elmi şurasının, Milli Elmlər Akademiyası akad.Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.18 dissertasiya şurasının üzvüdür.

Nüşabə xanım BDU rəhbərliyi tərəfindən dəfələrlə fəxri fərmanla, 2019-cu ildə Azərbaycan Respublikasının nazirliyinin "Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)" yubiley medalı ilə, Azərbaycan Respublikası Təhsil Nazirliyinin 24 yanvar 2023-cü il tarixində Azərbaycan Respublikası Qabaqcıl Təhsil İşçisi döş nişanı ilə təltif edilmişdir.

Nüşabə xanımın geniş biliyi, zəngin elmi-pedaqoji təcrübəsi, bir çox məsələlərdə prinsipial və ədalətli mövqeyi, həmçinin həssaslığı, xeyirxahlığı, sadəliyi sayəsində həmkarlarının, çox saylı tələbələrin dərin hörmət və məhəbbətini qazanmışdır. Tələbələri bugün Azərbaycanın bir çox sahələrində çalışırlar və bu yubiley günlərində onların hamısı, həmkarları, əzizləri və dostları ilə bərabər Nüşabə xanımı təbrik edərək ona möhkəm cansağlığı və yeni yaradıcılıq uğurları arzulayırlar.

**Mehdi Kazımov,**
*BDU-nun Orta şərq dilləri və ədəbiyyatı kafedrasının müdiri, f.e.d., professor*

# Şərqşünaslıq İnstitutunda ən yeni tədqiqatlar

AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun əməkdaşları 2022-ci ildə səmərəli elmi fəaliyyət göstərərək, "Şərq ölkələrinin ictimai, iqtisadi, mədəni-tarixi inkişafı və Azərbaycanla əlaqələri" istiqaməti üzrə araşdırmalar aparıb, elmi-tədqiqat planında nəzərdə tutulmuş bütün işləri yerinə yetiriblər.

Elmi-tədqiqat işləri 1 elmi istiqamət, 5 problem çərçivəsində aparılıb. Plan üzrə icra olunan 100 elmi-tədqiqat işindən 57-si 2022-ci ilin sonunda başa çatdırılıb. Qalan işlərin 2022-ci il üçün nəzərdə tutulan hissəsi yerinə yetirilib və növbəti ildə davam etdirilib.

İlk olaraq "Şərq ölkələrinin tarixi, iqtisadiyyatı, ictimai-siyasi vəziyyəti, Şərq ölkələri ilə Azərbaycanın əlaqələri" problemi çərçivəsində tədqiqat aparılaraq tamamlanmış işlərdən bəhs edək.

Bu problem çərçivəsində "İranın xarici-siyasi vəziyyəti, İran-Azərbaycan əlaqələri" mövzusu üzrə aparılan tədqiqatlar sırasında institutun İran tarixi və iqtisadiyyatı şöbəsinin müdiri, t.ü.f.d., dosent Vidadi Mustafayev 2022-ci ildə "İranın ekspansionizm ideologiyası və ya "itirilmiş" torpaqlar məsələsi" mövzusunda işi icra edib. Plan işində İranın qonşu ölkələrə qarşı ərazi iddialarının tarixi, həmin sahədə meydana gəlmiş ədəbiyyat, "itirilmiş" ərazilərin sahələri, ərazi iddialarının əsassızlığı, ideoloji əsasları və hədəfləri araşdırılır.

Həmin şöbənin baş elmi işçisi, t.ü.e.d., prof. Solmaz Rüstəmova-Tohidi 2021-2022-ci illərdə "Qarabağ məsələsi Cümhuriyyət parlamentində və 1918-1920-ci illər İngiltərə, Türkiyə və İranın Cənubi Qafqaz siyasətində" mövzusunda tədqiqat aparıb. Tədqiqat işində Rusiyada çar monarxiyasının süqutundan sonra keçmiş imperiya ərazisində, o cümlədən Cənubi Qafqazda yaşanan siyasi xaos şəraitində erməni millətçiləri və hərbi birləşmələrinin "Böyük Ermənistan" dövləti yaratmaq planlarına uyğun olan Azərbaycan torpaqlarına, o cümlədən Qarabağ bölgəsinə qarşı həyata keçirdikləri silahlı münaqişələr, qiyamlar və müharibələrin tarixi öyrənilir. 10 bölmədən ibarət olan tədqiqatda 1917-1918-ci illərdə birbaşa erməni işğalçıları ilə üzləşmiş Qarabağın müsəlman əhalisinin vəziyyəti, Azərbaycan Cümhuriyyəti yaradıldıqdan sonra Azərbaycan hökumətinin bu işğalın qarşısını almaq üçün gördüyü tədbirlər və onların nəticələri araşdırılır. Qarabağ bölgəsində yerli erməni əhalisinin qaldırdığı qiyamların və bölgənin itirilməsi təhlükəsinə dair Azərbaycan Parlamentində aparılan müzakirələr və qəbul edilən qərarlar, Azərbaycan hökumətinin Parlament qarşısında bu məsələlərə dair görülən tədbirlərlə bağlı verdiyi hesabatlar, yeni yaradılan Qarabağ qubernatorluğunun fəaliyyəti tədqiqatın əsas xəttini təşkil edir. Dövrün sənədləri, o cümlədən erməni mənbələri əsasında yazılmış tədqiqatın nəticəsi kimi Cümhuriyyət Parlamentinin və Azərbaycan dövlətinin apardığı məqsədyönlü siyasətin və Cümhuriyyət Ordusunun ilk Qarabağ savaşında – 1920-ci il aprel qələbəsinin Qarabağın Azərbaycan hüdudlarında saxlanılmasında müstəsna rolu göstərilir.

İran tarixi və iqtisadiyyatı şöbəsinin aparıcı elmi işçisi, t.ü.f.d., dosent Əfşan Şəfiyeva 2020-2022-ci illərdə "İran siyasi elitasının formalaşmasında azərbaycanlı nazirlərin rolu (1925-1979)" mövzusunda plan işini yerinə yetirib. Tədqiqat işi 1925-1979-cu illərdə İranın ictimai-siyasi həyatında mühüm rol oynamış Azərbaycan əsilli nazirlərin fəaliyyətinin araşdırılmasına həsr edilib. Mövzuda bəhs edilən dövrdə İranda ictimai-siyasi vəziyyət və bu proseslərin fonunda Azərbaycan əsilli nazirlərin fəaliyyəti tədqiq olunur. Tədqiqatın əsas istiqamətini İranda yaşayan azərbaycanlı dövlət xadimlərinin ölkənin siyasi, ictimai-mədəni və elmi həyatında rolu və İran siyasi elitasının formalaşmasında göstərdikləri xidmətləri təşkil edir. Tədqiqatın məqsədi 1925-1979-cu illərdə İranda baş verən ictimai-siyasi, sosial-iqtisadi proseslərin gedişində bu sahədə tanınmış azərbaycanlı xadimlərin və ziyalıların İranın elitasının formalaşmasında rolunu və yerini müəyyənləşdirməkdən, bunlara aydınlıq gətirməkdən ibarətdir.

Həmin şöbənin elmi işçisi Sevinc Məmmədova 2021-2022-ci illərdə "İranın AXC-yə qarşı irəli sürdüyü ərazi iddiaları" işini yerinə yetirib. Tədqiqat işi Azərbaycan Xalq Cümhuriyyətinin

müstəqilliyini elan etdikdən sonra İranının AXC-yə qarşı ərazi iddiaları ilə çıxması mövzusunun araşdırılmasına həsr olunub. Mövzuda İranın AXC-ni özünə birləşdirmək və ya başqa sözlə desək, ittifaq adı altında işğalı siyasəti tədqiq olunur. Tədqiqatın əsas istiqamətini AXC müstəqil elan edildikdən sonra mövcud ictimai-siyasi vəziyyəti və İran-Azərbaycan münasibətlərini mənbələr əsasında öyrənilməsi təşkil edir. Tədqiqatın məqsədi İranın AXC-yə qarşı ərazi iddialarında qərəzli mövqeyinin səbəblərini araşdırmaq və mövzuya aydınlıq gətirməkdir.

"Müasir Cənubi Azərbaycanın yeni dövr tarixi (1917-1979)" mövzusunda araşdırmalar sırasında Cənubi Azərbaycan şöbəsinin müdiri, t.ü.f.d., dosent Səməd Bayramzadə 2020-2022-ci illərdə "Cənubi Azərbaycan 1947-1979-cu illərdə (sosial-iqtisadi və siyasi vəziyyət)" adlı işi yerinə yetirib. Tədqiqat işində 21 Azər hərəkatının məğlubiyyətindən İranda şah hökuməti tərəfindən "ağ inqilab" adı altında aparılmış islahatlara qədərki dövrün sosial-iqtisadi və siyasi vəziyyəti araşdırılır, göstərilən illərdə Cənubi Azərbaycanda siyasi mübarizənin nəticəsi torpaq islahatının Azərbaycandan başlanmasına gətirib çıxaran səbəblər real faktlar əsasında açıqlanır. Eyni zamanda Cənubi Azərbaycanda maarif, mətbuat, ədəbiyyat, elm və incəsənət sahələrindəki vəziyyət, bu sahələr üzrə şah hökumətinin həyata keçirdiyi milli şovinist, anti-Azərbaycan və farslaşdırma siyasətinin törətdiyi nəticələr açılıb göstərilir.

Həmin şöbənin aparıcı elmi işçisi, iqt.ü.f.d., dosent Əkrəm Bijenin 2020-2022-ci illər üzrə plan işi "Cənubi Azərbaycanda Milli hökumətin təşkili və fəaliyyəti (12.12.1945-12.12.1946)" mövzusunda olub. Tədqiqat işində 1941-ci il avqustun 25-dən başlayaraq müttəfiq qoşunların İran ərazisinə daxil olması, Cənubi Azərbaycanda faşizmə qarşı mübarizənin genişlənməsi, İran Xalq Partiyasının (Tudə) Azərbaycan əyalət təşkilatının yaradılması və fəaliyyəti, milli azadlıq uğrunda hərəkatın güclənməsi, onun sosial-siyasi zəmini araşdırılır, SSRİ-nin geosiyasi planlarında Cənubi Azərbaycan məsələsi açıqlanır.

Şöbənin aparıcı elmi işçisi, t.ü.f.d., dosent Sübhan Talıblı 2020-2022-ci illərdə "1918-1920-ci illərdə Cənubi Azərbaycanda sosial-iqtisadi vəziyyət, ictimai-siyasi partiya və təşkilatların yaranması və fəaliyyəti" mövzusunda tədqiqat aparıb. Tədqiqat işində Cənubi Azərbaycanda demokratik və milli-azadlıq hərəkatının genişlənməsi, 1920-ci il Təbriz üsyanı və Azərbaycan Milli Hökumətinin fəaliyyəti araşdırılaraq göstərilən dövrdə Cənubi Azərbaycanda xalq hərəkatı, onun məzmun və hədəfləri, qonşu dövlətlərə təsiri və Osmanlı dövlətinin Azərbaycandakı milli-azadlıq hərəkatına münasibəti məsələləri nəzərdən keçirilir.

Şöbənin aparıcı elmi işçisi, f.ü.f.d., dosent Yeganə Hacıyeva 2020-2022-ci illərdə "1978-1979-cu illər İran inqilabı və Cənubi Azərbaycan" mövzusunda araşdırma aparıb. Tədqiqat işində 1978-1979-cu illər İran inqilabı dövründə Cənubi Azərbaycanda inqilabi şəraitin yetişməsini şərtləndirən amillər araşdırılır. Eyni zamanda, işdə 1977-ci ilin sonunda etiraz nümayişlərinin ziyalılar və tələbələrdən ibarət demokratik düşüncəli və mütərəqqi təbəqələrin iştirakı ilə başlanmasına, dünyəvi müxalifət qüvvələrinin təqib və repressiyaya məruz qalması nəticəsində şiə ruhanilərin fəaliyyətinin güclənməsinə diqqət çəkilir. Qeyd edilir ki, Təbrizdə 29 bəhmən üsyanı inqilabın başlanmasında İran cəmiyyətini silkələyərək şah rejiminə qarşı nifrəti daha da alovlandırıb.

Şöbənin böyük elmi işçisi, t.ü.f.d. Həsən Səfəri 2020-2022-ci illərdə "Birinci dünya müharibəsindən sonra Cənubi Azərbaycanda sosial-iqtisadi və siyasi durum" mövzusunu araşdırıb. Tədqiqat işinin əsas məqsədi bu gün ermənilərin ciddi-cəhdlə azərbaycanlıların öz qədim əraziləri olan İrəvan şəhərindəki bütün maddi-mədəniyyət izlərini, tarixi abidələrini silməyə cəhd göstərərək monoetnik erməni şəhəri yaratmağa çalışdıqları bir dövrdə əslən İrəvandan olan böyük Azərbaycan alimlərini və onların əsərlərini tanıtmaqdır. Azərbaycanın ən qədim elm və mədəniyyət mərkəzlərindən biri olan İrəvan şəhərində doğulub boya-başa çatmış yüzlərlə elm, mədəniyyət və din xadimi dəyərli əsərləri ilə təkcə Qafqaz xalqlarına deyil, bütünlükdə islam dünyasına öz töhfəsini vermişdir. Onların əsərləri dünyanın müxtəlif kitabxanalarında, arxivlərində və muzeylərində qorunub saxlanılır. Tədqiqatda əslən İrəvandan olan "İrəvani" soyadı ilə məşhur olan onlarla görkəmli islam alim və fəqihlərinin elmi, şəxsiyyəti, islam aləminə verdiyi dəyərli əsərləri təhlil edilərək onların elmi-nəzəri metodları öyrənilir. Eyni zamanda Qafqazda dini təhsil sahəsində İrəvan məktəbi-

nin rolu və xarakterik xüsusiyyətləri xüsusi vurğulanır.

"Türkiyənin siyasi və iqtisadi tarixi və Türkiyə-Azərbaycan siyasi-iqtisadi münasibətlərinin öyrənilməsi" mövzusunda araşdırmalardan Türkiyə tarixi və iqtisadiyyatı şöbəsinin aparıcı elmi işçisi olmuş, ötən ildən şöbəyə rəhbərlik edən t.ü.f.d. Namiq Məmmədovun 2021-2022-ci illərdə işlədiyi "2002-2015-ci illərdə Türkiyədə dövlət idarəetmə sistemi və demokratikləşmə prosesi" işini xüsusi qeyd etməyə dəyər. Tədqiqat işində 2002-2015-ci illərdə Türkiyədə həyata keçirilən dövlət idarəetmə sistemi və demokratikləşmə prosesi təhlil olunur və qeyd edilir ki, Türkiyədə bu dövr dövlət idarəetməsi sahəsində həyata keçirilən əhəmiyyətli islahatlarla, eyni zamanda demokratikləşmə prosesi ilə xarakterizə olunur. Ədalət və İnkişaf Partiyasının dövlət idarəetmə sistemi sahəsindəki islahatları ümumilikdə Türkiyədə həyata keçirilən demokratik islahat hərəkatı prosesinin bir hissəsini təşkil edir. Tədqiqatda Türkiyənin dövlət idarəetmə sistemi və demokratikləşmə sahəsindəki islahatların həyata keçirilməsinin hüquqi-siyasi əsasları və cəmiyyətin inkişafına təsirləri də ətraflı şərh edilərək araşdırılır.

Həmin şöbənin böyük elmi işçisi, t.ü.f.d. Yaxşıxanım Nəsirova 2021-2022-ci illərdə "Azərbaycan tarixinin xanlıqlar dövrünə aid Osmanlı arxiv sənədləri" mövzusunda tədqiqat aparıb. Tədqiqat işində Türkiyə Respublikası Başbakanlık Osmanlı Arxivində saxlanılan Azərbaycanın tarixinə dair əlyazma sənədlər araşdırılır. Plan işi çərçivəsində XVIII əsrin sonundan etibarən tarixi Azərbaycan ərazilərində mövcud olmuş bir sıra xanlıqların Osmanlı sarayı ilə qarşılıqlı məktublaşmaları, həmin dövrə aid Osmanlı sarayı məmurlarının tərtib etdiyi hesabat xarakterli osmanlı türkcəsində yazılmış sənədlərin transliterasiyası verilib, mətnlər Azərbaycan dilinə tərcümə edilib və müvafiq izahlar göstərilib.

Şöbənin elmi işçisi Hüseyn Günəşli 2021-2022-ci illərdə "Türkiyənin milli təhlükəsizlik məsələsi və terrorizmə qarşı mübarizə" mövzusunda araşdırma aparıb. Tədqiqatda XXI əsrdə beynəlxalq terrorizmin dünyada yayılmasının başlıca səbəbləri araşdırılır və qeyd edilir ki, bir sıra dövlətlərin böyük xərclər tələb edən müharibələrin yerinə daha az xərc tələb edən psixoloji müharibələrə, o cümlədən, terrorizmə üstünlük verməsi onun müasir dövrdə qlobal təhdidə çevrilməsinə təkan verir. Araşdırmada insanların terror qruplarına rəğbət bəsləməsinə səbəb ola biləcək sosial, mədəni, iqtisadi və siyasi səbəblər əsasında terrorizmi yaradan səbəblər təhlil olunmuşdur.

Şöbənin böyük elmi işçisi Mirzə Ənsərli 2021-2022-ci illərdə "XIX-XX əsrin əvvəllərində Osmanlı imperiyasında Çar Rusiyasının diplomatik nümayəndəliyinin və hərbi kəşfiyyatının fəaliyyəti" mövzusunu araşdırıb. Tədqiqat işində Böyük Moskva knyazlığının (1263-1547), Çar Rusiyasının (1547-1721) və Rusiya imperiyasının (1721-1917) səfir və diplomatik nümayəndələrinin Osmanlı imperiyasında fəaliyyəti araşdırılır. Bununla yanaşı Osmanlı imperiyasında Çar Rusiyasının hərbi kəşfiyyatının fəaliyyəti ilə əlaqədar materiallar tədqiqata cəlb edilib. Həmçinin, bu dövrdə Osmanlı imperiyasında fəaliyyət göstərmiş Rusiya səfirləri, diplomatik və hərbi kəşfiyyat nümayəndələri haqqında məlumatlar təqdim olunur.

"Ərəb müsəlman dünyasında tarixi təkamül və sosial-siyasi transformasiyalar prosesində Azərbaycanla əlaqələrin tədqiqi" mövzusunda işlər sırasında Ərəb ölkələri tarixi və iqtisadiyyatı şöbəsinin müdiri, t.ü.f.d., dosent Fərda Əsədov 2020-2022-ci illərdə "Xəzər xaqanlığı tənəzzül dövründə: siyasi idarəetmə və din siyasəti böhranı (IX əsrin sonu – X əsrin ortaları)" mövzusunda tədqiqat aparıb. Araşdırma xəzərlərlə ərəblərin hərbi qarşıdurmasından sonrakı iqtisadi-ticari tərəfdaşlığının əsaslarına və bu əməkdaşlığın əsasında duran amillərə həsr olunub. Xilafətdə mərkəzdənqaçma meyllərinin artması və yerli sülalələrin iqtisadi və siyasi iddialarının qalxması əsas səbəblərdən biri kimi qeyd edilir. Tədqiqatda vurğulanır ki, daxili durumdan irəli gələn səbəblər ticari tərəfdaşlığın zəifləməsinə səbəb olur, xaqanlığın iqtisadi imkanlarını daraldır, nəticədə isə ordu və Xəzər ölkəsinin tayfaları üzərində mərkəzi hökumətin nəzarəti zəifləyir.

Həmin şöbənin böyük elmi işçisi, t.ü.f.d. İsmayıl Əsədov 2021-2022-ci illərdə "Suriya böhranının nizamlanmasında Rusiya və Türkiyə əməkdaşlığının əhəmiyyəti" mövzusu üzərində çalışıb. Araşdırmada qeyd edilir ki, Suriya böhranının fəsadlarının aradan qaldırılmasında iştirak edən iki böyük dövlət – Rusiya və Türkiyə – ilk mərhələdə rəqib olsalar da, sonrakı dönəmdə

siyasətlərini uzlaşdırmağa başlamışlar. Tədqiqatda həmçinin Suriyada gedən proseslərə təsir göstərən, lakin başqa bölgələrdə sərgilənən Rusiya-Türkiyə münasibətlərindən bəhs edilir. Araşdırmada Suriyada aparılan əməkdaşlıq təcrübəsinin başqa bölgələrdəki hadisələrə təsirləri də təhlil edilir.

İnstitutun Beynəlxalq əlaqələr şöbəsinin müdiri t.ü.f.d. Gülər Qafqazlı 2021-2022-ci illərdə "Məmlük dövrü ərəbdilli mənbələrdə Osmanlı-məmlük hərbi-siyasi münasibətləri" mövzusunda plan işində əsasən ərəb mənbələri üzərində araşdırma aparıb. Burada XIV əsrdən başlayaraq Osmanlı dövləti və Məmlük dövləti arasında ilk münaqişənin başladığı Aralıq dənizi üzərindəki nəzarəti və hakimiyyəti ələ keçirmək üçün yaranan münasibətdən başlayaraq daha sonrakı problemlərə qədər məsələlər tədqiq edilir. Plan işində Kipr adası, Hicaz yolları üstündə hər iki dövlət arasında baş qaldıran narazılıqlar ayrı-ayrılıqda işıqlandırılır.

Ərəb ölkələri tarixi və iqtisadiyyatı şöbəsinin elmi işçisi Samid Bağırov 2021-2022-ci illərdə "İkinci Qarabağ müharibəsi və müsəlman dünyası" mövzusunu araşdırıb. Araşdırma ikinci Qarabağ müharibəsi zamanı müsəlman hökumətlərinin rəsmi bəyanatları və münasibətləri, ölkələrdəki KİV xəbərləri və şərhlərinin təhlili üzərində qurulub. Hadisələrə, Azərbaycan xalqının ədalətli mübarizəsinə münasibətlərin formalaşmasına təsir göstərən obyektiv və subyektiv amillər müəyyən edilir. Müsəlman dünyasının beynəlxalq təşkilatlarının müharibə ilə əlaqədar fəallığı təsvir edilir, qəbul edilmiş qərarların və mövqe açıqlamalarının əhəmiyyəti səciyyələndirilir.

Şöbənin elmi işçisi Orxan Nəcəfov 2021-2022-ci illərdə "Suriya böhranında din və məzhəb münasibətlərinin rolu" mövzusunda tədqiqat işində siyası və iqtisadi kökləri olan Suriya böhranında din və məzhəb münasibətlərinin əhəmiyyəti məsələlərinə toxunur, sosial etiraz hərəkatının hansı səbəbdən və nə cür tədricən əqidə mübarizəsi formasını almağı müəyyən edir. Eyni zamanda İslamda müxtəlif cərəyanların Suriya böhranında nə qədər yer alması və onların arasında münasibətlər xarakterizə edilir.

"Asiya-Sakit Okean regionu ölkələrinin geosiyasi vəziyyətinin tədqiqi" mövzusu çərçivəsində görülən işlər sırasında Asiya-Sakit Okean regionu ölkələri şöbəsinin müdiri, f.ü.f.d. Zenfira Şıxəlibəyli 2020-2022-ci illərdə "XXI əsrdə Çin Xalq Respublikası dünya siyasi arenasında: problemlər və perspektivlər" işi üzərində çalışıb. Son onilliklərdə Çinin genişlənən iqtisadi imkanlarının onu beynəlxalq müstəvidə də söz sahibinə çevirdiyinin şahidi oluruq. Bu baxımdan XXI əsrdə ÇXR-nın dünya siyasətində qarşılaşdığı problemlər və perspektivlər maraq doğuran məsələlərdən biridir. ÇXR rəhbərləri dəfələrlə bildirmişlər ki, ölkə iqtisadiyyatı qarşısında başlıca məsələ dünyanın inkişaf xəttini əsas götürməkdir. Bütün ölkələrlə dinc münasibətlərə əsaslanan sülhməramlı əməkdaşlıq ölkə iqtisadiyyatının başlıca tələblərindən biridir. Bu baxımdan üç fəsildən ibarət olan tədqiqat işində Çinin müasir dövr tarixinə nəzər salınır, XXI əsrdə ictimai-siyasi inkişafı araşdırılır və dünya siyasi arenasında fəaliyyəti tədqiq edilir.

Şöbənin aparıcı elmi işçisi, c.ü.f.d. Rafiq Abbasov 2020-2022-ci illərdə "Azərbaycan-Çin əlaqələrinin inkişafında Ümummilli Lider Heydər Əliyevin rolu" mövzusunda tədqiqat aparıb. Tədqiqat işi Ümummilli Lider Heydər Əliyevin Azərbaycan və Çin arasındakı çoxşaxəli əməkdaşlıq və dostluq əlaqələrinin inkişafı istiqamətində fəaliyyətindən bəhs edir. Plan işi üç mərhələdən ibarətdir. Birinci mərhələdə Azərbaycan-Çin siyasi əlaqələri, ikinci mərhələdə Azərbaycan-Çin arasında iqtisadi əlaqələr və üçüncü mərhələdə isə Azərbaycan-Çin arasında diplomatik əlaqələrinin inkişafında Heydər Əliyevin rolu araşdırılır.

Şöbənin kiçik elmi işçisi Afaq Nərimanova 2021-2022-ci illərdə "Yaponiyanın ASEAN ölkələri ilə siyasi və geostrateji əməkdaşlığı" mövzusunda plan işini yerinə yetirib. Tədqiqat işi 1990-cı illərdən başlayaraq bu günümüzədək Yaponiyanın region ölkələrinin hərtərəfli inkişafı üçün siyasət və təhlükəsizlik, iqtisadiyyat, eləcə də sosial və mədəni əlaqələr sahəsində ASEAN ölkələri ilə geostrateji əməkdaşlığını gücləndirməsindən, Cənub-Şərqi Asiya regionunda öz mövqeyini genişləndirməsindən bəhs edir. Plan işi iki mərhələdən ibarətdir. Birinci mərhələdə 1991-1999-cu illərdə Yaponiya dövləti ilə ASEAN ölkələri arasında siyasi və iqtisadi əlaqələrin inkişafı, ikinci mərhələdə Yaponiya və ASEAN ölkələrinin XXI əsrdə inkişaf konsepsiyaları araşdırılır.

Şöbənin kiçik elmi işçisi Əzizə Gülümcanlı 2022-ci ildə "Sinqapurun təhsil modeli" işini yerinə yetirib. Plan işində Sinqapur və onun

dünyaca geniş yayılmış təhsil sistemi haqqında məlumatlar öz əksini tapır. Sinqapurda təhsilin inkişaf etdirilməsi üçün ölkə rəhbərliyinin həyata keçirdiyi genişmiqyaslı islahatlar və bu islahatların nəticəsi olaraq ölkədə təhsilin inkişafının necə müsbətyönlü dəyişikliyə doğru gedişatı plan işinin əsas mətnini təşkil edir. Sinqapur təhsil sistemi modelinin digər ölkələr, o cümlədən Azərbaycan tərəfindən də mənimsənilməsi məsələlərinə plan işində geniş yer verilir.

Şöbənin kiçik elmi işçisi Nərmin Məmmədova 2021-2022-ci illərdə apardığı "Azərbaycan və Çin dillərində rəng bildirən sözlərin müqayisəli tədqiqi" mövzusunda tədqiqat işində Çin və Azərbaycan dillərində qırmızı, sarı, yaşıl, ağ, qara və mavi rəng bildirən sözlərin mədəni konnotasiyalarını müqayisə və təhlil edib. Hər bir rəng bildirən sözün müsbət, mənfi və neytral mədəni konnotasiyalarının araşdırılması nəticəsində, iki dildə və mədəniyyətdə eyni rəng bildirən sözlərin coğrafi məskunlaşma, mədəni adətlər, dini inanclar və digər elementlərin təsiri ilə fərqli mənalar daşıdığı məlum olur. Plan işində Çin dilini öyrənən azərbaycanlı tələbələrin bu dildə rəng bildirən sözləri mənimsəməsi prosesində yaranan çaşqınlıqlar araşdırılıb, bunun səbəblərini anlamaq üçün anket və müsahibələrdən istifadə olunub. Eyni zamanda azərbaycanlı tələbələrin Çin dilində rəng bildirən sözlərin mənimsənilməsində yol verdiyi səhvlərin növləri müzakirə edilib və təsnif olunub.

"Mərkəzi Asiya ölkələrinin sosial-iqtisadi inkişafının aktual problemləri" mövzusunda aparılan tədqiqatlar sırasında Mərkəzi Asiya ölkələri şöbəsinin müdiri, i.ü.e.d. Dünyamalı Vəliyev 2021-2022-ci illərdə "Azərbaycan Mərkəzi Asiya ölkələrinin İpək Yoluna qoşulmasında önəmli faktor kimi" mövzusunda plan işini yerinə yetirib. Çinin İpək Yolu layihəsi bütün Asiya qitəsini Avropa ilə birləşdirmək məqsədi daşıyır. Bu məqsədlə artıq bir neçə il ərzində həm Cənub-Şərqi Asiya ölkələri, həm də Cənubi Qafqaz ölkələri əsasən Azərbaycan və Gürcüstan olmaqla Çinlə ticarət yollarına aid olan bir sıra müqavilələr imzalayıb. Hazırda Azərbaycan Çinin təşəbbüsü ilə gerçəkləşən "İpək Yolu iqtisadi kəməri" layihəsinin iştirakçısıdır. 2015-ci ilin dekabrında Prezident İlham Əliyevin Çinə dövlət səfəri çərçivəsində "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviq edilməsi barədə Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında qarşılıqlı anlaşma memorandumu imzalanıb. Tədqiqat işinin 1-ci mərhələsində tarixi İpək Yolunun bərpası, Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin ona qoşulmaqlarına ümumi bir baxış verilir, 2-ci mərhələsində isə tədqiq olunan məsələnin gələcək perspektivləri araşdırılır.

Həmin şöbənin aparıcı elmi işçisi, h.ü.f.d., dosent Rauf Qarayev 2021-2022-ci illərdə "Azərbaycan, Mərkəzi Asiya və Yeni Böyük İpək Yolu" mövzusunda tədqiqat aparıb. Tədqiqat işində Azərbaycan, Mərkəzi Asiya ölkələri və bir sıra digər ölkələrin ərazisindən keçən Yeni Böyük İpək Yolu konsepsiyasının nəzəri və praktiki aspektləri elmi cəhətdən araşdırılır. Böyük İpək Yolunun bərpa edilməsi konsepsiyasının həyata keçirilməsində qarşılıqlı əlaqələrin və əməkdaşlığın tədqiq edilməsi böyük elmi əhəmiyyətə malikdir. Tədqiqatda bu konsepsiyanın həyata keçirilməsi ilə əlaqədar yeni durumun formalaşması və bu prosesdə Azərbaycan, Gürcüstan Türkiyə və Mərkəzi Asiya regionu ölkələrinin rolu və yerinin müəyyən edilməsinə nəzəri cəhətdən xüsusi diqqət yetirilir. Belə ki, Qərb, Şərq, Şimal və Cənub ölkələri arasında əsas nəqliyyat və logistika dəhlizləri məhz bu regionda yerləşən ölkələrin ərazilərindən keçir. Elmi-tədqiqat işində həm bu region ölkələrinin, həm də ABŞ, Rusiya və Çin kimi fövqəldövlətlərin bu strateji baxımdan əhəmiyyətli regionda üstünlük və nüfuz mübarizəsində əsas geosiyasi maraqları araşdırılır. 44 günlük II Qarabağ müharibəsində Azərbaycanın qələbəsi bu problematikanı daha da aktuallaşdırıb və bu istiqamətdə yeni imkanlarını həyata keçirilməsi üçün şərait yaradıb.

Şöbənin aparıcı elmi işçisi, f.ü.f.d., dosent Təranə Həşimova 2020-2022-ci illərdə "Müstəqillik dövründə Azərbaycan-Özbək mədəni əlaqələri" mövzusunda araşdırma aparıb. Tədqiqat işində müstəqillik dövründə Azərbaycan və Özbəkistan respublikalarının mədəni əlaqələrindən bəhs olunur. Mədəni əlaqələr istiqamətində xüsusilə, ədəbi əlaqələr, milli məsələlər kontekstində ortaq inkişaf xüsusiyyətləri, ədəbi əlaqələrin ən səmərəli qollarından hesab olunan tərcümə problemləri araşdırma obyektinə çevrilmişdir. Xalqlarımız arasında orta əsrlərdən bəri səngimədən davam edən hərtərəfli, o cümlədən mədəni münasibətlər müxtəlif səbəblərdən formasını dəyişsə də, məzmun etibarilə öz istiliyini qo-

rumuş və günümüzə daşımışdır. Əməkdaş və tərəfdaş olan ölkələrimizin müasir mədəni-ədəbi əlaqələri müstəqillik dövrü mərhələsini yaşayır. Ölkəmizin Prezidenti Cənab İlham Əliyevin Türk dünyasının inteqrasiyasının gücləndirilməsi istiqamətli xarici siyasətində Azərbaycan-Özbəkistan münasibətlərinin inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb edir. İmperiya buxovlarından azad olan xalqlarımızın ədəbiyyatları da azad bir şəkildə yaranıb, inkişaf etməkdədir. Yaşanan ictimai-siyasi proseslərə, qan-gen, dil birliyinə söykənən münasibətlər ədəbiyyatlarımızda da ortaq inkişaf xüsusiyyətlərini yaradıb. Araşdırmanın əsas mövzusunu müasir dövrdə Azərbaycan-özbək mədəni-ədəbi əlaqələri, milli mövzular əsasında ortaq inkişaf xüsusiyyətləri, son dövrdə qarşılıqlı bədii tərcümə məsələləri ehtiva edir.

Şöbənin elmi işçisi Hülya Aslanova 2021-2022-ci illərdə "Mərkəzi Asiya ölkələri və müsəlman dünyası" mövzusunu araşdırıb. Tədqiqat işində Mərkəzi Asiya ölkələri və müsəlman dünyası qarşılıqlı şəkildə elmi-nəzəri baxımdan araşdırılır. İş iki mərhələdən ibarətdir. Birinci mərhələdə Mərkəzi Asiyanın VII-VIII əsrlərdə İslam dinini yaymaq məqsədilə Ərəb Xilafətinə daxil edilməsi, İslam dininin bu torpaqlarda yayılması, ikinci mərhələdə isə, müstəqillik dövründən sonra Mərkəzi Asiya ölkələrinin müsəlman dünyasında yeri və rolu araşdırılır.

Şöbənin elmi işçisi Dilbər Hüseynlinin 2021-2022-ci illərdə "Azərbaycan və Qazaxıstan Respublikaları arasında münasibətlərin müasir vəziyyəti və inkişafı" mövzusunda apardığı tədqiqat işində Azərbaycan və Qazaxıstan Respublikaları arasında münasibətlərin müasir vəziyyəti və inkişafı elmi-nəzəri baxımdan araşdırılır. İş iki mərhələdən ibarətdir. Birinci mərhələdə beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan və Qazaxıstan Respublikalarının əməkdaşlığı araşdırılır və beynəlxalq layihələrin həyata keçirilməsində iki ölkənin rolu tədqiq edilir. "Azərbaycan-Qazaxıstan münasibətlərinin siyasi-strateji istiqamətləri" adlanan ikinci mərhələdə isə hər iki ölkənin bir-birinin siyasi həyatında yeri və rolu araşdırılır.

Şöbənin elmi işçisi Aysel Vəliyevanın 2021-2022-ci illərdə apardığı "Ortaq Türk dili problemi – Mərkəzi Asiya ölkələri kontekstində" mövzusunda tədqiqat işində türk dünyasının ümumi problemi olan ortaq dil məsələsi və ortaq əlifba ehtiyacından, Türkiyə türkcəsinin Mərkəzi Asiya ölkələrinin dilinə təsirindən bəhs edilir. İş iki mərhələdən ibarətdir. Birinci mərhələdə türk dünyasının ortaq dilinin yaradılması məsələsinə toxunulur, türkdilli millətlərin ortaq əlifba ehtiyacı ilə bağlı məlumat verilir. İkinci mərhələdə isə türkcənin Mərkəzi Asiya türk mədəniyyətlərində mövcud vəziyyəti və Türkiyə türkcəsinin Mərkəzi Asiya ölkələri dilinə ümumi təsirindən bəhs edilir.

"Şərq filologiyasının, Şərq ölkələri ilə Azərbaycanın filoloji əlaqələrinin tədqiqi" problemi çərçivəsində institutda də dəyərli tədqiqatlar aparılıb. "İran filologiyası və Azərbaycanın farsdilli ədəbi-mədəni irsinin tədqiqi" mövzusunda araşdırmalar sırasında İran filologiyası şöbəsinin müdiri, f.ü.f.d. Məsiağa Məhəmmədinin 2021-2022-ci illərdəki "İranda Qarabağa dair araşdırmalar (1991-2021)" araşdırması diqqəti çəkir. Tədqiqat işində otuz il ərzində – Azərbaycanın müstəqillik əldə etməsindən İkinci Qarabağ Müharibəsinə qədər İran İslam Respublikasında Qarabağla bağlı işıq üzü görən araşdırmalar nəzərdən keçirilir. Tematika baxımından haqqında danışılan araşdırmalar tarixi-mədəni və siyasi-analitik xarakterli olmaqla iki hissədə qruplaşdırılıb və müvafiq fəsillərdə təhlil edilib. Bununla da İran elmi fikrində, siyasi düşüncəsində və ictimai rəyində Qarabağa, özəlliklə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə münasibətin başlıca cəhətlərinin aydınlaşdırılmasına cəhd göstərilib.

2022-ci ildən həmin şöbənin müdiri olan, f.ü.f.d., dosent Günay Verdiyevanın 2021-2022-ci illərdə "Azərbaycan və fars dillərində alınma sözlər və onların sözyaradıcılığı prosesində rolu" mövzusunda tədqiqat işində müasir mərhələdə hər iki dildə mövcud olan alınma sözlər araşdırılır. İş iki mərhələdən ibarətdir. Birinci mərhələ "Azərbaycan və fars dillərində alınma sözlər və onların xüsusiyyətləri" adlanır. Burada müasir fars və Azərbaycan dillərində alınma sözlər və onların xüsusiyyətləri təhlil olunur. Qeyd olunur ki, hər iki dildə həm ərəb, həm də Avropa dillərindən alınma sözlər mövcuddur. İkinci mərhələ "Azərbaycan və fars dillərində alınma sözlər və terminlərin sözyaradıcılıq prosesində rolu" adlanır. Burada müasir fars və Azərbaycan dillərinin leksikasına daxil olan alınma sözlər və həmçinin terminlər (texniki, tibbi, bioloji, ictimai-siyasi və s. terminlər) haq-

qında bəhs olunur. Bundan başqa, Azərbaycan dilində mövcud olan elmi terminologiya tədqiqata cəlb olunur, fars dili ilə paralellər aparılır. Araşdırma nəticəsində belə bir qənaətə gəlinir ki, həm fars, həm də Azərbaycan dilinə keçmiş alınma sözlərin bir çox hissəsi burada düzəltmə və mürəkkəb sözlərin tərkib hissəsi olaraq fəal şəkildə sözyaradıcılıq prosesində iştirak edirlər.

Şöbənin böyük elmi işçisi, f.ü.f.d., dosent Rəna Rzayeva 2021-2022-ci illərdə "Munisnamə" sufizmə dair mənbə kimi" mövzusu üzərində çalışıb. Tədqiqat işi Şərq filologiyasının qiymətli ədəbi abidələrdən olan XII əsr müəllifi Əbubəkr ibn Xosrov əl-Ustadın "Munisnamə" əsərinin tədqiqinə həsr olunub. İş iki mərhələdən ibarətdir. Birinci mərhələ "Munisnamə"nin sufizmə dair fəsillərinin təsəvvüf tarixi, nəzəriyyəsi və praktikası baxımından tədqiqi" adlanır. Burada əsərin ana xətti olan təsəvvüfün xüsusiyyətləri təhlil olunur. Qeyd olunur ki, sufizmin dini-fəlsəfi bir təlim kimi formalaşmasında iki böyük məktəbin – Bağdad və Xorasan məktəblərinin müstəsna rolu olub. Belə ki, ünlü təriqət başçılarının və tanınmış təsəvvüf və irfan öncüllərinin bir çoxu məhz bu məktəblərin yetirmələridir. İkinci mərhələ "Munisnamə"nin sufizmə dair fəsillərinin Hücvirinin "Kəşfül-məhcub" və Əttarın "Təzkirətül-övliya" əsərləri ilə müqayisəli təhlili" adlanır. Burada həmçinin adları ancaq "Munisnamə"də çəkilən sufi şeyxləri və övliyalar haqqında bəhs olunur, bu şəxslərin fəzilətləri, doğulduğu yer və zaman haqqında da məlumat verilir. Bundan başqa, bu üç əsər arasında paralellər aparılır. Bu fəsildə həmçinin "Munisnamə"nin üçüncü və dördüncü fəsilləri orijinalda, daha sonra isə tərcüməsi verilib. Araşdırma nəticəsində "Munisnamə" əsəri təkcə Azərbaycanın deyil, bütövlükdə Yaxın və Orta Şərqin farsdilli ədəbiyyatında bədii qafiyəli nəsrin ilk görkəmli nümunəsi kimi səciyyələndirilib.

Şöbənin elmi işçisi Nigar Ağayevanın 2020-2022-ci illərdə apardığı "Qətran Təbrizinin divanının dili və üslubu" mövzusunda tədqiqat işində Qətran Təbrizinin Divanı nəzərdən keçirilir, onun leksik-qrammatik və üslub xüsusiyyətləri təhlil olunur, iki hissədə qruplaşdırılır və müvafiq fəsillərdə təhlil edilir. Tam adı həkim Şərəf-əz Zaman Əbu Mənsur Qətran Cili Azərbaycani olan şair Təbriz yaxınlığında Şadiabad kəndində anadan olmuş, həmçinin filosof və dilçi alim idi. Orta əsr mənbələrinə əsaslanan Azərbaycan tədqiqatçıları qeyd edirlər ki, Qətran Təbrizi fars leksikoqrafiyası tarixində fars dilinin ilk izahlı lüğətinin yaradıcısı olmuşdur. Bu barədə "Lüğəti-fürs" ("Fars lüğəti") müəllifi, şair və tərtibçi Əsədi Tusi (XI əsr), "Sihahül-fürs" müəllifi Məhəmməd Naxçıvani (XIII əsr) və başqaları yazmışlar. Tədqiq olunan Divan dilçiliklə yanaşı tarixi əhəmiyyət də daşıyır. Orada olan şeirlərdən şairin xidmət etdiyi saraylarda olan hadisələr, yaşadığı dövrdə baş vermiş Təbriz zəlzələsi, Abu Mansur Vəhsudanın Gəncəyə gəlişi, oğuzların yürüşü və s. kimi tarixi hadisələr haqqında məlumat əldə etmək olar.

"Tənzimat və Cümhuriyyət dövrü yeni türk ədəbiyyatının tədqiqi" mövzusunda aparılan tədqiqatlar sırasında Türk filologiyası şöbəsinin müdiri, f.ü.f.d., dosent Səriyyə Gündoğdu 2020-2022-ci illərdə "XIX əsr sosial və siyasi mühitin təsiri ilə yaranan yeni türk ədəbiyyatı və mətnlərin şərhi" işini yerinə yetirib. Tədqiqat işində çağdaş türk ədəbiyyatının yaranmasının təməlləri və formalaşması üzərində durulmuş, tarixi-siyasi mühitlə yanaşı, ədəbiyyat tarixi araşdırılır. Yeni yaranan çağdaş türk ədəbiyyatına gətirilən yeniliklər mətn şərhləri ilə birlikdə təhlilə cəlb olunur.

Şöbənin baş elmi işçisi, f.ü.e.d., prof. Aydın Abiyevin 2022-ci il üçün plan işi "XX əsr Türk ədəbiyyatında Fəcri-ati dövründən Milli ədəbiyyata qədərki dövr" mövzusunda olub. XX əsr Türk ədəbiyyatında Fəcri-ati dövründən Milli ədəbiyyata qədərki dövrə aid olan tədqiqat işində 1-ci mərhələ Fəcri-ati dövrü Türk ədəbiyyatını, 2-ci mərhələ milli dövr Türk ədəbiyyatını, 3-cü mərhələ Əhməd Haşim və Fazil Əhməd Aykaçın həyat və yaradıcılığını əhatə edir.

Şöbənin elmi işçisi Emiliya Xəlilova 2020-2022-ci illərdə XVII əsr məşhur Türkiyə müəllifi Katib Çələbinin "Mizanül-Hakk" əsərini tərcümə edib. Katib Çələbi bu əsərində bəzi dini mövzularla əlaqədar olaraq mədrəsə müəllimləri ilə təsəvvüfçülər arasında baş vermiş münaqişələr haqqında 21 mövzudan ibarət olan məsələlərə toxunmuş və onlara bu münaqişəyə son qoymaq üçün doğru yol göstərmiş və həmfikir olmalarına dair öz tövsiyələrini vermişdir.

Şöbənin aparıcı elmi işçisi, f.ü.f.d., dosent Rəşid Quliyevin 2022-ci ildə icra etdiyi "Prof. Dr. Mehmet Kaplanın ədəbi-tənqidi görüşləri" mövzusunda tədqiqat işi aşağıdakı mərhələlər üzrə yerinə yetirilib. 1-ci mərhələ: Mehmet

Kaplanın Türkiyə ədəbiyyatşünaslığında yeri, 2-ci mərhələ: Bədii əsərlərin janrlar üzrə təhlili, 3-cü mərhələ Mehmet Kaplanın ədəbi-tənqidi görüşləri.

Şöbənin elmi işçisi Xanım Abdullayevanın 2022-ci ildə icra etdiyi "XIX əsrin sonu XX əsrin əvvəllərində Türk ədəbiyyatında ədəbi tənqid" mövzusunda plan işi aşağıdakı mərhələlər üzrə yerinə yetirilib. 1-ci mərhələ: Dünya ədəbiyyatında ədəbi tənqid, 2-ci mərhələ: Türk ədəbiyyatında ədəbi tənqidin təşəkkülü, 3-cü mərhələ: Türk ədəbiyyatında ədəbi tənqidin inkişafı.

Şöbənin kiçik elmi işçisi Samirə Səfərova 2022-ci ildə "XIX əsrin sonu XX əsrin əvvəllərində türk uşaq ədəbiyyatının təşəkkülü" mövzusunda tədqiqatında "Tənzimat", "Sərvəti Fünun", "Fəcri Ati" dövrlərində yaranan uşaq ədəbiyyatını əhatəli şəkildə işləyib. Tədqiqat işi Türkiyədə uşaq ədəbiyyatının təşəkkülünü əhatə edir. Türk ədəbiyyatında ilk uşaq ədəbiyyatı nümunələri müəyyənləşdirilib və tədqiqata cəlb edilib.

"Klassik ərəb dilçiliyinin və müasir ərəb ədəbiyyatının metodologiyası" mövzusu üzrə görülən işlər sırasında institutun icraçı direktoru, f.ü.f.d., dosent Ruhəngiz Cümşüdlü 2021-2022-ci illərdə "XIV-XVI əsrlər ərəbdilli Azərbaycan şeirində məcazlar: poetik-üslubi xüsusiyyətləri" mövzusunda tədqiqat aparıb. XIV-XVI əsrlər ərəbdilli Azərbaycan şairlərindən Nəsimi, Gülşəni, Füzuli və s. şairlərin ərəbcə poetik irsində ərəb dilinin poetik ruhuna uyğun bədii ifadə vasitələrindən, poetik fiqurlar və məcazlardan məharətlə istifadə olunmuşdur. Dövrün dini, elmi-fəlsəfi, estetik görüşlərinin poetik dil ilə qarşılıqlı əlaqəsinin təzahür forması olan bu məcazlar sistemi istiarə, təşbih, mübaliğə, təzad, hüsnü-təlil, iştiqaq, təlmin və s. kimi bədii-üslubi ifadə vasitələrini ehtiva edir. XIV-XVI əsrlər ərəbdilli Azərbaycan şairlərinin ərəbcə poetik irsində əks olunmuş üslubi vasitələrin tədqiqi bu şairlərin ərəb şeiri texnikası və ərəb dilinin poetik zənginliklərinə yanaşma tərzinin müəyyən olunması baxımından səciyyəvidir.

Ərəb filologiyası şöbəsinin böyük elmi işçisi, f.ü.f.d., dosent Xanımzər Kərimova 2020-2022-ci illərdə "VIII-X əsrlərdə Ərəb ədəbiyyatında ravilik, natiqlik, katiblik sənəti" mövzusunu araşdırıb. Plan işində ərəb ədəbiyyatının inkişaf xüsusiyyətləri, onun yarandığı dövr, ərəb ədəbi əsərlərinin yaradıcıları və əsərləri araşdırılıb, həmçinin, islam dini meydana gələndən sonra ravilik, natiqlik, katiblik sənətinin təkamülü və təşəkkülü tədqiq olunub. Nəticə olaraq qeyd edilib ki, natiqlik və xüsusən xilafət dövrünə təsadüf edən katiblik sənəti ərəb ədəbiyyatında xüsusi yer almış və bu sənət ilə məşğul olan ədiblər xüsusi yaradıcılıqları ilə ərəb ədəbiyyatında yüksək nəticələr əldə etmişlər.

Şöbənin aparıcı elmi işçisi, f.ü.f.d., dosent Laura Orucova 2021-2022-ci illərdə "Ərəb dilçiliyində "Mansubat" problemi" mövzusunda plan işini yerinə yetirib. Ərəb dilində mənsubiyyət terminınə aid yönlük hal funksiyaları tarixinin müqayisəli aspektdə araşdırıldığı tədqiqat işində mövzu ilə əlaqədar aparılan araşdırmalardan da bəhs olunub. Qeyd olunub ki, ərəb dilində yönlük hal çox geniş işlənmə funksiyası daşıyır. Araşdırma əsasında ərəb dilindəki yönlük halın funksiyaları çox zaman rus dilində işlənən eyni adlı halın funksiyaları ilə müqayisəli şəkildə təhlil olunub.

Şöbənin kiçik elmi işçisi Əzizə İsmayılova 2022-ci ildə "Cürci Zeydan yaradıcılığında xəlifə və saray həyatının tərənnümü" mövzusunu işləyib. Plan işində Əməvilər (661-750) və Abbasilər (750-1258) dövrü saray həyatından bəhs olunub. Araşdırmada həmin dövr xəlifələrinin, saray əyanlarının elm və mədəniyyətə, şairlərə və musiqiçilərə göstərdikləri diqqət və qayğı vurğulanıb, onların sarayda təşkil etdiyi şeir və musiqi məclislərindən söhbət açılıb. Plan işinin predmeti ərəb yazıçısı Cürci Zeydanın (1861-1914) beşcildlik "İslam mədəniyyəti tarixi" adlı kitabı və digər əsərləri əsasında tədqiq olunub, həmin dövrü müfəssəl təsvir edən nümunələr verilib.

"Şərqin yazılı abidələrinin tədqiqi, tərcüməsi və nəşri" problemi üzrə "Yaxın və Orta Şərq ədəbi-mədəni irsinin tədqiqi və nəşri" mövzusu çərçivəsində "Mənbəşünaslıq və yazılı abidələrin tədqiqi və nəşri" şöbəsinin aparıcı elmi işçisi, f.ü.f.d., dosent İnci Qasımlı 2021-2022-ci illərdə "Şəmsəddin Sivasinin əsərlərinin əlyazmaları (Bakı nüsxələri əsasında)" adlı tədqiqat aparıb. Plan işində Şəmsəddin Sivasinin həyatı, şəxsiyyəti, etiqadı haqqında, müəllifin özünün yaratdığı Xəlvətiliyin Şəmsiyyə qolu haqqında geniş məlumat verilib. AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunda üç əsərinin dörd əlyazması üzə çıxarılaraq ("Miratül-əxlaq" B-5724, "Mənazilül-arifin" M-309, "Gülşən-abad"

iki əlyazma – B-6040, B-5914) onların elmi-paleoqrafik təsviri verilib. Bu əlyazmalar dilçilik baxımından çox böyük əhəmiyyət daşıyır. "Gülşən-abad" əsəri yalnız M.Füzuli yaradıcılığı, onun "Söhbətül-əsmar" əsəri ilə bağlılığına görə deyil, orta əsrlərdə Azərbaycan-Türkiyə ədəbi-təsəvvüfi əlaqələrinin öyrənilməsi baxımından da əhəmiyyətlidir.

Şöbənin aparıcı elmi işçisi, f.ü.f.d., dosent Teymur Sadıqov 2021-2022-ci illərdə "Ərəb və ibri dillərinin müqayisəli qrammatikası (sintaksis əsasında)" mövzusunu araşdırıb. Plan işi ərəb və ibri dillərinin sintaksis nöqteyi-nəzərindən müqayisəli qrammatikasının təhlilinə həsr edilib. Burada ərəb və ibri dillərinin sintaksisinə nəzəri cəhətdən yanaşılma ilə bərabər, həm də nümunələrlə birlikdə müqayisəli şəkildə təhlillərə də yer ayrılıb. Həmçinin girişdə iki qohum dil olan ərəb və ibri dillərinin qısa tarixi inkişaf yoluna da nəzər salınıb.

Şöbənin böyük elmi işçisi, f.ü.f.d. Aygün Yusubova 2021-2022-ci illərdə "Nizami Gəncəvi yaradıcılığının təsiri ilə XVI-XVII əsrlərdə türk klassik ədəbiyyatında yazılmış "Xosrov və Şirin" əsərləri" mövzusunda plan işini yerinə yetirib. Əsrlər boyu klassik türk şeirinə ilham mənbəyi olmuş Nizaminin "Xosrov və Şirin" əsəri divan şairləri tərəfindən təkrar-təkrar qələmə alınıb. Bu ənənə XVI-XVII əsrlərdə də davam etdirilib. Tədqiqat işində Muidı, Əhməd Rıdvan, Sadri, Hayati, Şahzadə Korkut (Harimi), Ahi, Cəlili, Lami, Arif Çələbi, Şani, Halifə, İmamzadə Əhməd, Mahvi və s. şairlər və onların "Xosrov və Şirin" adlı əsərləri tədqiq edilib.

Şöbənin böyük elmi işçisi, f.ü.f.d. Lamiyə Hüseynova 2022-ci ildə "Məhəmməd bin Səllam əl-Cümahinin "Tabaqatu fuhuli-ş-şüəra" (Görkəmli şairlərin təbəqələri) antologiyasına daxil olan şeirlərin janr xüsusiyyətləri" mövzusunu araşdırıb. Plan işində əsər haqqında məlumat verilir. Onu da qeyd edək ki, antologiyada olan məlumatlar 114 şairi əhatə edir. Burada cahiliyyə, sədrü-l-islam və əməvilər dövründə yaşayıb-yaratmış klassik ərəb şairləri haqqında təzkirə şəklində məlumatlar və onların bədii əsərlərindən nümunələr yer alıb. Tədqiqat zamanı belə qənaətə gəlinib ki, əsərdə bütün növ janrlarda olan şeirlərə rast gəlmək mümkündür. Bununla yanaşı hər bir dövrə aid edilən şeirlər də zaman baxımından zəngin hesab oluna bilər.

"Yaxın və Orta Şərq ölkələrində din və ictimai fikir. İslam amilinin Azərbaycanın ictimai-siyasi inkişafına təsiri" problemi üzrə "Müasir dövrdə Yaxın və Orta Şərq ölkələrində dini-siyasi məsələlərin tədqiqi" mövzusu çərçivəsində Din və ictimai fikir şöbəsinin müdiri, fəl.ü.f.d. Esmeralda Həsənovanın 2022-ci ildəki plan işinin mövzusu "Müasir Türkiyənin görkəmli ilahiyyatçılarının İslam dininə baxışları" olub. Plan işində müasir Türkiyədə ilahiyyat fikrinin əsas təmsilçilərinin, o cümlədən Hasan Onat (1957-2020), Yaşar Nuri Öztürk (1951-2016), Hüseyn Atay (1930) və başqalarının yaradıcılığında islam dininə, müxtəlif məsələlərinə dair fikirləri təhlil edilib, müasir çağırışlarla əlaqəsi göstərilib. Əsərdə təkcə akademik təsvirə yer verilməyib, həm də bu müəlliflərin bəzi görüşləri tənqid obyekti seçilib.

Şöbənin aparıcı elmi işçisi, fəl.ü.f.d., dosent Elvüsal Məmmədov 2022-ci ildə Əbu Hamid əl-Qəzalinin "Təhafüt əl-fəlasifə (filosofların tutarsızlığı)" əsərini izahlı tərcümə edib. Plan işinin icrası ilə əlaqədar olaraq, orta əsr müsəlman ilahiyyatçısı Əbu Hamid əl-Qəzalinin filosofların metafizika və ilahiyyata aid şərhləri və iddiaları əleyhinə yazdığı "Təhafüt əl-fəlasifə" əsərinin tərcüməsi ilə yanaşı bəzi məsələlərin şərhi verilib. Xüsusən İbn Sina və Farabi tərəfindən metafizik məsələlərə verilmiş rasional izahların tənqidinə həsr edilmiş mətnin tərcüməsi zamanı müxtəlif mütəxəssislərin, o cümlədən misirli tədqiqatçı Süleyman Dünyanın şərhlərinə müraciət edilib.

Şöbənin aparıcı elmi işçisi, fəl.ü.f.d., dosent Leyla Məlikova 2021-2022-ci illərdə "İslam nəhdəsinin XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda maarifçilik hərəkatına təsir və meylləri" mövzusunda araşdırma aparıb. Tədqiqat işində XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda və ümumiyyətlə bütün Cənubi Qafqazda maarifçilik hərəkatına ərəb və islam nəhdəsinin təsiri araşdırılıb. İşin giriş hissəsində ərəb və islam nəhdəsinin tarixi mənşəyi, inkişafı, təkamülünün spesifik xüsusiyyətləri təhlil edilib, bəzi terminoloji məsələlərə aydınlıq gətirilib. Əsas hissədə təqdim olunan fəsillər Azərbaycan və Cənubi Qafqazın mütərəqqi islahatçılarının fəaliyyəti, regionda yeni islam kimliyinin formalaşması prosesinə təsir göstərmiş amillər XIX əsrin sonu və XX əsrin əvvəllərində bütün müsəlman dünyasını əhatə etmiş moder-

nist islahatlar kontekstində araşdırılıb. Müəllif mövzunu tarixi, dini-fəlsəfi, dövrün sosio-mədəni və siyasi şəraitləri kontekstində nəzərdən keçirib, nəticədə tədqiqatın əsas müddəaları yekunlaşdırılıb.

Şöbənin aparıcı elmi işçisi, fəl.ü.f.d. Qadir Səfərov 2022-ci ildə "Əhməd bəy Ağaoğlunun əsərlərində din problemi" mövzusunu araşdırıb. Tədqiqatda milli-mənəvi dəyərlər zəminində Əhməd Ağaoğlunun islam dini haqqında fikirləri araşdırılıb. Bundan əlavə islamda məzhəblər, islamda qadın hüquqları probleminə Əhməd Ağaoğlunun yanaşması tədqiq olunub.

Şöbənin böyük elmi işçisi, fəl.ü.f.d. Dürdanə Cəfərli 2021-2022-ci illərdə "Qafqazda dini təhsil sahəsində İrəvan məktəbinin rolu: İrəvanilər sülaləsinin nümunəsində" mövzusunda tədqiqat aparıb. İşin əsas məqsədi bu gün ermənilərin ciddi cəhdlə azərbaycanlıların öz qədim əraziləri olan İrəvan şəhərindəki bütün maddi-mədəniyyət izlərini, tarixi abidələrini silməyə cəhd göstərərək monoetnik erməni şəhəri yaratmağa çalışdıqları bir dövrdə əslən İrəvandan olan bu böyük Azərbaycan alimlərini və onların əsərlərini tanıtmaqdır. Azərbaycanın ən qədim elm və mədəniyyət mərkəzlərindən biri olan İrəvan şəhərində doğulub boya-başa çatmış yüzlərlə elm, mədəniyyət və din xadimi dəyərli əsərləri ilə təkcə Qafqaz xalqlarına deyil, bütünlükdə islam dünyasına öz töhfəsini vermişdir. Onların əsərləri dünyanın müxtəlif kitabxanalarında, arxivlərində və muzeylərində qorunub saxlanılır. Tədqiqatda əslən İrəvandan olan "İrəvani" soyadı ilə məşhur olan onlarla görkəmli islam alim və fəqihlərinin elmi şəxsiyyəti, islam aləminə verdiyi dəyərli əsərləri təhlil edilərək onların elmi-nəzəri metodları öyrənilib. Eyni zamanda Qafqazda dini təhsil sahəsində İrəvan məktəbinin rolu və xarakterik xüsusiyyətləri xüsusi vurğulanıb.

Böyük elmi işçi, fəl.ü.f.d. Elnur Mustafayev 2021-2022-ci illərdə "Qarabağın maddi və mənəvi irsi epiqrafik abidələr əsasında (X-XIX əsrlər)" mövzusunda araşdırma aparıb. Plan işində Qarabağda mövcud olan epiqrafik abidələr, ələlxüsus inşaat kitabələri tədqiq edilib. Belə ki, tarixi hadisələrə, mənəvi dəyərlərə, adət-ənənələrə, xüsusən böyük əhəmiyyətə malik maddi-mədəni irsə münasibət hər bir xalq və dövlət üçün aktual məsələlərdən biridir. Çoxəsrlik tarixi prosesdə milli mənəvi dəyərlər əsasında təşəkkül tapmış maddi-mədəni irs hər bir xalqın mənəvi, qeyri-maddi sərvəti kimi qəbul edilir. Mifoloji təsəvvürlər, şifahi və yazılı folklor nümunələri, maddi mədəniyyət abidələri, qədim daş salnamələr, dini inanc və adət-ənənələr bütövlükdə xalqın mövcudluğunu isbat edən dəlil-sübutlardır. Müxtəlif xalqlarda müşahidə edilən fərqli mədəniyyətlər, adət-ənənələr, dini-mifoloji inanclar xalqın uzun zaman kəsiyində formalaşdırdığı yaşam tərzinin və hakim olan düşüncənin nəticəsidir. Ona görə də hər bir xalqın müqəddəratında kəskin dönüş baş verərsə, xalqın öz inkişaf yolunu müəyyən etməsi üçün mədəni-tarixi irsin, adət-ənənələrin və mənəvi dəyərlərin tədqiq edilib araşdırılması çox mühüm məsələlərdən birinə çevrilir. Plan işində məhz Qarabağa aid məscid, karvansara və digər ictimai obyektlərə məxsus epiqrafik abidələr tədqiq edilib, abidələrdəki yazılar linqvistik, dini-fəlsəfi və sosioloji baxımından müqayisəli şəkildə təhlil edilib.

"Şərq-Qərb sivilizasiyalararası münasibətləri və Azərbaycan" problemi üzrə "Şərq-Qərb münasibətlərinin inkişafında yeni mərhələ və Azərbaycan" mövzusu çərçivəsində Şərq-Qərb şöbəsinin böyük elmi işçisi, f.ü.f.d. Ceyhun Ağayev 2021-2022-ci illərdə "Şərq-Qərb münasibətləri prizmasından dinlərarası dialoq və Azərbaycan təcrübəsi" mövzusunda işi icra edib. Mövcud tədqiqat işində qloballaşan dünyada sivilizasiyalararası münasibətlər prizmasından dinlərarası dialoq zərurəti araşdırılıb. Şərq-Qərb münasibətləri prizmasından dinlərarası dialoqun mövcud vəziyyəti, problemlər və inkişaf perspektivləri təhlil edilib. Dinlərarası dialoqun təbliği sahəsində Azərbaycan təcrübəsi ətraflı şəkildə tədqiq edilib. Azərbaycanın multikultural və tolerantlıq siyasətinə görə dünyaya nümunə olacaq dövlət olduğu xüsusilə vurğulanıb.

Şöbənin kiçik elmi işçisi Xuraman Abbasova 2021-2022-ci illərdə "İbri dili sintaksisinin əsas struktur-semantik xüsusiyyətləri" mövzusunda araşdırma aparıb. Tədqiqat işində dünyanın ən qədim dillərindən olan sami dili qrupuna mənsub ibri dilinin linqvistik inkişaf xətti, çoxşaxəli qrammatik sisteminin tərkib hissəsi olan sintaksisinin inkişaf mərhələləri araşdırılıb. İbri dilinin sintaksisində əsas fərqləndirici semantik struktural elementləri və əsas struktur-semantik xüsusiyyətləri tədqiq edilib.

Söz birləşmələri, onun xarakterik cəhətləri, cümlə və onun növləri, ismi, feili və mürəkkəb

cümlə nəzərdən keçirilib, İbri dilinin sintaksisində aşkar olunmuş konkret nümunələr əsasında fərqli və oxşar cəhətlər ətraflı şəkildə təhlil edilib.

“Şərq mentallığının konseptual təhlili” mövzusu çərçivəsində Şərqşünaslığın tarixi və nəzəriyyəsi şöbəsinin kiçik elmi işçisi Aynurə Məmmədovanın 2021-2022-ci illərdəki “Şərq və Qərb düşüncə tərzlərinin ortaq və fərqli cəhətləri” mövzusunda plan işi Şərq və Qərb düşüncə tərzlərinin ortaq və fərqli xüsusiyyətlərinin müqayisəli təhlilinə, fəlsəfi təfəkkürün fərdi özünüdərkdən milli özünüdərkə yüksəlişi və daha sonra bəşəriyyətin bütövləşərək müasir mərhələdə qlobal özünüdərk səviyyəsinə çatması problemlərinə həsr olunub. Habelə, Şərqlə Qərbin inkişaf qanunauyğunluqları, mədəni-mənəvi ənənələri, mentaliteti, dini-əxlaqi dəyərləri fəlsəfi baxış bucağında təhlil olunub. Həmçinin sivilizasiyaların münasibəti problemi və bir sıra görkəmli mütəfəkkirlərin Şərq və Qərbin vəhdəti idealını tərənnüm edən fəlsəfi və ədəbi-bədii yaradıcılığı araşdırılıb.

Şöbənin kiçik elmi işçisi Elnarə Bünyatova 2021-2022-ci illərdə “Şərq və Qərb mədəniyyətlərinin qarşılıqlı təsirinin tədqiqinin metodoloji xüsusiyyətləri” mövzusunda araşdırma aparıb. Plan işində Şərq və Qərb mədəniyyətlərinin əlaqəsinin öyrənilməsi və onun metodları nəzərdən keçirilib, eləcə də Şərq və Qərb mədəniyyətlərinin qarşılıqlı təsirinin fərqli və ümumi xüsusiyyətləri vurğulanıb. Bundan əlavə, Şərq və Qərbin yerli sivilizasiya və mədəniyyətlərinin XX əsrin I yarısından başlanan müqayisəli təhlilinin nəticələrindən bəhs edilib. Tədqiqatın gedişində Qərbi Avropa və rus tədqiqatçılarının mövzuya dair konsepsiyaları təhlil edilib, bəşər tarixinin inkişafının müxtəlif dövrlərində fərqli sivilizasiya formaları və mədəniyyətlərin qarşılıqlı təsir problemləri barədə təsəvvür formalaşdırılıb.

**Vüqar Məmmədov**
*AMEA-nın Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, f.ü.f.d.*

# Azərbaycan həqiqətlərini dünyaya çatdıran şərqşünaslarımız

AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun əməkdaşları Azərbaycan barədə həqiqətləri – ötən bir əsrdən artıq bir dövrdə xalqımızın başına gətirilən faciələr, eləcə də son dövrdə Vətən müharibəsindəki Zəfərdən sonra regionda vəziyyət və görülən işlər barədə məruzələri və məqalələri ilə haqq səsimizi dünyaya çatdırırlar.



Şərqşünaslıq İnstitutunun Gənc Alim və Mütəxəssislər şurasının sədri, Din və ictimai fikir şöbəsinin müdiri fəl.ü.f.d. Elnur Mustafayev bu sahədə fəallığı ilə seçilən alimlərimizdəndir. 2022-ci il noyabrın 19-da İraq Respublikasının paytaxtı Bağdad şəhərində Azərbaycan Respublikasının İraqdakı Səfirliyi, İraq Respublikası Strateji Araşdırmalar Mərkəzi və Azərbaycan-İraq Dostluq Cəmiyyətinin birgə təşkilatçılığı ilə keçirilən "Şuşa Azərbaycanın incisidir" mövzusunda tədbirdə "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa" adlı məruzə ilə çıxış edib. E.Mustafayev Şuşa şəhərinin tarixi, mədəniyyəti və görkəmli şəxsiyyətləri ilə bağlı bir sıra vacib mövzulara toxunduqdan sonra bu şəhərin bütün varlığı və maddi-mədəni irsi ilə Azərbaycan xalqına aid olduğunu qeyd edib. Şərqşünas alim fürsətdən istifadə edərək mənfur düşmənlərimiz, ermənilərin müxtəlif dövrlərdə - 1905, 1918, 1920, 1992-ci illərdə Azərbaycan xalqına qarşı törətdiyi soyqırımı cinayətləri və erməni hərbi-

siyasi hakimiyyətinin yürütdüyü işğalçılıq siyasəti ilə bağlı müfəssəl məlumatları iraqlı alim və ictimai-siyasi xadimlərinin nəzərinə çatdırıb. Elnur Mustafayev həmçinin işğal olunmuş torpaqlarımızın Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Cənab Prezident İlham Əliyevin başçılığı ilə müzəffər ordumuzun rəşadət və şücaəti nəticəsində geri qaytarıldığını, Azərbaycan dövləti tərəfindən təkbaşına olaraq Beynəlxalq Təşkilatların bu münaqişə ilə bağlı çıxardığı bəyanatların müddəalarının həyata keçirildiyini və bununla haqq-ədalətin bərpa edildiyini də xüsusilə vurğulayıb. Bundan əlavə, o, məruzədə bir sıra mövzulara, Zəfər Günü, Azərbaycan-İraq dostluq əlaqələri və perspektivləri və sairə məsələlərə də toxunub. Sözügedən məruzənin mətni İraqda nəşr olunan "Sadaqa" (Dostluq) qəzetində çap edilib.

Elnur Mustafayevin "Böyük Zəfər Günü - Azərbaycan xalqının qürur mənbəyidir" adlı ərəb dilində yazdığı məqalə Misir Ərəb Respublikasının "əl-An" xəbər agentliyində və "Səfir" informasiya portalında, eləcə də Mərakeş Krallığının "Sout al - Muvatin" portalında nəşr edilib. Məqalədə bir sıra mövzulara; 1990-cı illərdən etibarən erməni hərbi-siyasi hakimiyyətinin Azərbaycan dövlətinə və xalqına qarşı yürütdüyü işğalçılıq siyasəti, yerli Azərbaycan xalqına qarşı törədilmiş soyqırımlar, Azərbaycan-İslam mədəniyyətinə aid tarixi maddi-mədəni irsə qarşı icra edilmiş vandalizm aktları və digər məsələlərə ətraflı şəkildə toxunulub. Daha sonra Azərbaycan dövlətinin münaqişənin sülh yolu ilə həll edilməsində göstərdiyi cəhdlərin əksinə olaraq erməni hərbi-siyasi dairələrinin nümayiş etdirdiyi destruktiv siyasət haqqında söhbət açılıb, həmçinin ermənilərin Azərbaycan torpaqlarını işğal etməsinə baxmayaraq 30 il ərzində təxribatlardan əl çəkmədiklərini xüsusilə vurğulanıb. Məqalədə öz havadarlarının maşasına çevrilmiş Ermənistanın 2020-ci ilin iyulun 12-də Azərbaycanın dövlət sərhədini Tovuz istiqamətində pozaraq hücum etdiyi, həmçinin sentyabrın 27-də bütün cəbhə boyu geniş təxribata keçdiyi, bu təxribat həm dövlətimizin başçısının, həm də xalqımızın səbrini tükəndirdiyi qeyd edilib. Belə ki, sentyabrın 27-dən başlanan Vətən müharibəsi Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və rəşadətli ordumuzun qəhrəmanlığı sayəsində Qələbə ilə başa çatdı. Beləliklə, qalib ordumuzun və rəşadətli əsgər və




zabitlərimizin şücaəti ilə noyabrın 8-də Qarabağın tacı Şuşa işğaldan azad edildi və üçrəngli bayrağımız şəhərin mərkəzinə sancıldı. Bəli, bu tarixi zəfər xalq-dövlət-ordu birliyinin rəmzidir. 8 Noyabr – Zəfər Günü 44 günlük Vətən müharibəsində müqəddəs torpaq uğrunda canından, qanından keçən igid əsgər və zabitlərimizin şəhidlik zirvəsinə ucaldığı milli qürurumuzun, yenilməzliyimizin nümayiş etdirildiyi gündür. Azərbaycan dövlətçilik tarixində və xalqımızın yaddaşında əbədi yaşayacaq Zəfər Günü ümumxalq birliyinin təzahürüdür.

Elnur Mustafayevin ərəb dilində yazdığı "20 Yanvar... Müstəqilliyə gedən yol" adlı məqaləsi Mərakeş Krallığının "Sout əl-muvatin" və Misir Ərəb Respublikasının "Bəvvabətus-Səfir" xəbər agentliklərində dərc edilib. Məqalədə müəllif Azərbaycan xalqının çoxəsrlik istiqlaliyyət mücadiləsi, ələlxüsus bu kontekstdə 20 yanvar 1990-cı ildə Azərbaycan xalqına qarşı törədil-

miş hərbi və siyasi cinayətlər haqqında məlumatları ətraflı şəkildə təqdim edib. Bununla yanaşı, məqalədə 20 Yanvar günü Azərbaycan xalqının müstəqillik uğrunda və ədalətsizliyə qarşı nümayiş etdirdiyi cəsarət və əzmkarlıqdan bəhs edilib. Qeyd edilib ki, 20 Yanvar Azərbaycan tarixində təkcə faciə deyil, istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. Bu, uzun illər sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir.

Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent Sübhan Talıblı müasir tariximizin müxtəlif dövrlərində xalqımızın başına gətirilən bütün faciələr barədə mütəmadi olaraq dünyanın müxtəlif ölkələrinin KİV-lərində yazılar dərc etdirməklə haqq səsimizin ucaldılmasında mühüm işlər görür. Şərqşünas alimin xaricdə dərc olunan yazılarının mövzusu 1905-1906-cı illər kütləvi qırğınlarından bugünümüzə kimi, yayıldığı coğrafi diapazonu isə Türkiyədən İsveçə, Ərəb ölkələrindən Niderlanda, Özbəkistandan ABŞ-a, Qazaxıstandan İrana kimi dünyanın müxtəlif ölkələrini əhatə edir.


۱۹۰۶–۱۹۰۵–جی ایللر کوتلوی قیرغینلار

1905-1906-cı illər kütləvi qırğınlar

Dr., Doç. Sübhan Talıblı

دوکتور، دوسئنت سبحان طالیبلی

۱۹۳۱–جی ایلده جعفر جابیارلینین باکیدا تؤردیلمیش قیرغینلارا عاید "۱۹۰۵–جی ایل" پیئسی

۱۹۰۶-۱۹۰۵–جی ایللرده جنوبی قافقازدا تؤره‌دیلن قیرغینلاری ماهیت اعتباریله ائرمنی‌لرین ۲۰–جی عصرده آذربایجانلی‌لارا قارشی مرحله‌لرله حیاتا کئچیردیک‌لری ائتنیک

سورمه‌لی، شوشا، جاوانشیر، جبراییل، زنگه زور، گنجه، قازاخ، ارش، بورچالی) و ۸ شهرینده (باکی، ایروان، ناخچیوان، گومرو، شوشا، گنجه، قازاخ، تیفلیس) ائتنیک تمیزلمه و کوتلوی قتل عام‌لار تؤرتمیش‌لر.

۱۹۰۶-۱۹۰۵–جی ایللر سویقیریم‌لاری زامانی جنوبی قافقازدا ۲۸۶ کند ویران ائدیلمیش و ۸ شهر داغینتی‌لارا معروض قالمیش‌دیر. سویقیریم‌لار زامانی کند و شهرلرین تقریباً ۲۰۰–و آذربایجانلی یاشاییش منطقه‌لری داغیدیلمیش و خارابالیغا چئوریلمیش، ۱۵ میندن آرتیق عائله (تقریباً ۱۰۰ مین نفر) ائو-ائشیگیندن دیدرگین دوشموش، ۱۰ مین نفردن آرتیق اینسان تلفاتی اولموش‌دور.

همین فاکت‌لاری ائرمنی مؤلف‌لری‌نین اؤزلری ده اعتراف‌لار ائدیردیلر. ۱۹۰۵–۱۹۰۶–جی ایللر سویقیریم‌لاری زامانی ائرمنی‌لرین تؤرتدیک‌لری

Sübhan Talıblının “1905-1906-cı illər kütləvi qırğınlar” adlı məqaləsi Tehranda “Xudafərin” jurnalında dərc olunub. Məqalədə S.Talıblı qeyd edir ki, “1905-1906-cı illərdə Cənubu Qafqazda törədilən qırğınlar mahiyyət etibarilə ermənilərin XX əsrdə azərbaycanlılara qarşı mərhələlərlə həyata keçirdikləri etnik təmizləmə siyasətinin tərkib hissəsidir. Böyük dövlətlərin hətrərəfli dəstəyi ilə erməni silahlı dəstələrinin cənubi Qafqazda törətdikləri qarətlər, soyğunçuluq, kütləvi qırğınlar, terror aktları və qətliamlar barədə o dövrün yerli və xarici mətbuatında, ayrı-ayrı müəlliflərin əsərlərində, xatirələrində tarixi faktlar mövcuddur. Tədqiqatlardan, arxiv materiallarından, o dövrkü mətbuatdan, yerli və xarici müəlliflərin əsərlərindən məlum olur ki, ermənilər 1905-1906-cı illərdə Cənubi Qafqazın 14 qəzasında (İrəvan, Naxçıvan, Şərur-Dərələyəz, Eçmiədzin, Aleksandropol, Sürməli, Şuşa, Cavanşir, Cəbrayıl, Zəngəzur, Gəncə, Qazax, Ərəş, Borçalı) və 8 şəhərində (Bakı, İrəvan, Naxçıvan, Gümrü, Şuşa, Gəncə, Qazax, Tiflis) etnik təmizləmə və kütləvi qətliamlar törətmişlər. 1905-1906-cı illər soyqırımları zamanı Cənubi Qafqazda 286 kənd viran edilmiş və 8 şəhər dağıntılara məruz qalmışdır. Soyqırımlar zamanı təqribən 200 yaşayış məntəqəsi dağıdılmış və xarabalığa çevrilmiş, 15 mindən artıq ailə (təqribən 100 min nəfər) ev-eşiyindən didərgin düşmüş, 10 min nəfərdən artıq insan tələfatı olmuşdur”. S.Talıblı məqalənin sonunda vurğulayır ki, Azərbaycan Respublikasının Prezidenti, Ümummilli Lider Heydər Əliyevin 1998-ci il martın 26-da “Azərbaycanlıların soyqırımı” haqqında verdiyi Fərmanının ermənilərin cinayətkar və terror əməllərinin beynəlxalq təşkilatlara və dünya ictimaiyyətinə çatdırılması baxımından çox böyük tarixi, siyasi və hüquqi rolu olub.

Sübhan Talıblının Tehranda “Xudafərin” jurnalında dərc olunan daha bir məqaləsi “1948-1953-cü illər azərbaycanlıların tarixi torpaqları olan Ermənistandan deportasiyası” adlanır. Məqalə həmçinin İsveçdən yayımlanan tribun.one və gadtb.com saytlarında da dərc olunub. Məqalədə azərbaycanlıların 1948-1953-cü illərdə tarixi və əzəli torpaqlarından zorla köçürülməsini tarixi faktlara, sənədlərə, arxiv materiallarına, elmi ədəbiyyata və qəbul edilmiş qərarlara istinad edilərək elmi cəhətdən sübut edilir. Müəllif məqalədə qeyd edir ki, Sovet hakimiyyəti dövründə azərbaycanlıların Ermənistandan köçü planlı və düşünülmüş şəkildə davam etdirilmişdir. Belə ki, bu proses xüsusilə İkinci Dünya Müharibəsindən sonra güclənmiş və SSRİ-nin süqutuna qədər daimi tendensiya davamlı olaraq həyata keçirilmişdir. 1943-cü il Tehran konfransı zamanı Sovet-İran münasibətləri müzakirə edilərkən, erməni diasporu SSRİ xarici işlər naziri V.Molotovdan İranda yaşayan ermənilərin SSRİ-yə köçürülməsini xahiş etmişdir. Molotov Tehranda məsələni SSRİ KP MK-nın sədri İ.Stalinə çatdırır və ermənilərin köçürülməsinə

razılıq verilir. Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi Q. Arutyunov bundan istifadə edərək xaricdəki ermənilərin Ermənistana köçü bəhanəsi ilə azərbaycanlıların Ermənistandan zorla çıxarılması barədə qərar verilməsinə nail olur. Bundan başqa, məqalədə azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi barədə SSRİ Nazirlər Sovetinin qərarları əksini tapıb. Bundan başqa azərbaycanlıların tarixi və əzəli torpaqlarından deportasiya edilməsi, eləcə də Ermənistandan azərbaycanlıların deportasiyası başa çatdırıldıqdan sonra orada yaşayan azərbaycanlı əhalinin azalmasını bəhanə edərək, rayon və respublika miqyasında müəyyən vəzifələr tutan azərbaycanlı kadrların ermənilərlə əvəz edilməsinə başlanılması məsələləri qeyd olunmuşdur. Dos. S.Talıblı məqalədə yazır ki, "1997-ci il dekabrın 18-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" imzaladığı Fərmanla azərbaycanlıların tarixi və dədə-baba yurdları olan Ermənistandan 1948-1953-cü illərdəki deportasiyasına ilk dəfə hüquqi-siyasi qiymət verildi. Fərmanda bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, Azərbaycan SSR rəhbərliyinin öz xalqının taleyinə biganəliyi, vətəndaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı qeyd olunur". Şərqşünas alim məqalədə yazır ki, "tarixi Azərbaycan torpaqlarında yaradılan Ermənistan SSR-dən, öz tarixi etnik torpaqlarından 1948-1956-cı illərdə deportasiya edilən azərbaycanlıların bu faciəsi hüquqi cəhətdən 1948-ci ildə BMT-nin İnsan Hüquqları Komissiyasının qəbul etdiyi qərarın II maddəsinə uyğun olaraq soyqırımı və etnik təmizləmə kimi qiymətləndirilməli, dünya ictimaiyyətinə, beynəlxalq və regional təşkilatlarına çatdırlmalı, dünyanın aparıcı KİV-lərində məqalələr yazılmalı, xarici ölkələrdə konfrans, seminarlar təşkil edilməldir".

Sübhan Talıblı həmçinin Özbəkistan və Türkiyə saytlarında 1990-cı ilin 20 Yanvar faciəsindən yazıb. Şərqşünas alimin məqalələri Özbəkistanın human.uz saytında və Türkiyədən yayımlanan kriminsesigazetesi.com saytında dərc edilib. human.uz saytında rus dilində dərc olunan "1990-cı ilin 20 Yanvar faciəsi: Azərbaycan xalqının müstəqillik yolu" adlı, eləcə də kriminsesigazetesi.com saytında dərc edilən "20 Yanvar faciəsi və Azərbaycan xalqının azadlıq uğrunda əzmi" adlı məqalələrdə faciəvi hadisələr barədə ətraflı məlumat verilir və xalqımızın müstəqilliyə doğru keçdiyi yolun məhz bu hadisələrdən keçdiyi qeyd edilir. Məqalələrdə 1990-cı ilin yanvar günlərində Bakıda, Neftçalada, Lənkəranda sovet ordusunun cinayətləri faktlarla göstərilir.

Sübhan Talıblının "Xocalı soyqırımı: Bəşər tarixinin ən qanlı və dəhşətli faciəsi" adlı məqaləsi dünya ölkələrinin KİV-lərində türk, ərəb, rus, ingilis və fars dillərində yayımlanıb. Şərqşünas alimin məqaləsi Türkiyədə trt.net.tr, trthaber.com, turkelimedya.com, sonstargazetesi.com, turknewsgazetesi.com, turkishnews.com/tr, kafkassam.com, kiriminsesigazetesi.com, İsveçdə tribun.one, -aznews.tv və azglobal.org, Niderlandda justiceforkhojaly.nl, ABŞ-da balatarin.com, qitafnews.net, Qazaxıstanda abai.kz, Özbəkistanda tnews.uz, İraqda enkidopres.com, jedar1.com.iq, wrkaanews.com, ashourland.net, mustaqbl.net, Misirdə alan-eg.com, alharir.info, İordaniyada nayrouz.com, Livanda alshiraa.com,



körfəz ölkələrində yayımlanan nabd.com saytlarında, eləcə də İranda “Xudafərin” dərgisində dərc olunub. Məqalədə şərqşünas alim çar Rusiyasının və digər dövlətlərin hərtərəfli dəstəyilə tarixi Azərbaycan torpaqlarında xristianlaşma siyasətinə uyğun olaraq məskunlaşdırılan ermənilərin ərazilərimizdə zaman-zaman təcavüz, soyğunçuluq, qarət, etnik təmizləmə həyata keçirmələrini, xarici ölkələrin siyasətinə uyğun fəaliyyət göstərmələrini qeyd edir və müasir dövrümüzün ən qanlı cinayətlərindən olan Xocalı soyqırımından ətraflı bəhs edir. Müəllif 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələrinin Rusiyanın 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhərində həyata keçirilən qanlı cinayət zamanı baş verənləri və onun acı nəticələri barədə faktları diqqətə çatdırır. Məqalədə 1994-cü ilin fevralında Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasının Milli Məclisinin Xocalıda baş vermiş hadisələri təhlil edərək, ermənilərin törətdikləri cinayət əməllərinin azərbaycanlılara qarşı soyqırımı olduğunu beynəlxalq hüquqi məsuliyyət baxımından təsbit etməsi, 26 fevral tarixinin “Xocalı soyqırımı günü” kimi qeyd olunması haqqında qərarın verilməsi, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci il mayın 8-dən başlayan “Xocalıya ədalət” beynəlxalq kampaniyasının fəaliyyəti barədə məlumat verilir. Bundan başqa faciəni parlament səviyyəsində qətliam kimi tanıyan ölkələr və beynəlxalq təşkilatlar, dünya KİV-lərində verilən yazılar barədə məlumatlar diqqətə çatdırılır. S.Talıblı xarici mətbuatda, elm və təhsil mərkəzlərində Xocalı soyqırımı ilə bağlı çıxışlar etməyə, müxtəlif dillərdə məqalələr dərc etdirməyə, dünyanın aparıcı universitetləri, elmi-tədqiqat və araşdırma mərkəzləri ilə əməkdaşlıq edib, Xocalı soyqırımı, Azərbaycan həqiqətləri barədə birgə kitab və məqalələr yazmağa, haqq səsimizi dünyaya çatdırmaqla fəaliyyətimizi daha da genişləndirməyə çağırır.

Sübhan Talıblının İran İslam Respublikasının Azərbaycana qarşı yürütdüyü ikili siyasət barədə yazıları da ölkə xaricində dərc olunur. Şərqşünas alimin bu mövzuda bir açıqlaması və bir məqaləsi Türkiyədən yayımlanan kriminsesigazetesi.com saytında oxuculara çatdırılıb. “İran Azərbaycan və Türkiyəyə qarşı münasibətini dəyişməlidir” başlıqlı yazıda təqdim edilən açıqlamada S.Talıblı bildirib ki, yaxşı olardı, nə qədər gec deyil, İran KİV-lərində, ayrı-ayrı ölkələrdə, təcavüzkar Ermənistanda, Yaxın və Orta Şərq ölkələrindəki dini-ideoloji qruplaşmaları dəstəkləmək əvəzinə regionda sülh və təhlükəsizliyə xidmət edən əməkdaşlıq üçün addım atsın”.




İranı Azərbaycan və Türkiyə dövlətinə münasibətini, mövqeyini dəyişməyə, qanun və hüquqla rəftar etməyə çağıran alım diqqətə çatdırır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İranın Prezidenti İbrahim Rəisi ilə telefon danışığı zamanı Azərbaycan Respublikasının Tehrandakı səfirliyinə qarşı törədilmiş terror aktı ilə bağlı istintaqın şəffaf şəkildə aparılmasının vacibliyini, bu hadisəni şiddətlə qınadığını bildirərək qanlı terror aktının hərtərəfli araşdırılacağına və cinayətkarların layiqli cəzalarını alacaqlarına ümidvar olduğunu qeyd edib.

“İran heç vaxt azərbaycanlılara isti münasibətdə olmayıb” başlıqlı yazıda isə S.Talıblı qeyd edir ki, istər Azərbaycan Xalq Cümhuriyyəti dönəmində, istərsə də Azərbaycan Respublikası qurulduqdan sonra İran İslam Respublikası Azərbaycanın dövlət müstəqilliyini qəbul etməmiş, onu özünün milli təhlükəsizliyi üçün təhlükə mənbəyi hesab etmişdir. Pəhləvilər hakimiyyəti dönəmindən etibarən azərbaycanlıların milli hüquqlarının pozulması, ana dilindən məhrum edilmələri, məktəblərinin olmaması, tarixi yer adlarının dəyişdirilməsi, cənubi azərbaycanlıların sosial-iqtisadi vəziyyətinin ağırlaşdırılması, onların düşüncələrində həmişə bu tay Azərbaycana qarşı apardıqları dini-ideoloji, daxili işlərə qarışmaq siyasəti, etnik qarşıdurma yaratmaq cəhdləri bu günə kimi davam edir. Tarixi faktla-

ra diqqəti çəkən alim İran hələ 1988-ci ildən Azərbaycana qarşı ikili siyasət yürütdüyünü, SSRİ ilə əməkdaşlıq edərək ölkəmizdə dini-ideoloji qruplaşmalar yaratmasını, ticari-iqtisadi, "xeyriyyə təşkilatları" və s. adlar altında əksfəaliyyət göstərdiyini qeyd edir. S.Talıblı bildirir ki, ölkəmizin müstəqillik illərində də bu mövqeyini davam etdirən İran Birinci Qarabağ müharibəsində Ermənistan üçün necə "həyat dəhlizi" olmuşdursa da, Vətən müharibəsində də həmin rolu oynamışdı, bir sıra qərb dövlətləri ilə birgə Ermənistanı təmin etmişdir. İranda "qondarma erməni soyqırımı abidəsi", erməni məktəbləri, erməni dilli kitab, jurnal, qəzetlərin çapı, Daşnaksütyun və İnkişaf Partiyasının, dünya erməni liderlərinin Tehrandakı görüşləri, dəfələrlə ermənilərin Türkiyə və Azərbaycan səfirliyi önündə keçirdiyi nümayişlər, fars və erməni dillərində Azərbaycan və Türkiyəyə qarşı yazılar, Vətən müharibəsindən sonra Azərbaycanın regionda artan nüfuzuna qarşı aqressiv, şovinist mövqeyi bunun bariz nümunəsidir.

İranla Azərbaycan arasında imzalanmış sənədləri sadalayan müəllif İran dövlətini və müvafiq qurumlarını sənədlərə yalnız imzalanmalarda yox, əməldə hörmət və riayət etməyə çağırır.

Tehranda səfirliyimizə qarşı törədilmiş terror aktından bəhs edən S.Talıblı hadisə zamanı və ondan sonrakı tədbirlərdə İranın müvafiq qurumları tərəfindən beynəlxalq hüquqi nöqteyi-nəzərdən imzalanmış və öhdəlik götürülmüş beynəlxalq qanunlara, konvensiyalara əməl edilmədiyini qeyd edir.

Şərqşünaslıq İnstitutunun Türkiyə tarixi və iqtisadiyyatı şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Namiq Məmmədovun 2023-cü il martın 31-də Qazaxıstanda Qazaxıstan Respublikası Təhsil və Elm Nazirliyi, Elm Komitəsi, Fəlsəfə, Siyasət və Dini Biliklər İnstitutunun təşkil etdiyi "Ümumtürk Dövlətləri İnteqrasiyasının Potensialı: Mövcud vəziyyət və perspektivlər" adlı Beynəlxalq konqresdəki "Türk dünyasının inteqrasiyasında Türkiyə - Azərbaycan münasibətlərinin rolu" mövzusunda məruzəsində iki qardaş ölkənin birliyinin gücündən, ölkələrimiz arasında strateji əməkdaşlıq və tərəfdaşlığından, həmin münasibətlərin yaranması və inkişafına təsir göstərən əsas faktorlardan, onların göstəriciləri və nəticələrindən, həmçinin "Şuşa bəyannaməsi" və Zəngəzur dəhlizindən, Türk dünyasının inteqrasiyasında və əlaqələrin inkişafında onların rolundan bəhs edilib.



# The Tragedy of 20th of January in Azerbaijan

In the highest part of the city of Baku? The capital of Azerbaijan, there is a place whose former name was Mountain Park, and now is called Martyrs Alley. Citizens who died for the independence and the territorial integrity of Azerbaijan were buried there. Every year on January 20, millions of Azerbaijanis visit that alley and the martyrs are buried there. It may be asked: Why on January 20?

January 20 is the date of a bloody tragedy written in black letters in the history of the Azerbaijani people. It was on that day in 1990 that the troops of the former Soviet empire, the empire called the Union of Soviet Socialist Republics (USSR), entered the territory of Azerbaijan and carried out massacres against our citizens in a number of regions of the republic, including the capital city of Baku. It would be better to remind that at that time Azerbaijan was a part of the so-called USSR.

Analysis

Namig Mammadov

Thus, during the Russia-Iranian war covering the years 1826-1828, Azerbaijani territories (khanates) were occupied by Russia and Iran. In 1828, Russia and Iran signed the Treaty of Turkmenchay, which divided the territories of Azerbaijan. According to that agreement, northern Azerbaijan was given to Russia and southern Azerbaijan was given to Iran. In 1918-1920, northern Azerbaijan regained its independence, albeit for a short time, but in April 1920, it was again occupied by Soviet Russia and remained part of the empire until 1991.

At the end of the 80s of the20th century, the process of disintegration began in the USSR. At that time, Armenian separatists became active in the Karabakh region of Azerbaijan and began activities for the occupation of that region by Armenia. The leadership of the USSR did not prevent it. In such a situation, the Azerbaijani population rose up in different areas of Azerbaijan, including capital Baku, and expressed their protest.

This protest later expanded into a movement for independence. The population protested the occupation of Azerbaijani territories by Armenia, and raised slogans against it. In such a situation, the USSR leadership used the method implemented in Hungary in 1956and Czechoslovakia in 1968.

In January 1990, they deployed troops (more than35.000 soldier) into the territory of Azerbaijan, especially the capital Baku, and carried out a bloody massacre against the unarmed civilian population.

As a result of those events called January 20 tragedy, 134 civilians-women, children, old people, etc. killed, more than 700 people were injured, and more than 800 were arrested and tortured. About 20 of the martyrs were women and children. The youngest of them was a 12-year-old girl (Larisa Mammadova), and the oldest was a 77-year-oldwoman (Surayya Babayeva).

Although the events of January 20 were a bloody tragedy that left a deep mark on the history of Azerbaijan, they are also remembered by all Azerbaijanis as a page or heroism.

The victims of the tragedy are considered martyrs who died for the freedom of our motherland, the integrity and indivisibility of our territory and their memory is always cherished. May God protect Azerbaijan and its independence.

*Writer is a leading researcher of ANAS, The institute of Oriental Studies, PhD in History.*

Namiq Məmmədovun "Azərbaycanda 20 Yanvar faciəsi" adlı məqaləsi Pakistanda nəşr olunan "The Daily Spokesman" qəzetində və bu ölkənin "Sabah news" saytında" dərc olunub. Məqalədə 20 Yanvar faciəsi, bunun səbəbləri və nəticələri, onun Azərbaycanın tarixində yeri və rolu haqqında məlumat verilir. Eyni zamanda yazıda Azərbaycan torpaqlarının Rusiya və İran arasında bölüşdürülməsi və bunun nəticələri haqqında qısa şəkildə məlumat öz əksini tapır.

Şərqşünaslıq İnstitutunun Ərəb filologiyası şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Xumar Ələkbərova mayın 26-27-də Türkiyənin paytaxtı Ankarada keçirilən VII Biltek Beynəlxalq Elmi Tədqiqatlar və Mövcud İnkişaflar Konfransında "Real tarixi hadisələrə əsaslanan qətliamların bədii ədəbiyyat vasitəsilə dünya ictimaiyyətinə çatdırılması" mövzusunda məruzə ilə çıxış edib. Ermənistan tərəfindən yaxın keçmişimizdə törədilən, vəhşiliyinə və amansızlığına görə bəşəriyyətə qarşı törədilmiş cinayətlər sırasında ən ağırı sayılan Xocalı soyqırımını da xatırladan məruzəçi vurğulayıb ki, bu kimi tarixi hadisələrin unudulmaması, məzlumların haqq səsinin geniş ictimaiyyətə, dünya

birliyinə çatdırılmasında doğru vasitələrdən biri də ədəbiyyatdır.

Rusiya, Gürcüstan, Rumınya, Mərakeş, Əlcəzair, Səudiyyə Ərəbistanı, Pakistan, Hindistan, İndoneziya və digər ölkələrdən çox sayda elm adamlarının iştirakı ilə keçirilən konfransda müharibə dəhşətlərinin ədəbiyyatda real inikası məsələlərinə həsr olunmuş məruzə maraqla qarşılanıb.

Şərqşünas alimlər haqq səsimizi dünya ictimaiyyətinə çatdırmaqda yorulmaz fəaliyyətlərini davam etdirirlər və onların bundan sonra da bu sahədə səmərəli işlər görəcəklərini əminliklə söyləmək olar.

***Vüqar Məmmədov,***
AMEA-nın Şərqşünaslıq İnstitutunun
aparıcı elmi işçisi, f.ü.f.d.

# Şərqşünaslıq İnstitutunun əməkdaşları beynəlxalq elmi tədbirlərdə

AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun alimləri xarici ölkələrdə keçirilən beynəlxalq tədbirlərdə fəal iştirak edirlər. Alimlərimiz bu tədbirlərdən bir qismində canlı iştirak edib, bir qisminə isə onlayn qatılıblar.

Şərqşünaslıq İnstitutunun Beynəlxalq əlaqələr şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Gülər Qafqazlı 2022-ci ilin 20-25 oktyabrında Rusiya Federasiyasının paytaxtı Moskvada keçirilən "Qlobal münaqişələr və dünya müharibələri: tarix və müasirlik" adlı kofransda iştirak edib. Şərqşünas alim konfransda "Yaxın Şərqin problemləri və beynəlxalq təşkilatların ikili standartları" mövzusunda məruzə edib. Məruzədə bildirilib ki, Yaxın Şərqdə yerləşən bir çox ərəb ölkələri, eləcə də Türkiyə Respublikası da Aralıq dənizi üzərində öz nəzarətini qoruyub saxlamağa davam edir. Bəzən Yaxın Şərqdə baş verən hadisələr səbəbindən bəzi ərəb ölkələri öz mövqeyini dəyişir. Bəzi hallarda isə Ərəb liqası öhdəliyinə götürdüyü məsələləri kifayət qədər həll edə bilmir. Məruzəçi bu kimi şəraitin yarandığı halda bir sıra ölkələrin ikili standartlardan istifadə etməsindən bəhs edib.

Gülər Qafqazlının qatıldığı növbəti elmi tədbir noyabrın 10-da Rusiya Federasiyasının Moskva şəhərində Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun keçirdiyi "Bartold qiraətləri" adlı beynəlxalq konfrans olub. O, konfransda "Misirdə Məmlük dövlətinin tarixinin öyrənilməsində İbn Tağriberdinin "Ən-nücum əz-zahira fi muluk Mısr va əl-Qahira" əsəri bir mənbə kimi" mövzusunda məruzə edib. Məruzədə İbn Tağriberdinin 16 cildlik əsəri, əsərin yazılma xüsusiyyətləri, Məmlük dövlətində baş vermiş bəzi mühüm hadisələrin qısa şərhi barədə danışılıb.

Gülər Qafqazlı bu ilin martında Misirin Qahirə şəhərində "Hivar" Beyin Mərkəzində keçirilən "Müasir dünyada qadın problemləri" adlı konfransda Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın timsalında Azərbaycan qadını" adlı məruzə ilə onlayn çıxış edib. Məruzədə əvvəlcə




عاجل غرفة الشارقة وهيئة التجارة الخارجية اليابانية " جيترو" يتفاهمان لتعزيز العلاقات التجارية وتنمية التعاون المتبادل
صدى البلد الإخبارية
الرئيسية أخبار أخبار الرياضة اقتصاد وبورصة الإسكان والعقارات تكنولوجيا سيارات
الدكتورة جولار قافقازلي تشارك في ندوة مركز الحوار على هامش اليوم العالمي للمرأة
آخر تحديث الخميس، 9 مارس , 2023، الساعة 12:04 ت القاهرة
EXCLUSIVE أخبار عربية وعالمية متابعات وتقارير
الدكتورة جولار قافقازلي، مدير برنامج العلاقات الدولية بمعهد الدراسات الشرقية بالأكاديمية الوطنية للعلوم بجمهورية أذربيجان تشارك بكلمة مسجلة على هامش ندوة مركز الحوار باليوم العالمي للمرأة

ötən əsrin əvvəllərində Azərbaycanda qızlar məktəblərinin açılmasından danışaraq, həmin məktəbin məzunlarının maarifçilik fəaliyyətlərini qeyd edən Gülər Qafqazlı daha sonra müasir dövrdə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın xeyriyyəçilik fəaliyyətindən, onun təşəbbüsü ilə yeni məktəblərin, xəstəxanaların, talassemiya mərkəzinin istifadəyə verilməsindən, mədəniyyət sahəsində Azərbaycan muğamının inkişafında göstərdiyi xidmətdən bəhs edib. Gülər Qafqazlının məruzəsi Misirdə böyük maraqla qarşılanıb. misralbalad.com saytı misirli və səudiyyəli tədqiqatçıların da qatıldığı konfransda məhz Gülər Qafqazlının iştirakına həsr edilmiş “Dr. Gülər Qafqazlı Beynəlxalq Qadınlar Günü ilə əlaqədar Beyin Mərkəzində konfransda iştirak edir” başlıqlı məqalə dərc edib.

Gülər Qafqazlı həmçinin aprelin 1-də Fransanın paytaxtı Parisdə keçirilən "Qlobal miqrasiya fenomeni" mövzusunda 3-cü Beynəlxalq simpoziumda onlayn iştirak edib. Şərqşünas alim simpoziumda ingilis dilində "Azərbaycanda miqrantlar: problem və həlli yolları" mövzusunda məruzə edib. Məruzədə Azərbaycana siyasi, yaşayış, ailə və s. problemlərlə gələn qaçqınlar, onların ölkəmizdə üzləşdiyi problemlər haqqında danışılıb. Məruzəçi bu problemlərin həll olunması yolunda Azərbaycanın Miqrasiya Xidmətinin, UNCHR beynəlxalq təşkilatının göstərdiyi yardım proqramları və köməklikləri barədə məlumat verib.



Gülər Qafqazlı İnstitutun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru Səbinə Səmədova və Ərəb ölkələri tarixi və iqtisadiyyatı şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Fərda Əsədovla birgə 24-25 mayda Kiyevdə M.P.Draqomanov adına Pedaqoji Universitetin təşkilatçılığı ilə keçirilən şərqşünas alim Volf Beylisin xatirəsinə həsr olunmuş “Avropa və Şərq” adlı beynəlxalq konfransa onlayn qatılıb. Konfransda G.Qafqazlı isə “XIX əsrin əvvəllərində Çar Rusiyasının Azərbaycanda dini siyasəti”, S.Səmədova “X-XI yüzilliklərdə Bağdad ədəbi mühitində yeniliklər”, F.Əsədov “V.Beylis və Azərbaycan şərqşünasları: İllər boyu dostluq və əməkdaşlıq” mövzularında məruzə ediblər.

Din və ictimai fikir şöbəsinin müdiri, Gənc Alimlər və Mütəxəssislər Şurasının sədri fəlsəfə üzrə fəlsəfə doktoru Elnur Mustafayev xarici ölkələrdə keçirilən beynəlxalq konfranslarda fəal iştirakı ilə seçilib. Şərqşünas alim 2022-ci ilin 26-27 oktyabrında Malayziyanın paytaxtı Kuala-Lumpur şəhərində "Oman yaddaşı mərkəzi" və Malayziya Beynəlxalq İslam Universitetinin birgə təşkilatçılığı ilə keçirilən "Oman irsinin tərcüməsi" adlı yeddinci beynəlxalq konfransda "Azərbaycanda Quranın tədqiqi sahəsində tərcümə hərəkatları: Mirməhəmməd Bakuvinin "Kəşful-həqaiq" əsəri əsasında" adlı məruzə ilə çıxış edib. E.Mustafayev məruzə zamanı Azərbaycan tarixi, mədəniyyəti və alimləri haqqında ətraflı məlumatları verdikdən sonra, ölkəmizdə ərəb dili və ədəbiyyatı sahəsində aparılmış tədqiqatlar, həmçinin ərəb dilindən Azərbaycan dilinə tərcümə edilmiş əsərlər barəsində də söhbət açıb. Məruzəçi daha sonra Mirməhəmməd Bakuvi və ölkəmizdə Qurani-Kərimin tədqiqi sahəsində çox böyük əhəmiyyətə malik "Kəşfül-həqaiq" əsəri haqqında müfəssəl məlumatları müxtəlif ölkələrdən iştirak edən konfrans iştirakçılarının nəzərinə çatdırıb.

Bununla yanaşı, konfransda təmsil etdikləri ölkələrdə tərcümə fəaliyyətləri, təcrübələr, tarixi ənənə və gələcək perspektivlər haqqında fikir mübadiləsi aparmaq üçün bir neçə dövlətdən qatılan alimlər açıq söhbət panelinə dəvət edilib. Azərbaycanlı tədqiqatçı öz




növbəsində, vətənimizdə tərcümə fəaliyyətlərinin bir neçə əsrlik tarixindən, bu sahədə əldə edilmiş nailiyyət və təcrübələrdən, uzunmüddətli perspektivlərdən, o cümlədən dövlətimizin bu sahəyə ayırdığı diqqət və qayğıdan söhbət açıb. E.Mustafayev səmimi söhbət zamanı, xüsusilə AMEA-nın akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu və burada çalışan bir neçə dil bilən yüksəkixtisaslı kadrlar, həmçinin bu elmi müəssisənin yarıməsrlik tərcümə fəaliyyəti, habelə alimlərimizin müxtəlif dillərdən ana dilimizə tərcümə etdiyi əsərlər haqqında ətraflı məlumatları da paylaşıb. Daha sonra şərqşünas alim diqqətləri ölkəmizdə ərəb dilindən ana dilimizə edilən tərcümələrə çəkərək, xüsusilə Mirməhəmməd Bakuvinin bu sahədə həyata keçirdiyi tərcümə işləri haqqında lazımi məlumatları iştirakçıların diqqətinə çatdırıb. Belə ki, o, Mirməhəmməd Bakuvinin Qurani-Kərimin tərcüməsi ilə yanaşı, məşhur livanlı mütəfəkkir C.Zeydanın bir sıra əsərlərini ərəb dilindən Azərbaycan dilinə tərcümə etdiyini də xüsusi vurğulayıb. E.Mustafayevin Azərbaycanda həyata keçirilmiş və hal-hazırda davam etdirilən tərcümə fəaliyyətləri haqqında paylaşdığı məlumatlar iştirakçıların marağına səbəb olub.

Elnur Mustafayev mayın 7-də Sultan Mehmet Vakıf Universitetinin təşkilatçılığı ilə İstanbul şəhərində keçirilən "Ərəb dili və ədəbiyyatı araşdırmaları" II beynəlxalq elmi konfransında onlayn iştirak edib. Şərqşünas alim konfransda "Azərbaycan epiqrafik abidələrində ərəbcə yazı örnəkləri" adlı məruzə ilə çıxış edib. E.Mustafayev VII əsrdə İslam dininin zühuru ilə ərəb dilinin mövqeyinin güclənməsi, bu dilin yeni dini qəbul etmiş xalqların dillərinin və yazılarının formalaşmasındakı təbii rolundan bəhs etdikdən sonra, epiqrafik abidələrin müxtəlif müstəvilərdə əhəmiyyəti və vətən tarixinin öyrənilməsindəki yeri haqqında ətraflı məlumatları konfrans iştirakçılarının diqqətinə çatdırıb. Məruzə zamanı Azərbaycan maddi-mədəni irsinə aid bir çox abidələrin daş kitabələrinə ərəb dilində həkk olunmuş yazılar haqqında nümunələr göstərməklə söhbət açılıb. Məruzəçi qeyd edib ki, Azərbaycan epiqrafik abidələr baxımından çox zəngin bir coğrafiyadır. Müxtəlif dövrlərə aid on minlərlə kitabə dövrümüzə gəlib çatmışdır. Ərəbcə yazılar Azərbaycan kitabələrində əhəmiyyətli yerə malikdir. Ümumiyyətlə, kitabələrin üzərinə ərəbcə həkk olunmuş yazılar Qurani-Kərim ayələrini, hədisləri, şeir və hikmətamiz kəlamları, eyni zamanda aid olduğu dövrün şəxsiyyətləri və mühüm hadisələri haqqında informativ məlumatları əhatə edir.

Ərəb filologiyası şöbəsinin kiçik elmi işçisi Əzizə İsmayılova 2022-ci il noyabrın 18-də Türkiyənin Qars şəhərində keçirilmiş II Beynəlxalq Qars alimləri və ədəbiyyatçıları simpoziumunda iştirak edib. Şərqşünas alim simpoziumda “Curci Zeydanın Azərbaycan türkcəsinə çevrilmiş tarixi romanları” adlı məruzə ilə çıxış edib. Məruzədə tanınmış ərəb yazıçısı Curci Zeydanın (1861-1914) İslam tarixinə həsr etdiyi tarixi romanlarından bəhs olunub. Bu romanlardan dördü - “Misirli Ərmənusə”, “Qureyş bakirəsi”, “Kərbəla yanğısı”, “On yeddi ramazan” Bakı qazisi Mir Məhəmməd Kərim Mircəfərzadə əl-Bakuvi, “Fərqanə gəlini” romanı isə professor Vilayət Cəfər tərəfindən Azərbaycan dilinə tərcümə olunub. Həmin romanların təhlilini ehtiva edən məruzə maraqla dinlənilib.



Şərqşünaslıq elminin tarixi və nəzəriyyəsi şöbəsinin müdiri, fəlsəfə üzrə elmlər doktoru Roida Rzayeva 2022-ci il dekabrın 8-9-da Türkiyənin Konya şəhərində təşkil edilən II Beynəlxalq Mövlana düşüncəsində bəşəri münasibətlər simpoziumunda iştirak edib. Azərbaycanlı alim beynəlxalq konfransda “Mövlananın düşüncə dünyası” adlı məruzə ilə çıxış edib. Eyni zamanda Roida Rzayeva beynəlxalq simpoziumun elmi komitəsinin üzvü seçilib. Alim Mövlananın düşüncələrinin dövrlər üstü olduğunu və bunun əsas səbəbi olaraq

bəşəriyyətin daimi və universal prinsiplərini təsbit edə bilməsinin olduğunu qeyd edib. Diqqətə çatdırılıb ki, mütəfəkkirin həyatla əlaqədar fikirləri və düşüncələri bu gün bütün dünya tərəfindən qəbul edilən universal dəyərlərlə səsləşərək müasir dövrdə də aktuallığını qorumaqdadır. Məruzədə Mövlananın yaradıcılığında insanın müxtəlif baxım bucaqlarından təhlil edildiyi qeyd olunaraq ideal insandan bəhs edilib. Türk-İslam fəlsəfi fikrinin, eyni zamanda Türk mədəni mirasının bir hissəsi olan Ruminin dünya mədəniyyətinə və düşüncə tarixinə əhəmiyyətli töhfələr verdiyi qeyd olunub.




Roida Rzayeva Humanitar, Sosial Elmlər və Menecment tədqiqatları üzrə Beynəlxalq Assosiasiyanın 27-29 martda Türkiyənin İstanbul şəhərində təşkil etdiyi "Təhsil, marketinq, sosial və humanitar elmlər" üzrə 46-cı Beynəlxalq İstanbul konfransında da iştirak edib. Konfransa dünyanın 11 ölkəsindən iştirakçılar qatılıb. Şərqşünas alim konfransda "İnklüziv inkişaf və modernləşmə" adlı məruzə ilə çıxış edib. Həmçinin Roida Rzayevaya konfransın iclaslarına sədrlik həvalə edilib. R.Rzayeva məruzəsində bu gün iqtisadiyyatın mühüm rol oynadığı




modernləşmə fəlsəfəsinə yenidən baxıldığından bəhs edib. Məruzədə modernləşmə prosesinin siyasi komponentinin birbaşa sosial-iqtisadi inkişafla bağlı olduğu, buna görə də iqtisadiyyatın fəlsəfəsinin də dəyişdiyi, hal-hazırda cəmiyyətlərin inkişaf modelinin transformasiyasının sürətləndirməsində və ümumiyyətlə sosial-iqtisadi inkişaf planlarında inklüziv inkişaf məsələlərinin diqqət mərkəzində olduğu qeyd olunub. İnklüziv inkişafın yeni inkişaf vasitələrindən biri olduğu və müasir şəraitdə dövlət idarəetmə mexanizmi, cəmiyyətin inkişafını stimullaşdıran innovativ metod kimi qəbul edildiyi vurğulanıb. Alim inklüziv inkişafın modernləşmədən daha çox postmodernləşmə ilə bağlı olduğunu, postmodern cəmiyyətdə dövlətin sosial tərəfdaş kimi çıxış etdiyini və bunun da inklüzivliyi birbaşa əks etdirdiyini diqqətə çatdırıb. Roida Rzayevanın məruzəsi beynəlxalq konfransın ən yaxşı məruzəsi seçilib.



2023-cü il martın 10-11-də Tunisdə Manouba Universitetinin təşkilatçılığı ilə keçirilən 3-cü "7 qitədə Osmanlı türk çalışmaları" adlı beynəlxalq elmi konfransda Şərqşünaslıq İnstitutunun Türkiyə tarixi və iqtisadiyyatı şöbəsinin əməkdaşlari - tarix üzrə fəlsəfə doktorları Zülfiyə Vəliyeva və Yaxşıxanım Nəsirova onlayn şəkildə iştirak ediblər. Z.Vəliyeva konfransda "XVIII əsrin əvvəllərində Gəncə fəthində iştirak edən Osmanlı ordusu - Gəncə-Qarabağ əyalətinin timar ruznamə dəftəri əsasında", Y.Nəsirova isə "Azərbaycanda Osmanlı təhrir dəftərləri ilə bağlı çalışmalar" mövzusunda məruzə ediblər.

İnstitutun Nəşriyyat və elmi informasiya şöbəsinin əməkdaşları Faidə Omarova və Aygül Mirzəyeva martın 18-də Türkiyənin paytaxtı Ankarada keçirilən V Beynəlxalq Sosial Elmlər Konfransına onlayn qatılıblar. F.Omarovanın "Dil hadisələrinin aydınlaşdırılmasında antroposentrik yanaşma" mövzusunda məruzəsində qeyd edilib ki, bizim dünyamız dil vasitəsilə dərk edilən, şərh edilən və ifadə olunan dünyadır. Dili dərk edib anlamaq üçün ilk növbədə danışan və düşünən şəxsiyyət olan, onun daşıyıcısı insana müraciət etmək lazımdır. Belə ki, dil insanın həyatı, fəaliyyəti və təfəkkürü ilə bilavasitə bağlıdır və cəmiyyətdən kənarda mövcud ola bilməz.

Məruzəçi belə qənaətə gəlir ki, dilçiliyin müasir inkişaf mərhələsində antroposentrizm o zaman reallaşır ki, tədqiqatçı dili öz fərdi linqvistik intuisiyasına əsaslanaraq onun daşıyıcısı kimi öyrənir. Dil şəxsiyyətinin analizində insan başlanğıc nöqtəsinə çevriləndə, həmçinin müxtəlif sistemli tədqiqatlarda əsas keçidin təcəssümü şəklində olanda antroposentrik yanaşmanı müəyyən etmək mümkündür.



A.Mirzəyeva konfransda "Dil və mədəniyyətin qarşılıqlı təsirinə dair" mövzusunda məruzə edib. Məruzədə öz ana dilini öyrənən hər bir nəslin, eyni zamanda özündən əvvəlki nəsillərin xarakterik xüsusiyyətlərini, mentalitetinin spesifik cəhətlərini mənimsədiyi və bunda da dilin rolunun danılmazlığı qeyd edilib. Bildirilib ki, ortaq funksiyalar yerinə yetirən elmi fənlər kimi dil və mədəniyyətin qarşılıqlı əlaqə və təsiri ilə bağlı tədqiqatların aparılması dilçilik elmi ilə yanaşı, bir sıra digər insanın mərkəzi mövqe tutduğu elm sahələrinin də diqqətindədir. Psixologiya, sosiologiya, fəlsəfə, etnoqrafiya və s. kimi sosial elmlər bu kimi məsələlərinin öyrənilməsində aparıcı rol oynayır.

İran filologiyası şöbəsinin elmi işçisi Fidan Nəsirova mart ayında bir neçə konfransda iştirak edib. Şərqşünas alim Türkiyənin Samsun şəhərində keçirilən III Beynəlxalq Qara dəniz Modern Elmi Araşdırmalar Konfransında onlayn iştirak edib. Bolqarıstan Elmlər Akademiyası, İKSAD İnstitutu, Buxarest Universiteti, Qara dənizə çıxışı olan ölkələrin Elmi Assambleyası, QaraSam-Qara dəniz strateji araşdırma və tətbiq mərkəzlərinin birgə təşkilatçılığı ilə baş tutan konfransa 30-dan çox ölkənin alim və tədqiqatçıları qatılıb. F.Nəsirova konfransda "Dalğa"ya çevrilən arx və ya Güney Azərbaycanın igid qızı" adlı məruzə ilə çıxış edib. Auditoriyadakı xarici nümayəndələrin müxtəlifliyini nəzərə alan məruzəçi çıxışını Azərbaycan adlı vahid məmləkətin mənfur güclərin əli ilə ikiyə parçalandığı tarixə ekskursla başlayıb, iki əsrdən çox davam edən milli azadlıq mücadiləsinin bu gün daha kəskin və ciddi mərhələyə keçid aldığını konfrans iştirakçılarının nəzərinə çatdırıb. Güneyimizdə yaşananlarla son dərəcə paralellik təşkil edən, səsləşən məruzədə şairə, müəllimə, inqilabçı, ömrünün 29-cu baharında SAVAKla silahlı atışmada qətlə yetirilən İran Xalq Partizan Fədailəri təşkilatının tanınmış üzvü Mərziyə Üskuyinin həyat və yaradıcılıq yoluna işıq salınıb. Şairənin mübarizələrdə keçən həyatın məndəricəsini xatırladan poetik irsi filoloji aspektdə təhlil olunub.

Fidan Nəsirova Braziliyanın Rio de Janeyro şəhərində keçirilən IV Latın Amerika Beynəlxalq Sosial və Humanitar Elmlər Konfransına da onlayn qatılaraq "Uşaq ədəbiyyatı oxucularının yaş xüsusiyyətləri" adlı məruzə ilə çıxış edib. Ədəbiyyatın tərkib hissəsi sayılan uşaq ədəbiyyatının spesi-



fik və fərqli cəhətləri haqqında geniş məlumatın da yer aldığı məruzədə uşaq oxucularının yaş kriteriyaları ilə əlaqədar diqqətdə saxlanılmalı olan məqamlar incələnib, bu məqamların uşaqların bədii-estetik zövqünün formalaşmasındakı müstəsna əhəmiyyəti dinləyicilərin nəzərinə çatdırılıb. Pedaqoji təlimin tələblərinə əsasən dil-üslub, ideya-tematik yanaşmadakı nüansların uşaqlara yönəlik yaradıcılıq nümunələrindən seçilmiş sitatlarla təqdim olunduğu məruzə konfrans iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb.

Fidan Nəsirova həmçinin martın 28-30-də Almaniyanın Frankfurt şəhərində keçirilən VII Beynəlxalq Avropa Disiplinlərarası Elmi Araşdırmalar Konfransında iştirak edib. Şərqşünas alim onlayn qatıldı-



ğı konfransda "İranda məktəb açmış birinci böyük şəxsiyyət Rüşdiyyədir" adlı məruzə edib. Məruzəçi bu gün qonşu ölkədə əldə olunan bir çox elmi, mədəni, texniki, iqtisadi nailiyyətlərin kökündə məhz türkəsilli soydaşlarımızın durduğunu fəxrlə vurğulayaraq, tezisini çoxsaylı elmi faktlarla əsaslandırıb. Alim mülahizələrinin məntiqi davamı kimi, gələcək nəsillərin formalaşmasında müstəsna əhəmiyyətə malik ilklərə imza atan saysız-hesabsız soydaşlarımızdan biri, İranda ilk müasir tipli, dünyəvi məktəblərin banisi M.H. Rüşdiyyənin həyat və yaradıcılığına müraciət edib. Qeyd edək ki, məruzədə maarifpərvər ziyalı, şair, nasir, müəllim, dini-siyasi xadim M.H. Rüşdiyyənin çoxşaxəli ictimai, elmi-pedaqoji fəaliyyəti ilə yanaşı, onun Səfəvilər dövründən sonra Cənubi Azərbaycanda ana dilimizdə açılan ilk milli məktəb olan "Rüşdiyyə məktəbləri"ndəki təlim-tədris metodlarından da söz açılıb. Bütün şüurlu həyatını insanların savadlanmasına həsr etmiş pedaqoqun "Vətən dili" dərsliyi, çoxsaylı metodik vəsaitləri və ümumilikdə bədii irsinin müxtəlif cəhətlərdən təhlili dinləyicilərin marağına səbəb olub.

Fidan Nəsirovanın qatıldığı növbəti beynəlxalq tədbir 26-27 mayda Özbəkistanın Daşkənd şəhərində keçirilən Əlişir Nəvai Beynəlxalq Sosial və Humanitar Elmlər Konfransı olub. Şərqşünas alim onlayn qoşulduğu konfransda "Uşaqlara bağışlanan ömür və ya "böyük kədərini böyük işlərlə əvəzləyən Turan Mirhadi" mövzusunda məruzə ilə çıxış edib. O, ömrünün 60 ildən çoxunu uşaq və gənclərin inkişafına həsr edən Cənubi Azərbaycan əsilli uşaq ədəbiyyatı professoru, təhsil eksperti, "Fərhad" tədris-təcrübə kompleksinin təsisçisi, Uşaq Kitab Şurasının, "Uşaq və yeniyetmələr ensiklopediyası"nın yaradıcılarından biri olan Turan Mirhadinin həyat və yaradıcılığından geniş söz açıb. Məruzəçi tədqiqat obyektinə çevirdiyi qəhrəmanının bədii irsi, çoxşaxəli fəaliyyəti ilə yanaşı çətinliklər, itkilərlə müşayiət olunan ömür hekayəsinin də insanlar üçün əsl həyat dərsi olmasını diqqətə çatdırıb. Turan Mirhadinin elmi fəaliyyətinin həyat hadisələri, şəxsi keyfiyyətlər fonunda təqdimi konfrans iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb.

Türkiyə tarixi və iqtisadiyyatı şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Namiq Məmmədov martın 31-də Qazaxıstanda Qazaxıstan Respublikası Təhsil və Elm Nazirliyi, Elm Komitəsi, Fəlsəfə, Siyasət və Dini Biliklər İnstitutunun təşkil etdiyi "Ümumtürk Dövlətləri İnteqrasiyasının Potensialı: Mövcud vəziyyət və perspektivlər" adlı Beynəlxalq konqresdə onlayn iştirak edib. Şərqşünas alim konqresdə "Türk dünyasının inteqrasiyasında Türkiyə - Azərbaycan münasibətlərinin rolu" mövzusunda məruzə edib. Məruzədə Türkiyə - Azərbaycan strateji əməkdaşlıq və tərəfdaşlığından, həmin münasibətlərin yaranması və inkişafına təsir göstərən əsas faktorlardan, onların göstəriciləri və nəticələrindən, həmçinin "Şuşa bəyannaməsi" və Zəngəzur dəhlizindən, Türk dünyasının inteqrasiyasında və əlaqələrin inkişafında onların rolundan bəhs edilib.




Namiq Məmmədov mayın 5-də Türkiyədə İstanbul Arel Universitetinin təşkil etdiyi "2-ci Beynəlxalq Ədalət Konqresi"ndə də iştirak edib. Şərqşünas alim onlayn qatıldığı konqresdə "Ədalət və inkişaf partiyasının hakimiyyəti dövründə Türkiyədə hüquqi islahatlar (2002-2015)" mövzusunda məruzə ilə çıxış edib. Məruzədə 2002-2015-ci illərdə Ədalət və inkişaf partiyasının hakimiyyəti dövründə Türkiyədə hüquqi sahədə həyata keçirilən islahatlar, onların səbəbləri, həyata keçirilməsini zəruri edən amillər və onların reallaşdırılması zamanı qarşılaşılan problemlər, həmçinin əldə olunan nəticələrdən bəhs edilib.

**Vüqar Məmmədov**
*AMEA-nın Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, f.ü.f.d.*

# Dünyamalı Əmir oğlu Vəliyev



Azərbaycan elminə ağır itki üz verib. Görkəmli şərqşünas alim, AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun Mərkəzi Asiya ölkələri şöbəsinin müdiri, iqtisad elmləri doktoru Dünyamalı Vəliyev 11 iyun 2023-cü il tarixində dünyasını dəyişib.

Dünyamalı Əmir oğlu Vəliyev 1942-ci ildə Borçalı mahalının Qasımlı kəndində anadan olub. 1959-1964-cü illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) İqtisad fakültəsinin Maliyyə və kredit şöbəsində ali təhsil alıb. Uzun illər Azərbaycan Respublikasının bank sektorunda, ali müəssisələrində çalışıb. 1971-ci ildə Azərbaycan SSR EA-nın Şərqşünaslıq İnstitutunda "Müasir Türkiyənin dövlət borcları" mövzusunda dissertasiya işini müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsi alıb. 1979-cu ildə Azərbaycan SSR EA-nın Şərqşünaslıq İnstitutunda çalışmağa başlayıb. Burada baş elmi işçi, şöbə müdiri və institutun elmi işlər üzrə direktor müavini kimi səmərəli fəaliyyət göstərib. 2010-cu ildə AMEA-nın İqtisadiyyat İnstitutunda "Azərbaycanın qlobal maliyyə-iqtisadi mühitə inteqrasiyasının aktual problemləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək iqtisad üzrə elmlər doktoru dərəcəsinə yiyələnib.

Dünyamalı Vəliyevin iqtisadiyyat elminin inkişafında xüsusi xidmətləri olub. 12 kitabın, o cümlədən "Türkiyənin dövlət maliyyəsi və sosial-iqtisadi inkişafı", "Qloballaşma şəraitində Azərbaycanın beynəlxalq bazarlara inteqrasiyası: təmayüllər, problemlər, perspektivlər", "Türkiyə. Turqut Ozal və iqtisadi möcüzələr", "Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası", “Türk dünyası qlobal iqtisadi inkişaf yollarında” və digər kitab və dərsliklərin, 60-dan çox elmi məqalənin müəllifidir. Bakı, Moskva, Kiyev, Tbilisi, Ankara, İstanbul, Bursa, Trabzon, Tehran, Tokio, Heidelberq şəhərlərində keçirilmiş konfrans, simpozium və seminarlarda Azərbaycan elmini layiqincə təmsil edib.

Dünyamalı Əmir oğlu Vəliyevin əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

### "Nizami Gəncəvinin etnik mənsubiyyəti" (ingilis və fars dillərində)



AMEA-nın vitse-prezidenti v.i.e., akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun baş direktoru, akademik Gövhər Baxşəliyevanın ingilis və fars dillərində "Nizami Gəncəvinin etnik mənsubiyyəti" kitabları işıq üzü görüb.

Akademik G.Baxşəliyeva bir sıra ölkələrdə şairin etnik mənsubiyyətinə dair çoxsaylı təhriflərə və çoxəsrlik mədəni irsimizin qonşu xalqlar tərəfindən mənimsənilməsi cəhdlərinə cavab olaraq yazdığı və 2021-ci ildə rus dilində nəşr etdirdiyi "Этническая идентичность Низами Гянджеви" kitabını əsl həqiqətləri daha geniş ictimaiyyətə, o cümlədən təhriflərə yol verənlərə və onların mənbələrinə əsaslananlara çatdırmaq məqsədilə bu dəfə ingilis və fars dillərinə tərcümədə nəşr etdirib.

Kitab bir neçə bölmədən ibarətdir və onun əvvəlində məşhur İran şairi və ədəbiyyatşünası Səid Nəfisinin sözləri yer alır: "Nizami fars şairi deyil, o, Azərbaycan mühitində yaşayıb-yaradıb və onun şeirləri fars üçün anlaşılmazdır".

Kitabda Nizaminin özünün əsərlərindən təkzibolunmaz faktlar əsasında şairin Azərbaycan türkü kimi etnik mənsubiyyəti sübuta yetirilib və bu məsələnin müxtəlif aspektləri yeddi bölmə üzrə araşdırmaya cəlb olunub. Dünya şərqşünaslığı, o cümlədən klassik poeziya üzrə görkəmli iranlı alim-mütəxəssislər farsdilli poeziyada digərləri ilə yanaşı "səbki-Azərbaycani" adlanan Azərbaycan üslubunu da fərqləndirir və bu sıraya Qətran Təbrizi, Xaqani Şirvani, Əbul-Üla Gəncəvi, Fələki Şirvani kimi farsdilli (yəni klassik farsca yazanlar, lakin etnik türklər) şairlərin yaradıcılığı ilə yanaşı, Nizaminin yaradıcılığını da daxil edirlər. Bu üslub farsca yazan şairlər arasında yalnız etnik Azərbaycan türkləri tərəfindən istifadə edilmişdir. O, zəngin metaforası, mürəkkəb obrazlar sistemi, şairlərin fəlsəfi düşünməyə meyli və ərəb mədəniyyətinin (yalnız Xorasan üslubundan istifadə edən etnik fars şairlər buna heç bir halda yol verməyərək, ərəblərə aid hər şeyə təkəbbürlə, laqeydliklə yanaşır, özlərini ali mədəniyyətin nümayəndələri hesab edirdilər), digər qədim mədəniyyətlərin nailiyyətlərindən istifadəsi ilə seçilirdi. Bu və bir sıra digər məsələlər - XII əsrdə Gəncə əhalisinin etnik tərkibi, Nizaminin harada və hansı ailədə doğulub boya-başa çatması, onun doğma Azərbaycanla bağlılığı, türkə aid hər şeyə məhəbbət və rəğbət, fars poeziyasının nümayəndələri üçün səciyyəvi olan iranyönümlüyün olmaması, türk sözlərinin tez-tez işlədilməsi və s. Nizaminin etnik türk olmasına heç bir şübhə yeri qoymur.

Kitabda indiyə qədər bəzi tədqiqatçıların Nizaminin anasının kürd mənşəli olmasına dair fikirlərini əsaslandırdıqları və "metis" kimi tərcümə edilən "ikdiş" sözünün tamamilə yeni izahı yer alır. Kitabın müəllifi bu mifi qəti şəkildə təkzib edir və Nizaminin həm atası, həm də anası tərəfdən Azərbaycan türkü olduğunu inandırıcı şəkildə sübut edir.

Kitabda Nizami irsinin bəzi digər məsələlərinə, məsələn, "Xosrov və Şirin" poemasındakı Şirinin etnik mənşəyi və dini inancı, bəzi erməni-sevərlər tərəfindən "Ermənistan" kimi təqdim edilən Ərmən vilayətinin etnik və konfessional tərkibi kimi məsələlərə də müəllifin münasibəti ifadə edilir.

### "Heydər Əliyev-100. Çinə səfərinin tarixi"




AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutun Asiya-Sakit Okean regionu ölkələri şöbəsinin aparıcı elmi işçisi, coğrafiya üzrə fəlsəfə doktoru Rafiq Abbasovun tərtib etdiyi "Heydər Əliyev-100. Çinə səfərinin tarixi" kitabı işıq üzü görüb.

Kitabın əvvəlində Rafiq Abbasovun geniş ön sözü verilir. Daha sonra Ulu Öndərin 1994-cü ilin 7-10 martında Çin Xalq Respublikasına səfərindən bəhs edilir. Kitabda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Çin Xalq Respublikasında təntənəli rəsmi qarşılanma mərasimi, sənədlərin imzalanması, ÇXR-nın Dövlət Şurasının Baş naziri Li Pen, İqtisadi İslahatlar üzrə Dövlət Komitəsinin sədri Li Tein ilə görüşləri barədə məlumat verilir. Daha sonra Azərbaycan Prezidenti Heydər Əliyevin Pekində mətbuat konfransında bəyanatının, Çin Beynəlxalq Ticarətin İnkişafına Yardım Komitəsində və Pekin İctimai Elmlər Akademiyasındakı çıxışlarının mətnləri təqdim edilir. Buradan Ulu Öndərin Böyük Çin səddində olması barədə də məlumat da diqqətə çatdırılır. Kitabda Heydər Əliyevin Şanxaya səfəri və bu şəhərdə keçirdiyi görüşlər barəsində də mətnlər nəzərə çatdırılır. Bu sırada şəhər meri ilə görüş, Şanxayın Çjoupu vilayətindəki toxuculuq fabriki ilə tanışlığı, gənc ailələrdən birinə qonaq olması barədə də məlumat almaq olar.

Kitabda Çin səfəri zamanı imzalanmış sənədlər, o cümlədən dostluq münasibətlərinin əsasları haqqında birgə bəyanat, eləcə də saziş və protokolların mətnləri diqqətə çatdırılır.

### "Azərbaycanın mədəniyyət paytaxtı Şuşa"




AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda "Azərbaycanın mədəniyyət paytaxtı Şuşa" adlı buklet çapdan çıxıb. Şuşa haqqında həqiqətləri dünya xalqlarına çatdırmaq məqsədilə bukletin materialları Şərqşünaslıq İnstitutunun əməkdaşları tərəfindən rus, ingilis, türk, ərəb, fars və çin dillərinə tərcümə olunub və Azərbaycan dili ilə yanaşı, ayrı-ayrılıqda qeyd edilən 6 dildə də çap edilib.

Bukletdə Azərbaycanın mədəniyyət paytaxtı Şuşanın tarixindən ətraflı bəhs edilir. Burada həmçinin Şuşa toponiminin etimologiyası, şəhərin təsərrüfat sahələri, tarixi abidələri haqqında məlumat verilir. Daha sonra Şuşanın mədəniyyət tarixinə, görkəmli mədəniyyət xadimlərinə aid məlumatlarla tanış olmaq olar.

Bukletdə həmçinin Şuşanın işğal edilməsindən, işğal zamanı şəhərdə ermənilər tərəfindən dağıdılan binalardan, tarixi abidələrdən, talan edilən mədəniyyət nümunələrindən bəhs edilir.

Oxucuların nəzərinə 2020-ci ilin 27 sentyabrından başlayan 44 günlük Vətən müharibəsində erməni işğalı altında olan Azərbaycan torpaqlarının, o cümlədən müharibənin yekununda noyabrın 8-də Şuşanın azad edilməsi, bu zaman Azərbaycan hərbçilərinin göstərdiyi rəşadət haqqında məlumat da çatdırılır.

Sonda Şuşa şəhərinin bərpası istiqamətində görülən işlər haqqında məlumat verilir və bukletin hazırlanmasında istifadə edilən ədəbiyyatın siyahısı diqqətə çatdırılır.

**Solmaz Rüstəmova-Tohidi. “Qarabağ-Zəngəzur. 1918-ci il. Azərbaycan qırğınları sənədlərdə”**




AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun baş elmi işçisi, tarix üzrə elmlər doktoru, professor Solmaz Rüstəmova-Tohidinin rus dilində “Qarabağ-Zəngəzur. 1918-ci il. Azərbaycan qırğınları sənədlərdə” kitabı işıq üzü görüb.

Bu nəşr 1917-1920-ci illərdə baş vermiş qanlı hadisələrə həsr olunmuş “Azərbaycan hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının sənədləri” seriyasından növbəti sənədlər toplusudur və Azərbaycanın Qarabağ bölgəsində, Gəncə quberniyasının Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzasında törədilən qətliamları əhatə edir.

Topluya daxil edilən sənədlər 1918-ci ilin iyulunda Azərbaycan hökuməti tərəfindən yaradılmış Fövqəladə Təhqiqat Komissiyası tərəfindən Birinci Dünya Müharibəsinin başlanğıcından bütün Zaqafqaziya ərazisində müsəlman əhaliyə və onların əmlakına qarşı həyata keçirilən zorakılıq, soyqırımı və talan faktlarını araşdırmaq üçün toplanıb tərtib edilmişdir. Bu topluda Fövqəladə Təhqiqat Komissiyasının “Gəncə quberniyasının Cəbrayıl qəzasının müsəlman kəndlərinin dağıdılması və ermənilərin onların sakinlərinə qarşı zorakılıqları haqqında” “Cavanşir qəzasının Kalaki kənd cəmiyyətinin 12 müsəlman kəndinin ermənilər tərəfindən dağıdılması haqqında”, “Şuşa qəzasının müsəlman kəndlərinin ermənilər tərəfindən dağıdılması haqqında” və “Gəncə quberniyasının Zəngəzur qəzasına silahlı hücum və kəndlərinin dağıdılması haqqında” kimi materialları yer alıb. Sənədlər 1918-1919-cu illərdə Gəncə quberniyasının göstərilən qəzalarında Andranikin rəhbərliyi altında erməni quldur dəstələrinin törətdiyi faciəli hadisələri nəzərdən keçirməyə imkan verir. Həmin hadisələrdə mindən çox dinc azərbaycanlı, o cümlədən qadınlar, uşaqlar və qocalar vəhşicəsinə qətlə yetirilib, yüzlərlə kənd, evlər, məscidlər, mülki obyektlər dağıdılıb, yandırılıb, azərbaycanlılara məxsus əmlak talan edilib. Toplunun dörd bölməsində yer alan sadalanan qəzaların sakinlərinin ifadələri müsəlman qırğınlarının xronologiyasını yaratmaq, zərərçəkənlərin dəqiq sayını, qətlə yetirilənlərin cinsini, yaşını, adlarını, dəymiş ziyanın həcmini, dağıdılmış və viran qalmış kəndlərin adlarını və s.-ni müəyyən etməyə imkan verir. Erməni birləşmələrinin cinayət əməllərini təfərrüatı ilə ifşa edən sənədlər sübut edir ki, Qarabağ və Zəngəzur hadisələri erməni millətçilərinin irihəcmli əməliyyatlarının və planlarının tərkib hissəsi olmaqla, bölgədə müsəlman əhalini azaltmaqla bu əraziləri Ermənistana birləşdirmək məqsədi güdürdü. Topluya həmçinin məsələnin tarixinə dair elmi oçerk, ətraflı yardımçı informasiya aparatı və fotoşəkillər daxil edilib.

**“Azərbaycan” qəzeti (Azərbaycan Demokratik Firqəsi Mərkəzi Komitəsinin orqanı). 1-ci hissə**




AMEA-nın akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda 1945-1946-cı illərdə Təbrizdə nəşr etdirilmiş Azərbaycan Demokratik Firqəsi Mərkəzi Komitəsinin orqanı “Azərbaycan” qəzeti materiallarının 1-ci hissəsi dilimizə tərcümə və transliterasiyada kitab şəklində çap olunub.

“Azərbaycan” qəzetinin ilk sayı 5 sentyabr 1945-ci il tarixində çap edilərək xalq arasında yayılmış və Azərbaycanda milli-demokratik hərəkatın süqutunadək (12 dekabr 1946-cı il) 370 sayı dərc edilmişdir.

“Azərbaycan” qəzeti 1945-1946-cı illərdə cənubi azərbaycanlıların milli-demokratik hərəkatı nəticəsində yaradılmış və cəmi bir il yaşamış Azərbaycan Milli Hökumətinin ictimai, iqtisadi, siyasi və mədəni sahələr üzrə həyata keçirdiyi islahatları, Azərbaycan cəmiyyətinin demokratik əsaslar üzərində qurulub möhkəmləndirilməsi sahəsində fəaliyyətini, bütün İran miqyasında demokratik hüquqlar uğrunda mübarizəsini əks etdirib. Bu qəzet Azərbaycan xalqının milli mədəniyyətini, onun keçmiş və hazırkı inqilabi mübarizə tarixini öz səhifələrində işıqlandıran, onu demokratik və azadlıqsevər mədəni bir millət kimi dünyaya tanıtdıran xitabət kürsüsü olub.

Qəzetin farsca və əski əlifbada azərbaycanca mətnləri orijinal şəkildə Şərqşünaslıq İnstitutunun Cənubi Azərbaycan şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Səməd Bayramzadə tərəfindən 4 hissədə çapa hazırlanıb. 1-ci hissə 2017-ci, 2-ci hissə isə 2018-ci ildə S.Bayramzadənin məsul redaktorluğu ilə Şərqşünaslıq İnstitutunda kitab şəklində çapdan çıxıb. Digər iki hissə də çapa hazırdır.

Daha sonra qəzetdəki məqalələrin fars dilindən Azərbaycan dilinə tərcüməsinə və Azərbaycan dilində əski əlifbada olan yazıların transliterasiyasına başlanılıb və 4 hissədən 1-cisini əhatə edən kitab çapdan çıxıb. 1-ci hissədə "Azərbaycan" qəzetinin 5 sentyabr - 31 dekabr 1945-ci il tarixləri arasında nəşr olunmuş ilk 90 sayındakı məqalələrin tərcüməsi və transliterasiyası təqdim edilir. Kitabı nəşrə hazırlayan və məsul redaktor Səməd Bayramzadədir. Məqalələri Səməd Bayramzadə və Şərqşünaslıq İnstitutunun elmi işçisi Saleh Dostəliyev tərcümə və transliterasiya ediblər. Kitabın ön sözünün müəllifi AMEA-nın vitse-prezidenti v.i.e., Şərqşünaslıq İnstitutunun baş direktoru, akademik Gövhər Baxşəliyevadır. Kitabda həmçinin məsul redaktordan - Səməd Bayramzadədən ön söz təqdim edilir.

Qeyd edək ki, "Azərbaycan" qəzetinin tərcümə və transliterasiyasının 2-ci hissəsi də çapa hazırdır.

**Əmmar Abbasov.**
**"Erkən islam tarixi məsələləri (VI-VII əsrlər) azərbaycanlı tədqiqatçıların əsərlərində"**




AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun Din və ictimai fikir şöbəsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Əmmar Abbasovun "Erkən islam tarixi məsələləri (VI-VII əsrlər) azərbaycanlı tədqiqatçıların əsərlərində" kitabı işıq üzü görüb.

Mərhum şərqşünas alim, fəl.ü.f.d. Esmeralda Həsənovanun redaktoru olduğu kitabda azərbaycanlı tədqiqatçıların erkən islam tarixi haqda tədqiqatları ümumiləşdirilib, ərəb dilində olan əsərlərlə müqayisəli şəkildə araşdırılıb.

Azərbaycan tarixinin xeyli hissəsi Xilafətlə bağlı olduğundan islam tarixinin öyrənilməsi məsələsi həmişə önəmli olub. Erkən islam tarixinin Azərbaycanda öyrənilməsi sahəsində şöhrət qazanmış bir sıra alimlərin elmi fəaliyyətlərinin araşdırılmasının xalqımızın mənsub olduğu islam dini mədəniyyətinin və tarixinin öyrənilməsində müstəsna rolu var. Elmin bütün sahələrində olduğu kimi islam dininin tarixi sahəsində də elmi zəkası və təfəkkürü ilə seçilən tədqiqatçılarımızın çoxlu mənbələri araşdırmaları və dəyərli nəticələri hər zaman mühüm əhəmiyyət kəsb edib və etməkdə davam edir. Azərbaycanda A.A. Bakıxanovdan tutmuş Z.M. Bünyadov, P.T. Juze, Ə. Əlizadə, Şeyxülislam Allahşükür Paşazadə, S. Aşurbəyli, İ. Əliyev, O. Əfəndiev, R. Hüseynov, N. Vəlixanlı, İ. Babayev, G. Baxşəliyeva, Y. Mahmudov, Ş. Fərzəliyev, E. Həsənova, Q. Kərimov, A. Məmmədov, R. Əliyev, R. Mürsəlov, H.F. Nurullah, Ş. Şərifov və başqa onlarla tədqiqatçılarımız Azərbaycan tarixi, islam tarixi və islamla bağlı yüzlərlə qiymətli tədqiqat əsərləri yazıb ortaya qoyublar. Əmmar Abbasovun kitabında bu alimlərin əsərlərində erkən islam tarixi və onunla bağlı Azərbaycan tarixi haqqındakı fikirləri bir yerə cəmləşdirilərək, onların əsasında həqiqi erkən islam tarixi oxuculara təqdim edilib. Yeri gəldikcə, onların müraciət etdikləri ərəb, fars və başqa dilli mənbələrə də müraciət edilib.

Kitab giriş, 3 fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Birinci fəsildə Azərbaycan tədqiqatçılarının əsərlərində İslamın erkən dövrü, Məhəmməd peyğəmbər və yəhudi, xristian münasibətləri, peyğəmbərin Mədinə həyatı, eləcə də Bədr, Uhud, Xəndək, Xeybər döyüşləri, Məkkənin fəthi, Əhli-beyt haqqında və s. mövzularda yazılanlardan bəhs edilir. 2-ci fəsildə Raşidi xəlifələr dövründən, xəlifələr Əbubəkr, Ömər, Osman, Əlidən, Cəməl, Siffeyn-Siffin döyüşlərindən bəhs edən tədqiqatlar barədə məlumat verilir. 3-cü fəsildə ilk Əməvi və ya Süfyani xəlifələr dövründən bəhs edilir.

**"Yazılar"**




Azərbaycanda ibrişünaslıq üzrə dəyərli tədqiqatları və tərcümələri ilə tanınan mütəxəssis, daha öncə Yəhudi dininin müqəddəs Kitabı "Tanax"ın birinci hissəsi «Tövrat»ı və ikinci hissəsi "Peyğəmbərlər" kitabını ilk dəfə olaraq orijinaldan Azərbaycan dilinə tərcümə edərək, nəfis tərtibatda ictimaiyyətin diqqətinə çatdırmış AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun Yazılı abidələrin tədqiqi və nəşri şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Teymur Sadıqov bu dəfə "Tanax"ın sonuncu - üçüncü hissəsi olan «Yazılar» kitabını tərcümə edərək çap etdirib. Bununla da akademik Gövhər xanım Baxşəliyevanın rəhbərliyi altında Azərbaycanda ilk dəfə olaraq Yəhudi dinin müqəddəs Kitablar toplusunun tərcüməsi tamamlanıb.

Dünyanın bir neçə dillərinə tərcümə olunmuş «Yazılar» kitabı indiyədək ibri dilindən orijinal mətni ilə müqayisəli şəkildə Azərbaycan dilinə tərcümə edilməmişdi. Multikultural Azərbaycan cəmiyyətində Yəhudi dininin müqəddəs Kitabları "Tövrat"ın və "Peyğəmbərlər"in tərcüməsindən sonra "Tanax"ın üçüncü his-

səsi olan «Yazılar» kitabının tərcüməsinə ehtiyac var idi. Akademik səviyyədə yerinə yetirilmiş bu tərcümədən sonra Azərbaycan ədəbiyyatında və şərqşünaslıq elmində yeni-yeni müqayisəli mövzular və tədqiqat işlərinin meydana çıxacağı şübhəsizdir. Müqəddəs "Tövrat" və "Peyğəmbərlər" kitabının Azərbaycan dilinə tərcüməsindən sonra «Yazılar» kitabının tərcüməsi istər sadə oxucular, istərsə də mütəxəssislər tərəfindən çox böyük maraqla qarşılanır.

Yəhudi dininin müqəddəs yazılar toplusunu özündə cəmləşdirən "Tanax"ın üçüncü və sonuncu hissəsi olan "Ktuvim – Yazılar" kitabı dərin mənəvi-fəlsəfi mənadan, habelə mənəvi-etik nəsihətlərdən ibarətdir. "Yazılar" kitabı "Tanax"da "Tövrat" və "Peyğəmbərlər" kitablarından sonra gəlir. "Tanax"ın bu hissəsinə 11 kitab daxildir. Bütün bu kitabların əsas prinsipi ondan ibarətdir ki, bu kitablar Ruax Hakodeş - Müqəddəs Ruhun (Cəbrayıl məleykənin vasitəsilə) təsiri altında yazılıbdır. Hesab edilir ki, əgər bir kitab və ya fikir insan müdrikliyi nəticəsində mütləq həqiqəti açıqlayırsa, deməli burada mütləq Müqəddəs Ruhun təsiri mövcuddur. Çünki Müqəddəs Ruhun iştirakı olmadan bəşər övladının belə bir mərhələyə çatması mümkün deyil.

Burada fəlsəfi fikirlərlə bərabər, həm də yəhudi tarixinin müxtəlif dövrlərində baş vermiş hadisələrdən də bəhs edilir.

**Lalə Qasımlı.**
**"XX əsrin II yarısında Türkiyə hekayəçiliyində ənənə və novatorluq (Mustafa Kutlunun hekayələri əsasında)"**




AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Lalə Qasımlının "XX əsrin II yarısında Türkiyə hekayəçiliyində ənənə və novatorluq (Mustafa Kutlunun hekayələri əsasında)" kitabı işıq üzü görüb.

Filologiya elmləri doktorları, professorlar Əsgər Rəsulov və Elman Quliyevin redaktorları olduğu kitabda Türkiyə ədəbiyyatında hekayə janrının tarixi keçmişi tədqiq olunub, yazıçı Mustafa Kutlunun hekayələri əsasında hekayəçilikdə ənənə və novatorluq məsələləri öyrənilib.

Türkiyə hekayəçiliyində ənənə və novatorluğun Mustafa Kutlunun əsərləri əsasında tədqiqi Azərbaycanda bu mövzuda yazılmış ilk elmi araşdırmadır.

Monoqrafiya giriş, hər biri müvafiq yarımfəsillərə bölünmüş üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

Monoqrafiyanın "Türkiyə ədəbiyyatında hekayə janrının təşəkkülü və təkamülü istiqamətləri" adlı birinci fəslində hekayənin Türkiyə ədəbiyyatındakı tarixi inkişaf yollarından bəhs edilir, köhnə tip hekayəçilikdən müasir hekayəçiliyə keçid prosesi araşdırılır, ən yeni dövr Türkiyə hekayəçiliyi nəzərdən keçirilir.

"Mustafa Kutlunun həyatı, ədəbi mühiti və bədii-estetik dünyagörüşünün formalaşması" adlı ikinci fəsildə yazıçının həyatı və ədəbi mühiti barədə məlumat verilir, bədii-estetik dünyagörüşünün formalaşmasından bəhs edilir.

"Mustafa Kutlunun hekayəçiliyində ənənə və novatorluq" adlı üçüncü fəsildə ilk olaraq yazıçının yaradıcılığının özünüifadə mərhələsindən söz açılır, daha sonra özünütəsdiq mərhələsində ədəbi axtarışlarından, klassik Şərq-türk ədəbiyyatından təsirlənməsindən bəhs edilir. Bu fəsildə həmçinin Mustafa Kutlunun keçid dövrü hekayələri, eləcə də şifahi xalq ədəbiyyatından ilham alaraq yazdığı hekayələri nəzərdən keçirilir.

**Bakı quberniyası Şamaxı qəzasının müsəlman əhalisi (XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində)**




AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutun Mərkəzi Asiya ölkələri şöbəsinin baş elmi işçisi, siyasi elmlər doktoru, dosent Mirabdulla Abdullayevin və Türkiyə tarixi və iqtisadiyyatı şöbəsinin böyük elmi işçisi Mirzə Ənsərlinin tərtib etdikləri "Bakı Quberniyası Şamaxı qəzasının müsəlman əhalisi (XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində)" kitabı çapdan çıxıb.

Kitabın əsasını 1840-1926-cı illərdə Bakı Quberniyasında mövcud olmuş Şamaxı qəzasının müsəlman əhalisi haqqında arxivlərdən götürülmüş məlumatlar təşkil edir. Kitabda ilk olaraq Şirvan tarixi ərazisi haqqında 861-ci ildən 1926-cı ilədək dövrü əhatə edən ümumi məlumat verilir. Daha sonra Şamaxı qəzasının və Şamaxı şəhərinin idarəetmə strukturu barədə informasiya nəzərə çatdırılır. Burada qəza və şəhər rəisləri, katiblər, kargüzarlar, müsahiblər, arxiv müdirləri, tərcüməçilər, həkimlər, memarlar, polis pristavları və digər peşə sahiblərinin siyahısı təqdim edilir.

Tərtibçilər həmçinin Şamaxı qəzasının zadəganları, eləcə də maarifçilər, publisistlər, xeyriyyəçilər, din xadimləri, seyidlər haqqında qısa məlumat verirlər. Kitabda Şamaxı qəzasının kəndləri haqqında ətraflı bəhs edilir. Həmçinin Şamaxı soyqırımı haqqında məlumat, Qafqaz Arxeoqrafiya Komissiyasının aktları diqqətə çatdırılır.

**“Mirzə Kazımbəy-220” Beynəlxalq Elmi Konfrans. Tezislər**




AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda keçirilmiş “Mirzə Kazımbəy-220” beynəlxalq elmi konfransında səslənmiş məruzələrin tezisləri çapdan çıxıb.

Topluda Azərbaycan, Misir, Qazaxıstan, Rusiya və Belarusdan 34 alimin məruzəsinin tezisi dərc olunub. İlk olaraq AMEA-nın vitse-prezidenti vəzifəsini icra edən, akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun baş direktoru, akademik Gövhər Baxşəliyevanın konfransda giriş nitqinin mətni təqdim edilir.

Məruzələrin tezisləri sırasında xarici alimlərdən Qazaxıstanın R.B.Süleymenov adına Şərqşünaslıq İnstitutunun elmi işlər üzrə direktor müavini, iqtisadiyyat elmləri doktoru, dosent Düysen Qalımjanın “Mirzə Məhəmməd Əli Kazımbəy və Şokan Ualixanov: türk dünyasının görkəmli intellektualları”, Sankt-Peterburq Dövlət Universitetinin kafedra müdiri, professor Oleq Redkinin “Mirzə Kazımbəy və SPbDU-nun Şərq fakültəsi”, həmin Universitetin professoru Olqa Bernikovanın “Dayanıqlı inkişaf perspektivləri baxımından şərqşünaslıq elmi”, Belarus Dövlət Rabitə Akademiyasının əməkdaşı Dmitri Naumovun “Mədəniyyətin mənimsənilməsinin çətinlikləri və riskləri” və Misir Humanitar Araşdırmalar və Elmlər üzrə Dialoq Müəssisəsinin əməkdaşı Əmir Əhməd Camal Əbdülhəkimin “Rusiyada ərəbləşmə məktəbi: rol və nailiyyət” mövzusunda tezisləri yer alıb.

Azərbaycan alimlərindən ölkəmizin Bosniya və Herseqovinadakı fövqəladə və səlahiyyətli səfiri, f.e.d., professor Vilayət Quliyevin “Mirzə Kazımbəy və tatar maarifçiləri”, AMEA-nın Şərqşünaslıq İnstitutunun əməkdaşlarından c.ü.f.d. Rafiq Abbasovun “Mirzə Kazımbəy və Avropa çinşünaslığı”, fil.ü.f.d. Günay Verdiyevanın “Görkəmli alim Mirzə Kazımbəyin iranşünaslığın inkişafında rolu”, fil.ü.f.d. Xanımzər Kərimovanın “Mirzə Kazımbəy yaradıcılığında şərq ədəbiyyatı”, fil.ü.f.d. Aybəniz Həsənovanın “Mirzə Kazımbəyin həyat və yaradıcılığı”, Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin müəllimlərindən fil.ü.f.d. Əsmətxanım Məmmədovanın “Azərbaycan xalqının tanınmış türkoloq, şərqşünas alimi Mirzə Kazımbəy”, fil.ü.f.d. Leyla Mahmudovanın “Mirzə Kazımbəyin fars dilçiliyinə dair tədqiqatları”, fil.ü.f.d. Cavanşir Məmmədzadənin “Mirzə Kazımbəy və İran filologiyası”, Memarlıq və İncəsənət Universitetinin dosenti, fəl.ü.f.d. Tamilla Əhmədovanın “Mirzə Kazımbəyin mədəni-tarixi inkişaf konsepsiyasının tədqiqinə komparativist yanaşma” mövzularında məruzəlinin tezislərini və s.-ni qeyd etmək olar.

**Şərq araşdırmaları (elmi-nəzəri jurnal). 5-ci sayı**




AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun “Şərq araşdırmaları” elmi-nəzəri jurnalının 5-ci sayı işıq üzü görüb. Jurnalda ədəbiyyat, dilçilik, tarix, etnoqrafiya, siyasi elmlər və fəlsəfə sahələrinə aid 25 elmi məqalə dərc olunub.

Jurnalın “Ədəbiyyat” bölməsində gender problemlərinin yeni dövr Misir ədəbiyyatında işıqlandırılması, Circi Zeydanın “Harunun bacısı Abbasə” romanında dövrün ictimai-siyasi reallıqları, divan ədəbiyyatının son təmsilçisi Leskofçalı Qalib, XVII əsrin məşhur Türkiyə mütəfəkkiri Katib Çələbinin həyatı və əsərləri, türk ədəbiyyatında tarixi roman janrının nəzəri aspektləri haqqında və s. məqalələr yer alır.

“Dilçilik” bölməsində Türkiyə türkcəsində nəzakət anlayışına və “Yətimətud-dəhr” antologiyasında poetik fiqurlara aid məqalələr təqdim edilir.

“Tarix, etnoqrafiya və siyasi elmlər” bölməsindəki məqalələrdə Cənubi Azərbaycanda türk müsəlman əhaliyə qarşı soyqırımının qarşısının alınmasında Ənvər Paşanın fəaliyyətindən, XIX əsr Qərb səyahətnamələrində Osmanlı evlərinin memarlıq xüsusiyyətlərindən, müstəqil Azərbaycanın Çin Xalq Respublikası ilə münasibətlərindən, İran və Rusiyanın beynəlxalq məsələlərdə əməkdaşlığından, XIX əsr Osmanlı İmperiyasında “salon” mədəniyyətinin yaranmasından, sosializm sisteminin süqutu dövründə Azərbaycan-Qazaxıstan əməkdaşlığının hədəflərindən bəhs edilir. Bu bölmədə həmçinin Şərq və Qərb mədəniyyətlərinin qarşılıqlı təsirinin öyrənilməsində tətbiq olunan metod və metodologiyaların əlaqəsinə, Azərbaycanın xarici siyasətinin elmi-konseptual əsasları, əsas prinsipləri və prioritetlərinə, ərəblərin Mərkəzi Asiyada məskunlaşması tarixinə dair və s. məqalələr yer alır.

Jurnalın “Fəlsəfə” bölməsində Şərq və Qərb arasında fərqli düşüncə tərzinin yaranma səbəblərindən bəhs edən məqalə təqdim edilir.

**Şərq araşdırmaları (elmi-nəzəri jurnal). 6-cı sayı**




AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Şərq araşdırmaları" elmi-nəzəri jurnalının 6-cı sayı işıq üzü görüb. Jurnalda ədəbiyyat, dilçilik, tarix, etnoqrafiya, siyasi elmlər və fəlsəfə sahələrinə aid elmi məqalələr dərc olunub.

Jurnalın "Ədəbiyyat" bölməsində qloballaşma prosesində türk yazıçıların Almaniyada multikultural ədəbiyyatşünaslığın inkişafındakı rolu, Nizami və Şərq folklor ənənələri barədə, eləcə də Ali Ayçilin "Sehirbaz Seyfəddinin son sehri" adlı hekayəsinin təhlilinin aparıldığı məqalələr yer alır.

"Dilçilik" bölməsində Yunus Əmrə divanında ərəb-fars mənşəli sözlərdən bəhs edilən məqalə təqdim edilir.

"Tarix, etnoqrafiya və siyasi elmlər" bölməsindəki məqalələrdə Çinin ABŞ və İrana münasibətdə siyasi manevrlərindən, Azərbaycan demokrat firqəsinin dövlətçilik siyasətindən, Cənubi Qafqazın əsas qədim tayfalarından biri olan xəzərlərin etnocoğrafi yerləşməsindən, XIX əsrin əvvəllərində Cənubi Qafqazda müsəlman ruhaniliyi tarixindən, Türkiyədə suriyalı qaçqınların qarşılaşdıqları sosial problemlərdən bəhs edilir. Bu bölmədə həmçinin "Avrointeqrasiya beynəlxalq münasibətlər sisteminin obyektiv prosesi kimi", "Əlcəzair İstiqlal Müharibəsi - müstəmləkəçi Fransa siyasətinin dağılması", "Müharibə və sülh məsələləri: yeni reallıqlar" adlı məqalələr yer alır.

Jurnalın "Fəlsəfə" bölməsində Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin başlıca istiqamətləri və vəzifələrindən və Həmzə Nigarinin dini-etik görüşlərindən bəhs edən məqalələr təqdim edilir.

# Şərqşünaslıq İnstitutunda "Çoxəsrlik tariximizin şanlı Zəfər Günü" adlı elmi sessiya keçirilib



2022-ci il noyabrın 2-də AMEA-nın akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda "Çoxəsrlik tariximizin şanlı Zəfər Günü" adlı elmi sessiya keçirilib.

Tədbirdən öncə institutun kollektivi İkinci Fəxri xiyabana gələrək, 44 günlük Vətən müharibəsi zamanı ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda canlarından keçərək müqəddəs şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımızın məzarını ziyarət edib. Şərqşünas alimlər Zəfər Günü ərəfəsində şəhidlərimizin əziz xatirəsini dərin ehtiramla anaraq, məzarları üzərinə gül dəstələri düzüblər.

Elmi sessiyanın əvvəlində tədbir iştirakçıları Qarabağ müharibəsi şəhidlərinin ruhunu 1 dəqiqəlik sükutla yad ediblər.

Tədbiri giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti v.i.e., Şərqşünaslıq İnstitutunun baş direktoru, akademik Gövhər Baxşəliyeva 80-ci illərdə Qarabağda baş qaldıran erməni separatçılarının 90-cı illərin əvvəllərində torpaqlarımızın 20 faizini işğal edərək 1 milyondan çox azərbaycanlını doğma yurdlarından qaçqın və köçkün saldığını deyərək, 30 ilə yaxın bu torpaqların işğal altında qaldığını xatırladıb. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkədə hərc-mərcliyə, xaosa son qoyulduğunu və ordu quruculuğuna başlanıldığını deyən Gövhər xanım, 2003-cü ildən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda iqtisadi islahatların sürətləndiyini, beynəlxalq münasibətlərin inkişafına, modern ordu quruculuğuna başlanıldığını qeyd edib. Bütün bunların nəticəsində hakimiyyət və xalq birliyi ilə Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində şanlı zəfər çalaraq, torpaqlarımızı işğaldan azad edib.



Bu müharibədə canlarından keçən şəhidlərin qəhrəmanlıqlarından danışan G.Baxşəliyeva Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında 3 dekabr 2020-ci il tarixli Sərəncamını xatırladıb.

İnstitutun icraçı direktoru, f.ü.f.d. Ruhəngiz Cümşüdlü elmi sessiyada çıxış edərək Vətən





müharibəsində qazanılan tarixi zəfərin əhəmiyyətindən danışıb. R.Cümşüdlü 44 günlük müharibənin dünya palitrasında Azərbaycan və azərbaycanlı obrazının dəyişdiyini ifadə edən qəhrəmanlıq səhifəsi olduğunu, bu müharibədə müzəffər ordumuzun öz hərbi qüdrəti və mənəvi əzmi ilə düşmənə tarixi ibrət dərsi verdiyini deyib. R.Cümşüdlü Ali Baş Komandan İlham Əliyevin söylədiyi "Bizim şanlı ordumuzun 44 günlük müharibəsi XXI əsrin müharibəsidir. 44 günlük müharibənin hər bir günü zəfər günü idi" fikrinin Vətən müharibəsinin reallıqlarını özündə əks etdirdiyini bildirib və ölkə başçısının bu sözlərini də diqqətə çatdırıb: "Şəhidlərimizin qanı yerdə qalmadı. Döyüş meydanında qisasımızı aldıq. Ərazi bütövlüyümüzü təmin etdik."

İnstitutun Türkiyə tarixi və iqtisadiyyatı şöbəsinin böyük elmi işçisi, t.ü.f.d. Namiq Məmmədov şanlı zəfərin qazanılmasında Türkiyə - Azərbaycan strateji əməkdaşlığının rolundan, İran filologiyası şöbəsinin aparıcı elmi işçisi, f.ü.f.d. Şəmsi Əhmədov Vətən müharibəsində qələbəyə gətirib çıxaran amillərdən, Mənbəşünaslıq və yazılı abidələrin tədqiqi və nəşri şöbəsinin elmi işçisi, Vətən müharibəsinin iştirakçısı Pərviz Ağayev öz keçdiyi döyüş yolundan danışıblar.

# Səudiyyə Ərəbistanının Beynəlxalq İran Araşdırmaları İnstitutunun direktoru Şərqşünaslıq İnstitutunda olub



2022-ci il noyabrın 10-da AMEA-nın akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda Səudiyyə Ərəbistanının Beynəlxalq İran Araşdırmaları İnstitutunun direktoru Mohammed Alsulami ilə görüş keçirilib.

Səudiyyəli alim ilk olaraq AMEA-nın vitse-prezidenti v.i.e., Şərqşünaslıq İnstitutunun baş direktoru, akademik Gövhər Baxşəliyeva ilə görüşüb. G.Baxşəliyeva qonağa Azərbaycanın ərəb ölkələri ilə elmi, mədəni əlaqələrindən söz açaraq, bu əlaqələrin möhkəmlənməsində şərqşünas alimlərin mühüm rolunu qeyd edib. O, rəhbərlik etdiyi institutda ərəb ölkələrinin, həmçinin İranın tarixi, iqtisadiyyatı, ərəb və fars dilləri və ədəbiyyatları ilə bağlı aparılan tədqiqatlardan, nəşr olunan kitablardan söz açıb, müəssisələr arasında əlaqələrinin genişləndirilməsinin hər iki tərəfə fayda verəcəyini bildirib.

Mohammed Alsulami təmsil etdiyi institutun fəaliyyəti barədə məlumat verib. O, Şərqşünaslıq İnstitutunda ərəbşünaslıq və iranşünaslıq sahəsində aparılan tədqiqatları yüksək qiymətləndirib.

Sonra Mohammed Alsulami Şərqşünaslıq İnstitutunun əməkdaşları ilə görüşüb. Görüşdə Səudiyyə Ərəbistanının Beynəlxalq İran Araşdırmaları İnstitutu haqqında ətraflı danışan qonağa, daha sonra şərqşünas alimlər öz elmi fəaliyyətləri ilə bağlı məlumat veriblər. Sonda Mohammed Alsulami görüş iştirakçılarının suallarını cavablandırıb.

# "Şuşa ilinin elan olunmasının bölgədə ictimai-siyasi sabitliyin təmin olunmasında əhəmiyyəti" mövzusunda elmi sessiya keçirilib



2022-ci il noyabrın 23-də AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda "Şuşa ilinin elan olunmasının bölgədə ictimai-siyasi sabitliyin təmin olunmasında əhəmiyyəti" mövzusunda elmi sessiya keçirilib.

Elmi sessiyanı giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti v.i.e., Şərqşünaslıq İnstitutunun baş direktoru akademik Gövhər Baxşəliyeva bildirib ki, Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olan Şuşa şəhəri 28 illik işğaldan sonra 2020-ci ilin 8 noyabrında Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan ordusu tərəfindən azad edildikdən dərhal sonra şəhərdə infrastrukturun qurulmasına, tarix və mədəniyyət abidələrinin bərpasına, Şuşanın əsl tarixi simasının bərpası yönündə nəhəng layihələrin həyata keçirməsinə başlanıldı.

Ölkə Prezidentinin Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında 7 may 2021-ci il və Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında 5 yanvar 2022-ci il tarixli sərəncamlarını xatırladan akademik G.Baxşəliyeva bu sənədlərin bölgədə ictimai-siyasi sabitliyin təmin olunmasında əhəmiyyətindən danışıb. Akademik G.Baxşəliyeva Şuşa ili ilə əlaqədar Şərqşünaslıq İnstitutunda da bir sıra işlərin həyata keçirildiyini diqqətə çatdırıb. Qeyd edilib ki, daha öncə - may ayında institutda "Azərbaycanın qədim mədəniyyət mərkəzi Şuşa" mövzusunda elmi konfrans keçirilib. Şuşa ilə bağlı tədbirlər davam etdirilir. İnstitutda həmçinin Şuşa haqqında 7 dildə "Azərbaycanın mədəniyyət paytaxtı Şuşa" adlı buklet çap olunmaq üzrədir. Bundan əlavə, Şuşa haqqında ətraflı məlumat hazırlanaraq türk, ərəb, fars, çin dillərində Vikipediyada yerləşdiriləcək. Akademik G.Baxşəliyev 2022-ci ildə institutda "Qarabağ məsələsi Cümhuriyyət parlamentində və 1918-1920-ci illər İngiltərə, Türkiyə və İranın Cənubi Qafqaz siyasətində", "Azərbaycan-İran münasibətlərində Şuşa", "İkinci Qarabağ müharibəsi və müsəlman dünyası", "Qarabağın epiqrafik abidələrindəki adlar", "Qarabağın maddi və mənəvi irsi epiqrafik abidələr əsasında (X-XIX əsrlər)" mövzularında elmi tədqiqat işlərinin aparıldığını da qeyd edib.

Şərqşünaslıq İnstitutunun Cənubi Azərbaycan şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Səməd Bayramzadə tədbirdə məruzə edərək Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa





İli" elan edilməsinin xalqımız üçün tarixi əhəmiyyətindən, yüksək mədəni-mənəvi dəyərindən danışıb, müvafiq Sərəncamdakı "Qarabağın tacı olan Şuşa xalqımız üçün müqəddəs və əziz məkandır. Şuşa sevgisi hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır" ifadələrini xatırladıb.



22 aprel 2022-ci il tarixində dünyanın 65 ölkəsindən 400 nəfərə yaxın diaspor nümayəndəsinin iştirakı ilə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində keçirilən, "Zəfər Qurultayı" adlandırılan Dünya Azərbaycanlılarının V qurultayında Azərbaycan diasporu qarşısında qoyulan yeni vəzifələrdən danışan S.Bayramzadə bu tədbirdə xaricdəki azərbaycanlılarının növbəti beş ildə fəaliyyəti üçün Yol xəritəsinin müəyyənləşdirildiyini, Azərbaycan Prezidenti tərəfindən Ermənistana və onun himayədarlarına mühüm mesajlar verildiyini qeyd edib.

Bu Qurultayın və orada verilən mesajların qonşu İranda bəzi dairələrdə yaratdığı təşvişdən söz açan məruzəçi bu narahatlığın İran rəsmilərinin düşüncələrində Azərbaycana qarşı böyük qısqanclıq hissinin göstəricisi olduğunu qeyd edib.

S.Bayramzadə ümumiyyətlə, 44 günlük Qarabağ müharibəsinin nəticələrinə, 15 iyun 2021-ci il tarixli Şuşa bəyannaməsinə, Zəngəzur dəhlizinin perspektivlərinə və digər məsələlərə həmin dairələrdə verilən reaksiyalara da toxunaraq, bütün bunların əslində kiminsə, o cümlədən Rusiyanın, İranın və ya Ermənistanın əleyhinə olmadığını, regionda sülhün və sabitliyin təmin edilməsi naminə qarşılıqlı əməkdaşlığın inkişafına yol açacağını qeyd edib.

Elmi sessiyada çıxış edən institutun Gənc Alim və Mütəxəssislər Şurasının sədri, fəlsəfə üzrə fəlsəfə doktoru Elnur Mustafayev 44 günlük Qarabağ müharibəsində işğaldan azad olan Şuşa şəhərinin türk və bütövlükdə müsəlman dünyasında mübarizlik simvoluna çevrildiyini, buranı ziyarət edən müxtəlif ölkələrin nümayəndələrinə Şuşanın məhz Azərbaycan şəhəri olmasını əyani sübut etdiyini vurğulayıb. Tədqiqatçı alim araşdırdığı Yuxarı Gövhər Ağa məscidindəki epiqrafik abidələrdən söz açıb, həmçinin Gövhər Ağanın özünün vəsiyyətnaməsində olan kənd və çay adlarının da erməni saxtakarlarına tutarlı cavab olduğunu qeyd edib.

Daha sonra məruzələr ətrafında müzakirələr aparılıb.

# "Hüseyn Cavid yaradıcılığı Azərbaycan-Türkiyə ədəbi-mədəni əlaqələri kontekstində" mövzusunda elmi sessiya




2022-ci il noyabrın 30-da AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda görkəmli şair və dramaturq Hüseyn Cavidin 140 illiyinə həsr olunmuş "Hüseyn Cavid yaradıcılığı Azərbaycan-Türkiyə ədəbi-mədəni əlaqələri kontekstində" mövzusunda elmi sessiya keçirilib.

Elmi sessiyanı giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti v.i.e., Şərqşünaslıq İnstitutunun baş direktoru akademik Gövhər Baxşəliyeva bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 24 sentyabr 2022-ci il tarixli Sərəncamı ilə cari ildə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, mütəfəkkir şair və dramaturq Hüseyn Cavidin anadan olmasının 140 illiyi qeyd edilir və bu münasibətlə Şərqşünaslıq İnstitutu ədibin yubileyinə həsr olunmuş və Hüseyn Cavid yaradıcılığının Azərbaycan-Türkiyə ədəbi-mədəni əlaqələrində roluna dair elmi sessiya keçirir.

Hüseyn Cavid yaradıcılığının Azərbaycan-Türkiyə ədəbi-mədəni əlaqələrində rolunu, bütövlükdə türk xalqlarının ədəbi və mədəni tərəqqisinə töhfələr verdiyini qeyd edən akademik Gövhər Baxşəliyeva XX əsrin əvvəllərində Azərbaycan və Türkiyə mədəni həyatına əsərləri ilə möhürünü vuran şairlər arasında fikirləri və əsərləri ilə millətin yolunu işıqlandıran və qəlbində yer tutan iki böyük sənətkarın - Azərbaycan ədəbiyyatında romantizm cərəyanının banisi Hüseyn Cavidin və türk "İstiqlal şairi" Mehmet Akif Ərsoyun xüsusi yeri olduğunu söyləyib.



Hər iki şairin həyat və fəaliyyətində, qələmə aldıqları mövzuların ideya-məzmun xüsusiyyətlərində, hətta tale yollarında bir çox bənzərliklərin var olduğunu deyən akademik G.Baxşəliyeva onların bütün ömürlərini xalqın, millətin və bütün İslam aləminin, türk dünyasının istiqbalı üçün şam kimi əritdiklərini vurğulayaraq, onların millətin bu gününü, gələcəyini işıqlandıraraq xalqın qəlbinə köçdüklərini və bu millət yaşadıqca onların da əbədi yaşayacaqlarını bildirib.

Elmi sessiyada Şərqşünaslıq İnstitutunun Şərq-Qərb şöbəsinin müdiri, ilahiyyat üzrə fəlsəfə doktoru, dosent Məmmədəli Babaşlı "Hüseyn Cavidin yaradıcılığında milli və dini kimlik motivlərinin təcəssümü" mövzusunda məruzə edib. M.Babaşlı bənzərsiz yaradıcılıq üslubu, geniş mövzu dairəsi, ümumbəşəri təfəkkürü ilə fərqlənən Cavidin ədəbiyyat tariximizdə özünəməxsus şərəfli yer tutan sənətkar olduğunu deyərək, onun milli kimlik anlayışının əsasını təhsilə, tərbiyəyə və elmə yiyələnmək zərurətinin təşkil etdiyini vurğulayıb. Türkçülük ideyalarının alovlu tərənnümçüsü kimi tanınan şairin əsərlərində türkçülüklə azərbaycançılığın vəhdət təşkil etdiyini deyən məruzəçi onun ortaq türk ədəbi dilinin türk dünyasının birliyi üçün ən önəmli şərtlərdən biri olduğuna inandığını, əsərlərində türkçülük ideyalarının təbliğinə geniş yer verdiyini qeyd edib, Cavidin təkcə Azərbaycan şairi deyil, bütün türklüyə məxsus, türk şairi olduğunu, türklərin də, türk dünyasının



da onu öz milli şairi kimi tanımasının, sevməsinin təbii və zəruri olduğunu vurğulayıb.

Şərqşünaslıq İnstitutunun Türk filologiyası şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Səriyyə Gündoğdu "Hüseyn Cavidin ictimai şeirlərində Mehmet Akif Ərsoy poeziyasının təsiri" adlı məruzəsində bu iki şəxsiyyətin XX əsr türk dünyasının ədəbi, ictimai fikrində görkəmli yer tutduğunu, zəngin ədəbi irs qoyub getdiklərini deyərək, onların bütün türk dünyasının və islam aləminin qanayan yaralarına öz şəxsiyyətləri və əsərləri ilə məlhəm olmağa çalışdıqlarını, hər ikisinin türk-islam aləminin sürükləndiyi faciələr qarşısında sipər olduğunu bildirib. Məruzəçi M.Akif Ərsoy kimi geniş istimai fəaliyyəti sayəsində əsərlərində qaldırdığı yerli və beynəlxalq məsələləri işıqlandıran




Cavidin cəmiyyətin sosial-ictimai yaralarını ədəbiyyata gətirməklə müasir Azərbaycan ədəbiyyatının çərçivələrini aşa bildiyini qeyd edib.

İnstitutun Nəşriyyat və elmi informasiya təminatı şöbəsinin əməkdaşı Ülviyyə Eminova elmi sessiyada "Hüseyn Cavid və Əbdülhaq Hamid Tarhan dramlarında qadın hüquqları problemi" mövzusunda məruzəsində Hüseyn Cavid yaradıcılığında qadın probleminin öz aktuallığı və orijinallığı ilə seçildiyini, böyük ədibin ədəbiyyata qədəm qoyduğu ilk zamanlardan qadın məsələsinə maraq göstərərək, bu aktual mövzunu istər şeirlərində, istər də dram əsərlərində önə çəkdiyini vurğulayıb. Məruzəçi bir çox dramları qadın surətlərin adları ilə adlandıran Cavidin qadınları öz hüquqları uğrunda fəal mübarizəyə səslədiyini və qadınlara öz hüquqlarını əldə etməyin yolunun maariflənmədə, mədəni tərəqqidə olduğunu göstərdiyini qeyd edib. Ü.Eminova bu baxımdan Cavidin bir sıra əsərləri ilə türk şairi Əbdülhaq Hamid Tarhanın əsərlərinin müqayisəli təhlilini aparıb.

Sonda məruzələr ətrafında müzakirələr aparılıb.

# "Müasir Azərbaycan dövlətinin banisi və qurucusu" mövzusunda elmi sessiya keçirilib



2022-ci il dekabrın 7-də AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda Ümummilli Lider Heydər Əliyevə həsr olunmuş "Müasir Azərbaycan dövlətinin banisi və qurucusu" mövzusunda elmi sessiya keçirilib.

Tədbirin əvvəlində Şərqşünaslıq İnstitutunun əməkdaşları Ulu Öndər Heydər Əliyevin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Elmi sessiyanı giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti v.i.e., Şərqşünaslıq İnstitutunun baş direktoru akademik Gövhər Baxşəliyeva Ulu Öndərin Azərbaycan xalqının həyatında oynadığı böyük roldan danışıb. Akademik G.Baxşəliyeva Ümummilli Liderin xalqımızın tarixinə gördüyü misilsiz işlərlə böyük qurucu şəxsiyyət kimi düşdüyünü qeyd edib. G.Baxşəliyeva Ulu Öndər Heydər Əliyevin həm sovet dövründə respublikamıza rəhbərliyi zamanı, həm də müstəqillik illərində ölkə prezidenti kimi Azərbaycanda böyük iqtisadi inkişafa nail olduğunu vurğulayıb.

G.Baxşəliyeva Heydər Əliyevin ölkə həyatının bütün sahələrinə, o cümlədən elmə göstərdiyi diqqətdən danışıb. İnstitut rəhbəri Ulu Öndərin ikinci dəfə hakimiyyətə qayıdanda, 1993-cü ildə birinci görüşünü məhz Elmlər Akademiyasında Azərbaycan ziyalıları ilə keçirdiyini qeyd edib.

Heydər Əliyevin liderlik keyfiyyətlərinin dünya miqya-



sında qəbul olunduğunu deyən Gövhər Baxşəliyeva, onun siyasətinin bu gün Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirildiyini qeyd edib. G.Baxşəliyeva Heydər Əliyev məktəbi keçmiş cənab Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi xarici siyasətin Azərbaycan tarixinin ən şanlı səhifələrindən biri olan 44 günlük Vətən müharibəsində qazanılan Zəfərdə mühüm rolu olduğunu deyərək, dövlət başçımızın məqsədyönlü xarici siyasəti nəticəsində Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun artdığını, ölkəmizin söz sahibi olan qüdrətli dövlətə çevrildiyini və bu mövqeyə çatmaqda Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin xidmətlərinin əvəzsiz olduğunu bildirib.

Elmi sessiyada institutun Təhsil şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Lalə Bayramova "Heydər Əliyevin elm və təhsilin inkişafında rolu" mövzusunda məruzə edib. Ulu Öndərin 90-cı illərdə yenidən hakimiyyətə qayıdışından sonra bütün sahələrdə olduğu kimi elm və təhsildə də dirçəlişin baş verdiyini deyən L.Bayramova Ümummilli Liderin bu sahələrə xüsusi həssaslıqla yanaşdığını və daim qayğı göstərdiyini vurğulayıb. O dövrdə Heydər Əliyevin ən çətin şəraitdə yaşayan dövlətdə elm və təhsil islahatlarının başlanğıcını qoyduğunu deyən məruzəçi Elmlər Akademiyasının fəaliyyətində canlanmanın baş verdiyini bildirib.

İnstitutun Cənubi Azərbaycan şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Səməd Bayramzadə "Ulu Öndərin qələbəmiz üçün verdiyi ümidlər" mövzusunda məruzə edib. S.Bayramzadə məruzəsində Heydər Əliyevin yenidən hakimiyyətə gəlməklə Azərbaycan dövlətçiliyini qorumaqla yanaşı, xalqımızın vahid ideologiya ətrafında birləşməsinin əsasını qoyduğunu qeyd edib. Ulu Öndərin Azərbaycanın azadlığı və bütövlüyünün bərpası yolunda işləyib hazırladığı və həyata keçirdiyi həm daxili, həm də xarici siyasətin uğurla



nəticələnəcəyinə inandığını deyən məruzəçi, onun Qarabağın azad ediləcəyinə inandığını və bu inamı hər bir vətəndaşa, xüsusilə də yurd-yuvalarına dönmək ümidlərini itirmiş məcburi köçkünlərə təlqin etdiyini bildirib. S.Bayramzadə Ulu Öndərin 1994-cü ilin fevralında Böyük Britaniyanı Kral Akademiyasında, həmin ilin iyununda İran səfərində, 1996-cı ilin mayında Şuşa və Laçın rayonlarının sakinləri ilə görüşlərdə və bir sıra başqa tədbirdə söylədiyi xalqımızın qələbəsinə ümid verən fikirlərini diqqətə çatdırıb.

İnstitutun Türkiyə tarixi və iqtisadiyyatı şöbəsinin böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Namiq Məmmədov "Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycanın iqtisadi inkişafı" mövzusunda məruzə edib. Ulu Öndərin Azərbaycana hakimiyyətə yenidən qayıdışı ərəfəsində ölkədəki siyasi, iqtisadi vəziyyət və hakimiyyət böhranından danışan N.Məmmədov Ümummilli Liderin qayıdışından sonra baş verən iqtisadi dəyişikliklərdən, güclü iqtisadiyyata və sosial rifaha hesablanmış neft siyasətindən, Azərbaycan iqtisadiyyatına cəlb edilən böyük investisiyalardan danışıb. Bütün bunların nəticələrindən söz açan məruzəçi Azərbaycanın o illərdə iqtisadi sabitlik və yüksəliş dövrünə qədəm qoyduğunu qeyd edib.

Sonda məruzələr ətrafında müzakirələr aparılıb.

# Şərqşünaslıq İnstitutunun illik hesabat iclası



2022-ci il dekabrın 9-da AMEA-nın akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun 2022-ci ildəki elmi və elmi-təşkilati fəaliyyətinin yekunları ilə əlaqədar hesabat iclası keçirilib.

İclasda AMEA-nın vitse-prezidenti v.i.e., Şərqşünaslıq İnstitutunun baş direktoru, akademik Gövhər Baxşəliyeva institutun 2022-ci ildəki fəaliyyətini əks etdirən hesabatı diqqətə çatdırıb.

Hesabatda 2022-ci ildə institut əməkdaşlarının səmərəli elmi fəaliyyət göstərərək, “Şərq ölkələrinin ictimai, iqtisadi, mədəni-tarixi inkişafı və Azərbaycanla əlaqələri” istiqaməti üzrə araşdırmalar apardıqları və elmi-tədqiqat planında nəzərdə tutulmuş bütün işləri yerinə yetirdikləri qeyd edilib.

Hesabatda ilk olaraq Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarının, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarının, habelə dövlət proqramlarının icrası ilə əlaqədar görülən işlər diqqətə çatdırılıb.

Daha sonra hesabat ilində institut əməkdaşlarının elmi-tədqiqat işləri barədə məlumat verilib. Qeyd edilib ki, elmi-tədqiqat işləri 1 elmi istiqamət, 5 problem çərçivəsində aparılıb. Plan üzrə icra olunan 100 elmi-tədqiqat işindən 57 iş başa çatıb, qalan işlərin 2022-ci il üçün nəzərdə tutulan hissəsi yerinə yetirilib.

İl ərzində İnstitutda 23 kitab, monoqrafiya və məqalələr toplusu çap olunub.

Hesabat ilində institut əməkdaşlarının 400-dən artıq məqalə, məruzə və tezisi çap olunub. Bunlardan 56 elmi məqalə xaricdə (Türkiyə, Ukrayna, Almaniya, Cənubi Koreya, Qazaxıstan, Gürcüstan, Rusiya Federasiyası, İraq, Çexiya, İran İslam Respublikası, Özbəkistan, Qırğızıstan, Mərakeş, Rumıniya, Əlcəzair və s.) nəşr edilib.

Hesabat ili ərzində institut əməkdaşları 78 dəfə xaricdə (Türkiyə, İspaniya, Misir, Kolumbiya, İsveç, Ukrayna, İran İslam Respublikası, Pakistan, Kipr, ABŞ, Hindistan, Malayziya, Bolqarıstan, Meksika, Moldova, Qazaxıstan, Rusiya Federasiyası, İraq, Rumıniya və s.) və 96 dəfə Azərbaycanda keçirilən cəmi 174 beynəlxalq elmi konfransda məruzə ediblər.

Hesabatda 2022-ci ildə institutda xarici ölkələrin səfirləri, elm və dövlət nümayəndələri ilə keçirilən görüşlər, təşkil edilən konfrans, seminar və tədbirlər, institutda kadr hazırlığı və digər məsələlər barədə də məlumat verilib.



Sonra hesabat ətrafında müzakirələr aparılıb.

İclasın sonunda AMEA İctimai Elmlər Bölməsi tərəfindən təhkim edilən akademik Nərgiz Axundova çıxış edərək, Şərqşünaslıq İnstitutunun böyük ənənələrə malik olduğunu və hesabat ilində institutda görülən işlərin Şərqin bütün problem sahələrini əhatə etdiyini söyləyib, institutun 2022-ci ildəki fəaliyyətini müsbət qiymətləndirib.

# “Qarabağda tolerantlıq və muktikulturalizm ənənələri” mövzusunda elmi konfrans keçirilib



2022-ci il dekabrın 16-da AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda “Qarabağda tolerantlıq və muktikulturalizm ənənələri (Azərbaycan modeli əsasında)” mövzusunda elmi konfrans keçirilib.

Konfransı giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti v.i.e., Şərqşünaslıq İnstitutunun baş direktoru, akademik Gövhər Baxşəliyeva bildirib ki, tarixən və müasir dövrdə Azərbaycan müxtəlif sivilizasiyaların və mədəniyyətlərin qovuşduğu məkan kimi əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır. Multikulturalizm və tolerantlıq tarixən azərbaycanlıların həyat tərzi olmuşdur. Müasir dövrdə isə bu ənənələr milli kimliyindən, dilindən, dinindən asılı olmayaraq Azərbaycan dövlətinin hər bir vətəndaşının gündəlik həyat tərzinə çevrilmişdir.

Hazırkı konfransın Azərbaycanın mədəniyyət beşiklərindən biri olan Qarabağda tolerantlıq və muktikulturalizm ənənələrinə həsr olunduğunu deyən akademik G.Baxşəliyeva Prezident İlham Əliyevin Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında 7 may 2021-ci il və Azərbaycan Respublikasında 2022-ci ilin “Şuşa İli” elan edilməsi haqqında 5 yanvar 2022-ci il tarixli sərəncamlarını xatırladaraq, bununla əlaqədar institutda elmi tədbirlərin keçirildiyini, kitabların nəşr olunduğunu, elmi tədqiqat işlərinin apardığını bildirib.

Daha sonra konfransda məruzələrə başlanılıb.

AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri, fəlsəfə elmləri doktoru, professor Sakit Hüseynov “Qarabağ bölgəsində tolerantlıq mühiti və ermənilərin Azərbaycana qarşı vandallıq siyasəti” mövzusunda məruzəsində xalqımızın tolerant olması ilə bağlı tarixi faktları misal gətirib. Müxtəlif tarixi dövrlərə aid faktlardan danışan məruzəçi Azərbaycanın tolerantlığının dünyaya bir nümunə olduğunu qeyd edib. Bununla yanaşı Qarabağda yaşayan ermənilərin intolerant olması ilə bağlı fikirlər səsləndirilib.

Şərqşünaslıq İnstitutunun Din və ictimai fikir tarixi şöbəsinin aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Leyla Məlikova “Qarabağ – dini-mədəni müxtəlifliyin tarixi nümunəsi kimi” mövzusunda məruzəsində ən qədim sivilizasiyaların mərkəzlərindən biri olan Qarabağın ərazisinin bütün tarixi mərhələləri əhatə edən dini, mədəni abidələrlə zəngin olmasını bildirib. Məruzəçi Qarabağ ərazisində müx-



təlif dinlərin mövcudluğu və bu amilin ictimai, dini, mədəni həyata təsirindən danışıb.

Şərqşünaslıq İnstitutunun Din və ictimai fikir tarixi şöbəsinin aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Elvüsal Məmmədov “Qarabağ xanlığında dini-mədəni birgəyaşayış təcrübəsi” mövzusunda məruzəsində Qarabağ xanlığında siyasi, dini, mədəni və ictimai müstəvidə özünü doğruldan konkret presedentlər və konyuktura ilə müşayiət edilən birgəyaşayış təcrübəsindən söz açıb. Məruzəçi qeyd edib ki, belə birgəyaşayış təcrübəsini Qarabağ sayağı mozaika və yaxud Qarabağ modeli adlandırmaq mümkündür.

Şərqşünaslıq İnstitutunun Din və ictimai fikir tarixi şöbəsinin müdiri vəzifəsini icra edən fəlsəfə üzrə fəlsəfə doktoru Elnur Mustafayev “Azərbaycan multikulturalizm və tolerantlığının qaynaqları: qarabağlı mütəfəkkirlərin elmi-fəlsəfi və ictimai-publisistik düşüncələri əsasında” mövzusunda məruzəsində multikulturalizm və tolerantlıq ifadələrinin etimoloji təhlilini aparıb, tolerantlıq ideyalarının inkişaf mərhələlərini diqqətə çatdırıb. Məruzədə qarabağlı görkəmli mütəfəkkir və alimlərdən Muhyiddin Məhəmməd Qarabaği, Məhəmməd Vəli Qarabaği, Seyid Həmzə Nigari, Nəcəf bəy Vəzirov, Firudin bəy Köçərli və digərlərinin yaradıcılıqlarında tolerant və multikultural dəyərlərin təcəssümündən bəhs edilib.

# “Vasim Məmmədəliyev-80” mövzusunda elmi sessiya



2022-ci il dekabrın 26-da AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda görkəmli şərqşünas alim Vasim Məmmədəliyevin 80 illiyinə həsr olunmuş “Vasim Məmmədəliyev-80” mövzusunda elmi sessiya keçirilib.

Elmi sessiyanı giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti v.i.e., Şərqşünaslıq İnstitutunun baş direktoru, akademik Gövhər Baxşəliyeva bildirib ki, ümummüsəlman mədəniyyətinin yaradıcılarından olan Azərbaycan xalqının bu mədəniyyətə əsrlər boyu öz qiymətli töhfələrini vermiş mütəfəkkir və alimlərinin yaratdığı əsərlər onların adlarını İslam mədəniyyəti tarixinə əbədi həkk edib. Belə alimlərdən olan akademik Vasim Məmmədəliyevin istedadı, dərin elmi təfəkkürü, heyrətamiz hafizəsi, yorulmaz pedaqoji fəaliyyəti, əsl ziyalı şəxsiyyətə xas səciyyəvi xüsusiyyətləri təzahür etdirməsi onu fenomen şəxsiyyətlər sırasına daxil edib.

Akademik G.Baxşəliyeva ziyalı adının məsuliyyətini çiyinlərində ləyaqətlə daşımış akademik Vasim Məmmədəliyevin həm elmi ictimaiyyət və xalq arasında, həm də Vətənimizin hüdudlarından kənarda böyük şöhrət qazandığını deyib. Vasim Məmmədəliyevin çöxşaxəli elmi-pedaqoji fəaliyyətindən söz açan akademik G.Baxşəliyeva onun ilk dəfə olaraq ərəb qrammatika məktəblərini sistemli şəkildə tədqiq etdiyini, əsas tədqiqat sahəsinin ərəb dilçiliyi olmasına



baxmayaraq, əsərlərində Şərq poeziyası, islam tarixi, kəlam, fəlsəfə, təfsir, quranşünaslıqla da bağlı ən mühüm məsələlərinin tədqiq olunduğunu və bu sahələrdə də qiymətli əsərlərin müəllifi olduğunu bildirib.

Vasim Məmmədəliyevin 1991-ci ildə akademik Ziya Bünyadovla birgə Azərbaycan dilinə tərcüməsində müqəddəs kitabımız Qurani-Kərimin çap olunduğunu deyən akademik G.Baxşəliyeva tərcümənin nəşrinin ölkəmizdə İslama, bu



dinin tarixinə, fəlsəfəsinə və mədəniyyətinə dair araşdırmalara güclü təkan verdiyini qeyd edib.

Şərqşünaslıq İnstitutunun Ərəb filologiyası şöbəsinin elmi işçisi Gülşən Həmidli "Müasir ərəbşünaslığın ən görkəmli nümayəndəsi" mövzusunda məruzəsində Vasim Məmmədəliyevin dilçilik sahəsində fəaliyyətindən danışıb. Alimin "Ərəb ədəbi dilində felin zaman, şəxs və şəkil kateqoriyaları", "Ərəb dilçiliyi" "Bəsrə qrammatika məktəbi", "Küfə qrammatika məktəbi" və. s əsərlərinin ərəb linqvistikasının vacib məsələlərinə həsr olunduğunu deyən məruzəçi, Vasim Məmmədəliyevin bu əsərləri ilə ərəb ölkələrində tanındığını qeyd edib.

Şərqşünaslıq İnstitutunun Din və ictimai fikir tarixi şöbəsinin aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Elvüsal Məmmədov "Akademik Vasim Məmmədəliyevin ilahiyyat və islamşünaslığa töhfələri" adlı məruzəsində mərhum akademikin ərəb filologiyası problemləri ilə yanaşı, həm də islamşünaslıq və ilahiyyat məsələləri ilə məşğul olan hərtərəfli elm nəhəngi olduğunu bildirib. O qeyd edib ki, Vasim Məmmədəliyevin ilahiyyat və islamşünaslıq sahələrində əsas tədqiqat istiqaməti quranşünaslıq olmuşdur. Quranşünaslıqla yanaşı, o, islam dininin ayrı-ayrı məsələlərinə, xüsusən təsəvvüfə aid elmi araşdırmaları ilə tanınmışdı. Amma Vasim Məmmədəliyevə ilahiyyat sahəsində ən böyük şöhrəti 1991-ci ildə Qurani-Kərimi Azərbaycan dilinə tərcümə etməsi gətirmişdir.



"Böyük alim, alicənab insan" mövzusunda məruzə edən Şərqşünaslıq İnstitutunun icraçı direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Ruhəngiz Cümşüdlü Vasim Məmmədəliyevin Azərbaycan milli ictimai şüurunun zənginləşməsində böyük rolu olan ziyalımız olduğunu bildirib. Vasim Məmmədəliyevin ziyalı və şəxsiyyət məfhumlarını qürurla ehtiva edən insan olduğunu deyən R.Cümşüdlü ölkəmizdə ərəbşünaslığın elmi şəkildə bir məktəb kimi formalaşmasının və inkişafının məhz Vasim Məmmədəliyevin fəaliyyəti ilə əlaqədar olduğunu söyləyib.

# Şərqşünas alim Esmeralda Həsənovanın xatirəsi anıldı



2022-ci il dekabrın 28-də AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda tanınmış şərqşünas alim, türkoloq, fəlsəfə üzrə fəlsəfə doktoru Esmeralda Həsənovanın 90 illiyinə həsr olunmuş tədbirdə xatirəsi anılıb.

Tədbiri giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti v.i.e., Şərqşünaslıq İnstitutunun baş direktoru, akademik Gövhər Baxşəliyeva Esmeralda Həsənovanın Azərbaycan şərqşünaslığında böyük xidmətləri olduğunu bildirib. Türkologiya elminə dəyərli əsərləri ilə böyük töhvələr verən Esmeralda xanımın elmi fəaliyyətində çox aktual məsələləri tədqiq etdiyini deyən akademik Gövhər Baxşəliyeva alimin elmimizin yeni nəsli üçün əsl örnək olduğunu söyləyib. Şərqşünaslıq İnstitutunun Din və ictimai fikir şöbəsinə uğurla rəhbərlik etmiş E.Həsənovanın tədqiqatlarının bütün respublikanın ziyalılarında böyük maraq oyatdığını bildirən akademik G.Baxşəliyeva alimin bir sıra ölkələrin elmi dairələrində, xüsusi ilə Türkiyədə mütəxəssislər arasında yaxşı tanındığını vurğulayıb. Akademik G.Baxşəliyeva E.Həsənovanın şərqşünaslıq elmimiz qarşısında xidmətlərinin dövlət tərəfindən də yüksək qiymətləndirildiyini bildirərək, 2018-ci ildə Azərbaycan



Respublikasının Prezidentinin Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif edildiyini xatırladıb.

Şərqşünaslıq İnstitutunun Din və ictimai fikir şöbəsinin müdiri v.i.e., İnstitutun Gənc Alim və Mütəxəssislər Şurasının sədri, fəlsəfə üzrə fəlsəfə doktoru Elnur Mustafayev Esmeralda Həsənovanın əsərlərinin beynəlxalq müstəvidə müasir türkoloji problemlərin öyrənilməsində böyük əhəmiyyət kəsb etdiyini deyərək, alimin Türkiyənin tarixi, mədəniyyəti, ictimai-siyasi həyatı, din, millətçilik, din və dövlət münasibətlərinə dair yazdığı əsərlərinin bir çox dünya şöhrətli alimlərin və dövlət xadimlərinin marağını cəlb etdiyini vurğulayıb.

Şərqşünaslıq İnstitutunun əməkdaşlarından tarix üzrə fəlsəfə doktorları Əmmar Abbasov və Fərda Əsədov, fəlsəfə üzrə fəlsəfə doktorları Dürdanə Cəfərli və Elvüsal Məmmədov, filologiya üzrə fəlsəfə doktoru Vüqar Məmmədov, eləcə də Mirzə Ənsərli anım tədbirində çıxış edərək, Esmeralda Həsənovanın elmi nailiyyətlərini yüksək qiymətləndiriblər, onun şərqşünaslıq elmimizin gənc nəslinə böyük qayğısından danışıblar və alimin itkisinin Azərbaycan şərqşünaslığı üçün çox ağır olduğunu qeyd ediblər.

# Şərqşünaslıq İnstitutunda 20 Yanvar faciəsinin ildönümü ilə bağlı tədbir keçirilib



2023-cü il yanvarın 18-də AMEA-nın akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda 20 Yanvar faciəsinin 33-cü ildönümü ilə bağlı tədbir keçirilib.

Tədbirin əvvəlində 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti vəzifəsini icra edən, Şərqşünaslıq İnstitutunun baş direktoru, akademik Gövhər Baxşəliyeva 20 Yanvarın Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olduğunu qeyd edib: "Azərbaycanın müstəqilliyi, azadlığı uğrunda mübarizəyə qalxan xalqımızın igid övladları 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusunun ağır hərbi texnikasının, təpədən-dırnağadək silahlanmış amansız hərbçilərin qarşısına əliyalın çıxaraq əsl fədailik göstərdilər. Şəhidlərimiz öz qanları ilə xalqımızın qəhrəmanlıq salnaməsinə növbəti səhifə yazdılar.

Həmin günün yaddaşlara sovet kommunist rejiminin Azərbaycan xalqının milli azadlıq hərəkatını qan içində boğmaq üçün ölkəmizə qarşı hərbi təcavüz etdiyi, günahsız insanların qətlə yetirildiyi bir gün kimi həkk olunduğunu deyən akademik Gövhər Baxşəliyeva bu hadisələrdə xalqımızın istiqlaliyyəti yolunda istənilən sınaqdan üzüağ çıxa biləcəyini, Azərbaycan övladlarının öz həyatlarını müstəqillik uğrunda qurban verə biləcəklərini sübut etdiyini vurğulayıb.

Həmin hadisələrin müasir zamanda müstəqillik mübarizəmizin dönüş nöqtəsi olduğunu deyən akademik G.Baxşəliyeva, qeyd edib ki, o dəhşətli günlərdə xalqımız bir yumruq kimi vahid bir ideya ətrafında birləşməyi bacardığını göstərdi.



Daha sonra İnstitutun Türkiyə tarixi və iqtisadiyyatı şöbəsinin müdiri v.i.e., tarix üzrə fəlsəfə doktoru Namiq Məmmədov, İnstitutun Həmkarlar Təşkilatının sədri, tarix üzrə fəlsəfə doktoru Sübhan Talıblı, Din və ictimai fikir şöbəsinin müdiri v.i.e., fəlsəfə üzrə fəlsəfə doktoru Elnur Mustafayev, Ərəb ölkələri tarixi və iqtisadiyyatı şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Fərda Əsədov və başqaları çıxış edərək qanlı 20 Yanvar hadisələrindən illər keçməsinə baxmayaraq, xalqımızın o müdhiş gecəni daim xatırladığını və bu faciəni törədənlərə öz dərin nifrətini bildirdiyini söyləyiblər. Çıxış edənlər Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canlarından keçən şəhidləri də xatırlayaraq, xalqımızın onları heç vaxt unutmayacağını deyiblər.

# Xocalı faciəsinin qurbanları yad edilib



2023-cü il fevralın 24-də AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda Xocalı faciəsinin qurbanları yad edilib.

Tədbirin əvvəlində Xocalı şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti v.i.e., Şərqşünaslıq İnstitutunun baş direktoru, akademik Gövhər Baxşəliyeva fevralın 26-sının Azərbaycan xalqı üçün çox ağrılı bir gün olduğunu qeyd edərək, 31 il öncə Xocalıda həyata keçirilmiş hərbi əməliyyat nəticəsində kütləvi qətliam və insanlığa qarşı zamanəmizin ən dəhşətli cinayətlərindən birinin baş verdiyini deyib. Xocalı soyqırımının ağır nəticələri barədə danışan G.Baxşəliyeva, xalqımızın bu günü böyük hüzn və kədərlə qeyd etdiyini söyləyib. Həmin hadisələrdə erməni hərbi birləşmələrinin Rusiya ordusunun 366-cı motoatıcı alayının hər-



bi texnikasının iştirakı ilə azərbaycanlılar yaşayan Xocalı şəhərinin işğalı zamanı törətdikləri görünməmiş vəhşiliklər barədə danışan Gövhər xanım nəticədə dinc Xocalı sakinlərindən 613

nəfərin, o cümlədən 106 qadın və 63 uşağın şəhid olduğunu, 487 nəfərin şikəst qaldığını, əksəriyyəti qocalar, uşaqlar, qadınlar olmaqla 1275 nəfərin əsir götürülərək ağlasığmaz erməni zülmünə, təhqirlərə və həqarətlərə məruz qaldığını qeyd edib.

Akademik G.Baxşəliyeva ermənilərin tarix boyu azərbaycanlılara qarşı törətdikləri soyqırımlarla bağlı Şərqşünaslıq İnstitutunda bir sıra tədqiqatların aparıldığını, kitabların nəşr edildiyini, Xocalı faciəsi barədə hazırlanan ərəb, fars və ingilis dillərinə bukletlərin bir çox ölkələrdə yayıldığını, institut əməkdaşlarının bu faciə barədə dünya Kütləvi İnformasiya Vasitələrində çoxsaylı məqalələrinin dərc edildiyini vurğulayıb.

Tədbirdə çıxış edən İnstitutun Şərq-Qərb şöbəsinin müdiri, ilahiyyat üzrə fəlsəfə doktoru Məmmədəli Babaşlı Xocalı faciəsinin ermənilərin dinc azərbaycanlı əhaliyə qarşı törətdikləri silsilə cinayətlərin ən dəhşətlisi olduğunu deyib. M.Babaşlı Xocalı soyqırımının təşkilatçılarının Ermənistan rəhbərliyi, birbaşa icraçılarının Ermənistan Silahlı Qüvvələrinin bölmələri, Dağlıq Qarabağdakı erməni terror dəstələri və keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının şəxsi heyətinin üzvləri olduğunu vurğulayıb. Şərqşünas alim Xocalı soyqırımı haqqında həqiqətlərin sistemli və məqsədyönlü şəkildə dünya ictimaiyyətinə çatdırılmasının əhəmiyyətini qeyd edib.

Şərqşünaslıq İnstitutunun Cənubi Azərbaycan şöbəsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Sübhan Talıblı ermənilərin regional və beynəlxalq güclərin hərtərəfli himayəsi ilə 1905-1907, 1918, 1920, 1948-1953, 1988-ci illərdə dəfələrlə türk-müsəlman xalqlarına qarşı deportasiya, soyqırımı və etnik təmizləmə siyasəti həyata keçirdiklərini bildirib. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri tərəfindən Rusiyanın 366-cı motoatıcı alayının iştirakı ilə Xocalıda müasir dövrümüzün ən qanlı və dəhşətli qətliamının həyata keçirildiyini deyən S.Talıblı, bu faciənin acı nəticələrindən danışıb.

## “Şərq qadınına tarixilik və müasirlik prizmasından baxış” mövzusunda elmi sessiya



2023-cü il martın 3-də AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda “Şərq qadınına tarixilik və müasirlik prizmasından baxış” mövzusunda elmi sessiya keçirilib.



Şərqşünaslıq İnstitutunun Qadınlar Şurasının təşkilatçılığı ilə keçirilən tədbirdə institutun əməkdaşları ilə yanaşı AMEA-nın Qadınlar Şurasının sədr müavini, fəlsəfə üzrə fəlsəfə doktoru Mahrux Nəcəfli, AMEA-nın Qadınlar Şurasının İdarə Heyətinin üzvləri, eləcə də müxtəlif institutların qadınlar şuralarının sədrləri iştirak ediblər.

Elmi sessiyanı giriş sözü ilə açan Şərqşünaslıq İnstitutunun Qadınlar Şurasının sədri, Ərəb filologiyası şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Xanımzər Kərimova BMT Baş Assambleyasının 2015-ci il dekabrın 22-də qəbul etdiyi qətnaməyə əsasən fevralın 11-nin "Qadınlar və qızlar elmdə" Beynəlxalq Günü elan edildiyini qeyd edərək, bu günün qeyd olunmasının qadın və qızların elmi və texnoloji sahələrin inkişafında onların rolunun vacibliyini xatırlatdığını bildirib: "Tarix boyu dünya elm və mədəniyyət xəzinəsinə nadir incilər bəxş etmiş xalqının mənəvi dəyərlərinin formalaşmasında və inkişafında Şərq qadınının böyük rolu olub, onlar tarixin bütün dövrlərində xalqının taleyüklü məsələlərinin həll edilməsinə öz sanballı töhfələrini veriblər. Onların bir çoxunun adları və xidmətləri qədim tariximizin səhifələrini zənginləşdirib".

Elm sahələrində dərin iz buraxan Azərbaycan qadınlarının sırasında institutumuzun da alimlərinin olduğunu qeyd edən X.Kərimova görkəmli şərqşünas-alim, Azərbaycanda ərəbşünaslıq üzrə ilk qadın filologiya elmləri doktoru, professor Aida İmanquliyevanı və hal-hazırda instituta rəhbərlik edən akademik Gövhər Baxşəliyevanı və bir çox şərqşünas qadınlarımızı misal çəkmək olduğunu bildirib, Azərbaycan şərqşünaslığına dəyərli töhfələr vermiş alimlərimizin sayəsində yeni nəsil nümayəndələrinin yetişib inkişaf etdiyini vurğulayıb.

Şərqşünaslıq İnstitutunun icraçı direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Rühəngiz Cümşüdlü tədbir iştirakçılarını salamlayaraq, Şərqşünaslıq İnstitutunun qadınların elmi-təşkilatı fəaliyyətdə təmsil olunmasına görə öndə gedən institutlardan biri olduğunu bildirib. R.Cümşüdlü institutda dünya şərqşünaslıq elmində öz sözünü deyən qadınların olduğunu, bu alimlərin Azərbaycan elmində qadınların varlığını sübut etdiklərini qeyd edib.

Daha sonra məruzələrə başlanıb. İnstitutun İran filologiyası şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Səadət Şıxıyeva "Qarabağ ədəbi mühitinin əsilzadə qadın təmsilçiləri" mövzusunda məruzə edib. Məruzədə Azərbaycan ədəbiyyatında yeni mərhələ təşkil edən XIX əsr Qarabağ ədəbi mühitində yetişmiş qadın şairlərin söz yaradıcılığından bəhs edilib. Əksəriyyəti Cavanşirlər xanədanına mən-



sub olan şair qadınların sırasında Qarabağ xanı İbrahimxəlil xanın qızları Ağabəyim ağa və Gövhər ağa, gəlini Bədircahan bəyim, nəvəsi Xurşidbanu Natəvan, nəticəsi Xanbikə yer alır. Məruzədə adı yad olunan şairlərin ədəbi irsindən əlimizə gəlib çatan materiallarda şəxsi yaşantıların poetik ifadəsinin daha qabarıq olduğu diqqətə çatdırılıb, həmçinin eyni yüzillikdə yaşamış Qacarlar və Osmanlılar xanədanlarının, eləcə də Türkistandakı hakim sülalələrin əsilzadə xanım şairləri ilə fəaliyyət və ədəbi şəxsiyyət bənzərliklərindən söz açılıb.



Tədbirdə həmçinin institutun İran tarixi və iqtisadiyyatı şöbəsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent Əfşan Şəfiyeva "Şərq cəmiyyətində modernizmin qadınlara təsiri", Ərəb filologiyası şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Xumar Ələkbərova "Qərblə Şərqin qovşağında müasir Azərbaycan qadını", Cənubi Azərbaycan şöbəsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent Yeganə Hacıyeva "Müsəlman Şərqində qadın hüquqları", Beynəlxalq əlaqələr şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Gülər Qafqazlı "Azərbaycanda maarifçi qadınlar" mövzusunda məruzə ediblər.

Sonda məruzələr ətrafında çıxışlar olub.

# "Elm millətin varlığının təminatçısıdır" mövzusunda elmi sessiya keçirilib





2023-cü il martın 27-də AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda 27 mart – "Elm günü"nə həsr olunmuş "Elm millətin varlığının təminatçısıdır" mövzusunda elmi sessiya keçirilib.

Tədbiri giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti v.i.e., Şərqşünaslıq İnstitutunun baş direktoru, akademik Gövhər Baxşəliyeva bildirib ki, ölkəmizdə elmə böyük diqqət və qayğı göstərən Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2018-ci il 9 aprel tarixli Sərəncamına əsasən təsis edilən "Elm günü"nün tarixi 1945-ci ildə Azərbaycan Elmlər Akademiyasının yarandığı günə təsadüf edir. Akademik G.Baxşəliyeva qeyd edib ki, ölkəmizdə elmin sürətli inkişafı Azərbaycan Respublikasına rəhbərlik etdiyi həm sovet dövründə, həm də müstəqillik illərində elmə böyük qayğı göstərən Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.

Bu gün ölkəmizdə elmin inkişafının, iqtisadiyyatın və istehsal prosesinin elmi əsaslar üzərində qurulmasının dövlət siyasətinin prioritet istiqaməti kimi müəyyən edildiyini deyən G.Baxşəliyeva, bu baxımdan Azərbaycanın davamlı inkişafı naminə elm və təhsilin bir-birinə inteqrasiya olunmuş şəkildə, müasir texnologiyaların, innovasiyaların tətbiq edilməsi və cəmiyyətin maraqlarının qorunması şərtilə inkişaf etdirilməsinin əsas prioritet məsələ olduğunu qeyd edib.

Şərqşünaslıq İnstitutunun Türkiyə tarixi və iqtisadiyyatı şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Namiq Məmmədov "XIX əsrin I yarısında Avropa və Azərbaycanda elm" mövzusunda məruzə edib. Bəhs edilən dövrdə Avropada və Azərbaycanda sosial-iqtisadi və siyasi vəziyyəti təhlil edən məruzəçi daha sonra elmi inkişafa təkan verən və ya onu ləngidən amillərdən danışıb. XIX əsrin I yarısında Avropada bəzi texniki nailiyyətlərdən, dəqiq və təbiət elmlərinin inkişafından, elmin istehsalatda tətbiqindən danışan N.Məmmədov, həmin dövrdə Şimali Azərbaycanda da elmi nailiyyətlərdən, ictimai və humanitar elmlərin inkişafından, doğma diyarın tarixi keçmişini öyrənməyə daxili tələbat hissinin formalaşmasından bəhs edib.

Elmi sessiyada Din və ictimai fikir şöbəsinin müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru Elnur Mustafayev "Qloballaşma dövründə elm və təhsilin rolu", Türk filologiyası şöbəsinin elmi işçisi Xanım Abdullayeva "Elm – inteqrasiya etmiş ictimai əsaslar müstəvisində" mövzusunda məruzə ediblər. Sonda məruzələr ətrafında müzakirələr aparılıb.

# 31 mart Azərbaycanlıların Soyqırımı Gününə həsr edilmiş elmi sessiya



2023-cü il martın 31-də AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda 31 mart Azərbaycanlıların Soyqırımı Gününə həsr edilmiş elmi sessiya keçirilib.

"31 mart azərbaycanlıların soyqırımı - bəşəriyyətə qarşı görünməmiş cinayət" mövzusunda elmi sessiyanı giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti v.i.e., Şərqşünaslıq İnstitutunun baş direktoru, akademik Gövhər Baxşəliyeva XX əsrin əvvəllərində ermənilərin təkcə bu gün Ermənistan adlanan ərazidə deyil, Bakıda, Şamaxıda, Qubada, Göyçayda, Qarabağda, Zəngəzurda, Naxçıvanda, eləcə də Cənubi Azərbaycanda xalqımıza qarşı soyqırım, etnik təmizləmə, qırğınlar, talanlar, yanğınlar, terror və digər zorakılıq aktları həyata keçirdiklərini, on minlərlə dinc azərbaycanlı əhalini – qadını, uşağı, qocanı yalnız milli mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirdiklərini söyləyib.

G.Baxşəliyeva 1918-ci ilin martında ermənilər tərəfindən törədilən qətliamın insanlığa sığmayan vəhşilik olduğunu söyləyərək, bu soyqırıma Ulu Öndər Heydər Əliyevin 1998-ci il 26 mart tarixli Fərmanı ilə hüquqi-siyasi qiymət verilərək, 31 mart Azərbaycanlıların Soyqırımı Gününün təsis edildiyini, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" 2018-ci il 18 yanvar tarixli Sərəncamını xatırladıb.

Gövhər xanım Azərbaycan xalqına qarşı ötən əsrin əvvəllərində həyata keçirilən soyqırım ilə bağlı yeni faktların üzə çıxarılması istiqamətində Şərqşünaslıq İnstitutunda əhəmiyyətli işlər görüldüyünü bildirərək, İnstitut əməkdaşlarının bu sahədə apardıqları tədqiqatların, hazırladıqları və ya tərcümə etdikləri kitabların Arazın hər iki tayında ermənilərin azərbaycanlılara qarşı törətdikləri kütləvi qırğınların, qarətlərin, deportasiya aktlarının əsl mahiyyətinin dünya ictimaiyyətinə çatdırılmasında mühüm rolunu vurğulayıb.

1918-ci ilin martında Azərbaycanın müxtəlif bölgələrində ermənilər tərəfindən törədilən soyqırımı hadisələri ilə bağlı çoxsaylı kitabların müəllifi, AMEA Şərqşünaslıq İnstitutunun baş elmi işçisi, tarix üzrə elmlər doktoru, professor Solmaz Rüstəmova-Tohidi məruzəsində həmin dövrdə Bakıda, Qubada, Şamaxıda, Qarabağ-Zəngəzurda, Göyçayda, Cavadda, Ərəşdə törədilən soyqırımlar barədə ətraflı məlumat verib.

İnstitutun Cənubi Azərbaycan şöbəsinin böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Həsən Səfəri "1918-ci ildə Güney Azərbaycanın qərb



bölgəsində ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırım" mövzusunda məruzə edib. H.Səfəri bildirib ki, 1918-ci il soyqırımının məqsədi türk əhali ilə müqayisədə əhalinin çox az hissəsini təşkil edən ermənilərə dövləti yaratmaq üçün Şimali Azərbaycan və Şərqi Anadoluda olduğu kimi, Cənubi Azərbaycanın qərb bölgəsində də əhalinin əksəriyyətini soyqırıma məruz qoyub, demoqrafik dəyişikliklə buna nail olmaq olub. Ümumilikdə İran dövlətinin yaratdığı komissiyasının hesabatına görə bu soyqırımı nəticəsində Cənubi Azərbaycanın qərb bölgəsində 1918-ci ildə 200 minə qədər günahsız azərbaycanlı qətlə yetirilib.

Sonda məruzələr ətrafında müzakirələr aparılıb.

# "Orta əsr mənbələrində və müasir dövr tədqiqatlarında Qarabağ və Şuşa" mövzusunda elmi seminar



2023-cü il aprelin 12-də AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda "Orta əsr mənbələrində və müasir dövr tədqiqatlarında Qarabağ və Şuşa" mövzusunda elmi seminar keçirilib.

Seminarı giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti v.i.e., Şərqşünaslıq İnstitutunun baş direktoru, akademik Gövhər Baxşəliyeva Şuşa şəhərinin Azərbaycanın döyünən ürəyi, tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olduğunu deyərək, Heydər Əliyevin hələ ötən əsrin 70-ci illərində Şuşaya zəngin tarixi abidə kimi qayğısından danışıb, Ulu Öndərin təşəbbüsü və rəhbərliyi ilə Şuşa şəhərinin inkişaf etdirilməsi məqsədilə 1970-ci illərin ikinci yarısında bir neçə xüsusi qərar qəbul edildiyini, şəhərin keçmişdə tikilmiş binalarının, tarixi abidələrin bərpa edildiyini vurğulayıb.

Şuşa şəhərinin 28 il erməni işğalında qaldığını, 2020-ci ilin 8 noyabrında Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan ordusu tərəfindən azad edildiyini deyən akademik, bundan sonra şəhərdə infrastrukturun qurulmasına, tarix və mədəniyyət abidələrinin bərpasına, Şuşanın əsl tarixi simasının bərpası yönündə nəhəng layihələrin həyata keçirməsinə başlanıldığını və bu sahədə böyük işlər görüldüyünü qeyd edib.

Ötən il "Şuşa İli" çərçivəsində Şərqşünaslıq İnstitutunda görülən işlərdən danışan Gövhər xanım, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər haqqında 6 dekabr 2022-ci il tarixli Sərəncamını da xatırladaraq, bununla əlaqədar Şərqşünaslıq İnstitutunda da bir sıra işlərin həyata keçirildiyini diqqətə çatdırıb.

Daha sonra seminarın məruzələrinə başlanılıb. Şərqşünaslıq İnstitutunun Türk filologiyası



ş

öbəsinin baş elmi işçisi, filologiya üzrə elmlər doktoru, professor Elman Quliyev "Çağdaş türk poeziyasında Şuşanamələr: milli-tarixi yaddaş və müasirlik kontekstində" adlı məruzə edib. E.Quliyev bildirib ki, Şuşa bir gözəlliklər diyarı, bir türk yurdu, bir mədəni-elmi mərkəz, şairlər, alimlər, rəssamlar, qəhrəmanlar, siyasi xadimlər vətəni olaraq Azərbaycan və türk dünyasında sevilmiş, nəinki Azərbaycan, eyni zamanda ümumtürk ədəbiyyatımızın baş mövzusuna çevrilmiş, milli-tarixi yurd yeri Qarabağın – Şuşa şəhərinin lirik və bədii-fəlsəfi obrazı canlandırılmışdır. Məhəmməd Mehdi Bayat, Orxan Afacan, Kənan Çarboğa, Osman Akçay, Dursun Kepçeoğlu, Ümit Güngör və digər şairlərin şeirlərində Azərbaycanın qeyrət simvolu olan, Qarabağın incisi hesab edilən Şuşanın ümumi olaraq milli kontekstdə obrazlaşdırıldığını deyən məruzəçi, buradakı məzmunun ana xəttində əsasən son 30 ilin olaylarının dayandığını qeyd edib. Məruzədə sadalanan şairlərin Şuşa, Qarabağ haqqında yazdıqları şeirlərdən ətraflı bəhs edilib.

Şərqşünaslıq İnstitutunun Din və ictimai fikir şöbəsinin müdiri, institutun Gənc Alim və Mütəxəssislər Şurasının sədri, fəlsəfə üzrə fəlsəfə doktoru Elnur Mustafayev seminarda "Şuşa şəhərinə aid epiqrafik abidələrdə şəxs adları və toponimlər" mövzusunda məruzə edib. Məruzə "Azərbaycan musiqisinin beşiyi", "Zaqafqaziyanın konservatoriyası", "Qafqazın sənət məbədi" adlandırılan Qarabağın mədəniyyət mərkəzi Şuşa şəhərində inşa edilmiş tarixi abidələrə aid inşaat kitabələri və yazılardakı adların, toponimlərin tədqiqi ilə bağlı mövzuları əhatə edirdi. Epiqrafik abidələrin tədqiqinin elmi əhəmiyyətindən danışan məruzəçi, Məşədi Şükür Mirsiyab oğlunun karvansarasında və Yuxarı Gövhər Ağa məscidinin fasad görünüşündə, eləcə də giriş qapısının ətraflarında olan kitabələrdə yazılanlar, burada adları keçən toponimlər barədə ətraflı bəhs edib.

Daha sonra aparılan müzakirələrdə institut əməkdaşlarından filologiya üzrə fəlsəfə doktorları Aybəniz Həsənova, Laura Orucova və başqaları çıxış edərək, səslənən məruzələri çox yüksək dəyərləndiriblər.

# Şərqşünaslıq İnstitutunda Müstəqillik Gününə həsr edilmiş elmi sessiya keçirilib



2023-cü il mayın 30-da AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda 28 May Müstəqillik Gününə həsr olunmuş "Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti" mövzusunda elmi sessiya keçirilib.

Tədbiri giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti vəzifəsini icra edən, Şərqşünaslıq İnstitutunun baş direktoru akademik Gövhər Baxşəliyeva 105 il öncə - 1918-ci il mayın 28-də yaradılan Şərqin ilk demokratik respublikasının - Azərbaycan Xalq Cümhuriyyətinin tarixi əhəmiyyətindən, gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 aylıq fəaliyyəti dövründə qazandığı uğurlardan danışıb.

Akademik G.Baxşəliyeva Azərbaycanda həmin dövr üçün mütərəqqi hesab olunan dövlət institutlarının, çoxpartiyalı sistemin təsis edildiyini, parlament seçkisinin keçirildiyini, təhsilin milliləşdirildiyini, Milli Ordunun yaradıldığını, Azərbaycan dilinin dövlət dili elan edildiyini vurğulayıb. 1991-ci ildə dövlət müstəqilliyimizin bərpasından sonra ilk illərdə respublikamızın çətin dövr yaşadığını qeyd edən akademik G.Baxşəliyeva Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra böyük siyasi təcrübəyə malik rəhbərin xalqı vətəndaş müharibəsindən, ölkəni böyük təhlükələrdən qurtararaq respublikanın inkişafının əsasını qoyduğunu, bu gün də Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin məqsədyönlü xarici siyasəti nəticə-

sində Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun artdığını, ölkəmizin söz sahibi olan qüdrətli dövlətə çevrildiyini qeyd edib.

Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent Sübhan Talıblı "Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti" mövzusunda məruzə edib. AXC dövründə beynəlxalq şəraitdəki mürəkkəblik və ziddiyyətliyin hökumətdən çox çevik xarici siyasət həyata keçirməyi tələb etdiyini deyən S.Talıblı bildirib ki, onun xarici siyasətinin başlıca istiqamətlərini Azərbaycanın müstəqilliyini qorumaq və inkişaf etdirmək təşkil edirdi. Xarici İşlər Nazirliyinin, diplomatik nümayəndəliklərin yaradılmasından bəhs edən məruzəçi AXC xarici siyasət idarəsinə müxtəlif vaxtlarda dovrünün ziyalıları, dünya siyasətinin sirlərinə bələd olan, çevik diplomatik bacarığa malik Fətəli Xan Xoyski, Məmməd Həsən Hacınski, Məmməd Yusif Cəfərov, Adil xan Ziyadxanlının başçılıq etdiyini qeyd edərək, Azərbaycan diplomatiyasının hazırlanmasında və həyata keçirilməsində Ə.M.Topçubaşov, M.Ə.Rəsulzadə, Ə.Ağayev, N.Yusifbəyli, Ə.Şeyxülislamov, Ceyhun Hacıbəyli, Ə.Haqverdiyev, Y.V.Çəmənzəminli və digərlərinin yaxından iştirak etdiyini nəzərə çatdırıb. S.Talıblı bildirib ki, milliyyətindən və dini etiqadından asılı olmayaraq qonşu dövlətlərlə mehriban münasibətlər Azərbaycan diplomatiyasının aparıcı istiqaməti olub, onun çıxış nöqtəsini təşkil edirdi. Məruzəçi böyük dünya siyasəti baxımından Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətini üç dövrə - Türkiyə oriyentasiyası, Qərb oriyentasiyası və geniş və hərtərəfli dünya əməkdaşlığına daxil olmaq uğrunda mübarizə dövrlərinə bölərək, bu dövrlərdə xarici siyasət istiqamətində görülən işlərdən ətraflı bəhs edib.

Elmi sessiyada çıxış edən Şərqşünaslıq İnstitutunun icraçı direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Ruhəngiz Cümşüdlü, Din və ictimai fikir şöbəsinin müdiri, institutun Gənc Alim və Mütəxəssislər Şurasının sədri, fəlsəfə üzrə fəlsəfə doktoru Elnur Mustafayev və Ərəb ölkələri tarixi və iqtisadiyyatı şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Fərda Əsədov cəmi 23 ay fəaliyyət göstərən Azərbaycan Xalq Cümhuriyyətinin böyük işlər gördüyünü, xalqımızın qədim dövlətçilik ənənələrini yaşadaraq müasir dövrə xas dövlət təsisatlarının yaradılmasına nail olduqlarını bildirərək, müsəlman Şərqində ilk demokratik respublikanın məhz Azərbaycanda yaradılmasının böyük qürur verdiyini qeyd ediblər.